# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ƏLLİ YEDDİNCİ KİTAB

## MAY 2013 - İYUL 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində də müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilib inkişaf etdirilməsinə, respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, xalqımızın rifahının yaxşılaşdırılması üçün aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır.

Kitabda dövlət başçısının İsveç Krallığına işgüzar səfəri zamanı, həmçinin ölkəmizə gələn xarici dövlət və hökumət rəhbərləri, siyasi xadimlər, nümayəndə heyətləri ilə görüşləri, dərin məzmunlu söhbətləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları geniş yer tutmuşdur.

Bu görüşlərdə və danışıqlarda dünyanın aparıcı dövlətləri ilə ikitərəfli münasibətlərin vəziyyəti və perspektivləri müzakirə olunmuş, Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinin həllində, münaqişənin nizamlanmasında Azərbaycan Prezidentinin prinsipial mövqeyi öz əksini tapmışdır. Ölkə başçısı bütün görüş və danışıqlarında diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırır.

**ISBN 978-9952-8100-7-3**

**Я $\frac{0801000000}{\text{М} - 651(07) - 2018}$** **ББК - 32**

© Azərnəşr, 2018

# AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ JAN-KLOD MİNYONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Avropa Şurası Parlament Assambleyasının prezidenti Jan-Klod Minyonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrimizin genişlənməsi işində rolunu qeyd etdi.*

*Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının prezidenti Jan-Klod Minyonun ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini bildirdi.*

*Avropa Şurası Parlament Assambleyasının prezidenti Jan-Klod Minyon Azərbaycana ikinci dəfə səfər etməsindən məmnunluq hissi keçirdiyini vurğulayaraq ölkəmizdə sürətli inkişaf proseslərinin şahidi olduğunu söylədi, Azərbaycanın iqtisadi və digər sahələrdə qazandığı uğurların önəmini diqqətə çatdırdı. Qonaq səfərinin əsas məqsədlərindən birinin Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə qarşıdan gələn sədrliyinə hazırlıq prosesi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsinin aparılmasından ibarət olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığa dair məsələlər müzakirə olundu.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olmuşdur. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir.*

*1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən – «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirmiş, onu heç vaxt ölməyə qoymamışdır.*

*XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoymuşdur.*

*Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi – 28 Mayı Respublika Günü kimi qeyd edir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*27 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etdi və nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

95 il əvvəl müsəlman aləmində ilk dəfə olaraq Azərbaycanda Demokratik Respublika yaranmışdı. Bu, böyük və tarixi hadisə idi. Çünki Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə, azadlığa qovuşurdu. Azərbaycan xalqının artıq öz dövləti var idi. Respublikanın yaranması eyni zamanda, müsəlman aləmində respublika quruluşunun yayılmasına da təkan vermişdir.

Qısa müddət ərzində bütün dövlət qurumları, dövlət təsisatları yaradılmışdır. Demokratik inkişaf gedirdi, qadınlara səsvermə hüququ verilmişdi, Milli Ordu yaradılmışdı. Bir sözlə, respublikanın qurucuları böyük işlər görmüşdülər və Azərbaycan xalqı onların xatirəsinə böyük hörmətlə yanaşır. «İstiqlal Bəyannaməsi»ni imzalayanların şərəfinə Bakının mərkəzində abidə ucaldılmışdır.

Ancaq müəyyən səbəblər üzündən 2 ildən sonra respublika süqut etmişdir və Azərbaycan müstəqillikdən məhrum olmuşdur. Ondan sonra sovet dövrü başlamışdır. Biz 71 il Sovet İttifaqının tərkibində

yaşamışıq. Biz azad, müstəqil deyildik. Buna baxmayaraq, Azərbaycanda inkişaf prosesi gedirdi. Hesab edirəm ki, o illər ərzində müsbət məqamlar da kifayət qədər çox idi. İlk növbədə, savadsızlığa qarşı mübarizə gözəl nəticələr vermişdir. Yoxsulluq aradan qaldırılmışdı, işsizlik, demək olar ki, yox idi. Azərbaycanda sənayeləşmə prosesi gedirdi, xüsusilə XX əsrin 70-ci illərində bu proses daha geniş vüsət almışdı.

Ancaq biz azad, müstəqil deyildik. Biz başqa dövlətin tərkibində yaşayırdıq. Əlbəttə, həm müstəqillikdən məhrum idik, eyni zamanda, Sovet İttifaqında mövcud olan siyasi və iqtisadi sistem sürətli inkişaf üçün məqbul deyildi. Sovet İttifaqının süqutu bunun əyani sübutudur.

XX əsrin 70-ci illərində Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə böyük quruculuq işləri başlamışdı. İttifaqda müttəfiq respublikalar arasında Azərbaycan seçilirdi, fərqlənirdi. Burada sürətli inkişaf gedirdi. Biz bu sürətli inkişafı 1993-cü ildən sonra da görəcəyik. Ancaq əfsuslar olsun ki, keçən əsrin 80-ci illərinin sonlarında, erməni separatizminin baş qaldırması dövründə respublikaya rəhbərlik etmiş insanlar öz vəzifə borcunu yerinə yetirə bilmirdilər. Azərbaycan tənəzzülə uğrayırdı və Sovet İttifaqı dağılanda burada vəziyyət çox ağır idi. Siyasi xaos, hərcmərclik, anarxiya, iqtisadi tənəzzül, sənaye, demək olar ki, iflic vəziyyətində idi. İqtisadiyyatımızın əsas sektoru olan neft sektoru da tənəzzülə uğrayırdı, hasilat getdikcə aşağı düşürdü. Bir sözlə, 1991-ci ildə müstəqillik bərpa olunanda Azərbaycan postsovet məkanında ən ağır vəziyyətdə olan ölkə idi. Bir tərəfdən, Ermənistanın və separatçıların ərazi iddiası, digər tərəfdən, daxildə xoşagəlməz vəziyyət, hakimiyyət uğrunda çəkişmələr, xüsusilə 1992–1993-cü illərdə AXC–Müsavat cütlüyünün yarıtmaz, səriştəsiz fəaliyyəti nəticəsində Azərbaycanın dövlət müstəqilliyi əslində əldən gedirdi, tarix təkrarlanırdı. Azərbaycan Xalq Cümhuriyyəti 2 il yaşadı və 1991–1993-cü illərdə – 2 il ərzində, demək olar ki, Azərbaycan böyük fəlakətlərlə üz-üzə idi.

Ancaq onu da qeyd etməliyəm ki, müstəqilliyə gedən yolda ulu öndər Heydər Əliyevin çox böyük zəhməti olmuşdur. Hələ

Naxçıvanda ikən Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi təsis edildi. Naxçıvan Muxtar Respublikasının adından «Sovet Sosialist» sözləri çıxarıldı. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilməmişdi. Yəni bu addımlar əslində müstəqilliyə yönəldilmiş addımlar idi.

Təsadüfi deyil ki, 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi olan bir dövrdə Azərbaycan xalqı yenə milli liderə müraciət etdi, onu dəvət etdi. Onun Azərbaycan siyasi hakimiyyətinə gəlişindən sonra vəziyyət köklü şəkildə dəyişdi və Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Bu yaxınlarda ulu öndərin 90 illiyində mən o dövrlə bağlı fikirlərimi bildirmişəm. Sadəcə, demək istəyirəm ki, 1993–2003-cü illər ölkəmiz üçün həlledici illər olmuşdur. Məhz o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmişdir. O illərdə Azərbaycan dünya birliyinə qovuşmuşdur, özünü tanıtdıra bilmişdir. Çox ciddi islahatlar aparılmışdır. Bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmişdir. Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması məhz o illərə təsadüf edir. Müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Siyasi sistem möhkəmləndirilmişdir və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır.

1993–2003-cü illər sabitlik və inkişaf illəri kimi tarixdə qalır. Bu illər ərzində görülmüş işlər bu gün ölkəmizin uğurlu inkişafına xidmət edir. O illərdə başlanmış layihələr bu gün uğurla davam etdirilir. Əlbəttə, Azərbaycanın bugünkü reallıqlarını təsəvvür etmək üçün o illərə qayıtmalıyıq. Xoşbəxtlikdən Heydər Əliyev amili ölkəmiz üçün həlledici anlarda özünü göstərdi. Bu gün bu siyasət dəyişməz olaraq qalır. Bu gün Azərbaycan uğurla, inamla inkişaf edir. Ölkə qarşısında duran bütün əsas vəzifələr müvəffəqiyyətlə icra edilir. Azərbaycan bu gün dünya miqyasında etibarlı tərəfdaş və dost ölkə kimi tanınır.

Son 10 ildə Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilmişdir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət

edərək bəyan etmişdim ki, əgər mənə etimad göstərilərsə, mən bu siyasətə sadiq qalacağam və bu siyasəti davam etdirəcəyəm.

Çox şadam ki, son 10 ildə Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamışdır. Bu 10 ildə problemlərin böyük hissəsi öz həllini tapmışdır. İstənilən istiqamət üzrə konkret proqramlar icra edilir. Onların bir çoxu artıq başa çatmışdır. Azərbaycanda proseslər müsbət istiqamətdə gedir. Daxili vəziyyət çox sabitdir. Xarici əlaqələrimiz genişlənir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır. Azərbaycan ilə dostluq etmək istəyən ölkələrin sayı artır. Biz də ikitərəfli münasibətlərə eyni mövqedən yanaşırıq: nə qədər çox dostlarımız olsa, mövqemiz də dünyada o qədər möhkəm olacaqdır.

Xarici siyasətlə bağlı bütün vəzifələr icra edilmişdir. İkitərəfli formatda çox gözəl əlaqələr yaradılmışdır. Bölgədə Azərbaycanın rolu olduqca möhkəmləndirilmişdir. Hazırda bölgədə gedən bütün proseslərdə Azərbaycanın fəal rolu, öz mövqeyi vardır. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. Azərbaycanın iştirakı olmadan heç bir layihə, heç bir təşəbbüs uğurla nəticələnə bilməz.

Əlbəttə, xarici siyasətin zirvəsi, hesab edirəm ki, BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olmuşdur. Bu, tarixi hadisə idi. Beynəlxalq birliyin mütləq əksəriyyəti Azərbaycana inandı, bizi dəstəklədi, bizə böyük etimad göstərdi. Artıq 2 ilə yaxındır ki, Təhlükəsizlik Şurasında Azərbaycan, bəyan etdiyim kimi, beynəlxalq hüququ və ədaləti müdafiə edir. Bu illər ərzində biz böyük təcrübə toplamışıq. Bu, əvəzolunmaz təcrübədir, gələcək fəaliyyətimiz üçün bizə çox lazım olan təcrübədir. Dünya birliyinə ölkəmizi geniş şəkildə təqdim etmişik. Təhlükəsizlik Şurasının üzvü olmaq o deməkdir ki, hər bir məsələ ilə bağlı sənin dəqiq və çox aydın mövqeyin olmalıdır. Azərbaycan bu mövqeyi göstərir və göstərəcəkdir.

Daxildə gedən proseslər, hesab edirəm ki, son 10 il ərzində ölkəmizi yüksək dərəcədə möhkəmləndirə bilmişdir. Daxili sabitlik, ictimai-siyasi asayiş, xalqla iqtidar arasında olan birlik – bütün bu amillər hər bir ölkənin uğurlu inkişafı üçün vacibdir. Əgər sabitlik

qorunmasaydı, əgər sabitlik pozulsaydı, Azərbaycana bu qədər xarici sərmayə qoyulmazdı. Bu gün Azərbaycan bölgədə və dünyada bu imkanlara malik ola bilməzdi.

Sabitliyin təməlində düşünülmüş siyasət dayanır. Sabitliyin mövcudluğu bu səbəblərlə şərtlənir. Əgər düşünülmüş siyasət yoxdursa və xalqla iqtidar arasında uçurum varsa, əgər icra edilən proqramlar xalqın arzularını əks etdirmirsə, sabitlik mütləq pozulacaqdır. Biz bölgədə gedən proseslərə diqqətlə baxırıq, izləyirik və görürük ki, qarşıdurmalar, kütləvi etiraz aksiyaları və digər xoşagəlməz hallar, vətəndaş müharibələri, qanlı toqquşmalar bu gün reallıqdır. Dünyanın müxtəlif yerlərində proseslər, onların isə əksəriyyəti mənfi istiqamətdə gedir. İnkişaf etmiş ölkələr indi daha çox iqtisadi və maliyyə böhranının fəsadlarının aradan qaldırılmasına çalışır. O qədər də inkişaf etməmiş ölkələrdəki vəziyyət, vətəndaş müharibələri, vətəndaş itaətsizliyi, qarşıdurmalar, siyasi və iqtisadi böhran, yoxsulluq və işsizlik artıq göz qabağındadır. Bax, budur inkişaf etməmiş ölkələrin bugünkü reallıqları.

Son illər ərzində Azərbaycan istər siyasi, istər iqtisadi sahədə doğrudan da böyük uğurlara imza atmışdır. Bu uğurlar bugünkü Azərbaycan reallıqlarıdır. İqtisadi sahədə uğurlar mötəbər beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. Azərbaycanın kredit reytinqləri artmaqdadır. Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən rəqabətqabiliyyətli 50 iqtisadiyyat arasındadır. Orada bizim yerimiz 46-cı yerdir. Ölkədə sürətlə sosial proqramlar icra edilir.

Mən xarici siyasətlə bağlı fikirlərimi bildirdim. Burada da tərəfdaşlarımızın sayı artır. Biz həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüyük və bu da bizim xüsusiyyətimizdir. Biz «Qoşulmama Hərəkatı»nın fəal üzvüyük və bu təşkilat çərçivəsində artıq öz mövqemizi ortaya qoymuşuq.

Digər məsələlərə gəldikdə, böyük işlər görülmüşdür. Ancaq hələ görüləsi işlər çoxdur. Bizim əsas diqqətimiz gələcəyə yönəlibdir. Gələcəkdə daha hansı işlər görülməlidir ki, Azər-

baycanda inkişaf uzunmüddətli və dayanıqlı olsun və iqtisadiyyat çoxşaxəli olsun?!

İndi bizim əsas məqsədimiz gələcək prioritetləri müəyyən etmək və gələcək inkişaf strategiyamızı icra etməkdən ibarətdir. Deyə bilərəm ki, son 20 ildə bu istiqamətdə əldə edilmiş təcrübə çox gözəl şərait yaradır. Azərbaycanda transformasiya dövrü çox uğurlu keçmişdir. Hesab edirəm ki, bu gün çətin vəziyyətdə olan ölkələr üçün Azərbaycanın təcrübəsi çox maraqlı olmalıdır. Çünki müstəqilliyə qovuşduqda siyasi sistem də dəyişdirilməli idi. Müstəqilliyə qovuşan ölkələrin böyük əksəriyyəti sadəcə, azad olur, müstəqil olur. Orada siyasi sistem dəyişmir. Əgər misal üçün, XX əsrin 70-ci illərində müstəqilliyə qovuşan ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, orada siyasi sistem dəyişmir, iqtisadi münasibətlər dəyişmir. Bizdə isə həm siyasi, həm iqtisadi sistem dəyişmişdir. Biz dövlət qurmalı idik.

Hesab edirəm ki, bu keçid dövrünü biz uğurla başa vurmuşuq. Mən artıq qeyd etmişəm ki, keçid dövrü Azərbaycanda çoxdan başa çatmışdır və bu transformasiya bu gün ağır vəziyyətdə olan ölkələr üçün, yenə də deyirəm, çox maraqlı və cəlbedici ola bilər.

Gələcək planlara gəldikdə, biz xarici siyasətimizi bundan sonra da müəyyən edilmiş xətlə aparacağıq. Xarici siyasətimizin əsas istiqamətləri müəyyən edilibdir. Biz bütün ölkələrlə ikitərəfli formatda qarşılıqlı surətdə faydalı və bərabərhüquqlu münasibətlərin inkişafında maraqlıyıq. Bu münasibətlər artıq oturuşmuş münasibətlərdir. Azərbaycan dünya birliyi tərəfindən bərabərhüquqlu tərəfdaş kimi tanınır. Hesab edirəm ki, növbəti illərdə biz xarici siyasətdə daha da fəal olacağıq və indi xarici siyasətlə bağlı yeni istiqamətlər müəyyən edilir.

Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən vacib məsələdir. Bu həm xarici, həm də daxili siyasət məsələsidir. Bu, ədalət, beynəlxalq hüquq məsələsidir. Əfsuslar olsun ki, bu istiqamətdə irəliləyiş yoxdur və bunun əsas səbəbi ondan ibarətdir ki, Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının bəyanatlarına əməl etmir, status-kvonu mümkün qədər çox

saxlamaq, dəyişməz olaraq saxlamaq istəyir. Danışıqlarda özünü səmimi aparmır, yalan bəyanatlarla, riyakar davranışla fərqlənir. Beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir və məsələ ilə bağlı olan vasitəçi qurumların tələblərinə əməl etmir.

Budur reallıq. Azərbaycanın çoxsaylı səyləri cavabsız qalır. Bildiyiniz kimi, Azərbaycan 2009-cu ilin sonunda Minsk qrupu tərəfindən irəli sürülmüş yenilənmiş Madrid prinsiplərinə öz razılığını vermişdir. Hesab etmişdir ki, bu prinsiplər böyük sülh müqaviləsi üçün əsas ola bilər. Təklif etmişdir ki, yubanmadan, vaxt itirmədən böyük sülh müqaviləsi üzərində iş aparılsın. Ermənistan o təklifləri rədd etmişdir və sonrakı dövr ərzində bütün imkanlarını səfərbər etmişdir ki, danışıqlarda, bax, bu durğunluq vəziyyəti yaransın və möhkəmlənsin.

Biz bununla barışa bilmərik, danışıqların aparılmasında maraqlıyıq. Ancaq danışıqlar mahiyyət üzrə aparılmalıdır. Azərbaycan məsələnin həllində ən maraqlı tərəfdir. Ermənistan sadəcə, çalışır ki, vaxtı uzatsın. Əgər Ermənistanın maraqlarını onların siyasətçiləri nəzərə alsalar görərlər ki, vaxt uzatmaq onları daha da ağır vəziyyətə gətirib salacaqdır. Ancaq buna baxmayaraq, bu, taktiki gedişlərdir. Ermənistan vaxt uzatmaq taktikasını seçibdir, danışıqlar naminə danışıqlar aparmaq fikrindədir.

O ki qaldı vasitəçilərə, əfsuslar olsun ki, vasitəçilərin əsas fəaliyyət istiqaməti atəşkəsi saxlamaqdan ibarətdir. Biz də atəşkəsi saxlamaq istəyirik, eyni zamanda, ərazi bütövlüyümüzün bərpasını istəyirik, bunu tələb edirik. Beynəlxalq hüquq bunu tələb edir. BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların qərar və qətnamələri bunu tələb edir. Ona görə Azərbaycanın maraqları burada müəyyən dərəcədə fərqlənir. Biz də istəyirik ki, sülh olsun. Biz də istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun, amma həll edilsin! Ermənistan məsələnin həllini istəmir. Status-kvonu, yenə də deyirəm, nə qədər çox saxlaya bilsə, o qədər də saxlamaq istəyir. Vasitəçilər də əfsuslar ki, son zamanlar etimad tədbirlərinin gücləndirilməsi, təmas xəttində vəziyyətin sa-

bitləşdirilməsi və bilavasitə danışıqların mahiyyətinə aid olmayan digər məsələlərlə daha çox məşğul olurlar.

Bu vəziyyət dözülməzdir, qəbuledilməzdir, dəyişdirilməlidir. Əgər danışıqlar aparılacaqsa, mahiyyət üzrə aparılmalıdır. Mahiyyət isə ondan ibarətdir ki, beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa edilməli, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxmalı və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir.

O ki qaldı Dağlıq Qarabağda yaşayan və münaqişə həll olunandan sonra oraya qayıdacaq vətəndaşların gələcəyinə, dünyada müsbət təcrübə, muxtariyyətlər, o cümlədən Avropa qitəsində müsbət təcrübələr vardır. Bax, bu təcrübədən kənara çıxmadan özünüidarəetmə prinsipi həllini tapa bilər.

Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Həmişə belə olubdur. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Ərazi bütövlüyü məsələlərində Azərbaycan tərəfindən zərrə qədər güzəşt olmayacaqdır və ola da bilməz.

Hesab edirəm ki, biz bu istiqamətdə gələcək fəaliyyətimizlə bağlı indi daha da ciddi addımlar atmalıyıq. Burada əslində seçim o qədər də böyük deyildir. Ya hərb yolu, ya sülh yolu! Biz hər iki varianta hazırıq. Hərb yolunu heç vaxt istisna etməmişik. Beynəlxalq hüquq, BMT-nin Nizamnaməsi özünümüdafiə imkanlarını bizə tanıdır və beynəlxalq birlik tərəfindən Azərbaycan ərazisi kimi tanınan ərazilərdə Azərbaycan istənilən vaxt istənilən əməliyyatı apara bilər.

Sadəcə olaraq, biz hələlik çalışırıq ki, bu məsələ sülh yolu ilə həll olunsun. Hesab edirəm ki, bu istiqamətdə imkanlar hələ tam tükənməyib. Məsələni sülh yolu ilə tezliklə və ədalətli şəkildə həll etmək üçün biz öz səylərimizi daha da gücləndirməliyik. Xarici, daxili siyasətlə, iqtisadi sahə ilə bağlı biz daha da güclü olmalıyıq və oluruq.

Biz Ermənistanı bundan sonra da bütün beynəlxalq layihələrdən təcrid olunmuş vəziyyətdə saxlamalıyıq. Bu taktika və bu siyasət öz bəhrəsini verir. Ermənistanın öz rəsmi statistikasına görə, hər il o ölkəni 80–100 min adam tərk edir, həmişəlik tərk

edir. O ölkədə depopulyasiya meyilləri güclənir, demoqrafik böhran yaşanır. Bu böhran getdikcə dərinləşəcəkdir. Çünki əmək qabiliyyətli nə qədər çox insan oradan çıxırsa, iqtisadiyyatın dirçəlməsi imkanları da o qədər azalır. İqtisadiyyatın dirçəlməsinə gəldikdə isə, ümumiyyətlə, belə perspektivlər yoxdur. Orada tamamilə staqnasiya dövrü yaşanır.

Biz öz səylərimizi, öz ölkəmizi gücləndirməliyik. Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və saxlamalıyıq. Bütün imkanlardan istifadə edib daha da böyük potensial əldə etməliyik. Bu potensial həm də hərbi potensialdır. Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Dəfələrlə bunu göstərmişik, hərbi paradlarda nümayiş etdirilibdir, yenə də nümayiş etdiriləcəkdir.

Bizim xarici siyasətimiz öz bəhrəsini verir. Son 10 ildə ikitərəfli formatda görüşdüyüm dövlət başçılarının mütləq əksəriyyəti ilə imzalanmış yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü prinsipləri əks olunubdur.

İqtisadi sahədə islahatlarımızı gücləndirməliyik. Beləliklə, hesab edirəm ki, danışıqlar masasında bizim mövqemiz daha da güclü olacaqdır. Əgər bir qədər qabağa baxsaq – mən keçən dəfə də bu barədə danışmışam, bu gün də demək istəyirəm – demoqrafik vəziyyət də öz müsbət rolunu oynayacaq və artıq oynayır. Bu gün Azərbaycanın əhalisi 9 milyon 500 minə yaxınlaşır. Ermənistanda isə 2 milyondan az əhali yaşayır. Əgər bizim əhalimiz bu templərlə artsa, Ermənistan əhalisi azalsa, təqribən 5–7 ildən sonra bizim əhalimiz 10 dəfə çox olacaqdır. Bu da özlüyündə bir güc mənbəyidir. Azərbaycanın uğurlu iqtisadi siyasətini, enerji siyasətini nəzərə alsaq, hesab edirəm ki, biz istədiyimizə nail olacağıq.

Yəni Dağlıq Qarabağ məsələsi birinci məsələdir, ən əsas məsələdir. Azərbaycan hakimiyyəti və Azərbaycan cəmiyyəti bütün imkanları səfərbər edib ki, bu məsələ tezliklə öz həllini tapsın. Digər vəzifələrə gəldikdə, artıq hesab edirəm ki, bizim proqramlarımız özlüyündə bu vəzifələrin müəyyən edilməsində kifayət qədər dolğun məlumat verir. Daxili siyasətlə bağlı demokratik proses inkişaf

edəcəkdir. Azərbaycanda bütün azadlıqlar qorunur. Söz azadlığı, mətbuat azadlığı tam şəkildə təmin edilir. Azərbaycanda sərbəst internet fəaliyyət göstərir. Sərbəst toplaşmaq azadlığı tam şəkildə təmin edilir.

Azərbaycanda demokratiyanın inkişafı ilə bağlı bundan sonra da islahatlar aparılacaqdır. Biz bu islahatlara hazırıq. Əslində bu islahatların təşəbbüskarı da bizik.

Azərbaycanda təhlükəsizlik tədbirləri bundan sonra da təmin edilməlidir. Bizim böyük xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayırlar. Korrupsiyaya qarşı mübarizədə çox böyük uğurlar əldə edilibdir. Həm inzibati tədbirlər, həm də sistem xarakterli islahatlar aparılır və öz bəhrəsini verir. Hesab edirəm ki, gələcək illərdə biz bu böyük bəlanın aradan qaldırılmasında daha da böyük uğurlar əldə edəcəyik.

Bir sözlə, daxili siyasətin əsas istiqamətləri çoxdan müəyyən edilib. Sadəcə olaraq, biz bu məsələləri daha da məqsədyönlü şəkildə həll etməliyik.

İqtisadi sahədə qeyri-neft sektorunun inkişafı bundan sonra da prioritet olaraq qalacaqdır. Çox şadam ki, bu ilin 4 ayında qeyri-neft sektorumuz 11 faiz artmışdır. Bu o deməkdir ki, şaxələndirmə siyasətimiz öz bəhrəsini verir. Bu gün ölkəmiz üçün ənənəvi olmayan sahələr inkişaf edir – informasiya-kommunikasiya texnologiyaları, digər sahələr. Neft amilindən asılılıq azalır. Ümumi daxili məhsulumuzda neft seqmenti artıq azlıq təşkil edir. Bu da çox müsbət göstəricidir. Ümumi daxili məhsulun əsas hissəsi qeyri-neft sektorunda formalaşır. Gələcək illərdə bu proses davam etdiriləcəkdir. Nəzərə alsaq ki, gələn ilin əvvəlində 3-cü Regional İnkişaf Proqramı qəbul olunacaqdır, hesab edirəm ki, bütün vəzifələr icra edilməlidir.

Kənd təsərrüfatı ilə bağlı ərzaq təhlükəsizliyi məsələləri ön plandadır. Bu barədə kifayət qədər çox qərarlar qəbul edilmişdir. Biz özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz səviyyəsində təmin etməliyik. Mən bu hədəfi bir neçə il bundan əvvəl qarşıya qoymuşam və biz bu hədəfə doğru uğurla irəliləyirik. Azərbaycanda

çox güclü ixrac potensialı yaradılmalıdır. Ölkəmizdə sənayeləşmə prosesi sürətlə gedir, texnoparklar yaradılır, yeni sənaye müəssisələri fəaliyyət göstərir. Bu da iqtisadiyyatın neft amilindən asılılığının azaldılmasına xidmət göstərir. Biz növbəti illərdə ümumi daxili məhsulu məhz qeyri-neft sektoru hesabına artırmalıyıq.

Biz son 10 ildə dünyada ən yüksək sürətlə inkişaf edən ölkə olmuşuq. Hesab edirəm ki, biz bundan sonrakı 10 il ərzində qeyri-neft sektorunun ən sürətli inkişafını təmin etməliyik. O ki qaldı neft sektoruna, hesab edirəm ki, biz indi gündəlik fəaliyyətimizdə əsas diqqəti bu sahəyə yönəltmirik. Bu da çox müsbət hadisədir. Çünki bu sahədə artıq hər şey plan üzrə gedir.

Bütün layihələrimiz uğurla icra edilibdir – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər layihələr. Keçən il TANAP layihəsinin imzalanması böyük tarixi hadisədir. Qürur hissi ilə deyə bilərəm ki, TANAP layihəsinin təşəbbüskarı da Azərbaycandır. Ən böyük maliyyə və texniki yük də Azərbaycanın üzərinə düşür. Biz bu məsuliyyətə hazırıq. Biz görürdük ki, «Cənub Qaz Dəhlizi» ilə bağlı danışıqlar davam edir və danışıqlardan başqa, necə deyərlər, heç bir real addımlar atılmır. Ona görə bu təşəbbüsü də biz öz üzərimizə götürmüşük. TANAP layihəsi qısa müddət ərzində geniş beynəlxalq dəstək qazana bilmişdir. Əminəm ki, Azərbaycan bu layihəni də bütün başqa layihələr kimi şərəflə yerinə yetirəcəkdir.

İndiki dövrdə Azərbaycan tərəfindən irəli sürülən və sürüləcək təşəbbüslər diqqəti cəlb edir. Bizim qərarlarımız gözlənilir. Bizim qərarlarımız həlledici rol oynayacaqdır. Azərbaycanda veriləcək qərarlar qitənin enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə olacaqdır. Biz tərəfdaşlarla bərabər, qitənin yeni enerji xəritəsini müəyyən edirik. Bu, böyük məsuliyyətdir, böyük şərəfdir, böyük nailiyyətdir. Çünki bunu biz öz təşəbbüslərimizlə etmişik. Bu gün də bölgənin enerji şaxələndirilməsi ilə bağlı təşəbbüslər böyük dərəcədə Azərbaycanın təşəbbüsləri ilə uzlaşır. Bizim bu istiqamətdə siyasətimiz birmənalıdır. Mən bunu dəfələrlə bəyan etmişəm. Biz enerji amilindən əməkdaşlığı dərinləşdirmək üçün istifadə edirik. Bu amildən heç vaxt qarşıdurma, əsassız rəqabət yaratmaq üçün yox,

əməkdaşlıq yaratmaq, möhkəmləndirmək və milli maraqlarımızı təmin etmək üçün istifadə edirik. Bu siyasət bu günə qədər həyatda öz düzgünlüyünü sübut edir. Əminəm ki, Azərbaycan bundan sonra da regional və dünya miqyaslı enerji tərəfdaşı kimi, öz sözünü deyəcək və bu gün bizim planlaşdırdığımız layihələr uğurla nəticələnəcəkdir.

Bir sözlə, hər bir istiqamət üzrə konkret proqramlarımız vardır. Bugünkü çıxışda mən sadəcə olaraq, əsas istiqamətlər haqqında fikirlərimi bildirdim. Ancaq hər bir sahə üzrə konkret proqramlar var və bu proqramlar icra edilir. Ən əsası ondan ibarətdir ki, Azərbaycan təxminən 22 ildir artıq müstəqil dövlət kimi yaşayır. Yenə də demək istəyirəm ki, müstəqilliyimizin ilk illəri ağır olmuşdur, çətin olmuşdur. 1991–93-cü illərin əvvəlləri ən ağır illər olmuşdur. Bu illər müstəqil Azərbaycan üçün ləkə, biabırçılıq idi. Azərbaycan xalqı daha da gözəl şəraitə layiqdir və bu şəraiti bizim iqtidar, ulu öndər Heydər Əliyevin siyasəti təmin etmişdir.

20 ildir ki, bu siyasət davam etdirilir. Azərbaycanın xoşbəxt gələcəyi üçün bu siyasət davam etdirilməlidir.

Müstəqillik ən böyük xoşbəxtlikdir, ən böyük sərvətdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

* * *

*Sonda Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər.*

**TÜRKİYƏ RESPUBLİKASININ
9-cu PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Hörmətli Süleyman Dəmirəl!

Həyat yoldaşınız, ömür-gün yoldaşınız Nəzmiyə xanımın vəfatı xəbəri bizi son dərəcə kədərləndirdi.

Sizinlə birlikdə çiyin-çiyinə böyük həyat yolu keçmiş Nəzmiyə xanım həmişə yanınızda olmuş, ölkənizin çiçəklənməsi və xalqınızın rifahı naminə çətin və məsuliyyətli fəaliyyətinizdə Sizə mənəvi dəstək vermişdir. O həm də Azərbaycanın yaxın dostu və sevimlisi idi.

Bu ağır anlarda mən və Mehriban xanım Sizə dərin hüznlə başsağlığı verir və səbir diləyirik.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 may 2013-cü il*

## AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN YARANMASININ 21-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR TƏŞKİL EDİLMİŞ «GƏLƏCƏYƏ BAXIŞ» AZƏRBAYCAN–ABŞ FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*29 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq əlaqələrinin yaradılmasının 21-ci ildönümü ilə əlaqədar Heydər Əliyev Mərkəzində təşkil edilmiş «Gələcəyə baxış» Azərbaycan–ABŞ Forumunun rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Heydər Əliyev Mərkəzinə gələn prezident İlham Əliyev əvvəlcə ABŞ-dan olan qonaqlarla görüşdü.*

*Dövlətimizin başçısı Alman Marşal Fondunun Transatlantik Akademiyasının aparıcı mütəxəssisi, ABŞ Senatının xarici əlaqələr komitəsinin sədri Riçard Luqar, ABŞ-ın federal konqresmenləri Maykl Törner, Ted Po, 1998–2001-ci illərdə Birləşmiş Ştatların Energetika naziri, Nyu-Meksika ştatının sabiq qubernatoru, ABŞ-ın BMT-dəki sabiq səfiri və Nümayəndələr Palatasının sabiq üzvü Bill Riçardson və digər konqresmenlər Qreqori Miks, Leonard Lans, Cim Brayndştayn, Ruben Hinoyosa, Stiv Stokmən, Mişel Qrişəm, Pol Uolfovitz və Birləşmiş Ştatların Azərbaycandakı səfiri Riçard Morninqstar ilə söhbət etdi.*

*Tədbiri Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov açdı:*

– Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar, senatorlar, qubernatorlar, xanımlar və cənablar!

Mənim üçün çox böyük şərəfdir ki, bu gün sizi burada salamlayıram. Azərbaycana səfər etdiyinizə və tədbirə qatıldığınıza görə sizə dərin təşəkkürümü bildirirəm.

Bu çox gözəl bir ənənə olmuşdur ki, həm Azərbaycanda, həm də ABŞ-da biz bir araya gəlirik və çox mühüm məsələləri müzakirə edirik. Regional təhlükəsizlik, ölkənin inkişafı, iqtisadi məsələlər və digər mövzuları müzakirə edirik.

Cənab Prezidenti bu tədbirdə görmək bizim üçün xüsusi şərəfdir. Onun forumun təşkilində şəxsi iştirakı və töhfəsi bu tədbirin gözəl keçməsinə imkan vermişdir. Eyni zamanda, gözəl və parlaq Azərbaycanın inkişafı işinə xidmət etmişdir.

İcazənizlə, sözü Azərbaycan Respublikasının Prezidenti Zatialilərinə təqdim etmək istəyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əziz Forum iştirakçıları!

İlk olaraq, sizi ölkəmizdə salamlayıram və bu tədbirə qatıldığınıza görə sizə dərin təşəkkürümü bildirirəm.

Burada bir çox dostlarımızı görürəm. Uzun illərdir Azərbaycan–ABŞ münasibətlərinin möhkəmlənməsində bir arada çalışırıq. Bundan əlavə, qonaqlarımız arasında nüfuzlu siyasətçilər vardır ki, Azərbaycana ilk dəfə səfər edirlər. Əminəm ki, Azərbaycana səfəriniz çox uğurlu olacaq, bu tədbir çərçivəsində biz ikitərəfli münasibətlərimizə dair bir sıra məsələləri müzakirə etmək imkanı əldə edəcəyik.

Əminəm ki, bu Forum əlavə bir töhfə olacaqdır ki, ölkələrimiz arasında strateji əməkdaşlıq müzakirə edilsin. Gündəlik çox genişdir, müxtəlif sahələri əhatə edir. Əminəm ki, səmimi və açıq müzakirələr qarşılıqlı anlaşmaya xidmət edəcəkdir və əməkdaşlıq

üçün yeni sahələri müəyyənləşdirəcəkdir, strateji əməkdaşlıq sahəsində müəyyən yeni mövzular aşkar olunacaqdır.

Azərbaycan–ABŞ münasibətlərinin böyük tarixi vardır. Ola bilər o qədər də uzun olmasın, amma çox mühüm münasibətlər vardır. Müstəqilliyimizin ilk günlərindən biz xüsusi əməkdaşlıq qurmuşuq. O da nəticədə strateji tərəfdaşlığa çevrilmişdir. Siyasi təmaslarımız və dialoq çox yüksək səviyyədədir, çox fəaldır. Müxtəlif sahələrdə – iqtisadiyyat, ticarət, sərmayələr – Amerika şirkətləri Azərbaycanda başlıca investorlardandır. Bu şirkətlər Azərbaycan iqtisadiyyatının planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidini təmin etmişdir. Biz enerji təhlükəsizliyi məsələsində yaxından əməkdaşlıq edirik, iqtisadi şaxələndirmə, siyasi islahatlar, regional əhəmiyyətli məsələləri də müzakirə edirik. Regional təhlükəsizlik və əməkdaşlıq mühüm məsələlərdir.

Təhlükəsizlik hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Çox şadam ki, biz artıq bu sahədə yeni mərhələyə qədəm qoyuruq. Biz qlobal təhlükəsizlik məsələlərində bir arada çalışırıq. Bizim hərbçilərimiz dünyanın müxtəlif yerlərində sülhməramlı əməliyyatlarda iştirak edirlər, Əfqanıstanda bir arada xidmət edirlər. Azərbaycan Əfqanıstana yönəlmiş yüklərin 40 faizinin nəqlini təmin edir və bizim marşrut ən sabit marşrut hesab oluna bilər.

Bizim NATO ilə əməkdaşlığımız da ikitərəfli münasibətlərimiz aspektindən qiymətləndirilməlidir və çox şadam ki, gündən-günə bu münasibətlər güclənir. Azərbaycan bu regionda etibarlı tərəfdaşdır. Biz bunu sadəcə, bəyanatlarda deyil, real əməllərimizlə sübut edirik. Bu bizim əməkdaşlığımız üçün müstəsna əhəmiyyət kəsb edir.

Regional təhlükəsizlik məsələləri hər zaman diqqət mərkəzində olacaqdır. Terrorizmlə mübarizə məsələsi mühüm bir mövzudur və Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü qismində bu məsələyə xüsusi əhəmiyyət verir. Beynəlxalq terrorçuluqla mübarizə bu sahədə səylərin birləşdirilməsi istiqamətində öz töhfəsini verir və burada vətəndaşlarımızın sülh şəraitində yaşamasına xidmət edir.

ABŞ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında da fəal rol oynayır. ABŞ Minsk qrupunun həmsədr ölkələri sırasındadır. Təəssüflər olsun ki, hələ də bu sahədə heç bir nəticə əldə edilməmişdir. Torpaqlarımız hələ də işğal altındadır. Lakin biz ümid edirik ki, beynəlxalq ictimaiyyətin, xüsusilə də Minsk qrupunun fəaliyyəti nəticəsində münaqişə nizamlanacaq, qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına geri dönəcəklər.

Biz ABŞ-ın ən yüksək rəhbərliyi səviyyəsində status-kvonun qəbuledilməzliyi ilə bağlı bəyanatı alqışlayırıq. Bu, tam olaraq bizim mövqemizlə üst-üstə düşür və bugünkü günün tələbidir. Çünki Dağlıq Qarabağ münaqişəsi təkcə böyük zorakılığın və beynəlxalq hüququn tapdalanmasının təzahürü deyil, bu eyni zamanda, regional təhlükəsizliyə və sabitliyə ən böyük təhdiddir. Bu region təhlükəsiz və firavan olmalıdır və inteqrasiya olunmalıdır.

Bu münaqişə və Azərbaycan torpaqlarının davamlı olaraq işğalı burada çox mənfi rol oynayır. Sizə söyləmək istərdim ki, hətta Sovet İttifaqının süqutundan əvvəl – XX əsrin 80-ci illərində erməni separatçıları Ermənistanın dəstəyi ilə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər. Sovetlər birliyi dağılandan sonra Azərbaycan çox çətin bir vəziyyətlə üzləşdi. İqtisadiyyatımız iflic vəziyyətində idi və burada separatçılığın artması da çox mənfi bir mənzərə yaradırdı. Azərbaycan ərazilərinin 20 faizinin işğalı, 1 milyondan artıq azərbaycanlının doğma torpaqlarından didərgin salınması, etnik təmizləmə və bütün bu acınacaqlı şərtlər çox çətin bir vəziyyət yaratmışdır. Burada təkcə Dağlıq Qarabağın işğalından söhbət getmir, burada Azərbaycanın əzəli, tarixi 7 rayonunun işğalından söhbət gedir. Burada bütün infrastruktur məhv edilmişdir. Bu, müxtəlif beynəlxalq təşkilatların qiymətləndirmə missiyalarının hesabatlarında da öz əksini tapmışdır ki, bütün infrastruktur, bütün tarixi abidələr erməni silahlı qüvvələri tərəfindən məhv edilmişdir.

Azərbaycan xalqı soyqırımın qurbanı olmuşdur. Bildiyiniz kimi, 1992-ci ildə Xocalıda günahsız qadınlar və uşaqlar xüsusi

zorakılıqla qətlə yetirilmişdir. Bir sıra ölkələr artıq bu faciəni soyqırımı kimi qəbul etmişdir. Bir sıra ABŞ ştatları da bunu soyqırımı kimi qəbul etmişdir.

Bu münaqişədə ilk olaraq, beynəlxalq hüquq və prinsiplər bərpa edilməlidir. Çünki BMT Təhlükəsizlik Şurası bununla bağlı 4 qətnamə qəbul etmişdir ki, orada qoşunların dərhal və şərtsiz çıxarılması qeyd olunur. Zənnimcə, münaqişənin həlli regional təhlükəsizliyi və firavanlığı təmin edə bilər, münaqişənin nizamlanması nəticəsində Cənubi Qafqaz artıq beynəlxalq birliyə daha yaxşı inteqrasiya ola bilər. Azərbaycanın təcrübəsi göstərir ki, proqnozlaşdırılmış və gələcəyə hesablanmış siyasət mövcuddursa, siz uğurlu ola bilərsiniz.

Bizim münasibətlərin digər bir mühüm sahəsi enerji təhlükəsizliyidir. Bu sahədə biz ABŞ ilə 1994-cü ildən etibarən çox sıx əməkdaşlıq edirik. O zamanlar bizim müxtəlif layihələrdə ABŞ çox fəal iştirak etmişdir. Bildiyiniz kimi, Xəzər dənizi ehtiyatlarının beynəlxalq bazarlara çıxarılmasında Azərbaycan ilk, mən deyərdim, pioner bir ölkə olmuşdur və 1993–2003-cü illər ərzində bütün proseslərdə ABŞ yaxından iştirak etmişdir. Çünki ABŞ administrasiyası və ABŞ-ın müvafiq güclü dəstəyi olmasaydı, biz uğur qazana bilməzdik. Biz çox güclü dəstəyin şahidi olduq və ABŞ–Azərbaycan tərəfdaşlığı da bu mühüm strateji layihələrin icrasını təmin etmişdir.

Biz sərmayələri cəlb edə bilmişik. Burada sərmayələr üçün münbit şərait yaratmışıq. Onların qanuni cəhətdən qorunmasını təmin etmişik. Azərbaycanda çox münbit biznes atmosferi yaradılıb. Bu da bizim iqtisadiyyatın şaxələndirilməsinə xidmət etmişdir. Enerji gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. ABŞ administrasiyasının dəstəyi ilə Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilmişdir və istifadəyə verilmişdir.

Bu neft kəmərinin tikintisi təkcə Azərbaycan üçün öz resurslarını beynəlxalq bazarlara çıxarmaq imkanı olmamışdır. Bu, yeni bir dəhliz, yeni bir istiqamət, yeni bir marşrut olmuşdur. O zaman bu layihəni həyata keçirəndə biz onun bütün müsbət cəhətlərini görə bilməzdik. Amma bu gün biz onun şahidiyik ki, bu layihə bizim

qitənin enerji xəritəsini dəyişmişdir. Biz bütün hasilatımızı ixrac etmək imkanı əldə etmişik və bu kəmər təkcə Azərbaycan deyil, bizim müxtəlif tərəfdaşlarımız tərəfindən istifadə olunur. Həmin bu dəhliz regional təhlükəsizliyin gücləndirilməsinə xidmət etmiş və biznes mühitinin yaxşılaşdırılmasında da müstəsna rol oynamışdır.

Bu gün biz artıq bir sıra mühüm enerji layihələrini icra etmişik. Bu, müxtəlif istiqamətlərdə neftin nəqlinə xidmət edən layihələrdir. Biz avropalı tərəfdaşlarımızla «Cənub Qaz Dəhlizi» layihəsi üzərində çalışırıq. Azərbaycan bu layihənin təşəbbüskarı olmuşdur. Avropa İttifaqı Azərbaycanı qitənin ən mühüm neft və qaz təminatçısı kimi qəbul etmişdir və bu layihədə Azərbaycanın böyük rolu vardır. Biz Avropa İttifaqı ilə müvafiq memorandum imzalamışıq. Bu gün «Cənub Qaz Dəhlizi»nin inşası ilə bağlı bir sıra konkret real tədbirlər görülmüşdür. Bu layihə Azərbaycanın nəhəng qaz ehtiyatlarının Avropa bazarlarına nəqlinə xidmət edəcəkdir. Eyni zamanda, bu, iqtisadi əməkdaşlığı gücləndirəcək və Avropanın enerji təhlükəsizliyinə xidmət edəcəkdir. Azərbaycanın ixrac potensialı da nəticə etibarilə çox əhəmiyyətli dərəcədə artmış olacaqdır.

Bu arada biz istehlakçı və ixracatçı ölkələr ilə yaxından əməkdaşlıq edirik. Bildiyiniz kimi, bu qaz ABŞ-a yönəlməyib, amma buna baxmayaraq, ABŞ bu strateji əhəmiyyətli layihəni dəstəkləyir. Çünki bu, iqtisadi şaxələndirməyə, enerji şaxələndirməsinə xidmət edən layihədir. Enerji sahəsində regional əməkdaşlığa xidmət edən layihədir. Azərbaycan və Avropa arasında əlaqələri yaxınlaşdıran bir layihədir. Bu bizim şaxələndirmə imkanlarımızı artırmış olacaqdır. Çünki burada marşrutların şaxələndirilməsindən söhbət getmir, burada mənbələrin şaxələndirilməsindən söhbət gedir. Azərbaycan yeni bir mənbədir. Biz Xəzər dənizində nəhəng qaz ehtiyatları aşkar etmişik və hazırda Azərbaycan tərəfindən bütün zəruri maliyyə və texniki tədbirlər həyata keçirilir ki, «Cənub Qaz Dəhlizi» layihəsi reallaşa bilsin.

Əminəm ki, Azərbaycan–ABŞ münasibətləri bu gün də keçən əsrin 90-cı illərinin ortalarında olduğu kimi, eyni dərəcədə əhəmiyyətlidir. Bunu söylədikdə biz daha çox iqtisadiyyatımızın

şaxələndirilməsinə səylər göstəririk, iqtisadiyyatın enerji sahəsindən asılılığını azaldırıq, ölkənin və iqtisadiyyatın davamlı inkişafını təmin etməyə çalışırıq. Çünki neft və qaz tükənən bir sərvətdir. Azərbaycana gəldikdə, bizim sərvətlər hələ 100 il bizə kifayət edəcəkdir. Buna baxmayaraq, biz bu «qara qızıl»ı insan kapitalına çevirməyə çalışırıq.

Biz artıq bu işlərə başlamışıq – aparıcı mütərəqqi texnologiyalara sərmayə qoyuruq, qeyri-neft sektoruna sərmayələr yatırırıq. Bu ilin ilk 4 ayında bizim qeyri-neft sektorunun artımı 11 faiz təşkil etmişdir. Bu onun göstəricisidir ki, biz ümumilikdə öz məqsədlərimizə nail oluruq və artıq iqtisadiyyatımızı şaxələndirməyə müvəffəq olmuşuq.

Təbii ki, bu sahədə müasir texnologiyaların tətbiqi və təhsil böyük əhəmiyyətə malikdir. Keçən əsrin 90-cı illərinin ortalarında da bizə müasir mütərəqqi texnologiyalar lazım idi. Çünki sovet dövründə bizim 150 metrdən dərindəki ehtiyatlara əlimiz çatmırdı. İnformasiya-kommunikasiya texnologiyaları və innovasiyalar bu gün bizim iqtisadiyyatımızın şaxələndirilməsində çox mühüm rol oynamışdır. Burada da ölkələrimiz arasında əməkdaşlıq müstəsna əhəmiyyət kəsb edir.

Əməkdaşlığımızın bariz nümunəsi bu il fevral ayında Azərbaycanın ilk peykinin fəzaya çıxarılması idi. Bu peykin adı «Azərspace-1»dir. Bu elə onun işarəsidir ki, bundan sonra əlavə peyklər də qurulacaqdır. Biz Azərbaycanda kosmos sənayesini inkişaf etdirmək əzmindəyik. Bu əməkdaşlıq qarşılıqlı faydalı bir əməkdaşlıqdır. Bu bizə müasir texnologiyalara, təhsilə, insan kapitalına sərmayələrin qoyulmasına imkan verir. Eyni zamanda, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verir.

Əminəm ki, bu Forum bizim əlaqələrimizin təkcə siyasi və təhlükəsizlik aspektinə nəzər salmayacaq, həm də iqtisadi əməkdaşlığa önəm verəcək. Bizim daha çox iqtisadi fəaliyyətimiz olmalıdır. Biz çox şadıq ki, çoxsaylı Amerika şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Amma əminəm ki, burada potensial daha böyükdür. Azərbaycanın imkanları genişlənir. İqtisadi islahatların aparılması baxımından Azərbaycan çox gözəl

göstəricilərə malikdir. Beynəlxalq maliyyə institutları da bunu təsdiq edir. Bu səbəbdən biz əminik ki, Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir. Biz iqtisadiyyatın elə sahələrinə sərmayələr yatıracağıq ki, onların daha mütərəqqi olmasına ehtiyac vardır. Burada biz Amerika şirkətlərinə müraciət edəcəyik ki, onlar bu yeni əməkdaşlıq sahələrini araşdırsınlar.

Hərdən müəyyən mütəxəssislər Azərbaycanın inkişafını enerji ilə əlaqələndirirlər. Əlbəttə, sirr deyildir ki, enerji Azərbaycanın transformasiyasında böyük rol oynamışdır. Amma bunu təhlil etsək görərik ki, bu, tam olaraq belə deyildir. Biz öz neft gəlirlərimizi müdrik şəkildə istifadə etməyi bacarmışıq. Biz müxtəlif sahələrə bu gəlirləri yönəltmişik. İnfrastruktur layihələri həyata keçirmişik. Mən deyərdim, radikal iqtisadi islahatlar həyata keçirmişik. Bu bizim strategiyamızın tərkib hissəsidir. Çünki siyasi və sosial islahatlar iqtisadi islahatlarla bərabər aparılmalıdır. Çünki hər hansı bir sahə bir balaca geridə qalsa, biz uzunmüddətli inkişafı və uğuru təmin edə bilmərik.

Bizim siyasi islahatlara da ehtiyacımız var. Biz bunu edirik, demokratik təsisatlarımızı inkişaf etdiririk. Azərbaycanda bütün azadlıqlar təmin edilir. Biz fərəhlənirik ki, Azərbaycan tam sərbəst media və internet məkanıdır. Hər ölkədə azad internet mövcud deyildir. Azərbaycanda internet istifadəçilərinin sayı 70 faizə çatır və bu rəqəm artmaqdadır. Bu səbəbdən siyasi reformalar, demokratik proses hər zaman bizim gündəliyimizdədir. Bu islahatlar iqtisadiyyatla tamamlanmalıdır. Uğurlu iqtisadi və sosial islahatlarla tamamlanmalıdır.

Biz öz tarixi irsimizi nəzərə alırıq. Biz keçən əsrin 90-cı illərinin ortalarında artıq konkret qərar verdik ki, dünyəvi, müasir, demokratik ölkə qurmaq istəyirik. Dost və tərəfdaş ölkələrlə, Avropa, Avroatlantik təsisatları ilə yaxın əməkdaşlıq qurmaq əzmində olan bir ölkəyik. NATO və Avropa İttifaqı ilə əməkdaşlıq bizim beynəlxalq münasibətlər gündəliyinin başlıca məsələləridir. Bizim xarici siyasətdə mövqemiz açıqdır və aşkardır. Biz BMT Təhlükəsizlik Şurasında da öz mövqemizi açıq və şəffaf şəkildə ifadə edirik. 2011-ci ilin oktyabrında biz öz müstəqilliyimizin 20

illiyini qeyd etdik və o zaman BMT üzvlərinin böyük əksəriyyətinin dəstəyi ilə Təhlükəsizlik Şurasına – dünyanın ən nüfuzlu təşkilatına üzv seçildik.

Bizim müsəlman, islam aləmində böyük nüfuzumuz vardır. Çoxsaylı tərəfdaşlarımız vardır. Biz eyni zamanda, Avropa Şurasının da üzvüyük. Biz bir növ təbii siyasi, iqtisadi və mədəni bir körpü rolunu oynayan ölkəyik.

Sabah bizim mədəniyyətlərarası dialoq tədbirimiz olacaqdır. Biz mehriban qonşuluq, sülh şəraitində yaşamanın və tolerantlığın bir nümunəsi olan dövlətik. Ona görə də iqtisadi və siyasi islahatlar ölkənin transformasiyasına xidmət etmişdir. Sizə deyə bilərəm ki, bizim islahatlarımız beynəlxalq maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir. Maliyyə böhranı illərində «Fitch», «Moodys» və «S&P» şirkətləri Azərbaycanın kredit reytinqini qaldırmışdır.

Davos Forumunun məruzələrinə əsasən, Azərbaycan dünyanın rəqabətə davamlı ilk 50 iqtisadiyyatı siyahısına daxildir. Bu təkcə neftlə bağlı deyildir. Azərbaycandan dəfələrlə çox neft ixrac edən ölkələr vardır. Amma onlar bizim uğuru əldə edə bilməyiblər. Bu bir göstəricidir – Azərbaycanda şaxələndirmə, biznes üçün imkanlar, güclü sosial siyasət, elm və təhsilə qoyulan sərmayələr. Sizi əmin etmək istərdim ki, bizim gözəl inkişafımız olmuşdur. Biz ümumi daxili məhsulu 3 dəfə artırmışıq, yoxsulluğu 50 faizdən 6 faizə endirmişik. Bu isə təbii ki, bizim imkanlarımızın zəruri qaydada tətbiq edilməsinin və istifadəsinin göstəricisidir.

Gəlirlərin əldə edilməsi və bu prosesdə olan şəffaflıq bizim inkişafın təməlində dayanmışdır. Bizim Neft Fondumuz dünyanın ən şəffaf neft fondudur. Biz işsizliyi 5,2 faizə endirmişik. Gəlməkdə olan mühüm sərmayələri nəzərə alsaq, bu rəqəm bir az da aşağı düşəcəkdir. Bizim iqtisadiyyatımız sabitdir. Bizim strateji valyuta ehtiyatımız ümumi daxili məhsulun 70 faizini təşkil edir. Ona görə də siyasi və iqtisadi sabitlikdir, bizim iqtisadiyyatımızın 83 faizi özəl sektor tərəfindən təmin edilir. Əməkdaşlıq üçün də açıq olmağımız, bütün bu şərtlər iqtisadiyyatımızın inkişafına

xidmət edəcəkdir. Tam səmimi demək istərdim ki, mənim əvvəlki fəaliyyətimdə və hazırda prezidentlik dönəmimdə də əməkdaşlığımız üçün çox böyük işlər görülüb. Bu əməkdaşlıq çox mühüm əhəmiyyət kəsb etmişdir.

ABŞ hər zaman Azərbaycanın yanında olmuşdur. İslahatların həyata keçirilməsi, regional təhlükəsizliyin gücləndirilməsi məsələlərində də bizim yaxın tərəfdaşımız olmuşdur. Bu Forum zənnimcə, onun ən bariz nümunəsidir. Əminəm ki, bu Forum çərçivəsində çox səmimi və maraqlı fikir mübadiləsi həyata keçiriləcəkdir. Bu bizim əməkdaşlığımızın və tərəfdaşlığımızın gələcək uğurları naminə davam edəcəkdir. Sizə təşəkkür edirəm.

* * *

*Sonra Azərbaycanın inkişafına, ölkəmizdə enerji siyasətinin uğurlarına həsr olunan videoçarx nümayiş etdirildi.*

*Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq əlaqələrinin yaradılmasının 21-ci ildönümünə həsr edilmiş Azərbaycan–ABŞ Forumu işini sessiyalarla davam etdirdi.*

## BİR QRUP ABŞ KONQRESMENİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ İŞÇİ LANÇINDA İŞTİRAK

*29 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından mayın 29-da bir qrup ABŞ konqresmeninin şərəfinə işçi lançı verilmişdir.*

*Qonaqları bir daha salamlayan dövlətimizin başçısı ölkələrimiz arasında dostluq münasibətlərinin uğurla davam edəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq əlaqələrinin böyük tarixi ənənələrə malik olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında daha sıx əməkdaşlığın qurulmasına qarşılıqlı marağın olduğunu qeyd etdi. Azərbaycan–ABŞ tərəfdaşlığının artıq sınaq dövründən çıxdığını deyən dövlətimizin başçısı ölkələrimizin həqiqi və etibarlı dostlar olduğunu vurğuladı. Prezident İlham Əliyev müxtəlif sahələrdə, o cümlədən qanunverici və icraedici orqanlar arasında əlaqələrin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə təkan verəcəyinə ümidvar olduğunu bildirdi.*

*ABŞ senatoru Riçard Luqar yüksək qonaqpərvərliyə və «Gələcəyə baxış» Azərbaycan–ABŞ Forumunda əhatəli çıxışına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. «Gələcəyə baxış» Azərbaycan–ABŞ Forumunun əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından yeni bir təcrübə olduğunu vurğulayan qonaq ABŞ–Azərbaycan dostluğunun daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

## ABŞ SENATORU RİÇARD LUQAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ senatoru Riçard Luqarı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, Bakıda keçirilən «Gələcəyə baxış» Azərbaycan–ABŞ Forumunun yüksək səviyyədə təşkil olunduğu qeyd edildi, Forumun ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulandı.*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveçin Milli Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası və İsveç Krallığı arasındakı dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf edərək xalqlarımızın və ölkələrimizin maraqlarına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveç xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2013-cü il*

## ABŞ SENATININ KƏŞFİYYAT ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SƏDR MÜAVİNİ, SENATOR SAKSBİ ÇAMBLİSSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ABŞ Senatının Kəşfiyyat üzrə Xüsusi Komitəsinin sədr müavini, senator Saksbi Çamblissin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bakıda «Gələcəyə baxış» Azərbaycan–ABŞ Forumunun yüksək səviyyədə keçirildiyini vurğulayan prezident İlham Əliyev ABŞ-dan 300-dən artıq nümayəndənin iştirak etdiyi tədbirdə tərəfdaşlığımıza dair aparılan məhsuldar müzakirələrin önəmini qeyd etdi.*

*ABŞ senatoru Saksbi Çambliss istər ulu öndər Heydər Əliyevin, istərsə də prezident İlham Əliyevin rəhbərlik etdiyi dövrlərdə ölkəmizdə böyük inkişafın şahidi olduqlarını dedi. O, ölkələrimiz arasında bir çox sahələrdə yaxşı tərəfdaşlıq əlaqələrinin inkişafına görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə – enerji, terrorizmə qarşı mübarizə, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.*

## II ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*30 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Bakıda, Heydər Əliyev Mərkəzində «Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama» devizi altında keçirilən II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Forumda iştirak edən yüksək səviyyəli qonaqlarla görüşdü.*

*Prezident İlham Əliyev Forumun açılışında nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycanda keçirilməsi çox əlamətdar hadisədir. Şadam ki, bu Forum ikinci dəfə Bakıda keçirilir. Yadımdadır, 2 il əvvəl I Forum keçirilərkən mən belə bir fikir irəli sürmüşdüm ki, yaxşı olar bu Forum ənənəvi olsun. Çox şadam ki, bizim dostlarımız da bu təşəbbüsü dəstəkləmiş və bu gün bizimlə bərabər II Forumda iştirak edirlər.

Əslində bu Forumun keçirilməsi «Bakı prosesi»nin təzahürüdür. «Bakı prosesi» 2008-ci ildə başlamışdır. Hesab edirəm ki, müasir tarixdə bu çox önəmli bir hadisə idi. Geniş prosesin başlanması Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin 2008-ci ildə Bakıda keçirilmiş toplantısında İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin

iştirakı ilə yadımızda qalıb. Ondan sonra – 2009-cu ildə artıq İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısında Avropa Şurasından həmkarlar qoşulmuşlar. Bakı əslində coğrafi körpü rolunu oynamaqla bərabər, mədəniyyətlərarası körpü rolunu da müvəffəqiyyətlə icra edir.

2010-cu ildə də çox önəmli hadisə baş vermişdir. Dünya dinləri liderlərinin Bakıda zirvə görüşü və 2011-ci ildə I Forum keçirilmişdi. Artıq «Bakı prosesi» inkişaf edir və əminəm ki, bu Forumda aparılan diskussiyalar, fikir mübadiləsi, məruzələr bizim ümumi işimizə töhfə verəcəkdir. Çünki biz hamımız istəyirik ki, dünyada dinlərarası, mədəniyyətlərarası münasibətlər sağlam zəmində həllini tapsın, əməkdaşlıq meyilləri güclənsin, xoşagəlməz halların qarşısı alınsın, ümumiyyətlə, dünyada sivilizasiyalararası dialoqun inkişafında müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, biz hələ istədiyimizə tam şəkildə nail ola bilmirik. Çünki dünyanın müxtəlif yerlərində dini, milli zəmində qarşıdurmalar, vətəndaş müharibələri baş verir, anlaşılmazlıq meyilləri artır. Hesab edirəm ki, belə vacib məsələlərin bu formatda müzakirə edilməsi ümumi işimizə, əməkdaşlıq işimizə bir töhfə olacaqdır.

Hesab edirəm ki, bu Forumun Azərbaycanda keçirilməsi təsadüfi deyildir. Çünki Azərbaycan əsrlər boyu burada yaşayan bütün millətlərin, bütün dinlərin nümayəndələri üçün Vətən olmuşdur. Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin nümayəndələri, bütün millətlər bir ailə kimi sülh, mehribanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır.

Qeyd etməliyəm ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dini tolerantlıq, dözümlülük məkanı olub. Çox şadam ki, müstəqillik dövründə bu müsbət meyilləri biz nəinki qoruyub saxlaya bilmişik, hesab edirəm ki, onları daha da gücləndirmişik və artıq fəaliyyətimizi təkcə ölkənin hüdudları ilə

məhdudlaşdırmırıq. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər bu gün dünyada da əks-səda yaradır. Hesab edirəm ki, bizim bütün regional təşəbbüslərimiz – siyasi, iqtisadi, digər sahələrlə bağlı təşəbbüslərimiz də regional əməkdaşlıq üçün yaxşı şərait yaradır və xalqlararası, millətlərarası dialoqun aparılması bu müsbət meyilləri daha da gücləndirir. Ölkələrin siyasi maraqları ola bilər və vardır. Təbii ki, iqtisadi maraqlar da vardır. Bir çox hallarda ölkələri birləşdirən bu maraqlardır. Ancaq hesab edirəm ki, əməkdaşlığın müsbət meyillərini gücləndirmək üçün mütləq xalqlararası əlaqələr də sağlam zəmində qurulmalıdır.

Hesab edirəm ki, Forumun gündəliyi çox genişdir, burada müzakirə ediləcək məsələlər böyük əhəmiyyət kəsb edir və gələcəyə müştərək baxışlarımızla bağlı fikirlər də səslənəcəkdir. Bu çox vacib məsələdir – müştərək gələcək. Bu dünyada hər bir xalq üçün, hər bir millət üçün yer vardır. Təki sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma olsun. Əməkdaşlığın üstünlüyünü biz Azərbaycanın uğurlu inkişafında görürük. Bizim regional təşəbbüslərimizlə bağlı olan bütün addımlarımız əməkdaşlığa yönəldilibdir. Biz əməkdaşlıq, qarşılıqlı dəstək vasitəsilə öz iqtisadi və siyasi maraqlarımızı da tam şəkildə təmin edirik. Regional əməkdaşlıq məsələlərinə gəldikdə hesab edirəm ki, bizim müsbət təcrübəmiz maraqlı ola bilər. Azərbaycan nəinki çoxmillətli və çoxkonfessiyalı ölkədir, həm də nadir ölkələrdəndir ki, həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüdür və hər iki təşkilatda çox fəal iş aparır, hər iki təşkilatda çox möhkəm mövqelərə malikdir. Bizim bu xüsusiyyətlərimiz hesab edirəm ki, mədəniyyətlərarası dialoqun inkişafına da töhfəsini verməkdədir.

Azərbaycan müsəlman aləminin bir parçasıdır. Əlbəttə ki, Azərbaycanda milli və dini ənənələr çox güclüdür. Müstəqil Azərbaycan dövləti güclü milli-mənəvi dəyərlər üzərində qurulubdur. Azərbaycanda müxtəlif dövrlərdə, xüsusilə XIX əsrdən başlayaraq Avropa təsiri də kifayət qədər güclü olmuşdur. 2 gün əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyini qeyd edirdik. Azərbaycan Demokratik Respublikası müsəlman aləmində

ilk respublika idi və əslində nəinki Azərbaycan xalqının müstəqilliyini şərtləndirdi, eyni zamanda, bölgədə də, müsəlman aləmində də respublika quruluşunun inkişafına, yayılmasına təkan vermişdir.

Azərbaycan müsəlman aləminin bir parçası olaraq İslam Əməkdaşlıq Təşkilatında da çox fəal iş aparır. Böyük qürur hissi ilə deyə bilərəm ki, Bakı şəhəri 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Bizim digər qədim şəhərimiz Naxçıvan isə 2018-ci il üçün bu şərəfli ada layiq görülmüşdür. Bununla bərabər, keçən il Bakıda Avropanın və bəlkə də dünyanın ən mötəbər musiqi yarışı – «Eurovision» keçirilmişdir. 2015-ci ildə I Avropa oyunları Azərbaycanda keçiriləcəkdir. Yəni bu məsələlər özlüyündə göstərir ki, Azərbaycanda mədəniyyətlərarası dialoqun aparılması üçün nəinki çox gözəl zəmin və əsas vardır, eyni zamanda, biz öz təşəbbüslərimizlə, öz xarici siyasətimizlə və sivilizasiyalararası dialoqa verdiyimiz töhfələrlə bu əməkdaşlığı daha da genişləndiririk.

Bu doğrudan da çox vacib məsələdir, çünki dünyada biz hamımız bunun şahidiyik, həm müsbət, həm də mənfi meyillər vardır. Son vaxtlar, xüsusilə multikulturalizmlə bağlı müxtəlif fikirlər səslənir. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıb, bəzi ölkələrdə hətta siyasətçilər bu barədə açıq bəyanatlar verirlər. İctimai rəydə görürük ki, multikulturalizm meyillərinin inkişafı ilə bağlı çox bədbin fikirlər vardır. Əfsuslar olsun ki, bəzi hallarda siyasi bəyanatlar, qeyri-hökumət təşkilatlarının, bəzi media qurumlarının fəaliyyəti sivilizasiyalararası dialoqun inkişafına deyil, əksinə, ayrı-seçkiliyə daha da şərait yaradır. Ona görə burada siyasətçilərin, ictimai xadimlərin məsuliyyəti də böyük əhəmiyyət daşıyır. Çünki bugünkü qloballaşan dünyada, internet dövründə istənilən yerdə səslənən hər bir fikir, hər bir söz dərhal dünyada böyük əks-səda verir. Mən hesab edirəm ki, biz müsbət təcrübəni daha da geniş şəkildə təbliğ etməliyik. Çünki burada, bu Forumda iştirak edən insanları bir amal birləşdirir. Bizi multikulturalizmin inkişafı, mədəniyyətlərarası dialoqun uğurlu gələcəyi və beləliklə, dünyada gedən müsbət meyillərin

gücləndirilməsi amalı birləşdirir. Belə olan halda biz də çalışmalıyıq ki, öz işimizlə, öz praktiki addımlarımızla bu müsbət meyilləri gücləndirək.

Yenə də Azərbaycana qayıdaraq deyə bilərəm ki, multikulturalizm Azərbaycanda əsrlər boyu mövcud olmuşdur. Sadəcə olaraq, əvvəlki dövrlərdə biz bu ifadə ilə tanış deyildik. Bu nisbətən yeni bir ifadədir. Tolerantlıq, dözümlülük, multikulturalizm – ancaq bu amillər daim var idi. Azərbaycan multikulturalizmin ünvanlarından biridir. Azərbaycanda qeyd etdiyim kimi, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycanda bütün dinlərin tarixi abidələri qorunur. Biz öz tarixi keçmişimizə çox böyük hörmətlə yanaşırıq. Bakıda zərdüştülük dininin gözəl abidəsi qorunub saxlanılır – Atəşgah. Bu ayın 17-də Şamaxıda ölkəmizin ən qədim məscidi bərpadan sonra yenidən açılmışdır. Məscid 743-cü ildə – 1270 il bundan əvvəl tikilmişdir. Bu gün Azərbaycan bu məscidi bərpa edib. Azərbaycan dövləti Bakıda sinaqoqun tikintisinə də öz dəstəyini əsirgəməmişdir. Qədim alban kilsələri Azərbaycanda dövlət tərəfindən bərpa edilir, qorunur, pravoslav, katolik kilsələri fəaliyyət göstərir.

Təkcə bu faktların sadalanması göstərir ki, doğrudan da multikulturalizm üçün çox gözəl imkanlar vardır. Hesab edirəm ki, dünyanın istənilən yerində bu müsbət meyillər güclənə bilər. Təki siyasi iradə olsun. Təki siyasətçilərdə bu məsələ ilə bağlı düzgün istiqamət üstünlük təşkil etsin. Çünki multikulturalizmin alternativləri, demək olar ki, yoxdur. Bunun alternativi ayrı-seçkilikdir, ksenofobiyadır, rasizmdir, faşizmdir. Mən hesab edirəm ki, XXI əsrdə mütərəqqi bəşəriyyət bu xoşagəlməz meyillərin qarşısının alınması üçün daha da fəal olmalıdır. Bu fəallıq müxtəlif formalarla tamamlanmalıdır.

Hesab edirəm ki, Bakıda keçirilən II Forum ümumi işimizə verilən böyük töhfədir. Ancaq biz təkcə forumların keçirilməsi ilə öz işimizi məhdudlaşdırmamalıyıq. Biz müxtəlif tədbirlər hazırlamalıyıq, müxtəlif aksiyalar keçirməliyik. Mədəniyyətlərarası dialoqun inkişafı üçün ciddi tədbirlər görülməlidir.

Şadam ki, I Forumdan keçən dövr ərzində biz bu istiqamətdə önəmli addımlar atmışıq. Əminəm ki, bu Forumun nəticələri də çox müsbət olacaqdır. Forumdan sonra fəaliyyət planımız da qəbul ediləcəkdir.

Multikulturalizmin inkişafı hər bir xalq, hər bir dövlət üçün lazımdır, vacibdir. Xüsusilə etnik təmizləmədən zərər çəkmiş ölkə olan Azərbaycan üçün. Çünki məhz multikulturalizm meyillərinin aşağı səviyyədə olması nəticəsində Azərbaycan torpaqları işğal altına düşmüşdür. Bu işğal 20 ildən çoxdur ki, davam edir. Bizim xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Azərbaycan əhalisi Dağlıq Qarabağdan və ətraf rayonlardan qovulmuşdur. Bizim bütün dini abidələrimiz, tarixi sərvətlərimiz dağıdılıb, talan edilib. Buna sübut ATƏT-in 2 missiyasının məruzələridir. O missiyaların məruzələrində açıq-aydın göstərilir ki, işğal edilmiş torpaqlarda erməni silahlı qüvvələri tərəfindən bütün abidələr, bütün infrastruktur, bütün binalar dağıdılıbdır. Bu ədalətsizlik davam edir. Əfsuslar olsun ki, münaqişə öz həllini tapmır. Beynəlxalq hüquq normaları əfsuslar olsun ki, bu münaqişə ilə bağlı işləmir.

BMT Təhlükəsizlik Şurası bu münaqişənin həlli ilə bağlı 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasına dair açıq-aydın mesajlar vardır. İşğala qeyd-şərtsiz son qoyulmalıdır. Ancaq Ermənistan bu qətnamələrə əməl etmir və işğal, ədalətsizlik davam edir. Beynəlxalq hüquq normaları kobudcasına pozulur. Münaqişənin tezliklə həlli bir tərəfdən, beynəlxalq hüquq normalarına hörmətin əlaməti, digər tərəfdən, tarixi ədalətin bərpası demək olacaqdır. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bütün toponimlər Azərbaycan toponimləridir. Bütün abidələr xalqımızın məhsuludur, Azərbaycan xalqının istedadının, zəhmətinin məhsuludur.

Münaqişənin tezliklə həll edilməsi bölgəyə sülh gətirəcəkdir. Belə olan halda bölgədə proseslər daha müsbət istiqamətdə gedəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən, beynəlxalq təşkilatlar tərəfindən tanınır. Münaqişənin həlli yalnız ərazi bütövlüyü prinsipləri əsasında ola bilər.

Biz hesab edirik ki, bu gün və sabah bu vacib məsələlərlə bağlı dəyərli fikirlər eşidəcəyik. Forumun keçirilməsi əlamətdar hadisədir. 2 il əvvəl I Forumun keçirilməsi də hesab edirəm ki, çox rəmzi xarakter daşıyırdı. Son 2 il ərzində Azərbaycanda bütün istiqamətlər üzrə inkişaf davam etmişdir. Mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı çox vacib tədbirlər keçirilmişdir. 2011–2012-ci illərdə 2 dəfə Beynəlxalq Humanitar Forum keçirilmişdir. Demək olar ki, o forumların da mövzuları təxminən eynidir. Baxmayaraq ki, torpaqlarımızın 20 faizi işğal atlındadır və 1 milyondan artıq vətəndaşımız məcburi köçkün vəziyyətində yaşayır, Azərbaycanın sürətli inkişafı davam etmişdir. Azərbaycan inkişaf edir. Bizim uğurlu inkişafımız bütün istiqamətlərdə özünü göstərir.

Keçən Forumdan ötən dövr ərzində dünya birliyi Azərbaycana böyük etimad göstərmişdir. 2011-ci ilin oktyabr ayında Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, xalqımız, müstəqil dövlətimiz üçün böyük tarixi hadisədir.

İqtisadi sahədə uğurlu inkişaf meyilləri daha da güclənmişdir. Demək olar ki, Azərbaycanda əsas iqtisadi və sosial məsələlər uğurla öz həllini tapır. Hətta dünyada gedən böhran illəri ərzində Azərbaycanda iqtisadiyyat artmışdır. Bu gün iqtisadiyyatın şaxələndirilməsi prosesi uğurla davam etdirilir. Dayanıqlı inkişaf üçün bu, əsas şərtdir. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırır. Azərbaycan iqtisadiyyatı dünyada 50 ən rəqabətqabiliyyətli iqtisadiyyatlar arasındadır. Əlbəttə, sabit maliyyə vəziyyətimiz, sabit siyasi vəziyyətimiz, regional təşəbbüslər, təbii sərvətlər və ən önəmlisi insan kapitalı bu gün Azərbaycanı irəli aparan amillərdir. Bir neçə il bundan əvvəl biz bəyan etmişdik ki, insan kapitalı hər şeydən üstündür. Çox güclü sosial siyasət aparılır. Eyni zamanda, mədəniyyətlə bağlı, tarixi irsimizin qorunması ilə bağlı çox böyük işlər görülür.

Əminəm ki, qonaqlar Bakının tarixi abidələri ilə də tanış olacaqlar. Şəhərimizə ilk dəfə gələn insanlar da xoş təəssüratlarını özləri ilə vətənlərinə aparacaqlar.

Mən bir daha, əziz dostlar, sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana gəldiyiniz üçün sizə minnətdaram.

Foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

**Nassir Əbdüləziz əl-Nasser** *(BMT-nin Sivilizasiyalar Alyansının rəhbəri, BMT Baş katibinin ali nümayəndəsi):* Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

YUNESKO-nun baş direktoru İrina Bokova!

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri!

Əziz dostlar!

BMT-nin Sivilizasiyalararası Alyansının rəhbəri kimi, II Beynəlxalq Forumda, yəni Bakı kimi gözəl bir şəhərdə multikulturalizmə həsr olunmuş II Forumda çıxış etmək mənim üçün böyük bir şərəfdir. BMT-nin Baş katibi cənab Pan Gi Munun salamlarını sizə çatdırmaqdan da şərəf duyuram. Biz sizin tərəfdaşlığınızdan tamamilə bəhrələnərək bu cür mötəbər tədbirin nəticələrini gözləyirik. Eyni zamanda, prezident İlham Əliyevin baxışlarının yüksək dərəcədə mütərəqqi olduğunu qeyd etmək istəyirəm. Hər 2 ildən bir mədəniyyətlərarası dialoqa həsr olunmuş belə mötəbər forumun keçirilməsi ilə əlaqədar, cənab Prezident, Sizə minnətdaram. Sülh, əmin-amanlıq və sabitlik, sözsüz ki, insanlar və mədəniyyətlər arasında qarşılıqlı hörmət əsasında qurulan münasibətləri tələb edir. Bununla əlaqədar Azərbaycan hökumətinə minnətdarlığımı bildirirəm. Bu mötəbər tədbirin dünyada tanınmış memar Zaha Hadid tərəfindən layihələndirilən Heydər Əliyev Mərkəzində keçirilməsi də bizim üçün böyük bir şərəfdir.

Musiqinin, incəsənətin, əyləncənin, idmanın və digər birgə təcrübələrin formasında ümumbəşəri dəyərlərin təşviqi və təbliği kimi tədbirlər təqdirəlayiqdir. Bakı kimi gözəl bir şəhərdə – mədəniyyətin, incəsənətin və tarixin qovuşduğu bir yerdə bu görüşün keçirilməsi bizim üçün çox önəmlidir.

YUNESKO ilə Azərbaycan hökumətinin dəstəyi və 100-dən çox tərəfdaşın iştirakı ilə belə bir tədbirin keçirilməsi mədəni

müxtəlifliyin və inklüzivliyin çox gözəl təzahürüdür. Bizi dəstəkləyən milyonların və mədəni müxtəlifliyi təbliğ edən şəxslərin fikirlərini, duyğularını ifadə edərək, vətəndaş cəmiyyətinin, dini təşkilatların, yerli icmaların birgə təşəbbüs və səylərini həyata keçiririk.

Mayın 21-də biz dünya miqyasında İnkişaf və Müxtəliflik Gününü qeyd edəndə mən Nyu-Yorkun Bronks rayonunda yerli icmalarla birlikdə mədəniyyətlərin və mədəni müxtəlifliyin birgə sülh və əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərməsinin şahidi olmuşam. Bu çox güclü və çox nüfuzlu mesaj idi. Avstraliyalı cənab Piter Freades BMT-nin Sivilizasiyalar Alyansının Azərbaycan hökuməti ilə birgə keçirdiyi bu tədbirin devizinin müəllifidir. Bu bizim üçün çox faydalı bir kompasdır. Bizə ünvanlanan bir amildir ki, birgə sülh və əmin-amanlıq şəraitində mədəni müxtəliflik dünyasında yaşayıb fəaliyyət göstərək.

*Nassir Əbdüləziz əl-Nasser dünyada tolerantlığın, qarşılıqlı anlaşmanın hökm sürməsi üçün mədəniyyətlərarası və dinlərarası dialoqu daha da gücləndirməyin vacibliyini vurğulayaraq bildirdi:*

– Mənim ümidim, istəyim ondan ibarətdir ki, burada aparılacaq dialoqun və müzakirələrin nəticəsində hazırlanacaq tövsiyələr bu salonun daxilində qalmayacaq, dünyaya çatdırılacaqdır. Bakıda səslənəcək bu fikirlər dünya miqyasında öz əks-sədasını tapacaqdır.

Mənim doğma ölkəm Qətər 2010-cu ilin dekabrında Sivilizasiyalar Alyansının Forumunda bu fikirləri bir daha söyləmişdir. Sivilizasiyalararası görüşün nəticəsində Doha Bəyannaməsi qəbul olunmuşdur ki, bu da Minilliyin İnkişaf Məqsədləri ilə üst-üstə düşən məqsədlərdir. Bəyannamədə sülh, əmin-amanlıq, ədalət və inkişaf naminə müxtəlifliyin saxlanılması ideyaları öz əksini tapmışdır. Bu da Sivilizasiyalar Alyansının 6 əsas prioritetini üzümüzə gələn 5 il üçün müəyyən etmişdir.

O da doğrudur ki, bütün dünya bu Forumun nəticəsində avtomatik olaraq dəyişən deyil, dəyişməyəcəkdir. Lakin əminəm ki, birgə səylərimiz nəticəsində biz bu nəcib məqsədlərə çata bilərik. Həmçinin biz öz fəaliyyətimizlə beynəlxalq aləmdə əmin-

amanlığın və sülhün möhkəmləndirilməsinə, mədəniyyətlərarası əlaqələrin genişləndirilməsinə yönəlmiş Bakı Forumunun mesajlarını gücləndirə bilərik.

Mahatma Qandi qeyd etmişdir ki, heç bir mədəniyyət təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Mən çıxışımı məhz bu ideyanın nikbin notları ilə yekunlaşdıraraq Forumumuza böyük uğurlar arzulayıram.

**İrina Bokova** *(YUNESKO-nun baş direktoru):* Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev!

BMT-nin Sivilizasiyalar Alyansının rəhbəri, BMT Baş katibinin ali nümayəndəsi Zati-aliləri Nassir Əbdüləziz əl-Nasser!

İSESKO-nun baş direktoru Zati-aliləri Əbdüləziz bin Osman əl-Tüveycri!

Zati-aliləri səfirlər, nazirlər, xanımlar və cənablar!

II Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək mənim üçün böyük şərəfdir. Mən çox böyük minnətdarlığımı məhz cənab prezident İlham Əliyevə bildirmək istəyirəm ki, onun bu mövzuya davamlı dəstəyi və Azərbaycanın birinci xanımı, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın qayğısı ilə Azərbaycanda bu vacib məsələyə böyük diqqət göstərilir.

Azərbaycan qədim İpək yolunun bir hissəsi olaraq böyük mədəniyyət və incəsənət mərkəzinə çevrilmişdir və bu da YUNESKO-nun Mərkəzi Asiyada apardığı işlərlə üst-üstə düşür. Mədəniyyətlərarası daimi dialoqun davam etdirilməsinə çalışıram. Bakının qədim hissəsi – İçərişəhər YUNESKO-nun Dünya Mədəni İrs siyahısında öz yerini tapmışdır. Novruz bayramı Türkiyə, Hindistan, Qırğızıstan, Pakistan, Özbəkistan ilə birgə keçirilən bayramdır, YUNESKO-nun qeyri-maddi mədəni irsinin bir hissəsidir. Həmçinin muğam sənəti YUNESKO-nun dünya mədəniyyətinin irsidir. Gələn ilin dekabrında buna həsr olunmuş növbəti tədbirlər bizim birgə dəyərlərimizə göstərilən dəstəyin təsdiqidir. Məhz bu cür rəhbərlik bizə bu gün həddən artıq lazım olan amildir. Əməkdaşlıq üçün yeni imkanlar açıldıqca iqtisadi böhranın hökm sürdüyü bu qarmaqarışıq dövrdə müxtəlif ölkələri

– Malidə və Suriyadakı kimi daim münaqişə vəziyyətində yaşayan ölkələri nəzərə almağımız çox vacib məsələdir.

Mədəni müxtəliflik ölkələr arasında və ölkələrin daxilində çox önəmli məsələlərdən birinə çevrilir. Buna görə bu dialoq böyük əhəmiyyət kəsb edir. Çünki bizə sosial inklüzivlik və həmrəylik kimi amillər çox lazımdır. YUNESKO üçün sülh yalnız siyasi və iqtisadi tədbirlər nəticəsində əldə oluna bilməz. Onun kökləri əqli və mənəvi həmrəylikdə təcəssüm tapmalıdır ki, bu da bizim Nizamnaməmizdə əks olunmuşdur. Bu həmrəylik dialoq və mübadilə formasında həyata keçirilməlidir və qarşılıqlı anlaşma mühitində bərqərar edilməlidir. Bu da YUNESKO-nun prioritetləri – sülh, elm, informasiya və təhsil sahəsində əməkdaşlığın davam etdirilməsi vasitəsilə həyata keçirilməlidir.

*Dünyanın bütün bölgələrində mədəniyyətlərarası dialoqun genişləndirilməsi və dərinləşdirilməsi üçün YUNESKO-nun xətti ilə həyata keçirilən silsilə tədbirlərə toxunan İrina Bokova bu istiqamətdə Azərbaycanın da səmərəli fəaliyyət göstərdiyini xüsusi vurğulayaraq bildirdi:*

– Xanımlar və cənablar, biz mədəni müxtəlifliyi problem kimi qəbul edə bilmərik. Əksinə, mədəni müxtəlifliyi böyük bir dinamik qüvvə kimi qələmə verməliyik. Məhz bu qüvvə kreativliyə, davamlı inkişafa və sülhə yönəldilmiş əsas amillərə çevriləcəkdir. Fürsətdən istifadə edərək Azərbaycan hökumətinə Haitinin Jakmel şəhərində bizə dəstək göstərdiyinə görə təşəkkürümü bildirirəm. Bu, YUNESKO-nun cari ildəki nəşrlərində əksini tapmışdır. Mədəni müxtəliflik bizim mədəniyyətlərimiz üçün artıq reallığa çevrilmiş bir haldır. Amma bu, siyasətimizin əsasını təşkil edən amillərdən birinə çevrilməlidir. Mən də məhz bunu yeni humanizm – XXI əsrin humanizm ideyası kimi bəyan edirəm.

Məhz bu nikbin notlarla Məhsəti Gəncəvinin sözlərini qeyd etmək istəyirəm. YUNESKO Məhsəti Gəncəvinin 900 illiyini 2 həftə bundan əvvəl qeyd etmişdir. Onun ləyaqətə həsr olunmuş belə bir şeiri vardır, ondan sitat gətirmək istəyirəm: «Mən özümü tərk edəndə mənim üçün bütün yollar açılır». Yəni özümü unudanda mənim üçün bütün yollar açılır. Məhz bu nikbin fikirlə

mən öz çıxışımı başa vurmaq istəyirəm. Diqqətinizə görə sizə çox minnətdaram.

**Əbdüləziz bin Osman əl-Tüveycri** *(İSESKO-nun baş direktoru):* Zati-aliləri cənab prezident İlham Əliyev!

BMT-nin Sivilizasiyalar Alyansının rəhbəri cənab Nassir Əbdüləziz əl-Nasser!

YUNESKO-nun baş direktoru xanım İrina Bokova!

Xanımlar və cənablar!

Sizin kimi mötəbər auditoriyanın qarşısında çıxış etmək mənim üçün böyük şərəfdir. Bizi bu gün birləşdirən əsas amil birgə səylərimizi əks etdirən, sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun dəstəklənməsinə yönəlmiş tədbirdə çıxış etməkdir. Fürsətdən istifadə edərək bu mötəbər Forumun təşkilinə, eləcə də İSESKO-nun və YUNESKO-nun təşəbbüslərinə verdiyi daimi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan çox vacib mövzulara həsr olunmuş beynəlxalq tədbirlərə ev sahibliyi edir. Mən Azərbaycan Respublikasına əmin-amanlıq, rifah və inkişaf arzu edirəm. Arzu edirəm ki, bu ölkə prezident İlham Əliyevin müdrik rəhbərliyi altında öz inkişafını davam etdirsin.

Cənab Prezident, xanımlar və cənablar, çox mürəkkəb regional və beynəlxalq vəziyyətdə yaşadığımız bu dövrdə sülhün, mədəniyyətlərarası dialoqun təşviqi mədəniyyətlərin yaxınlaşması üçün başlıca amillərdən biridir ki, bu da dünya sivilizasiyasını xilas edə bilər. Dünyada baş verən həddindən artıq ciddi təhlükələr məhz dialoqun azlığından, qarşılıqlı anlaşmanın olmamasından irəli gələn problemlərdir. Bu böhranları müşayiət edən qanlı münaqişələr və müharibələr məhz müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, etibarın olmamasının nəticəsidir. Bu isə təəssüflər olsun ki, qarşılıqlı hörmətsizliyə gətirib çıxarır.

*İSESKO-nun baş direktoru işğal faktları ilə bağlı beynəlxalq birliyin ikili standartlara yol verməsinin qəbuledilməz olduğunu bildirərək vurğuladı:*

– Müxtəlif problemləri, çətinlikləri aradan qaldırmaqla, biz gələcəyimiz üçün zəmin yaradırıq. Bunun üçün isə dialoq ən müdrik seçimdir. Dialoq həm də zorakılığa qarşı bir vasitədir. Bu da bizim gələcəkdə qarşılıqlı anlaşmanın mövcud olduğu dünyada yaşamağımız üçün zəmin yaradır.

Biz müxtəlif fobiyalardan, nifrətlərdən əzab çəkən bir dünyada yaşamağa məcbur oluruq. Dünyamız həm də bəzi ölkələrin torpaqlarının işğal olunması ilə də üzləşir. Fələstinə, Azərbaycana və digər ölkələrə qarşı törədilən bu xoşagəlməz hadisələr, sözsüz ki, bizi narahat etməyə bilməz. Yalnız beynəlxalq hüquq normalarının tətbiq edilməsi nəticəsində bu halların aradan qaldırılması mümkün olacaqdır. Əgər biz bu məsələdə ikili standartlara yol versək, BMT-nin, YUNESKO-nun nizamnamələrinə hörmətsizlik etmiş olacağıq. Məhz buna görə YUNESKO-nun mədəniyyətlərin yaxınlaşmasına yönəlmiş səyləri təhsil sistemimizdə, mədəni forumlarımızda da əksini tapmalıdır. Kilsələrdə, məscidlərdə, sinaqoqlarda bəyan edilməlidir ki, ümumi dəyərlər, niyyətlər dözümlülük və hövsələ ilə həyata keçirilsin. Nə qədər çətin olsa da, biz bunu bu gün etməliyik. Əgər belə etməsək, sabah cəngəllikdə yaşamağa məcbur olacağıq.

Bir daha bu gözəl və mötəbər Forumun məhz Bakıda keçirilməsinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm.

* * *

*Forumun açılışı mərasimi başa çatdıqdan sonra Heydər Əliyev Mərkəzinin foyesində fləşmob keçirildi.*

*Dövlətimizin başçısı fləşmoba baxdı.*

*Fləşmobda al-əlvan geyimli gənclərin rəqsləri rəngarəng dünyamızda mədəniyyətlərin yaxınlaşmasının və çoxmədəniyyətli dünyamızın yaradılmasında gənclərin rolunun artırılmasının yeni formasını təcəssüm etdirirdi.*

*Azərbaycan prezidenti İlham Əliyevin himayəsi ilə keçirilən II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əsas tərəfdaşları YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESKO, BMT-nin Dünya Turizm Təşkilatıdır. Dövlətimizin başçısının 2011-ci ildə imzaladığı fərmanla bu Forum 2 ildən bir Bakıda təşkil olunur. Tədbirin əlaqələndirici qurumu Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyidir. Budəfəki Forumda ümumilikdə 100-dək ölkənin nümayəndə heyəti iştirak edirdi.*

## BMT BAŞ KATİBİNİN ALİ NÜMAYƏNDƏSİ NASSİR ƏBDÜLƏZİZ ƏL-NASSER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da BMT Sivilizasiyalar Alyansının rəhbəri, BMT Baş katibinin ali nümayəndəsi Nassir Əbdüləziz əl-Nasseri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə BMT-nin ayrı-ayrı strukturları, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı məmnunluqla vurğulandı, müxtəlif mədəniyyətlərin və sivilizasiyaların bir-birinə yaxınlaşmasında II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti qeyd olundu və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

## YUNESKO-nun BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da YUNESKO-nun baş direktoru xanım İrina Bokovanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bu əlaqələrin gələcək illərdə də davam etdiriləcəyinə əminlik ifadə olundu.*

*Görüşdə, həmçinin II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkil olunduğu qeyd edildi, mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsində və ölkələr arasında humanitar sahədə əməkdaşlığın genişləndirilməsində bu cür beynəlxalq tədbirlərin önəmi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*Görüşdə ölkələr və xalqlararası əlaqələrin genişləndirilməsində II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi qeyd olundu, Forumda müzakirə edilən məsələlərin əhəmiyyəti vurğulanaraq bu məsələlərin müxtəlif mədəniyyətlərin bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyi bildirildi.*

*Söhbət zamanı, həmçinin Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## ƏFQANISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ZALMAİ RASSULUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Əfqanıstanın Xarici İşlər naziri Zalmai Rassulun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Zalmai Rassul Əfqanıstan prezidenti Həmid Kərzainin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, Azərbaycanın Əfqanıstanla bağlı müxtəlif beynəlxalq humanitar proseslərdə iştirakının əhəmiyyəti qeyd edildi, ölkələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığının bundan sonra da davam etdiriləcəyinə əminlik bildirildi.*

*Dövlətimizin başçısı prezident Həmid Kərzainin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## İTALİYA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ VƏ SABİQ XARİCİ İŞLƏR NAZİRİ LAMBERTO DİNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də İtaliya Respublikasının sabiq Baş naziri və sabiq Xarici İşlər naziri Lamberto Dinini qəbul etmişdir.*

*Görüşdə II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əhəmiyyətindən danışıldı, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun möhkəmləndirilməsində Forumun önəmi qeyd olundu.*

*Görüşdə, həmçinin Azərbaycan ilə İtaliya arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bu əlaqələrin gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Xorvatiya Respublikasının sabiq prezidenti Stepan Mesiçi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında mövcud dostluq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı, bir sıra xorvat şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti qeyd edilərək, iqtisadiyyatın digər sahələrində də əməkdaşlığın inkişaf etdirilməsinin önəmi bildirildi.*

*Görüşdə, həmçinin II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

## BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Bolqarıstan Respublikasının sabiq prezidenti Georgi Pırvanovu qəbul etmişdir.*

*Görüşdə II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkil olunduğu və mühüm əhəmiyyət daşıdığı vurğulandı, tədbirdə dünyanın müxtəlif bölgələrindən, o cümlədən Balkan ölkələrindən yüksək səviyyəli nümayəndələrin iştirak etməsi Foruma olan beynəlxalq marağın göstəricisi kimi dəyərləndirildi.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, Azərbaycanın və Bolqarıstanın regional əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli rolu qeyd edildi.*

## SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Serbiya Respublikasının sabiq prezidenti Boris Tadiçi qəbul etmişdir.*

*Görüşdə II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun humanitar sahədə əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, ölkəmizdə müxtəlif dinlərin və mədəniyyətlərin birgə yaşaması, mövcud olan yüksək tolerantlığın önəmi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra daha da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN İCMALAR PALATASININ ÜZVÜ, BRİTANİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI QRUPUNUN SƏDRİ KRİSTOFER PİNÇERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Britaniya–Azərbaycan parlamentlərarası qrupunun sədri Kristofer Pinçerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın siyasi, iqtisadi, enerji, birgə layihələrin həyata keçirilməsi, təhlükəsizlik, mədəniyyət və digər mühüm sahələri əhatə etdiyi bildirildi, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlığın əhəmiyyətli rolu qeyd olundu.*

*Görüşdə, həmçinin Avropa İttifaqı və NATO əməkdaşlığına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf edərək xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2013-cü il*

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ, AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ ALEKSEY PUŞKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında Rusiya nümayəndə heyətinin rəhbəri Aleksey Puşkovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əlaqələrin münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu. Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa Şurası Parlament Assambleyasında fəal əməkdaşlıq etdiyi qeyd olunaraq, bu qurumda qarşılıqlı dəstəyin verilməsi yüksək qiymətləndirildi.*

# BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ, BAŞ NAZİRİN AZƏRBAYCAN, QAZAXISTAN VƏ TÜRKMƏNİSTAN ÖLKƏLƏRİNDƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Böyük Britaniya parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ölkələrində ticarət məsələləri üzrə elçisi Çarlz Hendrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Böyük Britaniyanın Baş naziri Devid Kemeronun neft-qaz konfransına ünvanladığı müraciətə görə təşəkkürünü bildirən prezident İlham Əliyev müraciətdə ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin və eləcə də bp-nin Azərbaycandakı uzunmüddətli uğurlu fəaliyyətinin əks edilməsinin önəmini vurğuladı. Baş nazir Devid Kemeron ilə ötən il Londonda görüşünü və enerji sektorunda əməkdaşlığa dair aparılan müzakirələri məmnunluqla xatırladan dövlətimizin başçısı bu sahədə əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi, Böyük Britaniyanın Baş nazirinin təmsilçisi Çarlz Hendrinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını dedi.*

*Çarlz Hendri Azərbaycan qazının Avropaya nəqli baxımından 2013-cü ilin mühüm il olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin iqtisadi-ticari, enerji və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# XX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*Bakı Sərgi Mərkəzi*

*4 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 4-də Bakı Sərgi Mərkəzində Xəzəryanı regionun neft-qaz sahəsində ən böyük tədbiri olan və öz uğurlu fəaliyyətinin 20 illik yubileyini qeyd edən Beynəlxalq «Xəzər neft, qaz, neftayırma, neft kimyası» sərgi və konfransının açılışı mərasimində iştirak etmişlər.*

*Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Beynəlxalq «Xəzər neft, qaz, neftayırma, neft kimyası» sərgi və konfransının 20 illik yubileyi ulu öndərin 90 illik yubileyi ilə üst-üstə düşür. Ötən müddətdə sərgidə 70-dən çox ölkədən 5 min 600-dək şirkət iştirak etmişdir. Sərgi beynəlxalq standartlara cavab verən Bakı Ekspo Mərkəzində keçirilməyə başlayandan yeni inkişaf mərhələsinə qədəm qoyub. XX Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgisində 28 ölkədən 386 şirkət iştirak edir. Tədbir Bakı Ekspo Mərkəzinin 3 pavilyonu ilə yanaşı, açıq meydançada da keçirilir. Ötən illə müqayisədə sərginin meydançasının sahəsi 22 faiz artmışdır. Bu tədbirdə ölkəmizin şirkətləri də ildən-ilə daha geniş təmsil olunur və cari sərgidə iştirakçıların 30 faizini yerli iqtisadi qurumlar təşkil edir. Əvvəlki sərgi ilə müqayisədə ekspozisiyaların sahəsi 25 faiz çoxdur. Sərgi iştirakçılarından 20 faizi isə bu tədbirə ilk dəfə qatılmışdır. Tədbirin təşkilatçıları Böyük Britaniyanın «İTE Group Plc» şirkəti və onun tərəfdaşı «İteca Caspian» Məhdud Məsuliyyətli Cəmiyyəti, baş sponsoru isə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətidir. Təşkilatçılar sərginin beynəlxalq səviyyədə də dolğun*

*işıqlandırılması üçün hərtərəfli iş aparmışlar. Sərgi və konfransın işgüzar proqramı genişdir, əməkdaşlığın daha da möhkəmləndirilməsinə hərtərəfli imkanlar açır.*

*Böyük Britaniyanın «İTE Group Plc» şirkətinin baş məsləhətçisi Endryu Vud sərgi və konfransı açıq elan etdi:*

**Endryu Vud:** Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Mən çox sevinirəm ki, bu gün sizləri Bakıda XX neft-qaz sərgi və konfransında salamlayıram. Biz çox sevinirik ki, bu sərgi-konfrans daha böyük, daha möhtəşəm bir tədbirə çevrilmişdir və onu cənab prezident İlham Əliyevin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bütün rəsmi şəxslərinin iştirakı ilə açırıq.

Biz 20 il bundan əvvələ baxarkən görürük ki, çox böyük bir yol keçmişik. Bu elə bir uzun yol olmuşdur ki, əsasında beynəlxalq şirkətlər, Azərbaycan xalqı, Azərbaycan müəssisələri və sahibkarları bir-biri ilə sıx əlaqədə olmuşlar. Mən düşünürəm ki, bu il eyni zamanda, sərgi zalında xüsusi bir bölmənin açılması çox uğurlu haldır. Bu bölmədə Azərbaycanın 90-dan artıq şirkəti və müəssisəsi bir yerə cəm olaraq *bp*-nin layihəsi çərçivəsində proqram iştirakçılarına çevrilir.

Mən qeyd etdim ki, 20 il ərzində çox böyük bir yol qət etmişik. Növbəti 20 il, zənnimcə, daha səmərəli, daha maraqlı olacaqdır. Biz artıq dünya enerji sistemində baş vermiş böyük dəyişikliklərin şahidi olmuşuq. Mən inanıram ki, yalnız birgə işləməklə, birgə əməkdaşlıqla və bütün təcrübələrimizin mübadiləsini təmin etməklə, birgə səylərimizlə biz daha davamlı, daha müvəffəqiyyətli layihələrə nail ola bilərik.

İndi isə, cənab Prezident, mən çox böyük məmnuniyyətlə Sizi çıxış etmək üçün tribunaya dəvət edirəm. Çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Xəzər neft-qaz sərgisinin 20-ci ildönümüdür. Bu, böyük tarixi hadisədir. 20 il ərzində bu sərgi hər il daha da çox şirkəti cəlb etmişdir. Builki sərgidə 400-ə yaxın şirkət iştirak edir.

Bu onu göstərir ki, 20 il keçməsinə baxmayaraq, sərgi öz əhəmiyyətini itirməyib, əksinə, onun əhəmiyyəti daha da artmışdır. Baxmayaraq ki, əsas neft və qaz müqavilələri artıq imzalanmışdır. Xarici şirkətlər uzun illər ərzində Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Buna baxmayaraq, sərginin əhəmiyyəti artmaqdadır. Əlbəttə, ənənəvi olaraq Amerika Birləşmiş Ştatlarının Prezidentinin və Böyük Britaniyanın Baş nazirinin göndərdikləri təbrik məktubları sərginin nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha sübut edir.

20 il ərzində Azərbaycan da böyük yol keçmişdir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. 20 il əvvəl isə biz işin ilkin mərhələsində idik. Sərginin Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox böyük dəstəyi, çox böyük əhəmiyyəti olmuşdur. 1994-cü ildə ilk sərgi keçirilərkən Azərbaycan haqqında dünyada o qədər də böyük bilgilər yox idi. Yəni neft dünyasında fəaliyyət göstərən şirkətlər bilirdilər ki, Azərbaycan qədim neft ölkəsidir, ancaq ölkəmizin real potensialı və gələcək inkişaf planları haqqında kifayət qədər məlumat yox idi. Biz özümüz də o vaxt bəlkə də tam şəkildə gələcəyi görə bilmirdik ki, necə olacaq, Azərbaycan necə inkişaf edəcəkdir? Halbuki, keçən əsrin 90-cı illərinin ortalarında Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə yeni neft strategiyası işlənmiş və təqdim edilmişdi.

Məhz bu strategiyanın nəticəsidir ki, bu gün Azərbaycan qarşıda duran bütün əsas enerji məsələlərini uğurla icra edibdir. Azərbaycan öz müstəqil iqtisadiyyatını təmin edibdir, müstəqilliyini möhkəmləndirə bilibdir. Azərbaycan beynəlxalq

əməkdaşlıq üçün çox gözəl məkandır. Növbəti illər üçün də bizim dəqiq planlarımız, konkret proqramlarımız vardır. 20 il əvvəl isə Azərbaycanın inkişafı ilə bağlı sadəcə olaraq, proqramlar, niyyətlər var idi.

Əlbəttə, «Əsrin kontraktı»nın imzalanması tarixi hadisə, yəni dönüş nöqtəsi idi. Təsadüfi deyil ki, 1994-cü ildə bu müqaviləyə «Əsrin kontraktı» adı verilmişdir. İndi – XXI əsrdə biz deyə bilərik ki, bu, 2 əsrin kontraktıdır. Çünki bu gün də «Azəri–Çıraq–Günəşli» yataqları üzrə imzalanmış kontrakt öz əhəmiyyətini itirmir. Əksinə, bu kontraktın icrası nəticəsində açılmış yeni dəhlizlər bu gün digər layihələrin uğurlu inkişafına və reallaşmasına zəmin yaradır.

«Əsrin kontraktı»nın əhəmiyyəti haqqında kifayət qədər danışılıbdır, deyilibdir, təkrar etməyə ehtiyac yoxdur. Sadəcə, qeyd etmək istəyirəm ki, ilk dəfə olaraq Azərbaycan Xəzər dənizini birgə işlənilmək üçün xarici şirkətlərə açmışdır. İlk dəfə olaraq Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən nəqliyyat infrastrukturu yaradılmışdır ki, bu da öz növbəsində, bu gün digər layihələrin uğurlu icrasına təkan vermişdir.

Biz beynəlxalq əməkdaşlıqda böyük təcrübə toplamışıq. Azərbaycanda «Əsrin kontraktı»nın icrası nəticəsində digər sektorlarda da canlanma baş vermişdir. Çox gözəl investisiya mühiti yaradılmışdır. Bu gün də Azərbaycan MDB məkanında birbaşa xarici sərmayələrin qoyuluşuna görə birinci yerdədir.

Biz neft kapitalını insan kapitalına, neft sektorunda əldə edilmiş gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldə bilmişik. Vaxtilə bəzi təhlilçilər tərəfindən deyilən Azərbaycanı «Holland sindromu», yaxud da ki, «neft lənəti» gözləyir fikirlərinin heç biri reallaşmadı. Çünki bizim düşünülmüş siyasətimiz vardır. Bizim siyasətimiz tam şəkildə Azərbaycan xalqının maraqlarını təmin edir.

Düz 17 il bundan əvvəl, 1996-cı ildə sərgi zamanı «Şahdəniz» kontraktı imzalanmışdır. O vaxt dünyada və Avropada, ümumiyyətlə, qaz amili o qədər də ciddi qəbul edilmirdi. Ona

görə «Şahdəniz» kontraktının imzalanması, demək olar ki, dünya miqyasında o qədər də böyük əks-səda yaratmadı. Halbuki biz bilirdik ki, vaxt gələcək Azərbaycan nəinki neft ölkəsi kimi, qaz ölkəsi kimi də özünü dünyaya təqdim edəcəkdir. Bilirdik ki, bizim çox zəngin qaz yataqlarımız vardır. Bilirdik ki, bu yataqların işlənilməsi nəticəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

«Şahdəniz» layihəsinin icrası nəticəsində və uğurlu beynəlxalq əməkdaşlıq nəticəsində bu gün məhz «Şahdəniz» qaz yatağı bölgədə gedən enerji təhlükəsizliyi ilə bağlı proseslərə həlledici təsir edir. Bu gün «Şahdəniz» layihəsi olmadan bölgənin enerji təhlükəsizliyini təsəvvür etmək mümkün deyildir. Çünki biz enerji təhlükəsizliyi deyəndə ilk növbədə, təbii qazı nəzərdə tuturuq. Əgər «Əsrin kontraktı» imzalanmasaydı və Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, yəni bu dəhliz yaradılmasaydı, «Şahdəniz» layihəsinin icrası böyük sual altında ola bilərdi. Məhz dəhlizlərin mövcudluğu, Azərbaycan ilə Gürcüstan və Türkiyə arasındakı üçtərəfli uğurlu əməkdaşlıq nəticəsində biz «Şahdəniz» layihəsinin icrasına nail ola bildik. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsindən sonra Bakı–Tbilisi–Ərzurum qaz kəməri də eyni dəhlizdə tikilmişdir. Bu gün bu kəmər və bu kəmərlə bağlı gələcək planlarımız Azərbaycan ilə Avropa arasındakı əlaqələrdə də mühüm rol oynayır.

«Şahdəniz» qaz yatağı və layihəsi dünya miqyasında ən böyük enerji layihəsidir. «Şahdəniz»in birinci fazası uğurla icra edilir. Biz ikinci fazanın reallaşmasına yaxınıq. Bütün tərəfdaşlarla SOCAR-ın çox gözəl əməkdaşlığı vardır. Bu əməkdaşlığın yaranması da məhz «Əsrin kontraktı»ndan başlamışdır. Bu kontraktın imzalanması ilə Azərbaycan Dövlət Neft Şirkəti də beynəlxalq şirkətə çevrilmişdir. Bu gün Azərbaycan Dövlət Neft Şirkətinin həm ölkə daxilində, həm dünyada çox güclü mövqeləri vardır.

Mən bu yubiley günündə xüsusilə bizim əsas tərəfdaşımız olan *bp* şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. *bp* bizim

strateji tərəfdaşımızdır. 1994-cü ildən bu günə qədər 20 il ərzində *bp* ilə SOCAR arasında çox gözəl münasibətlər yaradılmışdır. *bp* həm «Azəri–Çıraq–Günəşli», həm də «Şahdəniz» layihələrinin operatorudur. Digər layihələrdə də iştirak edir. Ötən 20 il ərzində bu strateji tərəfdaşlıq yüksək zirvələrə qalxmışdır. Bundan sonra da – ən azı 20 il bundan sonra da, bəlkə də ondan da çox müddət ərzində bu strateji tərəfdaşlıq davam edəcəkdir.

Bu kontraktların icrası və görülən bütün işlər eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkətinə də imkan verdi ki, o da beynəlxalq şirkətlər kimi, dünyada öz fəaliyyətini genişləndirsin.

Bu gün SOCAR-ın nəinki Azərbaycanda, müxtəlif yerlərdə böyük investisiya layihələri vardır. Bu investisiyalar Türkiyədə, Gürcüstanda, İsveçrədə, Ukraynada, Rumıniyada, Birləşmiş Ərəb Əmirliklərində uğurla icra edilir və SOCAR öz investisiya layihələrini genişləndirir. Bu bizim üçün böyük təcrübə idi. Kontraktlar əsasında Azərbaycan kadrlarının hazırlanması işi də yüksək səviyyədə təşkil edilmişdir. Bu gün beynəlxalq konsorsiumlarda çalışanların mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. «Əsrin kontraktı»nın imzalandığı 1994-cü ildə ölkəmizin imkanları o qədər də böyük deyildi, yəni indiki kimi deyildi. Buna baxmayaraq, biz Azərbaycan üçün maksimum məqbul şərtlər təmin edə bilmişik. İnvestorlar üçün də gözəl şərtlər təqdim edilmişdir. Məhz buna görə bu gün mənfəət neftinin 75 faizi və gələcəkdə 80 faizi Azərbaycanın payına düşəcəkdir. Kontraktlarda Azərbaycan mütəxəssislərinin fəaliyyəti xüsusilə təsbit edilibdir.

Biz son 20 il ərzində doğrudan da böyük və uğurlu yol keçmişik. Biz hər növbəti sərgidə keçən il ərzində görülmüş işlər haqqında fikir mübadiləsi aparırıq. Yadımdadır, əvvəlki sərgilərdə biz yeni yataqların aşkarlanması haqqında danışmışıq. Çox şadam ki, «Şahdəniz» qaz yatağından sonra «Ümid» və «Abşeron» yataqları kəşf edilmişdir. Bu da ölkəmizin qaz potensialına böyük töhfədir. Hazırda Azərbaycanın təsdiq

edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Çox güman ki, yeni məlumatlar bu həcmi daha da artıracaqdır.

Builki sərgidə isə mən son 1 il ərzində bu sahədə ən vacib hadisə olan TANAP layihəsinin başlanmasını xüsusilə qeyd etmək istəyirəm. Ötən sərgidən 1 ay keçməmiş Türkiyə ilə Azərbaycan arasında TANAP müqaviləsi bağlanmışdır. TANAP layihəsinin çox böyük tarixi əhəmiyyəti vardır. Çox şadam ki, Azərbaycan əsas maliyyə yükünü öz üzərinə götürmüşdür. Beləliklə, TANAP layihəsinin icrası üçün bütün imkanlar vardır. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsidir, bəlkə də əsas hissəsidir. TANAP böyük maliyyə xərcləri tələb edən layihədir. Çox böyük texniki imkanlar da ortaya qoyulmalıdır. Biz tərəfdaşlarla birlikdə bunu etməyə hazırıq və edəcəyik. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin uğurlu icrası üçün əsas şərtdir.

TANAP layihəsinin başlanması o deməkdir ki, «Cənub Qaz Dəhlizi» reallaşacaqdır. Çünki «Cənub Qaz Dəhlizi» ilə bağlı müxtəlif fikirlər irəli sürülür. Əvvəllər də olubdur, bu gün də belədir ki, bu reallaşacaq, ya reallaşmayacaqdır? Nə qədər böyük problemlər vardır? Doğrudan da kifayət qədər problemlər vardır. Bildiyiniz kimi, uzun illərdir ki, «Cənub Qaz Dəhlizi» ilə bağlı müzakirələr gedir. Müzakirələrdən başqa, real addımlar atılmır. Belə olan halda biz gördük ki, əgər Azərbaycan bu dəfə də əsas məsuliyyəti öz üzərinə götürməsə, çox güman ki, bu danışıqlar hələ bir neçə il davam edəcəkdir. Amma biz vaxt itirə bilmərik. Çünki bu məsələlərlə bağlı zaman amili də çox önəmli rol oynayır. Ona görə Azərbaycan bu böyük məsuliyyəti öz üzərinə götürmüşdür. Bu gün TANAP layihəsinin icrası üçün heç bir əngəl yoxdur.

TANAP layihəsi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün də çox vacib amildir. Əlbəttə, ölkəmizin bundan sonra da uzunmüddətli inkişafını təmin edəcəkdir. Bizim zəngin neft yataqlarımız vardır. Hələ onilliklər bundan sonra bu neft yataqları bizə xidmət edəcəkdir. Ancaq biz gələcəyə baxmalıyıq ki, 50 il, 60 il, 70 il bundan sonra Azərbaycan necə inkişaf edəcəkdir?!

Ona görə böyük qaz yataqlarının mövcudluğu bizə diktə edir: bu gün biz bu böyük layihəyə böyük sərmayə qoymalıyıq ki, gələcək nəsillər bu imkanlardan istifadə etsinlər. Azərbaycanın qaz ehtiyatları ən azı bizə 100 ilə kifayət edəcəkdir, bəlkə də ondan da çox. Beləliklə, Azərbaycan Avropa üçün əvəzolunmaz qaz ixrac edən ölkəyə çevriləcəkdir. Əlbəttə, bunun həm iqtisadi, həm də digər aspektləri vardır və beləliklə, «Cənub Qaz Dəhlizi»nin reallaşması bizim üçün çox böyük əhəmiyyət kəsb edir.

Şadam ki, bu layihənin icrası ilə məşğul olan bütün tərəflər eyni fikirdədir. Hesab edirəm ki, biz burada dünyanın enerji ailəsinin uğurlu fəaliyyəti üçün də bir nümunə göstəririk. Çünki bizim timsalımızda istehsalçılar, tranzitçilər və istehlakçılar bir komanda şəklində fəaliyyət göstərirlər. Bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Ancaq bu 3 tərəfin balanslaşdırılmış maraqlarının təmin edilməsi uğura gətirib çıxara bilər. Hesab edirəm ki, bizim bu sahədəki uğurlu təcrübəmiz öyrənilə bilər. Bu təcrübə bir daha göstərir ki, enerji siyasəti döyüş meydanına çevrilməməlidir. Enerji siyasəti əməkdaşlıq meydanına çevrilməlidir. Biz buna bu cür yanaşırıq. Hesab edirəm, bizim 20 il ərzindəki təcrübəmiz sübut edir ki, əməkdaşlıq vasitəsilə böyük uğurlara nail ola bilərik.

Beləliklə, Azərbaycan, tranzit ölkələr və Avropa ölkələri «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsində israrlıdırlar. 2011-ci ilin əvvəlində Azərbaycan ilə Avropa İttifaqı arasında «Cənub Qaz Dəhlizi» ilə bağlı strateji tərəfdaşlıq üzrə memorandum imzalanmışdır və bu memorandum uğurla icra edilir. Bir daha demək istəyirəm ki, bu çox böyük layihədir. Bu, geosiyasi, geoiqtisadi bir layihədir. Bu layihə Avropanın enerji xəritəsinə yeni məqamlar gətirəcəkdir. Yəni biz enerji xəritəsini birgə tərtib edirik. Əlbəttə, biz bütün məsuliyyəti çox yaxşı dərk edirik. Qürur hissi ilə deyə bilərik: çox şadıq ki, Azərbaycanda verilən qərarlar, o cümlədən bu sərgilər zamanı aparılan danışıqlar və verilən qərarlar dünya miqyasında böyük əhəmiyyətə malik olan hadisələrə çevrilir.

Bir sözlə, ölkəmizin uğurlu enerji siyasəti çoxdan Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Biz öz enerji təhlükə-

sizliyimizlə bağlı bütün məsələləri uğurla icra etmişik. Bir dənə də olsun həll edilməmiş məsələ yoxdur. İndi bizim bütün səylərimiz beynəlxalq enerji əməkdaşlığına verəcəyimiz töhfələrlə və qeyd etdiyim kimi, ölkəmizin bundan sonrakı uzunmüddətli inkişafını təmin etmək üçün layihələrin icrası ilə bağlıdır.

Qeyd etmək istəyirəm ki, bugünkü Azərbaycan ölkəmizdə enerji sektorunda görülən işlərin ən gözəl nümunəsidir. Ölkəmizin uğurlu inkişafı ilə bağlı çox söz deyilə bilər. Sadəcə olaraq, Azərbaycanın şəhərlərinə baxmaq kifayətdir ki, hər kəs görsün, doğrudan da Azərbaycan nefti Azərbaycan xalqının milli maraqlarına xidmət edir. Hesab edirəm ki, biz çox düşünülmüş siyasətlə neftdən əldə edilmiş gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldə bilmişik. Biz insan kapitalına böyük sərmayələr qoya bilmişik. Biz bu sahədə tam şəkildə şəffaflığı təmin edə bilmişik. Bu gün 15 ilə yaxındır ki, fəaliyyət göstərən Dövlət Neft Fondumuz dünya miqyasında suveren fondlar sırasında ən qabaqcıl yerlərdədir. Şəffaflığa, idarəçiliyə və ümumiyyətlə, bütün meyarlara uyğunluğuna görə Azərbaycan Dövlət Neft Fondu, sözün əsl mənasında, fərqlənir.

Enerji sektorunda yaradılmış şəffaflıq, əlbəttə, bizə imkan verir ki, bu müsbət təcrübəni bütün digər sahələrdə də həyata keçirək və başqa sahələrdə də bu şəffaflığı təmin edək. Biz hazırda bu məsələlər üzərində işləyirik. Neft Fondunun uğurlu fəaliyyəti bizim üçün bir stimuldur və gözəl əsasdır.

Gəlirlərin şəffaf şəkildə yığılması və şəffaf şəkildə xərclənməsi, əlbəttə, şəffaflığı təmin edir, eyni zamanda, imkan verir ki, əldə edilmiş hər bir manat düzgün istifadə olunsun və Azərbaycan xalqının, ölkəmizin inkişafına yönəldilsin.

Əlbəttə, biz bu gəlirlərdən istifadə etmişik və edirik ki, ölkəmizi inkişaf etdirək. İldən-ilə Neft Fondunun gəlirləri artır. Hesab edirəm ki, bu da bizim gözəl təcrübəmizdir. Ölkənin əsas problemlərini həll etmək üçün vəsait hər il digər sahələrə yönəldilir. Məhz buna görə hesab edirəm ki, biz indi neft amilindən asılılığımızı xeyli azalda bilmişik. Məhz ona görə hazırda Azərbaycanın ümumi daxili məhsulunun əsas hissəsi

qeyri-neft sektorunda formalaşır. Bu çox gözəl göstəricidir, onu göstərir ki, şaxələndirmə siyasətimiz öz bəhrəsini verir. Bu ilin 4 ayının yekunları dediklərimi bir daha təsdiqləyir. Bu 4 ayda qeyri-neft sektorumuz 11 faiz artmışdır. Bu artıq onu göstərir ki, şaxələndirmə ilə bağlı bizim bütün təşəbbüslərimiz reallaşır və ölkəmizin dayanıqlı inkişafı təmin edilir.

Biz infrastruktur layihələrinə, yeni texnologiyalara böyük vəsait qoyuruq. Biz fəzaya peyk buraxırıq. Biz ölkəmizi hərtərəfli inkişaf etdiririk. Hesab edirəm ki, növbəti illərdə «Azərbaycan – 2020» konsepsiyasının icrası ilə bağlı ölkəmiz inkişaf etmiş ölkələrin sırasına daxil edilməlidir. Yəni bu bizim əsas hədəfimizdir.

Bu gün artıq Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatları arasında rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdədir. Bu gün Azərbaycanın bütün maliyyə göstəriciləri hər bir ölkə üçün nümunə ola bilər. İşsizlik 5,2 faiz, yoxsulluq 6 faiz, strateji valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini, xarici dövlət borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir. 1 milyondan çox yeni iş yerləri açılıbdır. Bütün bunlar reallıqdır. Əlbəttə, bu nailiyyətlərin təməlində neft amili dayanır. Sadəcə olaraq, təkcə neft amili yox, neftdən uğurla istifadə edən dövlət siyasəti dayanır. Çünki dünyada neft-qaz hasil edən, ixrac edən ölkələr çoxdur. Hesab edirəm ki, Azərbaycan təcrübəsi böyük təqdirə layiqdir.

Əminəm ki, ölkəmizin uğurlu inkişafı gələcək illərdə də davam edəcəkdir. Əminəm ki, enerji məsələlərinin həlli ilə bağlı bütün təşəbbüslərimiz reallaşacaqdır. 20 il ərzində görülən işlər və təcrübə onu göstərir ki, başladığımız istənilən layihə uğurla nəticələnir. O ki qaldı ölkəmizin uğurlu inkişafına, bu məsələlərlə bağlı konkret proqramlar vardır və bu proqramlar icra edilir.

Bu yubiley tədbirində Azərbaycanda fəaliyyət göstərən və xüsusilə ilk illərdə – keçən əsrin 90-cı illərinin ortalarında bizə inanmış, Azərbaycana investisiya qoymuş və beləliklə, iqtisadi inkişafa təkan vermiş bütün şirkətlərə xüsusi minnətdarlığımı

bildirmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan bundan sonra da öz strateji tərəfdaşları ilə uğurla işləyəcək, fəaliyyət göstərəcəkdir. Əminəm ki, bu sərginin əhəmiyyəti daim artacaq və gələn il biz daha da çox şirkət görəcəyik.

Sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

**Riçard Morninqstar** *(Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri):* Cənab Prezident!

Xanım Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Mənim üçün çox xoşdur ki, bu gün çox mühüm tədbirdə – XX yubiley sərgi və konfransında iştirak edirəm.

Mən bir sıra konfranslarda iştirak etmişəm və bir sıra təbrik məktubları da oxumuşam. Lakin ilk dəfədir ki, mən ABŞ-ın Azərbaycanda səfiri olaraq, Birləşmiş Ştatların prezidenti Barak Obamanın təbrik məktubunu Sizə oxuyacağam.

*Riçard Morninqstar ABŞ prezidenti Barak Obamanın Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.*

*Böyük Britaniya parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ölkələrində ticarət məsələləri üzrə elçisi Çarlz Hendri Azərbaycan prezidenti İlham Əliyevi və mərasim iştirakçılarını salamlayaraq Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun təbrik məktubunu oxudu.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin pavilyonları ilə tanış oldular.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və şirkətin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə prezident İlham Əliyevə axtarış-kəşfiyyat, qazma, nanotexnologiyalar, qaz təchizatı, neft kimyası, neft emalı, ekologiya, sosial və digər məsələlərlə bağlı həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verdilər. Geniş neft və qaz ixrac kəmərləri şəbəkəsinə malik Azərbaycanın strateji tərəf-*

*daşları ilə birlikdə TANAP layihəsinin həyata keçirilməsi üçün görülən işlər dövlətimizin başçısının diqqətinə çatdırıldı.*

*Azərbaycan prezidenti və xanımı ARDNŞ-in pavilyonunda ümummilli lider Heydər Əliyevin neft strategiyasının əsas məqamlarına həsr olunan bölmə ilə tanış oldular.*

*Böyük Britaniyanın bp şirkəti də respublikamızda səmərəli fəaliyyət göstərir, bir sıra layihələrin icrasında ARDNŞ ilə uğurla əməkdaşlıq edir. Dövlətimizin başçısına bp-nin kəşfiyyat və hasilat üzrə əsas texnoloji proqramları barədə məlumat verildi.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Sumqayıt Kimya Sənaye Parkının yaradılması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verdi. Qeyd olundu ki, ölkəmizdə innovativ və yüksək texnologiyaların tətbiqi əsasında rəqabətədavamlı sənaye məhsullarının istehsalı üçün silsilə tədbirlər görülür. Bu baxımdan Sumqayıt Kimya Sənaye Parkı tezliklə nəinki ölkəmizdə, eləcə də Cənubi Qafqazda və Yaxın Şərq regionunda əsas kimya sənayesi mərkəzlərindən biri olacaqdır.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ARDNŞ-in Türkiyədə «Petkim» şirkətinin neft kimyası sahəsində dünyanın ən müasir iqtisadi qurumlarından birinə çevrilməsi üçün nəzərdə tutduğu silsilə layihələr və sosial tədbirlər barədə geniş məlumat verildi.*

*Fransanın Azərbaycanda 15 ildən çox uğurla fəaliyyət göstərən «Total» şirkəti də ölkəmizlə əməkdaşlığını daha da möhkəmləndirmək əzmindədir və bir sıra layihələr üzərində iş aparır.*

*İtaliyanın SAİPEM şirkəti dənizdə və quruda genişmiqyaslı layihələrin işlənib hazırlanması və icrasında böyük təcrübəyə malikdir. Bu iqtisadi qurum ölkəmizdə «Günəşli» yatağının işlənilməsində və digər layihələrdə iştirak edir.*

*«Rosneft» də respublikamızın neft bazarında geniş təmsil olunmaq üçün səylərini artırır. 17 mindən çox əməkdaşı olan bu iqtisadi qurum neft sənayesində zəngin təcrübəyə malikdir.*

*«Global Energy Azerbaijan» respublikamızda quruda neft hasilatı sahəsində fəal mövqeyi ilə seçilir. Quruda neft hasilatı ilə məşğul olan bir neçə qurumun birləşərək yaratdığı bu şirkət yeni layihələr üzərində iş aparır.*

*17 ildir fəaliyyət göstərən «Caspian Drilling Company LTD» Xəzər dənizində qazma, quyu inşası və kompleks-layihə idarəetmə xidmətləri ilə məşğuldur, gələcəkdə beynəlxalq neft və qaz layihələrində də təmsil olunmaq üçün konkret iş aparır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Türkiyə Petrolları» şirkətinin pavilyonu ilə də tanış oldular. Diqqətə çatdırıldı ki, «Əsrin müqaviləsi» imzalanandan bəri ölkəmizin neft sənayesində səmərəli fəaliyyət göstərən bu iqtisadi qurum da Azərbaycan ilə sıx əməkdaşlıq edir.*

*Dünyanın 36 ölkəsində fəaliyyət göstərən Norveçin «Statoyl» şirkətinin pavilyonu da zənginliyi ilə seçilir. Azərbaycanda bir sıra layihələrin icrasında fəallıq göstərən bu şirkət qabaqcıl texnologiyalarını respublikamızın neft-qaz sənayesində tətbiq edir.*

*ABŞ-ın «Halliburton Eurasia Limited» şirkəti dünyanın enerji sektorunda ən qabaqcıl iqtisadi qurumlardan biri sayılır. Dövlətimizin başçısına və xanımına 80-dən çox ölkədə fəaliyyət göstərən bu şirkətin müvafiq layihələri barədə məlumat verildi.*

*Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı hərtərəfli iş aparılır. Həmin sahədə reallaşdırılan və nəzərdə tutulan silsilə layihələr prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırıldı.*

*Bildirildi ki, Bakı Ekspo Mərkəzində bp-nin təşkilatçılığı ilə «Alıcı ilə tanış ol» tədbiri də keçirilir. Başlıca məqsəd yerli şirkətlərin rəqabət qabiliyyətinin artırılması yolu ilə ölkəmizdə həyata keçirilən beynəlxalq neft-qaz layihələrində daha geniş təmsil olunmalarına təkan verməkdir.*

*Dövlətimizin başçısı və xanımı OMV iqtisadi qurumunun pavilyonu ilə də tanış oldular. Avstriyanın ən böyük sənaye şirkətlərindən biri olan OMV respublikamızla əməkdaşlığını genişləndirir.*

*Ulu öndər Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Bakı Ekspo Mərkəzində xüsusi stend yaradılıb. Burada 1994-cü ildən bəri Xəzər neft-qaz sərgisinin keçdiyi inkişaf yolu geniş əksini tapıb.*

*Prezident İlham Əliyev Beynəlxalq «Xəzər neft, qaz, neft-ayırma, neft kimyası» sərgi və konfransının Fəxri qonaqlar kitabını imzaladı.*

*Sərginin açıq havada nümayiş etdirilən ekspozisiyasında dövlətimizin başçısına «Azneftemaş» ASC-nin neft və qaz sənayesində istifadə olunan texnika və avadanlığı təqdim olundu. Qeyd edildi ki, hazırda müəssisənin məhsulları Azərbaycan və MDB bazarlarına çıxarılır. Bu məhsulların dünya bazarlarına ixracı üçün iş görülür.*

*Prezident İlham Əliyev sərgi və konfrans iştirakçılarına uğurlar arzuladı.*

## ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ SİYASƏTİ ÜZRƏ MÜŞAVİRİ AMOS HOKSTEYN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də ABŞ Dövlət katibinin enerji siyasəti üzrə müşaviri Amos Hoksteyni qəbul etmişdir.*

*Görüşdə ABŞ-ın Azərbaycandakı səfiri Riçard Morninqstar Amerika Birləşmiş Ştatlarının prezidenti Barak Obamanın məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev ABŞ prezidenti Barak Obamanın məktubuna görə minnətdarlığını bildirdi.*

*Söhbətdə XX Beynəlxalq «Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi» və konfransının əhəmiyyəti vurğulandı, Azərbaycan Respublikası ilə ABŞ arasında tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə olundu, ikitərəfli münasibətlərimizin perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MOLDOVA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VLADİMİR VORONİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Moldova Respublikasının sabiq prezidenti Vladimir Voronini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

## UKRAYNA RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ ŞURASININ KATİBİ ANDREY KLYUYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Andrey Klyuyevi qəbul etmişdir.*

*Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Andrey Klyuyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə Ukraynada çap olunmuş kitabı dövlətimizin başçısına təqdim etdi.*

*Azərbaycanın inkişafında və Azərbaycan–Ukrayna ikitərəfli əlaqələrin möhkəmləndirilməsində ulu öndərin xidmətləri ehtiramla xatırlandı.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Rusiya xalqını dövlət bayramı – Rusiya Günü münasibətilə ürəkdən təbrik edirəm.

Dost Rusiya Sizin rəhbərliyinizlə iqtisadiyyatın və sosial sahənin yenilənməsi, siyasi sistemin modernləşdirilməsi, demokratiyanın genişlənməsi, vətəndaş məsuliyyətinin artırılması, dünya birliyində ölkənin nüfuzunun möhkəmlənməsi proqramlarının həyata keçirilməsi yolunda inamla irəliləyir.

Azərbaycan və Rusiyanı çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələri bağlayır. Əminəm ki, bu ənənələrə əsaslanan dövlətlərarası münasibətlər, ikitərəfli əməkdaşlıq ölkələrimizin və xalqlarımızın firavanlığı, regionda sülh və sabitlik naminə bundan sonra da dinamik inkişaf edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, firavanlıq və uğurlar, bütün Rusiya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2013-cü il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Sloveniya dövlətlərarası münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2013-cü il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İVO YOSİPOVİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan–Xorvatiya əlaqələri dinamik şəkildə inkişaf etməkdədir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Xorvatiya xalqına daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2013-cü il*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Lüksemburqun milli bayramı – Böyük Hersoqun Təvəllüd Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Lüksemburq dövlətlərarası münasibətlərinin inkişafı dostluq əlaqələrimizin daha da möhkəmlənməsi və əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Lüksemburq xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2013-cü il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Filippin arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2013-cü il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan ilə Birləşmiş Krallığı möhkəm dostluq əlaqələri birləşdirir. Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi bütün sahələrdə dinamik inkişaf edən əməkdaşlığımız üçün əlverişli zəmin yaratmışdır.

İnanıram ki, davamlı siyasi təmaslarımız, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığımız və ölkələrimiz arasında daim gerçəkləşən mədəni mübadilələr ikitərəfli münasibətlərimizin çevrəsini genişləndirməklə bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2013-cü il*

## ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Almaniyanın sabiq Xarici İşlər naziri Hans-Ditrix Genşeri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, sənaye, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın bundan sonra da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər, enerji təhlükəsizliyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## YENİ AZƏRBAYCAN PARTİYASININ V QURULTAYI VƏ 2013-cü İLDƏ KEÇİRİLƏCƏK PREZİDENT SEÇKİLƏRİNƏ PARTİYANIN NAMİZƏDİNİN İRƏLİ SÜRÜLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*«Buta» sarayı*

*7 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7- də «Buta» sarayında keçirilən Yeni Azərbaycan Partiyasının(YAP)V Qurultayında və 2013-cü ilin payızında Azərbaycanda keçiriləcək prezident seçkilərinə partiyanın namizədinin irəli sürülməsi mərasimində iştirak etmişdir.*

*YAP-ın 600 mindən çox üzvünü təmsil edən nümayəndələr partiyanın sədri, dövlət başçısı İlham Əliyevi hərarətlə qarşıladılar.*

### Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Yeni Azərbaycan Partiyası növbəti qurultayını keçirir.

Bu doğrudan da böyük hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayır. Partiyanın qərarları, fəaliyyəti ölkəmizin uğurlu inkişafına güclü təsir göstərir.

Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bizim partiyamız 20 ildir ki, iqtidardadır. 1 həftədən sonra biz Qurtuluş

Gününü qeyd edəcəyik. Qurtuluş Günü müasir Azərbaycan tarixində bir dönüş nöqtəsi idi. Bu 20 il ərzində partiyamız bütün seçkilərdə böyük üstünlüklə qələbə qazanmışdır. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, xalq partiyasıdır. Xalqımızın bütün təbəqələri, bütün yaş qrupları partiyamızda birləşir və ölkəmizin uğurlu inkişafı üçün öz fəaliyyətini göstərirlər.

Keçən qurultaydan ötən dövr ərzində partiyamız daha da güclənmişdir. Partiyamıza böyük axın vardır. Artıq partiya sıralarında 600 mindən çox üzv vardır. Bu özlüyündə bir göstəricidir. Onu göstərir ki, partiyanın məramı, ideyaları çox cəlbedicidir. Xüsusilə, gənclərin partiyaya üzv olması çox sevindirici haldır və onu göstərir ki, partiyanın fəaliyyəti də, ideyaları da, cəmiyyətdəki rolu da vətəndaşlar üçün cəlbedicidir və partiyanın fəaliyyəti çox böyük dəstəyə malikdir.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. O vaxtkı iqtidar ölkəni uçuruma aparırdı. Səriştəsiz, bacarıqsız, biliksiz insanlar, demək olar ki, Azərbaycanın dövlət müstəqilliyinə böyük zərbə vurmuşlar. Ona görə Heydər Əliyevin ətrafında birləşən insanlar ilk növbədə, çox böyük cəsarət göstərmişlər. Çünki o vaxtkı iqtidar imkan vermədi ki, hətta partiyanın təsis qurultayı Bakıda keçirilsin. Digər tərəfdən, onlarda olan Vətən sevgisi onların bu hərəkətlərini şərtləndirdi.

Heydər Əliyevin keçən əsrin 70-ci, 80-ci illərində gördüyü işlər, Azərbaycanın inkişafına verdiyi töhfələr və Sovet İttifaqının dağılma ərəfəsindəki fəaliyyəti, cəsarətli addımları – qanlı 20 Yanvar faciəsinin pislənməsi, Kommunist Partiyası sıralarının tərk edilməsi, Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının Dövlət bayrağı kimi təsis edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi, Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməməsi – bütün bu amillər, əlbəttə ki, xalqda Heydər Əliyevə olan məhəbbəti birə on artırırdı. 1992-ci ilin

noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır.

Çünki Yeni Azərbaycan Partiyasının yaradılması müasir siyasi sistemin yaranması deməkdir. Çünki o vaxta qədər ölkədə fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni faktiki olaraq, çox primitiv səviyyədə aparmağa cəhd etmişlər. Siyasi sistem yox idi. Yeni Azərbaycan Partiyasının yaradılması siyasi sistemin yaradılması deməkdir. Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi yaradılması, eyni zamanda, müxalifət necə fəaliyyət göstərməlidir – onu da çox açıq-aydın ortaya qoymuşdur.

Yeni Azərbaycan Partiyası o vaxtkı antimilli xəyanətkar iqtidara müxalifətdə idi. Yeni Azərbaycan Partiyasının əsas amalı dövlətçilik, müstəqillik, inkişaf, təhlükəsizlik idi. Partiyamız iqtidara gələndən sonra bu ideyalar, bu amillər Azərbaycanda reallığa çevrilmişdir.

Təsadüfi deyildir ki, partiyanın yaranmasından 1 il keçməmiş Azərbaycan xalqı öz sözünü demişdir: antimilli qüvvələrin hakimiyyətdən getməsinə nail olmuşdur və ulu öndər Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etmişdir. Partiyamızın tarixi müstəqillik tarixi ilə də, demək olar ki, üst-üstə düşür. Ulu öndər Heydər Əliyevin Azərbaycanda prezident kimi fəaliyyəti də Yeni Azərbaycan Partiyasının güclü dəstəyi ilə tamamlanırdı. Heydər Əliyev və Yeni Azərbaycan Partiyası bizim siyasi xəttimizdir. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının, müstəqil Azərbaycan dövlətinin qurucusudur.

1992-ci ildə bu tarixi hadisə, bir daha demək istəyirəm ki, bugünkü Azərbaycan reallıqlarını faktiki olaraq şərtləndirmişdir. Çünki 1993-cü ildən başlayaraq ölkədə bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı, vətəndaş müharibəsininin qarşısı alındı, inkişaf, sabitlik, quruculuq, dövlətçilik dövrü başlandı. Yeni Azərbaycan Partiyasının əsas

ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır.

Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 10 il ərzində böyük və şərəfli yol keçmişdir. 1993–2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yadda qaldı, tarixdə qaldı. Bu illər ərzində dövlətçiliyin əsasları qoyuldu. Azərbaycan dünya birliyinə özünü təqdim edə bilmişdir. Beynəlxalq əlaqələrimiz inkişaf etmişdir. Dünya xəritəsində Azərbaycan özünə layiq yeri tuta bilmişdir. Siyasi və iqtisadi islahatlar uğurla aparılmışdır. Azərbaycan bir neçə beynəlxalq təşkilata üzv olmuşdur. Ölkəmizə böyük həcmdə investisiyalar cəlb edilmişdir və bu investisiyalar hesabına Azərbaycan həm o illərdə, həm bu gün inkişaf edir. Azərbaycan etibarlı tərəfdaş imicini qazanmışdır. Bu da çox vacib məsələdir. Çünki o vaxt Azərbaycan haqqında dünyada kifayət qədər təsəvvür yox idi. Azərbaycanı dünyaya olduğu kimi təqdim etmək ulu öndərin xüsusi zəhməti hesabına mümkün olmuşdur.

Ulu öndərin rəhbərliyi ilə 10 il ərzində Azərbaycan, sözün əsl mənasında, uğurlu yol keçmişdir. Yeni Azərbaycan Partiyası da öz fəaliyyətini həm ölkə daxilində, həm beynəlxalq müstəvidə genişləndirə bilmişdir. Bu gün bizim beynəlxalq əlaqələrimiz də çoxşaxəlidir. Müxtəlif partiyalarla, müxtəlif qitələrdə fəaliyyət göstərən partiyalarla biz uğurlu əməkdaşlıq edirik. Bundan sonra da bu əməkdaşlığı davam etdirəcəyik.

2003-cü ildən sonra Azərbaycanın uğurlu inkişafı davam etmişdir. Bu inkişafın təmin edilməsində, bir daha demək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının çox böyük rolu vardır. Çünki 2003-cü il bir sınaq ili idi. Həm dövlətçiliyimizin əsaslarının nə qədər güclü olduğunu elə bil ki, tarix sınayırdı, həm də Yeni Azərbaycan Partiyasının öz liderinə, dövlətçiliyə nə qədər sadiq olduğunu tarix sınaqdan keçirirdi. Bütün bu sınaqlardan bizim partiyamız üzüağ çıxdı. Bütün bu sınaqlardan biz daha da güclənmiş şəkildə çıxa bildik.

2003-cü ildə, demək olar ki, Azərbaycanın gələcək uğurlu inkişafı müəyyən edilirdi: ya inkişaf yolu ilə gedəcəkdik, ya da

yenə tənəzzülə uğrayacaqdıq. Yenə də mənfur qüvvələr Azərbaycanın iqtidarını zəbt edəcəkdilər, necə ki, 1992-ci ilin may ayında onu zəbt etmişdilər. Bu 2 istiqamət arasında seçim, necə deyərlər, ortada idi. Yeni Azərbaycan Partiyasının mütəşəkkil fəaliyyəti, öz liderinə sədaqəti, Azərbaycan xalqının bu siyasətə verdiyi dəstək hesabına Azərbaycan inkişaf yolunu seçdi və son 10 il ərzində bu inkişaf yolu ilə uğurla irəliyə gedir.

Son 10 il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf etmişdir. İkinci belə ölkə dünya xəritəsində tapılmaz ki, Azərbaycan qədər uğurlar əldə edə bilsin. Bu uğurlar çoxşaxəlidir, bütün sahələri əhatə edir. Həm beynəlxalq, həm daxili siyasətlə, iqtisadi islahatlarla, siyasi islahatlarla bağlı hara baxsan Azərbaycan uğurla, inamla, sürətlə inkişaf edir.

Bu inkişaf artıq bütün mötəbər beynəlxalq təşkilatlar tərəfindən qeyd edilir, qiymətləndirilir. Azərbaycanın təcrübəsi artıq ən müsbət təcrübə kimi öyrənilir. Sirr deyildir ki, bizim keçdiyimiz yol inkişafda olan, yaxud da ki, çətinliklər içində yaşayan bəzi ölkələr üçün bir işıq yoludur, bir istiqamətdir. Bu öz növbəsində, bizim üzərimizə daha da böyük məsuliyyət qoyur.

2003–2013-cü illərdə – son 10 il ərzində Azərbaycan beynəlxalq aləmdə ən böyük zirvələrə çata bilmişdir, dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu bizim diplomatiyamızın, siyasətimizin, dövlətçiliyimizin qələbəsidir, təntənəsidir. Dünyada bu qurumdan ali qurum yoxdur. Keçən ilin mayında Azərbaycan bu mötəbər quruma sədrlik etmişdir.

Biz bu gün qlobal problemlərin həlli ilə məşğuluq. Bizim mövqemiz, səsimiz böyük əhəmiyyətə malikdir. Biz digər beynəlxalq təşkilatlarda uğurlu fəaliyyət göstəririk, mövqemizi müdafiə edirik. Biz üzv olduğumuz təşkilatlarda maraqlarımızı müdafiə edirik, həm siyasi cəhətdən, həm də bütün başqa cəhətlərdən o təşkilatların inkişafına böyük töhfə veririk. İkitərəfli formatda qurduğumuz xarici siyasət nümunə ola bilər. Bu siyasət bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı, hörmət və bir-birinin

işinə qarışmamaq prinsiplərinin üzərində qurulubdur. Bu bizim yanaşmamızdır. Biz heç bir başqa ölkənin daxili işinə qarışmırıq. Hesab edirəm ki, əgər dünyada bütövlükdə bu meyillər üstünlük təşkil etsə, müharibələr də, qarşıdurmalar da azalar. Ümumiyyətlə, dünya daha da çox əməkdaşlıq istiqamətində inkişaf edər. Ona görə ikitərəfli formatda, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ümumi xarici siyasətlə bağlı konsepsiyamız təqdirəlayiqdir, dünyada böyük hörmətə malikdir və bizə imkan verir ki, daxildə də uğurlu siyasətimizi aparaq. Çünki hər bir ölkə maraqlı olmalıdır ki, onun ətrafında vəziyyət sabit, sülh, əmin-amanlıq olsun və ölkə daxilində proseslər daha da normal şəraitdə getsin.

Daxili siyasətlə bağlı Azərbaycanda çox böyük işlər görülmüşdür. Bir daha demək istəyirəm ki, Yeni Azərbaycan Partiyası siyasi sistemimizin ən əsas sütunudur və ən böyük təsirə malik olan partiyadır. Ölkəmizdə siyasi islahatların dərinləşməsində də Yeni Azərbaycan Partiyasının xüsusi rolu və məsuliyyəti vardır. Biz 10 il ərzində iqtisadi islahatların aparılması ilə dünyanın ən sürətli iqtisadi inkişafına nail ola bilmişik. İkinci belə ölkə tapılmaz ki, 10 il ərzində iqtisadiyyatı 3 dəfədən çox artsın və bütün başqa statistik göstəriciləri də ən yüksək səviyyədə olsun. Hər bir ölkə üçün bu, nümunə ola bilər. Yoxsulluq 6 faizə, işsizlik 5,2 faizə düşübdür. 1 milyon 100 mindən çox yeni iş yeri açılmışdır. Xarici dövlət borcumuz ümumdaxili məhsulun cəmi 7 faizini təşkil edir. Bütün beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırır. Ölkəmiz artıq rəqabətqabiliyyətliliyə görə dünya miqyasında 46-cı yerdədir. Çox böyük iqtisadi təşəbbüslər irəli sürülür. Çox böyük islahatlar aparılır. Bu reallıqdır, bu reallıq bizə imkan verir ki, gələcəyə nikbinliklə baxaq, öz gələcəyimizi planlaşdıraq və biz gələcəyimizi planlaşdırırıq. Artıq biz «Azərbaycan–2020: gələcəyə baxış» inkişaf konsepsiyasının həyata keçirilməsi ilə məşğuluq. Biz gələcəyə baxırıq. Bu gün Azərbaycanda icra edilən layihələr gələcəyə yönəldilibdir. Biz elə etməliyik ki, bundan sonra da onilliklər ərzində ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin edilsin. Şübhə etmirəm ki, biz buna nail olacağıq.

Son 10 il ərzində Azərbaycanda bütün başqa istiqamətlər üzrə də böyük nailiyyətlər əldə edilmişdir. Bütün bu nailiyyətlərin təməlində Heydər Əliyev siyasətidir, onun qoyduğu yoldur, Yeni Azərbaycan Partiyasının ölkəmizin aparıcı siyasi qüvvəsi kimi fəallığıdır. Sosial məsələlərin həllində, xarici və iqtisadi islahatlarda, daxili siyasətdə – bütün istiqamətlər üzrə böyük inkişaf vardır. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycanda aparılan islahatlar çox ciddi xarakter daşıyır və köklü islahatlardır. Biz tarixdən və bəzi ölkələrdə gedən bugünkü proseslərdən də bilirik ki, köklü iqtisadi islahatlar bir çox hallarda kütləvi etirazlara səbəb olur. Çünki bu islahatlar bir çox hallarda insanların maraqları hesabına aparılır. Bizdə isə həm iqtisadi islahatlar aparılmışdır – bu gün iqtisadiyyatımızın 83 faizi özəl sektorda formalaşır – eyni zamanda, çox güclü sosial proqramlar da icra edilmişdir.

Son 10 ildə Azərbaycanda orta maaş 5 dəfə, orta pensiya isə 8 dəfə artmışdır. Sosial rifah, insanların maddi vəziyyətinin yaxşılaşdırılması, müxtəlif sosial proqramlar, əlbəttə ki, bizim əsas istiqamətimizdir. Sovet dövründən qalmış əmanətlərin insanlara verilməsi də bu siyasətin təzahürüdür. Ona görə görülmüş işlər deməyə əsas verir ki, biz gələcəkdə də bu uğurlu meyilləri daha da gücləndirəcəyik və Azərbaycanın uğurlu inkişafını təmin edəcəyik.

Görülən bütün işlər Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki nüfuzunu da artırır. Yeni Azərbaycan Partiyasının siyasi səhnədə ciddi rəqibi yoxdur. Bu reallıqdır. Ona görə yox ki, biz kiməsə problem yaradırıq, yaxud da hansısa xüsusi imtiyazlara malikik. Hər bir siyasi qüvvə hansı çərçivədə fəaliyyət göstərirsə, biz də eyni çərçivədə fəaliyyət göstəririk. Sadəcə, ona görə ki, görülən işlər, islahatlar, insanların yaşayış səviyyəsinin qalxması, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi bizə olan inamı daha da artırır. Ancaq, əlbəttə ki, siyasi mübarizə aparılır və aparılmalıdır. Mən bir daha demək istəyirəm ki, Yeni Azərbaycan Partiyası siyasi davranış qaydalarını da müəyyən etmişdir və çox şadam ki, siyasi fəaliyyətlə məşğul olan əksər siyasi partiyalar bu sivil siyasi davranış qaydalarına əməl edirlər. Amma elələri vardır

ki, onlar islah oluna bilməz. Bu onlara şamil edilə bilməz. Bu, antimilli qüvvələrdir. Vaxtilə iqtidarda olmuş və bu gün də iqtidar arzusu ilə heç bir əsası olmadan yaşayan antimilli xəyanətkar, satqın qruplaşmalardır ki, onlar öz fəaliyyətlərini tamamilə başqa istiqamətdə görürlər. Onların siyasi fəaliyyəti – əgər buna siyasi fəaliyyət demək mümkündürsə – tamamilə başqa istiqamətdə gedir. Onların siyasi mübarizə üsulu söz deyil, fikir deyil, «Molotov kokteyli»dir. Onların dayaqları xalq deyil, xalqın iradəsi deyil, xaricdən verilən qrantlardır, pullardır. Onların söz azadlığı donos yazmaqdır, Azərbaycanı ləkələməkdir, beynəlxalq təşkilatlara uydurmalar, iftiralar göndərməkdir, yaymaqdır. Onların davranış qaydaları ermənilərlə birləşib Azərbaycanı ləkələmək və Azərbaycan haqqında mənfi rəy formalaşdırmaqdır.

Əlbəttə, belə qruplaşmaların Azərbaycanın siyasi həyatında yeri yoxdur və ola da bilməz. Son 20 ilin tarixi bunu bir daha təsdiq edir ki, Azərbaycanın gələcəyini, müstəqilliyini düşünməyən qüvvəyə Azərbaycanın siyasi səhnəsində yer yoxdur. Biz müstəqil dövlət qurmuşuq. Ulu öndər canı hesabına müstəqil dövlət qurmuşdur. Biz müstəqilliyi qoruyuruq, saxlayırıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Müstəqillik sadəcə olaraq, dövlət atributlarına malik olmaq deyildir. Müstəqillik müstəqil siyasət aparmaq, öz maraqlarını müdafiə etmək, öz milli maraqlarını hər şeydən üstün tutmaqdır. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən, sözün əsl mənasında, müstəqil dövlətdir. Biz bu müstəqilliyi möhkəmləndirməliyik. Bir daha demək istəyirəm ki, biz hər bir tərəfdaşla bərabərhüquqlu münasibətlər qurmuşuq. Biz ancaq bu münasibətləri qəbul edirik. Başqa cür ola da bilməz. Bizə rəqib olmaq istəyənlər xarici dairələrin təlimatı ilə fəaliyyət göstərirlər. Onlar üçün xaricdən verilən vəsait, oradan verilən təlimatlar əsasdır. Onlar hakimiyyətə gəlmək üçün istənilən güzəştə getməyə hazırdırlar. Biz bunu bilirik. Biz bilirik Azərbaycanda nələr baş verir, hansı proseslər gedir. Hətta bizim üçün ən vacib olan məsələdə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində də hakimiyyətə gəlmək üçün böyük güzəştlərə getməyə hazırdırlar.

Bunu gizlətmirlər. Söz verirlər ki, əgər onlara böyük dəstək verilərsə, Qarabağı da ermənilərə bağışlamağa hazırdırlar.

Mən bunu ona görə deyirəm ki, bu, artıq siyasi səhnədə bir reallıqdır. Ona görə yox ki, bizi narahat edir. Tamamilə yox. Yenə də deyirəm, bizim qarşımızda rəqabət aparmaq qabiliyyətində olan heç bir qüvvə görmürəm. Ona görə ki, son illər ərzində görülmüş işlər bu inamı artırır.

Sadəcə olaraq, çox istərdim ki, Azərbaycanda siyasi mübarizə dövlətçilik əsasında qurulsun. Əlbəttə, siyasi mübarizə olmalıdır. İqtidar–müxalifət münasibətləri də olmalıdır. Yəni bizdə dövləti düşünən müxalifət nümayəndələri vardır və onların fikirləri ayrıdır, ölkənin inkişaf strategiyası, iqtisadi-siyasi sahə ilə bağlı öz fikirləri ola bilər. Bu təbiidir. Ancaq əsas odur ki, dövlətçiliyə, müstəqilliyə bütün siyasi qüvvələr sadiq olsunlar. O qüvvələr ki, buna sadiq deyil, o qurumlarda yeniləşmə getməlidir. Yeni insanlar gəlməlidir rəhbərliyə və naftalin qoxusu verən köhnəlmiş «liderlər» tarixin arxivinə getməlidir. Əslində, onlar çoxdan tarixin arxivindədir, bunu hələ ki, axıra qədər dərk etməmişlər.

Biz isə uğurla inkişaf edirik. Biz seçkilərə də uğurla gedəcəyik. Çünki bizim amalımız qüdrətli Azərbaycandır, müstəqillikdir, inkişafdır, sosial rifahdır. Ölkə qarşısında duran vəzifələr də məhz Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə bundan sonra da uğurla icra edilə bilər. Bu vəzifələrin arasında ilk növbədə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dayanır. Bizim mövqemiz prinsipialdır. Mən bunu dəfələrlə bəyan etmişəm. Azərbaycan xalqı və Yeni Azərbaycan Partiyası bu mövqeni birmənalı şəkildə dəstəkləyir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və olmayacaqdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Azərbaycan öz suverenliyini, ərazi bütövlüyünü istənilən yolla bərpa edəcəkdir. Bu münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında öz həllini tapa bilər. Heç bir başqa variant nəzərdən keçirilmir. Heç bir başqa variant qəbul edilə bilməz.

Mən inanıram və əminəm ki, biz bu məsələni həll edəcəyik. Çünki bizim artan xarici və daxili gücümüz, artan ordu potensialımız və iqtisadi inkişaf qələbəmizi şərtləndirəcəkdir. Ermənistan isə, demək olar ki, tamamilə iflasa uğrayıb. Ermənistanda hakimiyyəti zəbt etmiş kriminal korrupsioner diktatura rejimi o ölkəni uçuruma aparır. Ölkədə kütləvi qaydada miqrasiya baş verir. Hər il 100 minə qədər vətəndaş o ölkəni həmişəlik tərk edir. Birinci növbədə ona görə ki, ümidləri yoxdur. İqtisadiyyat, demək olar ki, iflic vəziyyətdədir. Digər tərəfdən, o ölkəni idarə edən qaniçən, gözü doymayan kriminal quldur rejim insanlara divan tutur. Bütün seçkilər Ermənistanda kütləvi şəkildə saxtalaşdırılır, siyasi mübarizə orada qanlı faciələrə gətirib çıxarır. Bu ölkə terrorçu ölkədir və terrorçu, quldur üsul-idarəsi ilə idarə edilir. Belə olan halda nə qədər ki, indiki kriminal iqtidar orada rəhbərlikdədir, o qədər də tez Ermənistan tamamilə çökəcəkdir.

Mən tam əminəm, məhz buna görə və digər tərəfdən, artan gücümüz də bunu diktə edir ki, biz mütləq ərazi bütövlüyümüzü bərpa edəcəyik. Sadəcə olaraq, buna vaxt və güclü siyasət lazımdır. Güzəştsiz, kompromissiz, milli maraqlara söykənmiş siyasət ki, bu gün bizim iqtidar və yalnız bizim iqtidar bunu təmin edə bilər. Yalnız bizim iqtidar bütün təzyiqlərə, təhdidlərə, təxribatlara dözə bilər. Bizə qarşı aparılan kampaniyanın təməlində bir çox hallarda məhz bu münaqişə dayanır: Azərbaycanı zəiflətmək, ləkələmək, imicinə zərbə vurmaq ki, Qarabağ məsələsində bizdən güzəştlər qoparsınlar. Bu keçməyəcəkdir. Çünki bizim işimiz haqq işidir və xalq da bizim siyasətimizi dəstəkləyir.

Daxili siyasətlə bağlı deməliyəm ki, biz bundan sonra da Azərbaycanda demokratiyanı inkişaf etdirəcəyik. Söz azadlığı, vicdan azadlığı, din azadlığı, sərbəst toplaşma azadlığı – bütün bu azadlıqlar mövcuddur. Azərbaycanda azad internet fəaliyyət göstərir, heç bir məhdudiyyət qoyulmur. Demokratiyanın inkişafı bizim üçün əsas vəzifədir. Bu gün Azərbaycan demokratiyanın inkişafına görə heç kimdən geridə qalmır. Bəzi

hallarda bizdə olan demokratik vəziyyət başqa ölkələr üçün də örnək ola bilər və olmalıdır.

İqtisadi sahə ilə bağlı şaxələndirmə bizim əsas istiqamətimizdir. Bu sahədə də böyük uğurlar əldə edilibdir. Bu ilin 4 ayında qeyri-neft sektorumuz 11 faiz artmışdır ki, bu bəlkə də dünyada ən yüksək göstəricidir. Vaxtilə qəbul edilmiş bütün qərarlar icra edilir. Biz neft amilindən asılılığımızı azaldırıq. Bu il artıq ümumi daxili məhsulumuzda neft sektoru azlıq təşkil edir. Yəni şaxələndirmə baş veribdir, bundan sonra sənayeləşmə prosesi daha da sürətlə gedəcəkdir. Böyük sənaye kompleksləri yaradılacaqdır. Bu da qarşımızda duran əsas vəzifələrdən biridir. Sosial məsələlərin həllində bundan sonra da çox ciddi addımlar atılacaqdır. Maaşlar, pensiyalar, müavinətlər artırılacaqdır. Məcburi köçkünlərin yaşayış səviyyəsini qaldırmaq üçün bundan sonra da işlər görüləcəkdir. Biz bütün istiqamətlər üzrə öz siyasətimizi davam etdirəcəyik. Ərzaq təhlükəsizliyini tam şəkildə təmin etməliyik. Bir neçə il əvvəl qarşıya vəzifə qoyulmuşdur ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin edək. Biz bu hədəfə də yaxınlaşırıq.

Nəqliyyat təhlükəsizliyi üçün Azərbaycan indi əsas rol oynayır. Bakı–Tbilisi–Qars dəmir yolunun başa çatdırılması bölgənin, qitənin, qitələrin nəqliyyat xəritəsini dəyişdirəcəkdir. Yenə də Azərbaycan burada təşəbbüskardır və əsas tərəfdaşdır.

Enerji siyasətimizlə bağlı bütün addımlar düşünülmüş qaydada atılır. Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, biz daxildə bunu tam şəkildə həll etmişik. İndi Avropanın enerji təhlükəsizliyi məsələlərinin həllində də Avropa ilə bu istiqamətdə tərəfdaş kimi işləyirik, fəaliyyət göstəririk. Azərbaycan «Cənub Qaz Dəhlizi»nin əsas iştirakçısıdır, əsas təşəbbüskarıdır. Azərbaycanda qəbul edilən qərarlar gələcəkdə enerji təhlükəsizliyi ilə bağlı olan bütün yeni məsələlərə əsas istiqamət verəcəkdir. Bu, böyük uğurumuzdur və böyük məsuliyyətimizdir. Biz bu məsuliyyətə hazırıq. Çünki ulu öndərin qoyduğu Azərbaycanın neft strategiyası bu günə qədər

uğurla icra edilibdir. Bu gün qaz amili də bu strategiyanı daha da zənginləşdirir.

Bir sözlə, bütün istiqamətlər üzrə konkret proqramlarımız, planlarımız, konsepsiyalarımız, icra mexanizmlərimiz var. Regionlarda gedən işlərlə bağlı gələn ilin əvvəlində üçüncü Dövlət Proqramı icra ediləcək. Birinci və ikinci proqramların icrası nəticəsində bölgələr canlandı, şəhərlər abadlaşdı, gözəlləşdi, müasir infrastruktur yaradılır, kəndlərimiz çiçəklənir, bütün infrastruktur, yollar, məktəblər, xəstəxanalar, olimpiya kompleksləri, qazlaşdırma, elektrik enerjisi, su xətləri, bütün infrastruktur yenilənir. Bütün infrastruktur sistemini tamamilə yeniləşdiririk ki, bundan sonra ən azı 50–100 il qurduğumuz infrastruktur insanlara xidmət göstərsin.

Vəzifələr daha da çoxdur, bütün vəzifələri burada sadalasam, bir neçə saat vaxt lazım olar. Mən bu məsələlərlə bağlı vaxtaşırı vətəndaşlara müraciət edərək, fikirlərimi bildirirəm. Gələcək inkişafımızla bağlı heç bir tərəddüdümüz, şübhəmiz yoxdur. Azərbaycan inamla, uğurla irəliyə gedəcək. Bunu təmin etmək üçün Azərbaycanda Heydər Əliyev siyasəti bundan sonra da daim üstünlük təşkil etməlidir. Əminəm ki, biz buna nail olacağıq. Sağ olun.

Qurultay:

– Azərbaycan xalqının və 600 minlik Yeni Azərbaycan Partiyasının üzvlərinin iradəsini ifadə edərək;

– Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadi, sosial, siyasi, mədəni və beynəlxalq inkişafının yüksək sürətini qeyd edərək;

– son 10 il ərzində həyatımızın bütün sahələrində köklü dəyişikliklərin baş verdiyini vurğulayaraq;

– Prezident İlham Əliyevin rəhbərliyi altında növbəti 5 ildə Azərbaycanın hərtərəfli inkişafına, ölkəmizin güclü, qüdrətli dövlətə çevrilməsinə daha əzəmətli töhfələr verəcəyinə dərin inamını bəyan edərək, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 54-cü maddəsinə əsasən qərara alır:

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyev 2013-cü ilin prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürülsün!

Beləliklə, cənab İlham Əliyevin 2013-cü ilin prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizəd irəli sürülməsi haqqında partiyanın qərarı yekdilliklə qəbul olunur.

* * *

*Sonra İlham Əliyevin yenidən YAP-ın sədrliyinə namizədliyi irəli sürüldü.*

*Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Kərim Kərimov partiya üzvlərinin bu namizədliyi dəstəklədiyini diqqətə çatdırdı.*

*YAP-ın icra katibi Əli Əhmədov isə V Qurultayın qərarına əsasən İlham Heydər oğlu Əliyevin yenidən partiyanın sədri seçildiyini bəyan etdi.*

## Yeni Azərbaycan Partiyasının sədri, prezident İlham Əliyevin qurultayda yekun çıxışı

Əziz dostlar, qurultayımız öz işini yekunlaşdırır. İlk növbədə, partiyamızın rəhbər orqanlarına seçilmiş partiya yoldaşlarımı ürəkdən təbrik edirəm. Əminəm ki, həm Siyasi Şura, həm partiyamızın İdarə Heyəti, partiya sədrinin yeni seçilmiş müavinləri partiyamızın işinə öz töhfələrini verəcəklər. Biz hamımız bundan sonra da çalışmalıyıq ki, partiyamız daim güclənsin və Yeni Azərbaycan Partiyası qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla yerinə yetirsin, onları icra etsin.

Mənə göstərilən böyük etimada görə qurultaya minnətdaram. Bu, böyük etimaddır, böyük məsuliyyətdir. Mən bunu dərk edirəm və son 10 il ərzində çalışmışam ki, bu etimadı doğruldum. Çalışmışam ki, öz işimlə, öz fəaliyyətimlə ulu

öndər Heydər Əliyevin qoyduğu siyasətə öz töhfəmi verim. Mənim bir məqsədim, bir amalım vardır. Bu, güclü Azərbaycan dövlətidir. Ulu öndərin bizə miras qoyduğu dövlətçiliyi möhkəmləndirmək, iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək mənim əsas vəzifələrimdir və son 10 il ərzində çalışmışam ki, bütün istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafını təmin edim.

Bu gün səslənən çıxışlarda görülən işlərin bir hissəsi diqqətə çatdırıldı. Doğrudan da son illər ərzində görülmüş bütün işləri sadalamaq üçün bir neçə gün vaxt lazım olacaqdı. Kərim müəllim çox maraqlı statistikanı diqqətimizə çatdırdı. Mən, sözün düzü, bölgələrə etdiyim səfərləri saymıram. Amma şadam ki, bu statistika da artıq diqqətdən kənarda qalmayıbdır. Əlbəttə ki, bölgələrə göstərdiyim diqqət bölgələrin inkişafına çox böyük təkan vermişdir. Çünki bizim birinci qəbul etdiyimiz ciddi proqramımız, əsas proqramımız regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı olmuşdur. 2004–2008-ci illəri əhatə edən proqram artıqlaması ilə icra edilmişdir və proqramın əsas məqsədi məhz kəndlərlə şəhərlər arasındakı fərqi azaltmaqdan ibarət idi, təbii ki, kəndlərin inkişafı hesabına. Bu proqramın və ondan sonra qəbul edilmiş 2-ci Dövlət Proqramının uğurlu icrası, demək olar ki, Azərbaycanın hərtərəfli inkişafına həlledici töhfə vermişdir. Bu gün Azərbaycan iqtisadiyyatının çoxşaxəli iqtisadiyyat kimi inkişafı məhz bu proqramların hesabına mümkün olmuşdur. Bu gün regionlarda gedən canlanma, inkişaf, abadlıq, quruculuq işləri göz oxşayır. Hər bir vətənpərvər vətəndaş qürur hissi ilə bunu görür. Hər bir vətəndaş, bölgələrdə yaşayan sakinlər öz işi ilə bu ümumi işimizə dəstək olurlar.

Ancaq müstəqillik dövründə görülən bu işlər sovet dövrü ilə müqayisədə təkcə mənim fəaliyyətimlə bağlı deyildir. Bu, müstəqilliyin təzahürüdür. Bu bir daha onu göstərir ki, müstəqillik öz əlimizdə olan zaman, Azərbaycan xalqı öz taleyinin sahibi olduğu bir halda böyük işlər görmək mümkündür. Biz uzun illər – onilliklər, əsrlər boyu müstəqillikdən

məhrum idik. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Xalqımız inkişaf edibdir. Baxmayaraq ki, müstəqil olmamışıq, Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilmişdir, öz Azərbaycan dəyərlərini hər şeydən üstün tutmuşdur və bu dəyərlər üzərində bu gün müstəqil dövlət qurulmuşdur. Ancaq bu müstəqillik dövrü və ondan əvvəlki dövrlərlə müqayisə açıq-aydın göstərir ki, müstəqilliyin nə qədər böyük üstünlükləri vardır. Biz bunu real işlərdə, tikilən infrastruktur layihələrində, abadlaşan şəhərlərdə, artan imkanlarımızda hiss edirik, görürük. Bizim təbii sərvətlərimiz də, nəhayət, Azərbaycan xalqının maraqlarına xidmət edir. Müstəqillik ən böyük sərvətdir, ən böyük dəyərdir və 20 il ərzində – 1993-cü ildən başlayaraq bu günə qədər müstəqilliyimiz möhkəmlənir.

Ancaq 1993-cü ilə qədər müstəqillik şərti xarakter daşıyırdı, təhlükə altında idi və ulu öndərin xalq, millət, tarix qarşısında gördüyü işlər çox böyük qiymətə layiqdir. Azərbaycan xalqı Heydər Əliyevin əziz xatirəsini qəlbində yaşadaraq bu hörmət və ehtiramını onun xatirəsinə ifadə edir. Biz müstəqil ölkə kimi inkişaf edirik. Biz bundan sonra əbədi müstəqil olacağıq. Azərbaycan xalqı dünyaya sübut edib ki, müstəqil dövlətdə yaşaya, müstəqil dövləti qura, müstəqilliyi qoruyub saxlaya bilər. Son 10 il ərzində biz bu yolda böyük uğurlara imza atmışıq. Bu yolda təzyiqlər də, təxribatlar da, təhdidlər də oldu. Azərbaycanın dostları çoxdur, Azərbaycan ilə dostluq, əməkdaşlıq etmək istəyən ölkələrin sayı durmadan artır. Bu da təbiidir. Çünki Azərbaycan güclü dövlət, etibarlı tərəfdaş kimi, ədalətli mövqeyinə görə dünya miqyasında böyük şöhrət qazana bilmişdir. Buna baxmayaraq – bu gün çıxışlarda da bu səsləndi, biz də bunu görürük və bilirik – elə dairələr var ki, Azərbaycanın uğurlu inkişafını həzm edə, qəbul edə bilmir, uğurlarımıza qısqanclıqla, paxıllıqla yanaşırlar. Azərbaycanın hətta dünyanı bürümüş böhran illərində də uğurlu inkişafını qəbul edə bilmirlər. Biz onları tanıyırıq, bilirik.

Son 10 il ərzində bütün təxribatlara, təzyiqlərə, böhtan kampaniyalarına baxmayaraq, biz yolumuzdan dönməmişik və

dönməyəcəyik. Əgər hər bir insan haqlı olduğunu bilirsə, buna əmindirsə, o, yoldan dönməməlidir. Azərbaycan öz inkişafı, öz qətiyyəti ilə, bölgədə gedən proseslərə öz münasibətilə sübut edib ki, biz müstəqil dövlətik və biz öz maraqlarımızı qoruya bilərik. Ölkə daxilində və ölkəmizin xaricində bu bölgədə gedən proseslərə təsir imkanlarımız artır və biz öz milli maraqlarımızı istənilən yolla müdafiə edirik, bunu bacarırıq və bunu sübut etmişik. Milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Bizim bütün ideologiyamız, bütün səylərimiz milli maraqların qorunmasına yönəldilibdir. Əlbəttə, gənc, müstəqil dövlət üçün bu təbiidir. Çünki bu salonda əyləşənlərin böyük əksəriyyətinin ömrünün bir hissəsi, yarısı, yaxud da ki, böyük hissəsi sovet dövrünə təsadüf edir. Ancaq biz xoşbəxtik ki, müstəqil Azərbaycanı gördük. Bizdən əvvəlki nəsillər müstəqillik arzuları ilə, müstəqillik eşqi ilə yaşamışlar. Ancaq müstəqilliyi görə bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil Azərbaycan dövlətində yaşayırıq. Bizim məsuliyyətimiz ondadır ki, biz – bax, burada toplaşan cəmiyyətimizin əsas siyasi fəalları bu müstəqilliyi möhkəmləndiririk, qoruyuruq, əbədi, dönməz edirik, uzunmüddətli inkişaf strategiyamızı müəyyən edirik, Azərbaycanın uzunmüddətli dayanıqlı inkişafını təmin edirik.

Bizim tərəfimizdən irəli sürülmüş layihələr – enerji layihələri, iqtisadi layihələr, siyasi təşəbbüslər ölkəmizin uzun illər, onilliklər bundan sonra da uğurlu inkişafını təmin edəcəkdir. Təki siyasi xətt dəyişməz olaraq qalsın və mən heç şübhə etmirəm ki, bundan sonrakı illərdə də, onilliklər bundan sonra da siyasi xəttimiz dəyişməz olaraq qalacaqdır. Çünki son 20 il ərzində görülən işlər və müstəqilliyimizin tarixi sübut edib ki, bu, yeganə düzgün siyasətdir, yeganə düzgün yoldur.

Mən çox şadam ki, son 10 il ərzində çalışmışam ki, bu böyük məsuliyyəti öz çiynimdə aparım. Çalışmışam ki, ulu öndərin siyasətinə layiq olum. Çalışmışam ki, onun siyasi xəttini sizinlə bərabər, Azərbaycan xalqının dəstəyi ilə yaşadım. Qürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan ulu öndərin görmək

istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir.

Bu gün biz – ulu öndər Heydər Əliyevin siyasi varisləri, davamçıları onun ölməz xatirəsi qarşısında bir daha söz verir və and içirik ki, bu yolla gedəcəyik, bu yoldan dönməyəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik!

## IV RUSİYA–AZƏRBAYCAN REGİONLARARASI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli dostlar!

Sizi – qəhrəman şəhər Volqoqradda keçirilən illik Rusiya–Azərbaycan Regionlararası Forumunun iştirakçılarını və təşkilatçılarını ürəkdən salamlayıram. Yaranmış ənənəyə görə, bu forum çərçivəsində iclaslar növbə ilə Azərbaycanda və Rusiyada keçirilir. Bu, hüquq bərabərliyi, mehriban qonşuluq və qarşılıqlı maraq prinsiplərinə əsaslanan ikitərəfli əlaqələrin davamlı inkişafına dəlalət edir.

Əlamətdar haldır ki, bu qısa müddətdə Forum regionlararası əməkdaşlığın aktual məsələlərinin müzakirəsi, ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına şərait yaradan birgə təklif və qərarlar hazırlanması üçün səmərəli bir məkana çevrilmişdir.

Bir məqam dərin rəmzi məna daşıyır ki, bu dəfə görüş yeri kimi, cari ildə Stalinqrad ətrafında qələbənin 70 illiyini qeyd etmiş Volqoqrad şəhəri seçilmişdir. Axı faşist Almaniyasını ölkənin içərilərinə soxulmaq, o cümlədən silahlı qüvvələrin döyüş qabiliyyətinin təmin edilməsində mühüm rol oynayan Bakı neftini ələ keçirmək imkanından məhrum etmiş, bununla da bütün müharibənin gedişini dəyişmiş ən şiddətli döyüşlər məhz bu torpaqda gedirdi. O müharibə illərində xalqlarımızın qismətinə düşmüş ağır sınaqlardan birlikdə çıxdıq.

Sevindirici haldır ki, bu gün Azərbaycan ilə Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Ölkələrimiz siyasi, ticari-iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. Rusiya Federasiyasının subyektləri ilə Azərbaycanın regionları arasında əlaqələr səmərəli və dinamik inkişaf edir, əməkdaşlığın coğrafiyası genişlənir.

Əminəm ki, Forum iştirakçıları qarşılıqlı anlaşmanın dərinləşməsinə sanballı töhfə verən, ikitərəfli əlaqələri daha da möhkəmlədən işgüzar və konstruktiv dialoqa nail olacaqlar.

Sizə səmərəli iş arzulayır, ən xoş diləklərimi bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2013-cü il*

## MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN YENİ KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*7 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 7-də Azərbaycan Milli İncəsənət Muzeyinin yeni keçid korpusunun açılışında iştirak etmişlər.*

*Azərbaycanda muzey işi qədim dövrlərdən başlayaraq özünəməxsus inkişaf yolu keçib. Ölkəmizdə yaradılan ilk muzeylərdən biri olan Azərbaycan Milli İncəsənət Muzeyi paytaxtın mərkəzində XIX əsrin sonlarında inşa edilən ikimərtəbəli binada yerləşir. Burada ölkəmizin incəsənətinə aid əsərlərdən ibarət ekspozisiya və muzey fondları, eləcə də Azərbaycanın, Qərbi Avropanın, Rusiyanın rəssam, heykəltəraş və digər incəsənət nümayəndələrinin əsərlərindən ibarət kolleksiyalar daim zənginləşir. Muzeydə ardıcıl olaraq elmi-tədqiqat və elmi-bərpa işləri aparılır, kamera musiqisi konsertləri, yubiley mərasimləri təşkil olunur.*

*Azərbaycanda muzey işinin yaxşılaşdırılması xüsusi diqqət mərkəzindədir. Bu baxımdan prezident İlham Əliyevin «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» 2007-ci il 6 mart tarixli Sərəncamı milli-mədəni sərvətlərimizin qorunması, muzey fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarlarının gələcək nəsillərə çatdırılması işində mühüm keyfiyyət dəyişikliyinə təkan vermişdir. Respublikamızda muzey şəbəkəsinin inkişafı və muzey işinin hərtərəfli yaxşılaşdırılmasına Heydər Əliyev Fondu da əvəzsiz töhfələr bəxş edir.*

*Azərbaycan Milli İncəsənət Muzeyinin yeni inşa olunan keçid korpusu bu sahəyə dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğının növbəti əyani təzahürüdür.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına muzeyin yeni korpusu barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, yeni korpus Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə orijinal layihə əsasında inşa olunub. Əsaslı vəsait qoyuluşu hesabına tikinti işlərinə 2009-cu ildə başlanılıb. İnşaat zamanı milli memarlıq ənənələri ilə müasir üslubun bir-birini üzvi şəkildə tamamlamasına xüsusi diqqət yetirilib. Birinci mərtəbədəki fotostenddə tikintinin gedişi və inşaat işlərindən sonrakı vəziyyəti əks etdirən fotolar yerləşdirilib.*

*Azərbaycan Milli İncəsənət Muzeyinin yeni korpusunun mükəmməl layihə əsasında inşa olunması ölkəmizdə həyata keçirilən yenidənqurma işlərinin geniş miqyasını və keyfiyyətini göstərir. Burada milli memarlıq elementləri ilə yanaşı, beynəlxalq təcrübədən də geniş istifadə olunub. İşıqlandırma sistemi də müasirliyi ilə diqqəti cəlb edir. Foyedə nümayiş etdirilən qədim Şamaxının Xınıslı yaşayış məntəqəsində aparılan arxeoloji qazıntılar zamanı tapılan, eramızın I–III əsrlərinə aid olan insan fiqurları Azərbaycanda heykəltəraşlığın çox qədim tarixə malik olduğunu sübut edir. Laçın rayonundan tapılan at formalı məzar daşı isə eramızın XVI əsrinə aiddir. Buradakı artköşk də muzeyə gələnlərin böyük marağına səbəb olacaqdır. Satış üçün nəzərdə tutulan, bir neçə dildə yazılan və müxtəlif mövzuları əhatə edən suvenir kitablar da maraq doğurur. Yeni korpusun metal fondunda qiymətli metallardan hazırlanmış müxtəlif incəsənət nümunələri saxlanır. Buradakı rəngkarlıq bölməsində Azərbaycan, Qərbi Avropa, Rusiya və Şərq rəssamlarının müxtəlif dövrlərə aid 3000-dən çox nəfis sənət incisi mühafizə olunur. Qrafika fondundakı sayı 6000-ə çatan yüksək sənət nümunələri də Azərbaycan, Qərbi Avropa və Rusiya rəssamlarına məxsusdur. Bu fondlarda Finlandiya istehsalı olan ən müasir avadanlıqlar quraşdırılmışdır.*

*Yeni korpusun ikinci mərtəbəsində heykəltəraşlar Ömər Eldarov, Kamal Ələkbərov və Cəlal Qaryağdının bir sıra maraqlı əsərləri nümayiş etdirilir. Sərgi salonundakı eksponatlar da yüksək peşəkarlıq nümunələridir. Tanınmış heykəltəraşlar Fuad Əbdürrəhmanov, Mirəli Mirqasımov, Ömər Eldarov,*

*Cəlal Qaryağdı, Tokay Məmmədov və Sobsay Pinxosun portret və digər janrlarda əsərləri tamaşaçıda dərin təəssürat yaradır. Korpusun tavanı təkrarsız görkəmi ilə diqqəti cəlb edir. Yeni korpusda təbii işıqlandırma sistemi yaradılıb. 70–80 nəfərlik akt salonunda da istənilən tədbirin keçirilməsi üçün hərtərəfli şərait vardır. Burada ən müasir proyeksiya avadanlığı da quraşdırılıb.*

*Dövlətimizin başçısı və xanımına muzeyin ekspozisiyasının müxtəlif bölmələrində yerləşən eksponatlar barədə məlumat verildi. Muzeydə dünya bədii irsində görkəmli yerlərdən birini tutan Azərbaycan incəsənəti zəngin kolleksiya ilə təmsil olunub. Qobustanın qayaüstü rəsmləri, Mingəçevirin zoomorf qabları, milli miniatür rəssamlıq əsərləri, çeşidli, bənzərsiz xalçalar, keramika və bədii metal nümunələri Azərbaycan incəsənətinin qədimliyinin və misilsiz bədii dəyərinin əyani sübutudur. Buradakı daş kitabələrin hər biri qədim tariximizin öyrənilməsi baxımından tutarlı mənbədir. Muzeydəki orta əsrlərə aid dekorativ incəsənət nümunələri də böyük maraq doğurur. Vaxtilə Bakı, Gəncə, Şamaxı, Şəki tacirlərinin Qərbi Avropa bazarlarına çıxardıqları iri xalça dəstləri geniş şöhrət qazanmışdı. Ənənəvi olaraq Azərbaycanda xovlu və xovsuz xalçalar – kilim, palaz, vərni, zili, sumax və sair toxunurdu. Muzeydə bədii tikmələr, ağac üzərində oymalar, zərgərlik nümunələri, misgərlərin döymə, həndəsi və nəbati naxışlarla bəzədikləri metal məmulatları və digər çoxsaylı dekorativ-tətbiqi sənət nümunələri nümayiş etdirilir. Azərbaycanın müxtəlif regionlarına aid tikmələrlə bəzədilən geyimlərə də muzeyin ekspozisiyasında geniş yer verilib. Azərbaycan döyüşçülərinin geyimləri də böyük maraq doğurur. Burada təsviri sənət nümunələri geniş yer alıb.*

*Muzeydə ulu öndər Heydər Əliyevin 90 illik yubileyi münasibətilə sərgi təşkil olunmuşdur. Ümummilli liderin 1998-ci ildə yaradılan əzəmətli portreti diqqəti xüsusilə çəkir. Ulu öndərin Azərbaycanın mədəniyyətinə, incəsənətinə hərtərəfli diqqət və qayğısını əks etdirən eksponatlar da böyük maraq doğurur.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Səttar Bəhlulzadə, Tağı Tağıyev, Nadir Əbdürrəhmanov, Xalidə Səfərova, Baba Əliyev, Toğrul Nərimanbəyov, Oqtay Sadıqzadə, Tahir Salahov və digər görkəmli rəssamların kətan üzərində yağlı boya ilə çəkdikləri rəsm əsərlərinə baxdılar. Muzeyin ekspozisiyasının buradakı bölmələrində Azərbaycan ilə yanaşı, Qərbi Avropa və Rusiyanın tanınmış rəssam və heykəltəraşlarının müxtəlif əsərləri də yer almışdır.*

*Bu il Azərbaycan Milli İncəsənət Muzeyinin Niyazi, 9 ünvanında yerləşən digər korpusunda əsaslı yenidənqurma, təmir və bərpa işlərinə başlanacaqdır.*

*Yeni korpusla tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi və muzeyin kollektivinə uğurlar arzuladı.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ ZLATKO LAQUMÇİYA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Bosniya və Herseqovinanın Xarici İşlər naziri Zlatko Laqumçiyanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Bosniya və Herseqovina arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri  Bakir İzetbeqoviçin ölkəmizə səfərini və səfər zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı aparılan müzakirələri məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı Bosniya və Herseqovinanın Xarici İşlər naziri Zlatko Laqumçiyanın Azərbaycana səfərinin ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bosniya və Herseqovinanın Xarici İşlər naziri Zlatko Laqumçiya Azərbaycanın ölkəsinə göstərdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Müstəqillik illərindən əvvəlki dövrlərdə də ölkələrimiz arasında yaxşı əlaqələrin mövcud olduğunu vurğulayan nazir bu əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğuladı.*

## BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VLADİMİR MAKEY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Belarus Respublikasının Xarici İşlər naziri Vladimir Makeyi qəbul etmişdir.*

Belarus Respublikasının Xarici İşlər naziri Vladimir Makey ölkəmizə səfəri zamanı paytaxtımızda çox böyük inkişafın şahidi olduğunu dedi. Nazir ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün bu səfərin yaxşı imkan yaratdığını bildirdi. Bakıya səfərinin ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 20 illik ildönümü ilə üst-üstə düşdüyünü deyən nazir bu münasibətlə Belarus prezidenti Aleksandr Lukaşenkonun təbrik məktubunu və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Belarus prezidenti Aleksandr Lukaşenkonun məktubuna görə minnətdarlığını bildirdi, ən xoş arzularını Belarusun dövlət başçısına çatdırmağı xahiş etdi.

## BANQLADEŞ XALQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DİPU MONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Banqladeş Xalq Respublikasının Xarici İşlər naziri Dipu Moninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Banqladeşin Xarici İşlər naziri Dipu Moni Banqladeş prezidenti Abdul Həmidin və Baş nazir Şeyx Hasina Vazedin salamlarını dövlətimizin başçısına çatdırdı. Xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olduğunu vurğulayan nazir bu əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

*Azərbaycan ilə Banqladeş arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin iqtisadi əməkdaşlıq, birgə layihələr və digər sahələrdə də inkişaf etdirilməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Banqladeşin Xarici İşlər naziri Dipu Moninin ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın inkişafına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Banqladeşin prezidenti Abdul Həmidin və Baş nazir Şeyx Hasina Vazedin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Banqladeş prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRDƏN DAXİLİ KÖÇKÜNLƏR VƏ QAÇQINLAR ÜZRƏ NAZİRİ DAVİD DARAXVEKİDZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Gürcüstanın işğal olunmuş ərazilərdən Daxili Köçkünlər və Qaçqınlar üzrə naziri David Daraxvekidzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Gürcüstan hərbçilərinin Əfqanıstanda faciəli surətdə həlak olmaları ilə əlaqədar Gürcüstan rəhbərliyinə və Gürcüstan xalqına başsağlığı verdi.*

*Gürcüstanın işğal olunmuş ərazilərdən Daxili Köçkünlər və Qaçqınlar üzrə naziri David Daraxvekidze başsağlığına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Nazir Gürcüstanın Baş naziri Bidzina İvanişvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, prezident İlham Əliyevin Gürcüstana və gürcü xalqına xeyirxah və səmimi münasibətinin ölkəsinin Baş naziri tərəfindən yüksək qiymətləndirildiyini dedi. David Daraxvekidze Baş nazir Bidzina İvanişvilinin, həmçinin son illər Azərbaycanın əldə etdiyi uğurları, şəxsən prezident İlham Əliyevin Azərbaycan xalqının rifah halının yüksəldilməsi, xüsusilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işləri də yüksək dəyərləndirdiyini qeyd etdi. O, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli*

*ilə bağlı Gürcüstanın Azərbaycanın təcrübəsindən faydalanmaq niyyətində olduğunu bildirdi.*

*Gürcüstanın Baş naziri Bidzina İvanişvilinin Azərbaycana səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı həmin səfər zamanı ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin, strateji tərəfdaşlıq əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı səmərəli müzakirələr apardıqlarını vurğuladı. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı məsələlərin ölkəmiz üçün prioritet olduğunu dedi. Bu sahədə Azərbaycanın yaxşı təcrübəyə malik olduğunu qeyd edən dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların maddi təminatı və cəmiyyətə inteqrasiya olunması istiqamətində böyük işlərin görüldüyünü və əldə olunan nəticələrin nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Gürcüstanın Baş naziri Bidzina İvanişvilinin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## MƏRAKEŞ KRALLIĞININ İSLAM İŞLƏRİ VƏ VƏQFLƏR NAZİRİ ƏHMƏD TOUFİQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Mərakeş Krallığının İslam İşləri və Vəqflər naziri Əhməd Toufiqi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Mərakeş Krallığı arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Siyasi əlaqələrimizin səviyyəsinin razılıq doğurduğunu deyən prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə dəstək vermələrinin önəmini qeyd etdi. Əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Mərakeş Krallığının İslam İşləri və Vəqflər naziri Əhməd Toufiqin ölkəmizə səfərinin səmərəli olacağına ümidvar olduğunu bildirdi.*

*Qonaq Mərakeş kralı VI Məhəmmədin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin iqtisadi, turizm, mədəni, humanitar və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Mərakeş kralı VI Məhəmmədin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Mərakeş kralına çatdırmağı xahiş etdi.*

## FƏLƏSTİN DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİAD MALKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Fələstin Dövlətinin Xarici İşlər naziri Riad Malkini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Fələstin Dövləti arasında fəal əməkdaşlıq əlaqələrinin olduğunu qeyd etdi. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyəsindən razılığını bildirən prezident İlham Əliyev iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu dedi və biznes, sərmayə qoyuluşu sahəsində imkanların araşdırıldığını vurğuladı. Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın ölkəmizə səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev səfər zamanı əməkdaşlığımızın möhkəmləndirilməsi ilə bağlı vacib məsələlərin müzakirə edilməsinin önəmini diqqətə çatdırdı. Xalqlarımız arasında səmimi dostluq münasibətlərinin olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də Fələstinlə bağlı təşəbbüsləri dəstəkləməsinin əhəmiyyətini vurğuladı.*

*Fələstin Dövlətinin Xarici İşlər naziri Riad Malki ölkəsi ilə əməkdaşlığın genişləndirilməsinə dair fikirlərinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın məktubunu dövlətimizin başçısına təqdim etdi. Xarici İşlər naziri Riad Malki məktubda Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın dövlətimizin başçısına salamlarının və BMT Baş Assambleyasında Fələstinin «qeyri-üzv müşahidəçi dövlət» kimi tanınması ilə bağlı keçirilən səsvermədə*

*Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığının yer aldığını dedi.*

*Dövlətimizin başçısı Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın məktubuna və salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstinin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ ƏBDÜL LƏTİF BİN RƏŞİD ƏL-ZƏYANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Körfəz Əməkdaşlıq Şurasının baş katibi Əbdül Lətif bin Rəşid əl-Zəyaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Körfəz Əməkdaşlıq Şurasının baş katibi Əbdül Lətif bin Rəşid əl-Zəyani Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin dövlət başçılarının salamlarını Azərbaycan prezidentinə çatdırdı.*

*Görüşdə Fələstinə yardım göstərilməsi üzrə Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Körfəz ölkələri arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirildi, münasibətlərimizin ikitərəfli formatda və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyi qeyd edildi. Söhbət zamanı əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin önəmi diqqətə çatdırıldı, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin dövlət başçılarının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Körfəz dövlətlərinin başçılarına çatdırmağı xahiş etdi.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ PEDRO AQRAMUNT FONT DE MORAN VƏ COZEF DEBONO QREX İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Avropa Şurası Parlament Assambleyası Monitorinq Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt Font de Moranı və Cozef Debono Qrexi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD KAMAL AMRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Misir Ərəb Respublikasının Xarici İşlər naziri Məhəmməd Kamal Amrin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Misirin Xarici İşlər naziri prezident Məhəmməd Mursinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Ölkələrimizin bir-birinə zəngin tarixi dəyərlərlə bağlandığını vurğulayan nazir əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında ikitərəfli münasibətlərin genişləndirilməsi, beynəlxalq əlaqələrin, regional inkişaf və digər sahələrdə fəal əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin güclü tərəfdaşlıq əlaqələrinin yaradılması üçün yaxşı potensialın olduğunu diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Misir arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Misir prezidenti Məhəmməd Mursinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Misirin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## MALAYZİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ANİFAH AMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Malayziya Respublikasının Xarici İşlər naziri Anifah Amanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Malayziyanın Xarici İşlər naziri Anifah Amanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında siyasi əlaqələrin səviyyəsindən razılıq edən prezident İlham Əliyev bu əlaqələrin iqtisadi sahədə də inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Malayziyanın Xarici İşlər naziri Anifah Aman Baş nazir Dato Sri Mohd Najibin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, səfəri çərçivəsində paytaxtımızda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Dövlətimizin başçısı Malayziyanın Baş naziri Dato Sri Mohd Najibin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Türkiyə Respublikasının Xarici İşlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.*

*Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlu prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, yüksək səviyyədə görüşlərin və qarşılıqlı səfərlərin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət etdiyi bildirildi. Söhbət zamanı son vaxtlar Bakıda keçirilən mühüm beynəlxalq tədbirlərin ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi.*

*Dövlətimizin başçısı prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının bütün strukturlarındakı uğurlu fəaliyyətinin önəmi qeyd olundu, təşkilatın gələcək fəaliyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ PROKURORU HƏSƏN ƏRBİL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyə Respublikasının Baş prokuroru Həsən Ərbili qəbul etmişdir.*

*Həsən Ərbil Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hüquq mühafizə orqanları sahəsində də uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin daha da möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu. Türkiyə Respublikasının Baş prokuroru Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Dövlətimizin başçısı Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN QADINLARININ IV QURULTAYINA

Hörmətli Qurultay nümayəndələri!

Əziz xanımlar!

Sizi Azərbaycan Qadınlarının IV Qurultayının açılışı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və uğurlar, qurultayınızın işinə müvəffəqiyyətlər arzulayıram.

Tarix boyu Azərbaycan qadını istedadlı şair, müdrik hökmdar, mehriban ana kimi şöhrət tapmışdır. Onun toxuduğu xalçalar və tikmələr, yaratdığı laylalar və bayatılar, nəsildən-nəslə ərməğan kimi çatdırdığı nağıllar və rəvayətlər xalqımızın tükənməz mədəni xəzinəsinə layiqli töhfə olmuşdur. Bütün bunlar bizim milli adət-ənənələrimizin, ana dilimizin və mənəvi dəyərlərimizin qorunmasında mühüm rol oynamışdır.

Qadınlarımıza ithaf olunmuş əsərlərdə Azərbaycan qadını dahilər və qəhrəmanlar anası kimi vəsf edilmişdir. Seçib-seçilmək hüququnu bir çox inkişaf etmiş ölkə qadınlarından daha erkən qazanmış xanımlarımız bu gün həyatın bütün sahələrində geniş təmsil olunmuşlar. Ölkəmizdə savadsızlığın ləğvi qadınların kütləvi şəkildə müəllimlik, həkimlik, mühəndislik peşələrinə yiyələnməsinə zəmin yaratmış, onlara elm-mədəniyyətdə fitri istedadlarını reallaşdırmaq üçün imkanlar açmış və cəmiyyətdə qadının mövqeyini əsaslı surətdə dəyişmişdir.

SSRİ-nin süqutu nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran hər bir Azərbaycan qadınının taleyində dərin iz buraxmışdır. Zorla cəlb olunduğumuz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycan qadınları çoxsaylı şəhidlər vermiş, el-obalarından uzaq düşmüş, qaçqın və köçkün həyatına düçar olmuşlar.

Müstəqillik dövründə gedən quruculuq proseslərində qadınlar vətənimizin inkişafı və çiçəklənməsi naminə var qüvvələrini sərf etmiş, bilik və bacarıqlarını əsirgəməmişlər. Tariximizə sabitlik və inkişaf dövrü kimi daxil olan 1993–2003-cü illərdə ölkəmizdə milli dövlətçilik prinsiplərinin təsbit olunmasında, beynəlxalq əlaqələrimizin formalaşmasında, siyasi və iqtisadi islahatların aparılmasında Azərbaycan qadınlarının xidmətləri danılmazdır.

Son 10 ildə Azərbaycanın qazandığı misilsiz nailiyyətlərin əldə olunmasında, respublikamızda çoxşaxəli iqtisadiyyatın yaradılmasında, regionların inkişafı proqramının gerçəkləşdirilməsində, demokratik mühitin bərqərar olunmasında, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində Azərbaycan qadınlarının böyük əməyi vardır.

Ölkəmizdə aparılan sosialyönümlü siyasət ilk növbədə, hər bir Azərbaycan ailəsinə, hər bir Azərbaycan qadınına, hər bir Azərbaycan övladına ünvanlanmışdır. Əminəm ki, qadınlarımız gələcəyə ünvanlanan bütün niyyətlərimizin, o cümlədən «Azərbaycan–2020: gələcəyə baxış» konsepsiyasının gerçəkləşdirilməsində fəal iştirak edəcək və vətənimizin çiçəklənməsi naminə var qüvvələrini sərf edəcəklər.

Ümidvaram ki, Qurultayınız son 5 ildə gender siyasətinin gerçəkləşdirilməsi ilə bağlı həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyətini təmsil edən qadın təşkilatlarının işini təhlil edəcək, onların qarşısında yeni vəzifələr qoyacaqdır. İnanıram ki, sizin səmərəli işiniz nəticəsində formalaşan yeni strategiyalar və fəaliyyət proqramları uğurla yerinə yetiriləcək və ölkəmizin gələcək inkişafına xidmət edəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyun 2013-cü il*

## İRAN İSLAM RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

Hörmətli cənab Həsən Ruhani!

İran İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətlərə böyük əhəmiyyət verirəm. Bu münasibətlər tarixən mehriban qonşuluq və dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Xalqlarımızı, həmçinin ortaq mənəvi dəyərlər və ənənələr, zamanın sınaqlarından çıxmış qarşılıqlı inam və etimad hissləri birləşdirir.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq belə möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost İran xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyun 2013-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASININ IV QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli Qurultay iştirakçıları!

Sizi salamlayır və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının IV Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

1999-cu ildə yaradılmış, özündə minlərlə sahibkarları birləşdirən Konfederasiya son illərdə daha da inkişaf edərək, ölkənin ictimai həyatında öz layiqli yerini tutmuşdur.

Bu gün Azərbaycanda dövlət – sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir. Ölkəmizdə ümumi daxili məhsulun həcmində özəl sektorun payı 83 faizə çatmışdır.

Sahibkarlığın dəstəklənməsi dövlətimizin sosial-iqtisadi inkişaf strategiyasının ən önəmli istiqamətlərindən biridir. Zamanın tələblərinə uyğun olaraq aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələri, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması sahəsində görülən ardıcıl işlər, özəl sektorun inkişafına dövlət qayğısı nəticəsində sahibkarların sayı sürətlə artır, ən müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr açılır, ölkə iqtisadiyyatına investisiya qoyuluşu genişlənir. Azərbaycanın iş adamları dünyanın bir çox ölkələrində qarşılıqlı fayda əsasında işgüzar əlaqələr quraraq uğurla fəaliyyət göstərirlər.

Hörmətli Qurultay iştirakçıları!

Cəmiyyətin tərəqqisi qarşıya daim yeni vəzifələr qoyur. Müasir dövrün inkişaf meyilləri sahibkarların məsuliyyətini daha da artırır, zamanın çağırışlarına hazır olmağı tələb edir.

Əminəm ki, qurultayın qərarları ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

Sizi bir daha təbrik edir, işlərinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2013-cü il*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASINA ÜZV ÖLKƏLƏRİN DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNA

Hörmətli Forum iştirakçıları!

Sizi Azərbaycanda ürəkdən salamlayır və Forumun işinə uğurlar arzulayıram.

Fərqli coğrafi məkanda məskunlaşmış, keşməkeşli inkişaf yolu qət etmiş türkdilli xalqlar bəşəriyyətin çoxəsrlik təkamül prosesində daim mühüm rol oynamış, öz zəngin mədəni ənənələri ilə tarix səhnəsində öncül yerlərini qoruyub saxlamışlar. Türkdilli xalqlar və onları təmsil edən dövlətlər bu gün də dünyada sülhün və təhlükəsizliyin təmin olunması, sivilizasiyalararası dialoqun dərinləşməsi, beynəlxalq iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsinə əhəmiyyətli töhfələr verirlər.

Qloballaşan dünyanın diktə etdiyi hazırkı reallıqlar türkdilli ölkələrin xalqlarını və hökumətlərini sıx əməkdaşlığa, qarşılıqlı əlaqələri daha da gücləndirməyə, xarici siyasət fəaliyyətini uyğunlaşdırmağa və birgə taktika müəyyənləşdirməyə sövq edir. Bu istiqamətdə xalqlarımızın diaspor təşkilatları arasında tərəfdaşlıq münasibətlərinin qurulması və inkişafına yönəlmiş təşəbbüslər təqdirəlayiqdir. Türkdilli dövlətlər arasında əlaqələrin inkişafında, ortaq mənafelərimizin etibarlı qorunmasında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarının rolu xüsusi əhəmiyyətə malikdir. Azərbaycan hər zaman həmin təşəbbüsləri dəstəkləmiş və gələcəkdə də bu siyasəti davam etdirmək əzmindədir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Bakı Forumunun keçirilməsi dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq

soykökünə, tarixinə, milli-mənəvi dəyərlərinə ehtiram, doğma vətənin maraqlarına bağlılıq nümayiş etdirən diasporun formalaşmasının bariz nümunəsidir. Düşünürəm ki, biz bu potensiala güvənərək siyasi çoxqütblülük, iqtisadi, mədəni və informasiya proseslərinin qlobal inkişafı şəraitində xalqlarımızın mənafeyinin müdafiəsi, regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verə bilərik.

Bir daha Forum çərçivəsindəki müzakirələrin və qəbul ediləcək qərarların dövlətlərimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına təkan verəcəyinə dərin inamımı ifadə edir və hər birinizə bu yolda uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2013-cü il*

## BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*Brüssel*

*20 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.*

*Brüssel Beynəlxalq Aeroportunda dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Belçikanın yüksək səviyyəli rəsmi şəxsləri qarşıladılar.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN VAN ROMPUY İLƏ GÖRÜŞ

*Brüssel*

*21 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyun iyunun 21-də Brüsseldə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Prezident İlham Əliyevin bu səfərinin ikitərəfli əməkdaşlığın daha da inkişafına xidmət etdiyi vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regional təhlükəsizlik və sabitlik, enerji sahəsində əməkdaşlıq və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN VAN ROMPUY İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*21 iyun 2013-cü il*

*Brüsseldə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyun bəyanatı

Xanımlar və cənablar!

Bu gün yenidən Azərbaycan prezidenti İlham Əliyevi salamlamaqdan məmnunam. Biz artıq bir neçə dəfə görüşmüşük. Sonuncu dəfə keçən il iyulun 5-də Bakıya səfərim zamanı görüşümüz olub və Sizə qonaqpərvərliyiniz üçün bir daha təşəkkür edirəm.

Bu gün biz səmimi, geniş və konstruktiv müzakirələr apardıq. Bu müzakirələr Azərbaycan və Avropa İttifaqı arasında qarşılıqlı maraq doğuran sahələri və eyni zamanda, münasibətlərimizin inkişafını əhatə etdi.

Digər mövzularla yanaşı, biz enerji məsələsini də müzakirə etdik. Mən hər iki tərəf üçün vacib strateji layihə olan «Cənub Qaz Dəhlizi»ndə əldə edilən əhəmiyyətli nailiyyətlərlə bağlı razılığımı bildirdim. Bu işə rəhbərliyinə görə prezident Əliyevə təşəkkür etdim. Daha geniş şəkildə desəm, mən təsdiq etdim ki, Azərbaycan Avropa İttifaqı üçün vacib tərəfdaşdır, biz enerji

sahəsində birgə çalışaraq, böyük nailiyyətlər əldə etmişik. Amma biz daha çox iş görə bilərik.

Mən bir daha qeyd etdim ki, Avropa İttifaqı Şurasının prezidenti Azərbaycan ilə demokratik və müştərək dəyərlər, xüsusilə insan hüquqları və fundamental azadlıqlar sahəsində uzunmüddətli və köklü əməkdaşlıqda qəti niyyətlidir.

Biz həmçinin 2013-cü ildə reallaşdırılacaq əsas tədbirləri nəzərdən keçirdik və qiymətləndirdik. Bunlardan biri, əlbəttə ki, prezident seçkiləridir. Avropa İttifaqı ümid edir ki, bu seçkilər yüksək standartlara uyğun keçiriləcəkdir. Biz həmçinin «Şərq Tərəfdaşlığı»ndakı irəliləyişləri nəzərdən keçirdik və mən Assosiativ Müqaviləyə əsaslanan yeni münasibətlərin qurulması ilə bağlı güclü niyyətimi bildirdim. Nəhayət, biz regional və beynəlxalq məsələləri müzakirə etdik. Bu müzakirələr zamanı prezidentin fikirləri və perspektivlər mənim marağıma səbəb oldu. Gözlədiyiniz kimi, mən vurğuladım ki, Avropa İttifaqı hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi ədalətli şəkildə həll edilmədən Cənubi Qafqazda sabitliyə nail oluna bilməz və biz ATƏT-in Minsk qrupunun vasitəçilik cəhdlərini dəstəkləməkdə davam edirik.

Mən həftənin əvvəlində Xox Erndə iştirak etdiyim «Böyük Səkkizlik»in Sammitində Minsk qrupunun həmsədr ölkələrinin prezidentlərinin verdikləri bəyanatları dəstəklədiyimi bildirdim. Minsk qrupu ölkələrinin prezidentləri tərəflərin rəhbərlərini Helsinki prinsiplərinə, xüsusilə də güc tətbiq etməməyə, güc təhlükəsinin olmamasına, ərazi bütövlüyünə, bərabər hüquqlara və xalqların öz müqəddəratını təyin etməsi prinsiplərinə qayıtmağa çağırırlar. Onlar regionda gərginliyin artmasına və münaqişənin irəliləməsinə gətirib çıxara biləcək istənilən fəaliyyətdən qaçmağa çağırırlar. Mən həmçinin münaqişə tərəfləri arasında olan uçurumu aradan qaldırmağa yönəlmiş hazırkı tədbirləri genişləndirmək niyyətimi bir daha bildirdim.

Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər yaxşıdır. Bizim uzunmüddətli öhdəliyimiz Assosiativ Müqavilə üzrə danışıqları tamamlamağa yönəlmiş işlərimiz vasitəsilə bu

münasibətləri daha da möhkəmləndirməkdir. Assosiativ Müqavilə ilə bizim münasibətlərimiz potensialını tam şəkildə reallaşdıra bilər.

Cənab Prezident! Səfərinizə görə Sizə təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Şərhlərinizə görə çox sağ olun, cənab Prezident! Dəvətinizə görə sağ olun. Burada yenidən olmaqdan və münasibətlərimizə aid mühüm məsələləri müzakirə etməkdən çox məmnunam.

Azərbaycana Sizin səfərinizi mən də xatırlayıram. Bu, münasibətlərimiz üçün əhəmiyyətli səfər idi. Bu, Avropa İttifaqı Şurası prezidentinin Azərbaycana ilk səfəri idi. Bakıda və ondan əvvəl burada – Brüsseldə apardığımız müzakirələr əlaqələrimizin gələcək inkişafı üçün çox vacibdir. Çünki münasibətlərimizə aid yanaşmamız üst-üstə düşür. Azərbaycan Avropaya mümkün qədər yaxın olmaq arzusundadır. Azərbaycan «Şərq Tərəfdaşlığı» Proqramının fəal iştirakçısıdır. Avropaya nə qədər yaxın olsaq bir o qədər inkişaf, demokratik inkişaf üçün imkanlarımız çox olar. Biz bu sahədə əməkdaşlığa görə Avropa təsisatlarına olduqca minnətdarıq. Hesab edirəm ki, demokratikləşmə, insan hüquqları kimi sahələrdə inkişaf Azərbaycana öz siyasi islahatlarını ən yüksək beynəlxalq standartlara uyğun həyata keçirməsində yardım edir. Əlbəttə, Siz də qeyd etdiniz ki, bu gün biz bu məsələni müzakirə etdik. Biz birmənalı olaraq bu sahələrdə əməkdaşlığı davam etdirəcəyik.

Cənab Prezident, qeyd etdiyiniz kimi, bu gün biz, həmçinin bir çox məsələləri əhatə etdik. Biz xüsusi olaraq regional sabitlik və təhlükəsizlik, münaqişənin həlli məsələsinə toxunduq. Biz ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin verdiyi bəyanatı yüksək dəyərləndiririk. Biz onlara minnətdarıq ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini gündəliyin əsas

hissəsində saxlayırlar və onlar «səkkizlər» qrupu kimi, mötəbər sammitdən münasibətlərini və narahatlıqlarını bildirmək üçün istifadə etdilər. Biz onların münaqişənin mümkün qədər tez həllinə nail olmaq üçün bütün lazımi addımların atılmasına dair verdikləri şərhləri tam dəstəkləyirik.

Helsinki Yekun Aktına edilən istinad çox vacibdir. Helsinki Yekun Aktı məsələnin hansı prinsiplər əsasında həllini açıq şəkildə müəyyən edir. Xalqların öz müqəddəratını təyin etməsi ölkələrin ərazi bütövlüyünə zidd olmalı deyildir. Ermənistana gəldikdə, onlar artıq müqəddəratını təyin ediblər və Ermənistan dövləti artıq mövcuddur. Erməni xalqının ikinci dəfə öz müqəddəratını Azərbaycan ərazisində təyin etməsi qəbuledilməzdir. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, o cümlədən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsi əsasında mümkün qədər tez həllində maraqlıdır.

Biz bu gün, həmçinin enerji təhlükəsizliyi məsələlərini geniş şəkildə müzakirə etdik. Azərbaycan enerji təhlükəsizliyi sahəsində artıq Avropa təsisatlarının mühüm tərəfdaşı hesab olunur. Sonuncu görüşümüzdən sonra bu sahədə də çox müsbət irəliləyiş olub. TANAP layihəsinin elan edilməsi «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla həyata keçirilməsi üçün əlavə imkanlar yaradacaqdır. Ümidvarıq ki, bu yaxınlarda qəbul olunacaq qərarlar Avropanın enerji xəritəsini tamamilə dəyişəcək belə bir mühüm enerji layihəsinin həyata keçirilməsi üçün əlavə şəraitlər yaradacaqdır. Bu halda bütün tərəflər udur. Azərbaycan Avropada uzunmüddətli proqnozlaşdırılan qaz bazarını özü üçün müəyyən edəcəkdir. Avropa isə uzun müddət, onilliklər ərzində Azərbaycanın alternativ qaz təchizatı mənbəyindən yararlanacaqdır. Bu sahədə sıx tərəfdaşlıq, xüsusən də «Cənub Qaz Dəhlizi»nin yaradıldığı bir vaxtda atılan addımlar bu layihənin uğurla reallaşması üçün çox vacibdir.

Əlbəttə ki, biz regional sabitlik və təhlükəsizlik məsələlərini müzakirə etdik. Fikrimcə, Azərbaycan regionda daha çox sabitləşdirici rol oynayır. Ümidvarıq ki, gələn illər ərzində biz bir çox müsbət dəyişiklikləri görəcəyik. Bir sözlə, cənab Prezident, göstərilmiş qonaqpərvərliyə və görüşmək imkanına görə bir daha çox sağ olun. Mən inanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıq davam edəcəkdir. Siz qeyd etdiyiniz kimi, bu münasibətlər yaxşıdır. Biz bu yaxşı münasibətləri daha da yaxşılaşdırıb onları əla etmək üçün birgə işləməliyik.

## AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞ

*Brüssel*

*21 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun iyunun 21-də Brüsseldə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Avropa Komissiyası arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. İqtisadi və enerji sahələrində əməkdaşlığın bundan sonra da genişlənməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Görüşdə əlaqələrimizin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*21 iyun 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun iyunun 21-də Brüsseldə görüşü başa çatdıqdan sonra birgə mətbuat konfransı keçirilmişdir.*

*Əvvəlcə Joze Manuel Barrozu və prezident İlham Əliyev mətbuata bəyanatlarla çıxış etdilər.*

## Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun bəyanatı

Xanımlar və cənablar! Hər vaxtınız xeyir!

Prezident İlham Əliyevi Brüsseldə salamlamaqdan çox məmnunam. Bu gün biz prezident Əliyevlə son illər apardığımız səmərəli fikir mübadiləsi və etdiyimiz səfərlər əsnasında çox açıq, konstruktiv və dostcasına müzakirələr keçirdik. Biz bir neçə dəfə görüşmüşük. Mənim Bakıya səfərim də buraya daxildir.

Bu gün enerji məsələləri diqqət mərkəzində idi. Biz Azərbaycanda və Avropa İttifaqında baş verənləri də nəzərdən keçirdik.

Azərbaycan bizim üçün çox mühüm tərəfdaşdır. Biz enerji sahəsində etibarlı əməkdaşlıq qurmuşuq. Bunu rəhbər tutaraq, biz demokratiya və ümumi dəyərlərə, xüsusən insan hüquqları

və fundamental azadlıqlara əsaslanan uzunmüddətli əməkdaşlığa istiqamət götürmüşük. Mən Azərbaycana bu yolda şəxsi dəstəyimi bu gün də ifadə etdim.

Strateji enerji əməkdaşlığına dair bir neçə kəlmə demək istərdim. Biz, əlbəttə ki, «Cənub Qaz Dəhlizi»ni təfərrüatı ilə müzakirə etmişik. Hər ikimiz 2011-ci ildə Birgə Bəyannamənin imzalanmasından keçən dövrdə «Cənub Qaz Dəhlizi»nə dair əldə olunmuş inkişafdan çox məmnunuq. Biz hər ikimiz həm Azərbaycan, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bu layihənin reallaşması istiqamətində səylə çalışmışıq. Prezident Əliyevə qəti və davamlı sadiqliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bakıda görüşümüz zamanı müzakirələri yaxşı xatırlayıram. Əslində Azərbaycan o zaman üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir və mən fəxr edirəm ki, prezident Əliyevlə imzaladığımız həmin o Bəyannamə bütün bu inkişafın əsasında durur.

Prezident İlham Əliyev məni əmin etdi ki, nəzərdə tutulduğu kimi, «Şahdəniz-2» konsorsiumu dəhlizin çox mühüm olan Avropa qoluna dair qərarı gələn həftə verəcəkdir və 2 seçimdən birini edəcəkdir: «Nabukko Qərb» və ya Trans–Adriatik boru kəməri.

Əslində bu, konsorsium üçün kommersiya əhəmiyyətli qərardır. Lakin vurğulamaq istərdim ki, həm «Nabukko Qərb», həm Trans–Adriatik boru kəmərləri bizim vahid Avropa enerji bazarı üçün qaz təchizatının şaxələndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Buna görə əminəm ki, hər 2 kəmər tikilə bilər. Biz bunu «Cənub Qaz Dəhlizi»ni hazırda mövcud olan qaz ehtiyatlarından əlavə resurslar hesabına artırsaq, həyata keçirə bilərik. Bu, hərtərəfli sərfəli variant ola bilər.

Bu günün mühüm mesajı belə ola bilər: «Cənub Qaz Dəhlizi» lövhə üzərində hər hansı bir nəzəri layihə deyildir. O, reallaşmaq üzrə olan layihədir. Bu, bütün iştirak edən tərəflərin xeyrinə həyata keçiriləcəkdir. İlkin mərhələdə onun vasitəsilə 2019-cu ilədək Avropaya 10 milyard kubmetr qaz ötürüləcəkdir. Lakin biz bununla kifayətlənməyəcəyik. Ortamüddətli perspektivdə

dəhliz Avropanın illik ehtiyacının 10 faizini ödəyə bilər və bununla da bizim enerji təhlükəsizliyimizə, qiymətlərin sabitliyinə, inkişafa və yeni iş yerlərinin açılmasına töhfə verə bilər. Bu, prezident İlham Əliyevlə 2011-ci ildə razılaşdığımız kimi, ümumi baxışımızdır. Biz qarşılıqlı təchizat təhlükəsizliyimizi gücləndirmək üçün məhz bunun üzərində işləyəcəyik. Biz inanırıq ki, bu, Avropanın və Azərbaycanın maraqlarına cavab verir.

Xanımlar və cənablar!

Əvvəldə də dediyim kimi, biz geniş məsələlər ətrafında müzakirələr apardıq. Azərbaycan bir sıra regional və qlobal məsələlərdə yaxından əməkdaşlıq etdiyimiz mühüm tərəfdaşdır. Biz həmçinin gələn il Azərbaycanın Avropa Şurasına sədrliyini də nəzərdən keçirdik. Azərbaycanın mühüm daxili məsələlərinə dair fikirlərimizi də bölüşdük. Prezident seçkiləri bu siyahıda əsas yerdədir. Ümidvar olduğumuzu bildirdik ki, seçkilər ən yüksək standartlar səviyyəsində və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu da daxil olmaqla, beynəlxalq müşahidəçilərin dəstəyi ilə keçiriləcəkdir.

İnsan hüquqlarının və fundamental azadlıqların təminatı bizim gündəliyimizdə mühüm yer tutur. Biz bu məsələləri açıq şəkildə müzakirə etdik və mən imkandan istifadə edib xatırlatdım ki, sabitlik və əmin-amanlıq uzun perspektivdə yalnız qanunun aliliyi, demokratik təsisatlar və əlbəttə ki, dinamik vətəndaş cəmiyyəti şəraitində davam edə bilər.

Biz «Şərq Tərəfdaşlığı» kontekstində də əlaqələrimizin inkişafını müzakirə etdik. Mən prezident İlham Əliyevin əlaqələrimizin bu kontekstdə genişləndirilməsinə sadiqliyini bölüşürəm.

Biz, nəhayət, iqtisadi məsələləri də müzakirə etdik. Buraya Azərbaycanın inkişafı planı və Dünya Ticarət Təşkilatına üzvlük istiqamətində irəliləyişi daxildir. Biz ikitərəfli dərin və məzmunlu azad iqtisadi zonanın yaradılması vasitəsilə ticari əlaqələrimizin dərinləşməsinin tərəfdarıyıq. Bunun üçün də Dünya Ticarət Təşkilatına üzvlük çox vacibdir.

Nəhayət, biz regional vəziyyəti müzakirə etdik. Biz bilirik ki, regionda ölkələr potensiallarını tam reallaşdırmaq üçün qonşuları ilə təhlükəsizliyi və sülhü təmin etməlidirlər. Bununla belə, biz Dağlıq Qarabağ münaqişəsinin razılaşdırılmış prinsiplərə uyğun olaraq ədalətli həllinə çağırırıq. Avropa İttifaqı ATƏT-in Minsk qrupunun beynəlxalq vasitəçilik səylərini dəstəkləyir, münaqişənin davamlı və sülh yolu ilə həllinin tapılmasında öz rolunu oynamağa hazırdır.

Prezident Əliyev!

2013-cü il Avropa İttifaqı–Azərbaycan münasibətləri üçün gözəl imkanlar ilidir. Mən Sizin çox böyük hörmətlə yanaşdığım dövlətinizlə gözəl başlanğıc nöqtəsi olan enerji və əsasında ümumi dəyərlər dayanan daha geniş və dərin əlaqələrin tərəfdarıyam.

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Cənab Sədr, şərhlərinizə görə çox sağ olun! İcazə verin Brüsselə səfər etmək üçün dəvətə görə minnətdarlığımı bildirim. Bu mənim Avropa Komissiyasına beşinci səfərimdir. Bu fakt münasibətlərimizin nə qədər intensiv və sıx olduğunu göstərir. Biz münasibətlərimizi yüksək dəyərləndiririk. Cənab sədrin qeyd etdiyi kimi, onlar müştərək maraqlara və dəyərlərə söykənir. Biz dost kimi, əməkdaşlığımıza aid məsələləri, eləcə də regional əhəmiyyət daşıyan məsələləri müzakirə etdik. Mən, cənab Sədr, şəxsən Sizə və Komissiyanıza demokratik inkişaf məsələlərində, insan hüquqlarının müdafiəsi sahəsində və siyasi islahatlarda Azərbaycana verdiyiniz davamlı dəstəyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Verdiyiniz tövsiyələr, məsləhətlər və aramızdakı təmaslar olduqca əhəmiyyətlidir və Azərbaycanda dəyişikliklərə yardım edir. Dəyişikliklər prosesi çox sürətlə gedir. Bu proses siyasi və əlbəttə ki, iqtisadi islahatları əhatə edir. Hər iki istiqamət bir-birini tamamlayır. Bizim, həmçinin iqtisadi əməkdaşlığımız vardır. Avropa İttifaqı

bizim əsas ticari tərəfdaşımızdır. Üzv dövlətlərlə ticarət dövriyyəmiz artmaqdadır. Həmçinin «Şərq Tərəfdaşlığı» Proqramı bu çərçivədə irəli sürülən təşəbbüslərə dəstək vermək imkanı yaradır. Biz bu təşəbbüsləri yüksək dəyərləndiririk. Fikrimcə, Avropa təsisatlarının keçmiş sovet respublikalarını bu əməkdaşlıq çərçivəsinə cəlb etməsi mühüm addım oldu. Azərbaycan «Şərq Tərəfdaşlığı» qrupunun fəal üzvüdür. Hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın yeni formatı üzərində işləyirik. Gündəliyimiz genişdir, bir çox sahələri əhatə edir. Azərbaycan Avropa ölkələrində artıq sərmayə qoymağa başlayır. Sərmayələrimizin quruluşuna baxsaq görərik ki, bu sərmayələr yalnız enerji sahəsi ilə bağlı deyildir. Burada, həmçinin qarşılıqlı maraq doğuran digər sahələr də vardır. Bir çox illərdir ki, Avropa da bizim ölkəmizə böyük sərmayələr yatırır. Bu investisiyalar bizə iqtisadiyyatımızı şaxələndirməyə və ölkəmizi müasirləşdirməyə yardım edir.

Cənab sədrin vurğuladığı kimi, biz münaqişənin həllinə aid məsələləri müzakirə etdik və bu baxımdan Avropa İttifaqının göstərdiyi səyləri yüksək dəyərləndiririk. Azərbaycan prosesdə ən maraqlı tərəfdir, çünki bizim torpaqlarımız işğal altındadır, nəinki Dağlıq Qarabağ, o cümlədən Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayon da 20 ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Biz buna son qoymalıyıq.

ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkə prezidentlərinin bu yaxınlarda Şimali İrlandiyada verdikləri bəyanat bizi çox həvəsləndirdi. Qeyd edildi ki, məsələnin həlli Helsinki Yekun Aktına əsaslanmalıdır. Hər iki tərəf danışıqlar prosesini sual altına qoya biləcək hərəkətlərdən çəkinməlidir. Azərbaycan münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında mümkün qədər tez həllini və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistanın işğalçı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsini istəyir.

Enerji əməkdaşlığı təbii ki, münasibətlərimizin ən mühüm hissələrindən biridir. Çox şadam ki, 2011-ci ilin əvvəlində sədr

Barrozu ilə Bakıda enerji sahəsində strateji əməkdaşlıq haqqında Bəyannaməni imzaladıqdan sonra hazırda onun praktiki nəticələrini görürük. Bu Bəyannamə qaz dəhlizinin həyata keçirilməsində əsas rol oynadı. Mən bu prosesdə çox fəal iştirakına və əlaqələndirməyə görə şəxsən sədr Barrozuya və onun heyətinə təşəkkürümü bildirmək istəyirəm. Bu layihə Avropa ilə Azərbaycan arasında daha güclü əlaqələr yaradacaqdır. Bu vəziyyətdə hər tərəf udur. Azərbaycan Avropada proqnozlaşdırılan sabit bazarı tapacaq, Avropa isə Azərbaycandan alternativ qaz mənbəyi əldə edəcəkdir.

Ümidvarıq ki, Azərbaycandan Avropaya ixrac edilən qazın həcmi sırf «Şahdəniz-2» layihəsi ilə məhdudlaşmayacaqdır. Çünki bizim 2 trilyon kubmetrdən çox təsdiqlənmiş qaz ehtiyatlarımız vardır. Artıq qeyd etdiyim kimi, Avropa Azərbaycan qazı üçün mühüm bazara çevriləcəkdir. «Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyinə xidmət edən layihədir. Bu layihə Avropanın enerji xəritəsini dəyişəcək və ölkəmizin, eləcə də region ölkələrinin iqtisadi əməkdaşlıqdan yararlanması üçün əlavə imkanlar açacaqdır. Fikrimcə, müəyyən etdiyimiz məsələlər gündəliyimizin nə qədər məzmunlu olduğunu aydın şəkildə göstərir: regional əməkdaşlıq, təhlükəsizlik, siyasi islahatlar, demokratik proses və enerji əməkdaşlığı. Bütün bu elementlər münasibətlərimizin daha yüksək səviyyəyə qaldırılması üçün əsaslar yaradır. Azərbaycan bunda maraqlıdır. Biz mümkün qədər Avropaya yaxın olmaq istəyirik. Çox şadıq ki, Avropa tərəfindən də eyni yanaşmanı görürük.

Cənab Sədr, bir daha dəvətinizə və qonaqpərvərliyinizə görə sağ olun.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l** *(Azad Avropa radiosunun əməkdaşı Riçard Jozviak):* **Sualım cənab Əliyevədir. Siz necə əmin ola bilərsiniz ki, bu ilin oktyabrında keçiriləcək seçkilər azad, ədalətli və şəffaf olacaq,**

**nəzərə alsaq ki, sizin siyasi opponentlərinizdən biri cənab Məmmədov həbs olunub?**

**Digər sualım Barrozuyadır. Azərbaycanda demokratiya və insan hüquqlarına dair vəziyyəti nəzərə alsaq, fikrinizcə, bu ölkə ilə Avropa İttifaqı arasında Assosiativ Müqavilə imzalanmalıdırmı?**

**İ l h a m Ə l i y e v:** İlk növbədə, qeyd etmək istəyirəm ki, mənim siyasi opponentlərimdən heç biri həbsdə deyil. Bu tamamilə yanlış məlumatdır. Qeyd etmək istərdim ki, Azərbaycanda siyasi məhbus yoxdur. Əgər yanvar ayında Azərbaycanda siyasi məhbuslar haqqında hesabatı qəbul etməkdən imtina etmiş Avropa Şurası Parlament Assambleyası tərəfindən verilmiş şərhləri diqqətlə oxusanız anlayarsınız ki, bu mövzu bağlanıb. Azərbaycanda heç kəs siyasi zəmində həbs olunmayıb. Sərbəst toplaşma hüququ tamamilə təmin olunub, eyni vəziyyət media azadlığına da aiddir. Bizim azad internetimiz vardır. Azərbaycanda internet istifadəçilərinin sayı 70 faizdən çoxdur, senzura yoxdur, bütün siyasi partiyalar açıq və azad şəkildə fəaliyyət göstərir. Azərbaycan 10 ildən artıqdır ki, Avropa Şurasının üzvüdür. Cənab sədrin də dediyi kimi, gələn il biz bu mühüm təşkilata sədrlik edəcəyik. Biz demokratik inkişafa, insan hüquqlarına və azadlıqlarına dair bütün öhdəliklərimizi tam şəkildə yerinə yetiririk. Bununla da sualınızda verdiyiniz qiymətləndirmə ya yanlış məlumata, ya mənfi rəyə, ya da ki, sizdə süni şəkildə Azərbaycan haqqında yaradılmış təəssürata əsaslanır. Azərbaycan demokratik, sürətlə inkişaf edən, siyasi islahatlar həyata keçirən, Avropa Şurası və Avropa İttifaqı ilə yaxın əməkdaşlıq edən ölkədir. Prezident seçkilərinə gəlincə, hələ seçkilərə çox vaxt vardır. Seçki kampaniyası hələ başlamayıb. Azərbaycan Avropadan, Avropa təsisatlarından beynəlxalq müşahidəçiləri dəvət edəcək və bütün namizədlər üçün Azərbaycan xalqına öz proqramlarını, özlərini təqdim etmək üçün lazımi şərait yaradılacaqdır. Əminəm ki, bu seçkilər tamamilə Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir. Dövlət buna nail olmaq üçün əlindən gələni edəcəkdir.

**J o z e  M a n u e l  B a r r o z u:** Sağ olun. Demokratiya və insan hüquqları məsələsi Avropa İttifaqının bütün beynəlxalq tərəfdaşları ilə münasibətlərində əsas yer tutur. Biz bu məsələni çox səmimi və açıq şəkildə müzakirə etdik. Bunu dünyanın bütün ölkələri ilə edirik. Yaxşı bilirik ki, demokratiya gündəliyimizdə duran daimi məsələdir. Yeri gəlmişkən, bu bizə də, Avropaya da aiddir. Bir çox hallarda beynəlxalq tərəfdaşlara dediyim kimi, Avropa da kamil deyildir. Biz bütün üzv dövlətlərdə və tərəfdaş ölkələrdə ən yüksək standartların təmin edilməsində diqqətli olmalıyıq. Bu dəyərlər Avropa siyasətinin və «Şərq Tərəfdaşlığı» Proqramının əsas hissəsidir. Prezident Əliyevin qeyd etdiyi kimi, Azərbaycan «Şərq tərəfdaşlığı»nda fəal iştirak edir. Bu dəyərlər bütün tərəfdaşlar tərəfindən onların siyasətində qəbul olunub və Praqa zirvə görüşündə qəbul edilmiş «Şərq Tərəfdaşlığı» Proqramına daxil edilib. Beləliklə, hesab edirik ki, ölkələr bu dəyərlərə hörmətlə yanaşmalıdır. Faktiki olaraq, biz bu məsələni tərəfdaşlarımızla, o cümlədən Azərbaycanla müzakirə edirik. Artıq qeyd etdiyim kimi, bu məsələni bu gün prezident Əliyevlə çox açıq şəkildə nəzərdən keçirdik. Bu, «Şərq Tərəfdaşlığı» çərçivəsində münasibətlərimizin dərinləşdirilməsi üçün çox əhəmiyyətlidir. Mən bu şərhə bir məsələni əlavə etmək istərdim. Azərbaycan bir neçə il öncə Sovet İttifaqının hissəsi olub. Orada totalitar rejim hökm sürürdü. O vaxt azadlıq, ümumiyyətlə, yox idi.

Beləliklə, bu gün böyük hörmət etdiyimiz Azərbaycanda, müstəqil suveren ölkədə olan vəziyyətə baxsanız, görərsiniz ki, Azərbaycan nə qədər yol keçib və biz əldə edilmiş çox böyük irəliləyişi etiraf etməliyik. Lakin bu o demək deyildir ki, bütün standartlar gözlədiyimiz kimi yerinə yetirilib və bu baxımdan bizim prezident Əliyevlə çox yaxşı fikir mübadiləmiz oldu. Əlbəttə ki, Azərbaycan bizim tərəfdaşımızdır. Mən səmimiyyətlə inanıram ki, hər iki tərəfin bütün mümkün vasitələrlə açıq şəkildə müzakirələri məsələnin həllinin ən yaxşı üsuludur. Əlbəttə ki, bütün demokratik islahatlara dəstək verilməlidir. Şəxsən əminəm ki, – bu mənim şəxsi fikrimdir –

prezident Əliyev suveren Azərbaycanın rəhbəri kimi, ölkəsinin müasirləşdirilməsinə olduqca sadiqdir. O bu ölkənin imici və nüfuzuna xüsusi diqqətlə yanaşır. Ölkə isə həqiqətən, çox mühüm irəliləyişə nail olub. Hesab edirəm ki, vətəndaş cəmiyyətinin inkişafı olmadan müasirləşməyə nail olmaq mümkün deyildir. Bu bizim Azərbaycan və digər tərəfdaşlarla apardığımız daimi dialoqun bir hissəsidir. Görürsünüz ki, hər ölkənin tarixi, coğrafiyası və üzləşdiyi çağırışlar baxımından spesifik durumu vardır. Səbəblər çoxdur. Bu baxımdan, fikrimcə, Azərbaycanla apardığımız tərəfdaşlıq, həmçinin sualınızda qeyd olunan narahatlığı da aradan qaldırmaq üçün düzgün tərəfdaşlıqdır. Bu bizi də narahat edir. Azərbaycandakı dostlarımızla və bu gün prezident Əliyevlə müzakirə etdiyimiz prioritet məsələlərin ən önündə gedən elə bu mövzudur.

**S u a l:** *(«İnews» informasiya agentliyinin direktoru Rəhman Hacıyev):* **Zati-aliləri qeyd etdiyi kimi, heç kəs kamil və səhvsiz deyildir. Biz bunu, həmçinin dövri olaraq Avropada görürük. Avropada da dinc nümayişlərin qarşısı polis qüvvələri tərəfindən qəddarlıqla alınır. Bu, 2 yerdə baş verib: Frankfurtda və Londonda. Bundan öncə Yunanıstanda və bir sıra digər ölkələrdə də baş verib. Sualım ondan ibarətdir ki, Avropa təsisatları və rəsmilərinin oxşar məsələlərlə bağlı belə bir selektiv, ikili standart əsasında verdiyi qətnamə və bəyanatlarını necə şərh edərdiniz? Əlavə edərdim ki, bu, Avropa sərhədlərindən kənarda baş verəndə reaksiya dərhal, yubanmadan gəlir. Lakin bu, Avropada baş verəndə, həmin şəxslər sakit dayanırlar. Sağ olun.**

**J o z e M a n u e l B a r r o z u:** Siz çox fərqli bəyanat verdiniz. Əslində bu, sualdan çox bəyanata oxşayır. Mən aşağıdakıları söyləyə bilərəm: Avropa Komissiyası insan hüquqları və qanunun aliliyinə aid məsələlərə gəldikdə, mümkün qədər obyektiv olmağa çalışır. Biz bu sahədəki nüfuza xüsusi diqqət veririk. Biz obyektiv olmağa çalışırıq. Son illər biz bu işi o cümlədən, Avropa İttifaqı daxilində aparırıq. Söhbət burada bəzi üzv dövlətlərimizdə qanunun aliliyindən gedir. Avropa

Komissiyası çox güclü və aydın şəkildə öz narahatlığını ifadə edir. Bəzi hallarda İttifaq qanunları pozulduqda, biz Ədalət Məhkəməsinə üzv dövlət barədə müraciət edirik. Səmimi desək, siz Avropa Komissiyasını ikili standartlarda ittiham edə bilməzsiniz.

O ki qaldı sizin və sizin kimi şəxslərin mediada və ictimai rəydə təəssüratlarına, mən bunu qismən anlayıram. Reallıq ondan ibarətdir ki, stereotiplər vardır. Bu, bütün dünyada belədir. Nəinki Avropada, bütün dünyada. Bu cür stereotiplər aradan qaldırılmalıdır. Siz bunu bilirsiniz. Bəzi cəmiyyətlərin digərlərindən üstün olması, bir dövlətin digərindən vacib olması ideyalarına gəldikdə, bilirsiniz, mənim üçün dünyanın bütün ölkələri eyni ləyaqətə malikdir. Demokratiya və qanunun aliliyinə qayıdaq – siz bəzi ölkələrin adını çəkdiniz. Səmimi danışsaq, Avropada və Avropa İttifaqında fundamental azadlıqların və qanunun aliliyinin təmin edilməsində yüksək standartlarımız vardır. Fikrimcə, heç kəs buna şübhə etmir. Burada və digər yerlərdə bəzi problemlər vardır. Heç kəs kamil deyildir. Lakin biz fərəh hissi ilə qeyd etməliyik ki, Avropa İttifaqında lazımi şəkildə formalaşmış demokratiyamız vardır. Mən bunu tam əminliklə deyirəm. Mən elə bir ölkədən çıxmışam ki, orada demokratiya yox idi. 18 yaşa çatanda mən 48 ildən çox hökm sürən avtoritar rejimin süqutunun şahidi oldum. Biz sonra demokratiya qurmağa başladıq. Bu mənim ölkəmdə tam demokratiyaya çevrildi. İspaniyada və digər ölkələrdə, eləcə də Mərkəzi və Şərqi Avropa ölkələrində də demokratiya vardır. Orada da əvvəllər demokratiya yox idi. Öncə onlar sovet təsiri altında idi. İndi isə orada demokratiya vardır. Gəlin düz danışaq, Avropa və Avropa İttifaqı ölkələrində insan hüquqları və demokratiya yüksək səviyyədə təmin edilir. Lakin bu o demək deyildir ki, problem yarananda biz diqqətli olmamalıyıq. Tərəfdaşlarımıza gəldikdə, fikrimcə bu, qlobal dəyərlərdir və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, həmçinin mühüm beynəlxalq konvensiyalarda öz əksini tapıb. Biz bu məsələni açıq şəkildə müzakirə etməliyik. Mən tamamilə əminəm ki, insanlar dövlətə deyil, dövlət insanlara, hər insana – kişiyə, qadına və uşağa

xidmət etməlidir. Bunu xatırlamaq çox vacibdir. Bu, ideologiya deyildir. Siz solçu, sağçı və mərkəzçi ola bilərsiniz. Vacib odur ki, insanlara – kişi, qadın və uşaqlara, onların maraqlarına dövlət xidmət etməlidir. Tərəfdaşlarımızla bu cür müzakirələr aparırıq və şadam ki, hazırda Azərbaycanda, həmçinin siyasi islahatlara, demokratiyaya və qanunun aliliyinə sadiqlik vardır və prezident Əliyev indicə bunu öz çıxışında qeyd etdi.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri iyunun 21-də başa çatmışdır.*

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş irimiqyaslı təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Hindistan xalqına Azərbaycan xalqı adından və öz adımdan dərin hüznlə başsağlığı verir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2013-cü il*

## «ALOV QÜLLƏLƏRİ» KOMPLEKSİNDƏKİ «FAİRMONT BAKU» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*24 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 24-də «Alov qüllələri» kompleksindəki «Fairmont Baku» hotelinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı «Fairmont Baku» hotelinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Şərq ilə Qərbin qovuşduğu coğrafi ərazidə yerləşən ölkəmizin paytaxtı özünəməxsus memarlığı ilə fərqlənir. Paytaxtın simasına xüsusi yaraşıq verən yeni memarlıq nümunələrinin inşası Bakını daha da gözəlləşdirir. Bu gün Azərbaycan paytaxtında həyata keçirilən quruculuq işləri nəticəsində Bakının müasir siması yaradılır, şəhər sakinlərinin, paytaxtımıza gələn qonaqların istirahətinin yüksək səviyyədə təşkili üçün yeni məkanlar qurulur. Artıq tikintisi başa çatan möhtəşəm «Alov qüllələri»nin inşası da bu sırada mühüm yer tutur. Bu, son illərdə Azərbaycanda gedən inkişaf proseslərinin göstəricisi olmaqla yanaşı, ölkəmizin müasir simasının yaradılması istiqamətində atılan mühüm addımlardandır. «Alov qüllələri» ideyası özlüyündə bir element kimi, son dərəcə maraqlıdır. Bu ilk növbədə, Odlar Yurdu Azərbaycanda aparılan quruculuq və abadlıq işlərinin miqyasını göstərir. Ona görə də «Alov qüllələri» həm ideya, həm də arxitektura baxımından diqqəti cəlb edən nadir nümunələrdəndir.*

*«Alov qüllələri»nin istifadəyə hazır olan «Fairmont Baku» hotelində yaradılan şərait öz görkəmini sürətlə dəyişən Bakının artıq dünyanın ən gözəl şəhərləri sırasında yerini möhkəmləndirdiyini göstərir. Müasir dizaynı ilə seçilən bu kompleksdə bey-*

nəlxalq və milli memarlıq üslubu peşəkarlıqla uzlaşdırılıb. Azərbaycan dövlətinin xalqımızın milli-mənəvi dəyərlərinə, zəngin irsinə göstərdiyi həssas münasibət bu hotel kompleksinin inşası zamanı başlıca meyarlardan olmuşdur.

İldən-ilə iqtisadi qüdrətini artıran ölkəmizdə prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılan inkişafın Azərbaycan modeli dünya ölkələrinin respublikamıza marağını artırır. «Alov qüllələri»ni yeni yüzillikdə Bakıda həyata keçirilən şəhərsalmanın mühüm tərkib hissəsi və hətta yeni elementlərindən biri hesab edirlər. Müasir Bakının simvollarından birinə çevrilən bu qüllələr qlobal urbanizasiya tələblərinə tam cavab verməklə özündə bir neçə kompleksi və xidmət sektorunu birləşdirir. Nömrələrin hamısından şəhərə və Xəzər dənizinə gözəl mənzərə açılır. Hotel qülləsində ümumi sahəsi 2,3 min kvadratmetrdən çox olan və özündə idman zalı, hovuz və digər istirahət yerlərini birləşdirən xidmət sahələri yaradılıb. Bundan əlavə, burada ümumi sahəsi 5 min kvadratmetrdən çox olan müxtəlif konfrans zalları da fəaliyyət göstərir. 5 konfrans zalında minimum 430, maksimum 1000 nəfərlik tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Burada müxtəlif ziyafət zalları, restoran və kafelər qonaqlara yüksək səviyyəli xidmət göstərəcəkdir. Binada 219 avtomobil üçün dayanacaq vardır. Hoteldə 18 lift işləyir. Bütün bunlar bir daha təsdiqləyir ki, müasirləşən ölkəmizdə yüksək səviyyəli xidməti ilə seçilən mehmanxanaların inşası geniş vüsət alıb və məşhur hotel brendlərinin ölkəmizə olan marağı xeyli artıb. Yerləşdiyi ərazi və mənzərəsi baxımından nadirliyi ilə fərqlənən «Fairmont Baku» hoteli təklif etdiyi xidmətlər baxımından bir çox brendləri üstələyir və ölkəmizin müasir turizm imkanlarını daha da artırır.

Artıq «Alov qüllələri» Bakının yeni və möhtəşəm simvolları arasında paytaxtımızın gözəlliyini dünyaya yüksək səviyyədə təqdim edir. «Alov qüllələri»nə dünyada olan marağı şərtləndirən ən mühüm amillər sırasında təbii ki, onun memarlıq üslubudur. Təsadüfi deyildir ki, bu gün Bakıya səfər edən xarici qonaqların görmək istədikləri məkanlar sırasında «Alov qüllələri» xüsusi yer tutur. Bu qüllələr Azərbaycan paytaxtından reportaj hazırlayan

*xarici telekanalların diqqətindən yayınmır. Məsələn, «Discovery» kanalının «Ekstremal mühəndislik» sənədli televiziya silsiləsində, o cümlədən dünyada məşhur olan «Science» (Elm) kanalında efirə gedən «Azərbaycanın möhtəşəm dəyişikliyi» proqramlarında bu barədə danışılıb. CNN telekanalı «Alov qüllələri»ni «Nəhəng binalar» layihəsində dünyanın 6 nəhəng və təkrarsız tikililəri sırasına daxil edib. Bununla yanaşı, «Alov qüllələri» Avropanın əsas tədbirlərindən olan «MIPIM – 2013» beynəlxalq sərgi-müsabiqəsində «Ən yaxşı hotel və turizm mərkəzi» nominasiyası üzrə qalib elan olunub. «SkyscraperCity.com» şəhərsalma forumunun sorğusuna əsasən, «Alov qüllələri»nin işıqlandırma sistemi dünyada ən yaxşı sistem kimi tanınmışdır. Bu uğuru şərtləndirən ən mühüm amillərin sırasında «Eurovision–2012» beynəlxalq mahnı müsabiqəsinin canlı yayımı zamanı ölkəmizin təbliği ilə bağlı efirə gedən postkartlarda «Alov qüllələri»nin xüsusi gözəlliyi və şəhərimizin simasına verdiyi yaraşıq da mühüm rol oynamışdı. Əlbəttə, bunlar Bakının modern memarlıq komplekslərinin uğurlarının beynəlxalq səviyyədə ilk etirafı deyildir. Müasir Bakı dünyada getdikcə məşhurlaşır. Paytaxtımızın imici burada həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri ilə daha da güclənir. Şəhərimizin qədimliyi və klassik üslubu harmonik şəkildə müasir memarlıq nailiyyətləri ilə birləşir və bütün bunlar təbii ki, Bakının dünyanın ən gözəl şəhərləri sırasında yerini daha da möhkəmləndirməsinə töhfə verir.*

*«Fairmont Baku»da yaradılan şəraitlə yaxından tanış olduqdan sonra dövlətimizin başçısı hotelin kollektivi ilə görüşdü.*

**İlham Əliyev:** Sizi bir daha ürəkdən salamlayıram. Təxminən 1 saatdır ki, «Fairmont» hoteli ilə tanış oluram. «Fairmont», sözün əsl mənasında, möhtəşəm hoteldir. Bakının, Azərbaycanın ən böyük, ən müasir hotelidir və burada yaradılan şərait ən yüksək səviyyədədir.

Bakıda hotellər çoxdur. Xüsusilə son 2 il ərzində beşulduzlu hotellər tikilmişdir. Azərbaycan, Bakı bu baxımdan fərqlənir. Çünki ikinci belə şəhər yoxdur ki, 2 il ərzində beşulduzlu 6 hotel tikilsin. Bu hotellərin hamısı ən məşhur hotel brendlərini təmsil

edir. Yadımdadır, mən hər bir hotelin açılışında şəxsən iştirak etmişdim. Hər dəfə yeni hotelin açılışı məni çox sevindirir. Çünki bu, şəhərimizə, ölkəmizə qoyulan investisiyalardır, şəhərimizin inkişafıdır, Bakının gözəlləşməsidir. Bakı onsuz da gözəl şəhərdir. Ancaq yeni hotellər şəhərimizi daha da gözəlləşdirir. Bu gün Bakıda bütün məşhur hotel brendləri vardır. Təkcə son 2 il ərzində «Kempinski», «Hilton», «Jumeirah», «Marriott», «Four Seasons» və «Fairmont» hotelləri açılmışdır. Bu özlüyündə bir göstəricidir. Ölkəmizin inkişafını göstərir. Azərbaycana investisiya qoyuluşunun istiqamətlərini göstərir. İnvestorların Azərbaycanın bu gününə və sabahına inamını göstərir. Bir sözlə, ölkəmiz inkişaf edir.

Belə möhtəşəm, gözəl hotellərin tikintisi Azərbaycanın gücünü göstərir. Çünki indi ölkəmizin inkişafı çoxşaxəlidir. Qeyri-neft sektorumuz da uğurla inkişaf edir. Bu ilin 5 ayında Azərbaycanda qeyri-neft sektoru 11 faiz artmışdır. Bu da hesab edirəm ki, dünya miqyasında ən yüksək göstəricidir.

Hotellərin tikintisi, əlbəttə ki, ölkədə gedən ümumi proseslərin təzahürüdür. Əgər ümumi inkişaf olmasaydı və Azərbaycan indi dünya mərkəzlərindən birinə çevrilməsəydi, bu hotellərin tikintisinə ehtiyac olmazdı. Burada, əlbəttə ki, mən investorların fəaliyyətini yüksək qiymətləndirirəm. Dünyada ən məşhur olan hotellər brendlərini də salamlayıram və onlara minnətdarlığımı bildirirəm ki, Azərbaycanda öz fəaliyyətlərini başlayırlar. Əminəm ki, onların fəaliyyəti uğurlu olacaqdır. Çünki Bakı, bir daha demək istəyirəm ki, indi dünya mərkəzlərindən biridir, həm siyasi, həm iqtisadi və mədəni cəhətdən. Bakıda, demək olar ki, hər həftə mötəbər beynəlxalq tədbirlər keçirilir. Beləliklə, yeni hotellərin tikilməsinə də ehtiyac yəqin ki, olacaqdır.

«Fairmont» hoteli isə, sözün əsl mənasında, möhtəşəm bir hoteldir. Daxili dizayn zövq oxşayır. Burada hər şey çox böyük zövqlə yaradılıbdır. Hər şey qonaqların rahatlığına hesablanıbdır. Gözəl otaqlar, geniş ictimai yerlər, konfrans mərkəzi, istirahət zonaları, dizayn çox gözəldir.

Əlbəttə ki, hotelin xarici görünüşü də möhtəşəmdir. «Fairmont» hoteli və «Alov qüllələri» Bakının yeni simvoludur. Bakımızın

qədim simvolları vardır ki, biz haqlı olaraq onlarla qürur duyuruq. «Qız qalası» Bakının simvoludur, İçərişəhər nadir memarlıq abidəsidir. Bulvar 100 ildən çoxdur ki, fəaliyyət göstərir. Bunlar Bakının köhnə və qədim simvollarıdır.

Müstəqillik dövründə Bakının yeni simvolları da yaradılmışdır. Onların arasında mən Heydər Əliyev Mərkəzini qeyd edə bilərəm. Yuxarı mərtəbələrdən Heydər Əliyev Mərkəzi də görünür. Bu da nadir bir memarlıq əsəridir. Dünya miqyasında bunun analoqu yoxdur. Bayraq Meydanı müasir dövlətimizin simvoludur. Azərbaycanın müstəqilliyini əks etdirən möhtəşəm Bayraq Meydanının da dünyada analoqu yoxdur. Yeni bulvar, hesab edirəm ki, Bakının yeni simvoludur. Digər binalar müasir şəhərimizi təcəssüm etdirir və onların içində, əlbəttə ki, «Alov qüllələri»nin xüsusi yeri vardır. Təsadüfi deyildir ki, indi müxtəlif beynəlxalq tədbirlərdə, Azərbaycanın xaricdəki müxtəlif tədbirlərində «Alov qüllələri» bir simvol kimi əks etdirilir. Bu doğrudan da nadir memarlıq əsəridir, dünyada analoqu yoxdur və şəhərimizin ən gözəl yerlərindən birində böyük zövqlə və böyük məhəbbətlə tikilibdir. Əlbəttə, «Fairmont» hotelinin belə bir yerdə fəaliyyətə başlaması məni sevindirir. Çünki «Fairmont» hotellər qrupu dünyanın ən qabaqcıl qruplarından biridir və əminəm ki, Azərbaycanda bu hotelin uğurlu fəaliyyəti təmin ediləcəkdir.

Bu hotelin açılması turizm sektorunun inkişafına da təkan verəcəkdir. Çünki «Alov qüllələri» indi dünyada məşhur bir memarlıq abidəsidir. Əminəm ki, burada qalmaq üçün gəlmək istəyənlərin sayı çox olacaqdır.

Turizmin inkişafı Azərbaycanda sürətlə gedir. İldən-ilə turistlərin sayı artır. Şadam ki, təkcə Bakıda deyil, başqa yerlərdə də turizm kompleksləri, həmçinin «Şahdağ» kompleksi açılmışdır. Bu qış mövsümündə orada artıq 5 hotel fəaliyyət göstərəcəkdir. Yəni bu, ölkəmizin ümumi inkişafını göstərir. Ölkəmiz sürətlə inkişaf edir. Bütün sahələr, o cümlədən tikinti, turizm sahələri inkişaf edir. Bir daha demək istəyirəm ki, Azərbaycanda belə möhtəşəm binaların, hotellərin tikilməsi və fəaliyyətə başlaması ölkəmizin ümumi inkişafının təzahürüdür.

Əminəm ki, siz – bu hoteldə çalışanlar qonaqlara yaxşı xidmət göstərəcəksiniz. Əminəm ki, ölkəmizin inkişafına öz dəstəyinizi, töhfənizi verəcəksiniz. Şübhə etmirəm ki, qonaqlar burada qayğı ilə, diqqətlə əhatə olunacaq, həm buradan açılan mənzərədən, həm də burada yaradılmış şəraitdən zövq alacaqlar. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

## SİLAHLI QÜVVƏLƏRİN BAŞ KLİNİK HOSPİTALININ 2-ci MÜALİCƏ KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*25 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yeni inşa edilmiş 2-ci müalicə korpusunun açılışında iştirak etmişdir.*

*Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin hospitalın həyatindəki abidəsi önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, son illərdə Azərbaycanda bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsinin də maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Azərbaycan Silahlı Qüvvələrinin Baş Klinik Hospitalının yeni tikilmiş 2-ci müalicə korpusunun ən müasir avadanlıqlarla təchiz edilməsi bu sahəyə göstərilən dövlət qayğısının nümunəsidir. Yarandığı gündən bu hərbi səhiyyə müəssisəsi zabit və əsgər heyətinə, həmçinin hərbi qulluqçuların ailə üzvlərinə yüksək səviyyədə tibbi xidmət göstərib. Ümummilli lider Heydər Əliyev və prezident, Ali Baş Komandan İlham Əliyev bu hospitalın fəaliyyətini daim diqqət mərkəzində saxlamışlar. Ulu öndərin 1993-cü ildə burada müalicə alan hərbçilərə baş çəkməsi, dövlətimizin başçısının isə 2006-cı ildə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının 1-ci müalicə korpusunun açılışında iştirakı bunun əyani təsdiqidir. Məhz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində Azərbaycan hərbi sistemində xidmətin beynəlxalq standartlar səviyyəsində təşkilinin əsası qoyulmuşdur.*

*Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi qulluqçulara olan qayğısı, habelə ordu quruculuğu sahəsinin müasir dünya standartlarına uyğun təşkilinə dair qəbul etdiyi mühüm qərarlar isə şəxsi heyətin peşəkarlıq səviyyəsini artırmış, onların sosial müdafiəsini, yaşayış və iş şəraitini, struktur qurumların maddi-texniki bazasını yaxşılaşdırmışdır. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının 2-ci müalicə korpusunun inşası da bu tədbirlərin ardıcıl xarakter aldığını göstərir.*

*Sonra prezident İlham Əliyev hospitalın baş planını əks etdirən stendə baxdı. Dövlətimizin başçısı müalicə korpusunun rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Diqqətə çatdırıldı ki, bu korpus ən son elmi-texniki nailiyyətlərə əsaslanan avadanlıqlarla təchiz edilib. Burada ürək-damar cərrahiyyəsi, invaziv kardiologiya, nevrologiya və digər bölmələr yaradılıb. Bölmələr ən müasir tibbi avadanlıq və cihazlarla təchiz edilib. Bölmə və şöbələrdə yaradılan şərait xəstələrə ən yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir. Səkkizmərtəbəli yeni korpusun tikintisi də yüksək səviyyədə aparılıb. Tikinti işlərini qısa müddətdə və keyfiyyətlə yerinə yetirmək üçün maksimum səy göstərilib. Korpusun tikintisi müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilib. Korpusun 600 yerlik yeməkxanasının mətbəxində yaradılan şərait 1700 nəfərə yemək hazırlamaq üçün imkan verir. Bu tibb müəssisəsinin 60 çarpayılıq mobil səhra cərrahiyyə hospitalı da ən müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Səyyar hospital fəal döyüş əməliyyatları zamanı yaralılara və xəstələrə ixtisaslı tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulub. Bu cür müəssisələrin inşası, burada ən müasir avadanlığın quraşdırılması ilk növbədə, Azərbaycan dövlətinin hərbçilərin sağlamlığına və onların sosial məsələlərinin həllinə həssaslıqla yanaşdığını nümayiş etdirir. Bu tədbirlər həm də Azərbaycan dövlətinin iqtisadi cəhətdən gücləndikcə ordumuzun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi*

*istiqamətində olduqca mühüm işlərin həyata keçirdiyini göstərir.*

*Diqqətə çatdırıldı ki, bu hərbi tibb müəssisəsi 1000 çarpayı fonduna malik olmaqla, Silahlı Qüvvələrin hərbi qulluqçularına, istefaya və ehtiyata buraxılmış zabitlərə, onların ailə üzvlərinə yüksək ixtisaslı tibbi yardım göstərir. 25,4 hektar sahəni əhatə edən, 8 müalicə və digər yardımçı korpuslardan ibarət olan hospitalda 6 şöbə, 47 müalicə-diaqnostika bölməsi vardır. Hospitalda 300 çarpayılıq 1-ci müalicə korpusu, 60 çarpayılıq yoluxucu xəstəliklər korpusu, müasir sanitar avtomobillərlə təmin edilmiş avtomobil parkı fəaliyyət göstərir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ümumi sahəsi 30 min kvadratmetr olan 2-ci müalicə korpusu 560 çarpayılıqdır. Burada 27 müalicə-diaqnostika bölməsi yerləşir. Bölmələr tibb heyəti ilə tam komplektləşdirilmiş və beynəlxalq standartlara cavab verən avadanlıq və cihazlarla təchiz olunmuşdur.*

*Prezident İlham Əliyev yeni korpusun ürək-damar bölməsində yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, burada ürək çatışmazlığı zamanı uzun müddətə ürəyin fəaliyyətini stimullaşdıran xüsusi qurğu quraşdırılıb. Korpusun palataları və əməliyyat blokları da ən yüksək səviyyədədir. Blokların layihələndirmə və quraşdırma işlərini bu sahədə dünyada böyük nüfuza malik şirkətlər həyata keçirib. Burada quraşdırılan avadanlıq istənilən növ ağır əməliyyatları aparmağa imkan verir. Bölmənin intensiv-terapiya otaqları da dünya tibb sahəsinin ən son avadanlığı ilə təchiz edilib. Korpusda invaziv kardiologiya bölməsi də fəaliyyət göstərəcəkdir. Bölmənin avadanlıq və cihazları xəstələrə yüksək səviyyədə, həmçinin qısa vaxtda keyfiyyətli tibbi xidmət göstərməyə şərait yaradır. Buradakı cihazlar müalicə və diaqnostika işini dəqiqliklə yerinə yetirməyə imkan verir. Diqqətə çatdırıldı ki, tibb ocağının 4 blokunda 10 əməliyyat otağı yaradılıb. Otaqlarda burun-qulaq, ginekoloji, oftalmoloji və ümumi cərrahiyyə əməliyyatları aparmaq mümkündür. Yüksək rütbəli zabitlər üçün yaradılmış tibb xidməti sahəsi də ən müasir tələblər səviyyəsində qurulub. Burada gözləmə,*

*konfrans, yataq, yemək otaqları yaradılmış, intensiv terapiya və tibbi heyət üçün bölmələr fəaliyyət göstərir. Ümumi sahəsi 540 kvadratmetr olan bu xidmət sahəsində xəstələrin müalicə işini tibbin ən son tələbləri əsasında aparmaq üçün geniş imkanlar mövcuddur.*

*Korpusun 36 otaqdan ibarət laboratoriya şöbəsi də dünya standartları səviyyəsindədir. Burada ən müasir laborator müayinə üsullarını özündə birləşdirən və tibbi tələblərə tam cavab verən dünyanın aparıcı şirkətlərinin avadanlığı quraşdırılmışdır. 1500 kvadratmetr sahədə yerləşən şöbədə genetik, mikrobioloji, immunoloji, biokimyəvi və kliniki laborator qurğular vardır. Tibb müəssisəsinin radiologiya bölməsində rentgen, maqnit-rezonans tomoqrafiya, kompüter tomoqrafiyası, flüoroqrafiya aparatları quraşdırılıb. Tibb ocağında yaradılan videomüşahidə otağında quraşdırılan monitorlar vasitəsilə əməliyyat otaqlarından görüntü nümayiş olunur. Xəstənin yaxınları, eləcə də tibb sahəsində təhsil alanlar bu otaqda aparılan əməliyyatları istər birbaşa, istərsə də sonradan izləyə bilərlər.*

*Yeni korpusun qarşısında ümumi sahəsi 5 hektar olan ərazidə geniş abadlıq-quruculuq işləri görülmüş, yaşıllıq sahələri salınmışdır.*

*Səhiyyə ocağı ilə tanışlıqdan sonra dövlətimizin başçısı hospitalın kollektivini təbrik etdi.*

**İlham Əliyev:** Hərbi hospitalın yeni binasının açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu açılış onu göstərir ki, Azərbaycanda səhiyyə sahəsində işlər yüksək səviyyədə aparılır. Son 10 il ərzində Azərbaycanda 500-dən çox tibb ocağı tikilmiş və təmir edilmişdir. Bakıda və bütün bölgələrdə yeni müasir xəstəxanalar, diaqnostika mərkəzləri açılır və insanlara yüksək səviyyədə tibbi xidmət göstərilir. Bu çox vacib məsələdir. Çünki insanların sağlamlığı dövlət üçün prioritetdir. Son illər bu sahədə görülən işlər doğrudan da yüksək qiymətə layiqdir.

Bu hospitalın tikintisi özlüyündə bir göstəricidir. Mən bir neçə il əvvəl hospitalın 1-ci korpusunun açılışında iştirak

etmişdim. O vaxt da çox böyük işlər görülmüşdü. Bu bina və burada quraşdırılmış avadanlıqlar dünya səviyyəsindədir. Dünyanın aparıcı klinikalarında olan şərait və texniki təchizat burada vardır. Bu belə də olmalıdır. Çünki Azərbaycanda hər bir sahədə – iqtisadiyyatın, xidmətin hər bir sahəsində ən yüksək standartlar olmalıdır. Biz bunu gözəlləşən şəhərlərdə yeni infrastruktur layihələrinin yaradılmasında və vətəndaşlara göstərilən tibbi xidmətdə görürük. Burada bütün şərait var, burada çalışan mütəxəssislər də böyük peşəkarlığa malikdirlər, xarici klinikalarda təlim keçmişlər. Görürəm ki, burada işləyənlərin əksəriyyəti gənclərdir. Bu da məni çox sevindirir. Çünki indi dünyada tibb elmi o qədər sürətlə inkişaf edir ki, bu inkişafı daim izləmək lazımdır. Ən mütərəqqi texnologiyalar tətbiq edilməlidir. Burada indi ən müasir avadanlıq vardır, əsas məsələ bu avadanlıqdan səmərəli şəkildə istifadə etmək və insanlara yüksək tibbi xidmət göstərməkdir.

Bu hospitalın açılışı Silahlı Qüvvələr Günü ərəfəsində baş verir. Sabah biz Silahlı Qüvvələrin 95 illiyini qeyd edəcəyik. Sabah hərbi parad keçiriləcəkdir. Azərbaycan hərbi qüdrətini bir daha nümayiş etdirəcəkdir. Ordumuz inkişaf edir, güclənir və hərbçilərin sosial məsələləri də həll edilir. Dünən hərbçilərin vəzifə maaşlarının artırılması ilə bağlı sərəncam imzalanmışdır. Bu gün bu gözəl hospital açılır. Bildiyiniz kimi, 20 il qüsursuz xidmət göstərmiş hərbçilərə artıq dövlət tərəfindən mənzillər verilməyə başlanıb. Artıq 187 mənzil verilib. Hərbçilərin sosial müdafiəsi daim diqqət mərkəzindədir.

Bütövlükdə, sosial məsələlərin həlli, yeni şəraitin yaradılması işində uğurlar var və bu hospitalın tikilməsi, açılması bunun əyani sübutudur. Digər qurumların da hospitalları, xüsusi tibb mərkəzləri açılmışdır. Son illər Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Gömrük Komitəsi, Xüsusi Mühafizə Xidməti öz hospitallarını tikib istifadəyə vermişdir. Hesab edirəm ki, indi bütün qurumlarda hüquq- mühafizə orqanlarının işçilərinin yüksək tibbi xidmət almaları üçün şərait vardır. Qeyd

etdiyim kimi, bütün başqa yerlərdə də yeni tibb müəssisələri açılır və bu proses bundan sonra da davam etdiriləcəkdir.

Burada yüksək xidmət göstərilməlidir. Arzu edirəm ki, hərbçilər xəstələnməsinlər. Ancaq xəstələnəndə də artıq yüksək xidmət ala biləcəklər. Burada çarpayıların sayı 1000-ə qədərdir. Yəni bu, Azərbaycanın ən böyük tibb müəssisəsidir. Hesab edirəm ki, burada ən yüksək standartlar daim saxlanmalı və insanlara yüksək xidmət göstərilməlidir.

Bir daha bu gözəl hadisə və qarşıdan gələn bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram.

*Prezident, Ali Baş Komandan İlham Əliyev sonra ən müasir tibbi avadanlıqla təchiz edilmiş mobil səhra cərrahiyyə hospitalı ilə tanış oldu. Qeyd edildi ki, hospital 2,5 min kvadratmetr sahədə açılır. Açıldıqdan 1 saat sonra xəstələri qəbul edə, 4–6 saatdan sonra isə öz funksiyasını tam yerinə yetirə bilir. Burada gündə 150-dək xəstəyə tibbi xidmət göstərmək mümkündür. Hospital yaralıların və xəstələrin qəbulu, qeydiyyatı və diaqnozun qoyulması üçün nəzərdə tutulan çeşidləmə, idarəetmə və rabitə, həmçinin diaqnostika çadırlarından ibarətdir. Diaqnostika çadırında müayinələr aparmaq üçün rəqəmsal rentgen, USM, 12 kanallı elektrokardioqraf aparatları və 24 göstəricini eyni zamanda verən qan analizatoru mövcuddur. Burada, həmçinin 2 əməliyyat, 2 intensiv terapiya bloku və hər birində 8 çarpayı olan 6 yaralı və xəstə çadırı vardır. Hospitalın özəlliyi onun konteyner və çadırlarının qısa müddətə hazır vəziyyətə gəlməsindədir. Konteynerləri 5-7, çadırları isə 7-9 dəqiqəyə hazırlamaq mümkündür. Bu isə hospitalın daşınma prosesini asanlaşdırır. Səyyar hospital şəxsi heyətin yataqxanası, aptek, səyyar mətbəx, hamam və sanitar qovşaqla təchiz olunub. Bütün konteyner və çadırlarda işıq, mərkəzləşdirilmiş isitmə-soyutma və yanğın əleyhinə xüsusi sistemlər quraşdırılıb.*

## BÖYÜK BRİTANİYANIN MÜDAFİƏ NAZİRİNİN PARLAMENTAR BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK STRATEGİYASI ÜZRƏ BİRİNCİ MÜAVİNİ ENDRYU MORRİSON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Böyük Britaniyanın Müdafiə nazirinin Parlamentar Beynəlxalq Təhlükəsizlik Strategiyası üzrə birinci müavini Endryu Morrisonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin yüksək səviyyədə olduğu* bildirildi, *əməkdaşlığımızın müxtəlif istiqamətlərdə,* o *cümlədən* iqtisadi, enerji *və digər sahələrdə inkişafından məmnunluq ifadə* olundu, ölkələrimizin BMT *çərçivəsində əməkdaşlığının önəmi vurğulandı. Söhbət zamanı Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibindəki uğurlu fəaliyyəti və ölkəmizin Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə* verdiyi *töhfə yüksək qiymətləndirildi,* bu *əməkdaşlığın gələcəkdə də* davam *etdiriləcəyinə əminlik ifadə* olundu.

# SİLAHLI QÜVVƏLƏRİN 95 İLLİYİ MÜNASİBƏTİLƏ BAKIDA TƏNTƏNƏLİ HƏRBİ PARADDA İŞTİRAK

*Azadlıq meydanı*

*26 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda iştirak etmişdir.*

*Dövlət və hökumət rəsmiləri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, deputatlar, xarici ölkələrin respublikamızdakı səfirləri, beynəlxalq təşkilatların əməkdaşları, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləmişlər.*

*Hərbi paradda Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrin, xüsusi təyinatlı təhsil müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin 5 min nəfərlik şəxsi heyəti, 300-dək hərbi texnika və silah sistemləri, 100-dən çox döyüş təyyarəsi və helikopter, 40-dək gəmi iştirak etmişdir.*

*Meydana toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar. Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əsgərləri salamladı. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin müşayiəti ilə Azərbaycanın Dövlət himni ifa edildi.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev təntənəli paradda nitq söylədi.*

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi**

Əziz əsgərlər, zabitlər, generallar!
Əziz hərbçilər!
Hörmətli qonaqlar!

Mən sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm, Silahlı Qüvvələrin bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

Bugünkü hərbi parad ordumuzun 95 illik yubileyinə həsr olunur. Bugünkü paradda Azərbaycan dövləti öz hərbi qüdrətini nümayiş etdirəcəkdir.

Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu hər bir ölkə üçün belə olmalıdır. Çünki hər bir ölkə özünü müdafiə etməlidir. Xüsusilə müharibə şəraitində yaşayan ölkələr üçün bu çox böyük əhəmiyyətə malik olan məsələdir.

Azərbaycan müharibə şəraitində yaşayır. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatmışdır. Bizim ordumuz hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü istənilən yolla bərpa etsin. Uzun illərdir Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həllini tapmır. Uzun illərdir ki, bu ədalətsizlik davam edir. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış torpaqları işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini müdafiə edir. Bütün mötəbər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı qərar və qətnamələrini qəbul etmişdir. Ancaq Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur və işğal davam edir. Əfsuslar olsun ki, danışıqlar nəticə vermir. Belə olan halda, əlbəttə ki, ordu quruculuğuna böyük ehtiyac vardır.

Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşamış, yaratmışdır. Bu gün də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, dünya birliyi ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Bugünkü Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalları bizim tarixi diyarlarımızdır. Azərbaycan dövləti və xalqı Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəkdir. Biz çalışacağıq ki, məsələ tezliklə həllini tapsın. Məsələnin həlli, əlbəttə ki, siyasi yollardan keçir. Danışıqlar prosesi hələ də davam edir. Ancaq güclü ordumuz, güclü potensialımız mövqemizi möhkəmləndirir. Bizim mövqemiz tarixi ədalət üzərində qurulubdur. Çünki bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycan torpağı kimi qalacaqdır. Bizim mövqemiz beynəlxalq hüquq normaları tərəfindən dəstəklənir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Bizim mövqemiz güclü ordu ilə tamamlanır. Bu məqsədlə son illər ərzində ordu quruculuğuna çox böyük diqqət göstərilmişdir. Ordumuz inkişaf edir. Bu inkişaf daimi prosesdir. Mən hərbi hissələrə tez-tez gedirəm, vəziyyətlə tanış oluram və görürəm ki, ordumuzun döyüş qabiliyyəti artır. Nizami ordumuz vardır. Ordumuzun peşəkarlığı artır. Bütün cəmiyyətdə olduğu kimi, orduda da vətənpərvərlik ruhu yüksək səviyyədədir. Orduda xidmət edənlərin mütləq əksəriyyəti gənclərdir. Mən çox şadam ki, Azərbaycan gəncləri vətənpərvərlik ruhunda tərbiyə alırlar. Orduda xidmət edənlər Vətəninə, xalqına bağlı olan, Vətənini sevən insanlardır. Bu amillər ordumuzu daha da gücləndirir. Eyni zamanda, son illər ərzində ordumuzun texniki təchizatında da çox böyük inkişaf vardır. Son illər ərzində ən müasir texnika, silah-sursat alınmışdır. Son illər alınan və Azərbaycanda istehsal olunan texnikanın bir hissəsi bugünkü paradda nümayiş etdiriləcəkdir. Burada mövcud texnikanın sadəcə olaraq, cüzi bir hissəsi göstəriləcəkdir.

Azərbaycan son illər ərzində hərbi məqsədlər üçün çox böyük vəsait xərcləmişdir. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə hərbi büdcəmiz 163 milyon dollar idi, keçən il bu rəqəm 3,6 milyard, bu il isə 3,7 milyard dollara çatmışdır. Bu özlüyündə onu göstərir ki, ordu quruculuğu prioritet məsələdir. Büdcəmizin ən böyük xərcləri orduya sərf olunur. Bu da təbiidir. Biz son illər ərzində ən müasir texnikaları almışıq. XXI əsrdə müharibələr daha çox texnologiyalar, biliklər üzərində qurulacaqdır. Bu, zəmanənin tələbidir. Azərbaycanın son illər ərzində əldə etdiyi silahlar müasir silahlardır. Yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik olan silahlardır. Son illərdə 100-ə yaxın döyüş və nəqliyyat helikopteri alınmışdır. Onlarla döyüş təyyarəsi, hava hücumuna qarşı ən müasir qurğular alınmışdır. Bu zirehli maşınlar, ən müasir tanklar, ən müasir artilleriya qurğuları düşmənin istənilən nöqtəsini məhv etməyə qadirdir. Bu proses davam etdirilir.

Növbəti illərdə də hərbi xərclər ümumi büdcəmizdə üstünlük təşkil edəcəkdir. Müqayisə üçün deyə bilərəm ki, yoxsul Ermənistanın bütün büdcəsi 2 milyard dollara yaxındır. Yəni ancaq hərbi məqsədlər üçün istifadə olunan vəsaitimiz Ermənistanın bütövlükdə bütün xərclərindən təxminən 2 dəfə çoxdur.

Güclü Azərbaycan gücsüz Ermənistan ilə istənilən dildə danışa bilər. Biz sadəcə olaraq, bölgədə, regionda sabitliyi qorumaq üçün hələ ki, danışıqlar yoluna üstünlük veririk. Çünki Azərbaycan bölgədə sabitləşdirici ölkədir. Azərbaycan bölgədə çox böyük nüfuza malik olan bir ölkədir. Azərbaycanın razılığı olmadan bölgədə heç bir təşəbbüs, heç bir layihə icra edilə bilməz. Ona görə sabitliyi qorumaq, məsələni sülh yolu ilə həll etmək üçün biz hələ ki, siyasi yollara üstünlük veririk.

Ancaq sirr deyil ki, Azərbaycan gündən-günə güclənir, Ermənistan gündən-günə zəifləyir. Bizim iqtisadi gücümüz müqayisəedilməz dərəcədə artmışdır. Düşməni istənilən istiqamət üzrə bir neçə dəfə, bəzi istiqamətlər üzrə 10 dəfədən çox üstələyirik və bu fərq getdikcə böyüyəcəkdir. Çünki bizim açıq-aydın gələcəyimiz, perspektivlərimiz, inkişaf yolumuz vardır. Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Son

10 il ərzində dünyada iqtisadi inkişaf baxımından Azərbaycan kimi inkişaf edən ikinci ölkə yoxdur. Bu amillər – bir daha demək istəyirəm, tarixi amillər, beynəlxalq hüquq normaları, siyasi amillər və iqtisadi-hərbi gücümüz – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində, ədalətli həll edilməsində öz sözünü deyəcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağda, digər işğal edilmiş torpaqlarda, Xankəndidə, Şuşada Azərbaycan bayrağı dalğalanacaqdır.

Biz yerli istehsala da böyük diqqət göstəririk. Son 8 il ərzində Azərbaycanda yerli hərbi istehsal inkişaf etmişdir, çoxlu hərbi zavodlarımız vardır. Bu zavodlarda 750 adda məhsul istehsal edilir. Biz bütün növ patronları istehsal edirik. Tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz təyyarələr – bütün bunlar Azərbaycanda istehsal olunur. Gələcəkdə yerli istehsalın gücləndirilməsi ilə bağlı bizim böyük planlarımız vardır. Biz artıq çox güclü hərbi sənayeyə malikik. Azərbaycan məhsulları dünya sərgilərində nümayiş etdirilir və eyni zamanda, bizim ixrac imkanlarımız da artmaqdadır. Bu onu göstərir ki, istənilən vəzifə öz həllini tapa bilər. Təki iradə, düşünülmüş siyasət olsun. Biz həm xaricdən ən müasir hərbi texnika alırıq, eyni zamanda, daxili istehsalı da gücləndiririk və gücləndirməliyik.

Hərbçilərin sosial müdafiəsi məsələləri də uğurla həllini tapır. Mən dünən hərbi hospitalın yeni korpusunun açılışında iştirak etmişəm, 2 gün bundan əvvəl hərbçilərin maaşları qaldırılmışdır. Artıq orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərin məişət problemləri də həllini tapmaqdadır. Bu kateqoriyadan olan hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Artıq 200-ə yaxın mənzil verilmişdir və bu proses gələcək illərdə daha da geniş vüsət alacaqdır. Yəni hərbçilərin sosial-məişət problemləri həllini tapmaqdadır.

Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti ordu quruculuğuna çox böyük əhəmiyyət verir. Bu bizim başlıca vəzifəmizdir və gələcək illərdə bu proses daha da sürətlə gedəcəkdir.

Bizim gücümüz bizim birliyimizdədir. Azərbaycan müstəqil dövlət kimi, böyük zirvələrə çata bilmişdir, dünya miqyasında çox böyük nüfuza malikdir. Biz dünyanın ən mötəbər təşkilatına – BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq və bu təşkilatda öz mövqemizi müdafiə edirik. Azərbaycan nəinki regionda, dünya miqyasında çox etibarlı tərəfdaşa çevrilmişdir. Bizim xarici siyasətimizlə bağlı olan bütün təşəbbüslərimiz sülhə, əmin-amanlığa, beynəlxalq əməkdaşlığa istiqamətləndirilibdir.

Eyni zamanda, Azərbaycanda daxili sabitlik mövcuddur. Bu da inkişaf üçün başlıca amildir. Azərbaycanda xalq ilə iqtidar arasında birlik vardır. Bizim bütün təşəbbüslərimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Azərbaycanda iqtisadi inkişafla bağlı çox böyük işlər aparılmışdır. Beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir. Hətta böhranlı illərdə – hələ ki, bu böhran dünyada davam edir – Azərbaycan inkişaf edir, iqtisadiyyat inkişaf edir.

İqtisadiyyatımızın bütün sahələri inkişaf edir. Bu ilin 5 ayında qeyri-neft sektorumuz 11 faiz, ümumi iqtisadiyyat təxminən 5 faiz artmışdır. Azərbaycanda işsizlik, yoxsulluq problemləri aradan qaldırılır, böyük infrastruktur layihələri icra edilir. O cümlədən bütün hərbi şəhərciklər bərpa edilir və qarşıya vəzifə qoymuşdum ki, növbəti 2 il ərzində bir dənə də təmirsiz hərbi hissə, hərbi şəhərcik və hərbi baza olmasın. Müvafiq göstərişlər verilmişdir, vəsait ayrılmışdır və bu proses uğurla gedir. Yəni biz bütün istiqamətlər üzrə öz fəaliyyətimizi uğurla, inamla aparırıq. İnsanların rifah halı yaxşılaşır, ölkənin nüfuzu artır, iqtisadiyyat, sənaye inkişaf edir və Azərbaycan çox dinamik şəkildə qabağa gedir. Cəmi 20 ildən bir qədər çox müstəqillik yaşı olan Azərbaycan sübut edib ki, azad, müstəqil ölkə kimi yaşaya, müstəqilliyini, öz seçimini qoruya bilər. Bizim güclü siyasi iradəmiz, güclü iqtisadiyyatımız, güclü ordumuz vardır. Ordu dövlətçiliyi, bizim seçimimizi, müstəqil siyasətimizi qoruyur. Xalq isə ordunu qoruyur və qorumalıdır.

Güclü dövlətin güclü ordusu olmalıdır. Hesab edirəm ki, Azərbaycan qısa müddət ərzində güclü dövlətlərin sırasına daxil

edilib. İndi böyük layihələri icra edirik, həm ölkəyə, həm başqa ölkələrə böyük investisiyalar qoyuruq. Beynəlxalq müstəvidə çox böyük nüfuza malikik. Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır – həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizata görə. Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcək. Ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Mən Ali Baş Komandan kimi, bundan sonra da ordu quruculuğuna, ordunun inkişafına öz dəstəyimi verəcəyəm.

Əminəm ki, Azərbaycan qarşıda duran bütün vəzifələri uğurla icra edəcəkdir. Bu gün, demək olar ki, Dağlıq Qarabağ problemindən başqa, heç bir məsələ həll olunmamış qalmır. Bütün istiqamətlər üzrə inkişaf, konkret siyasət, proqram və gözəl nəticələr var. Əminəm ki, biz münaqişənin həllində də istədiyimizə nail olacağıq, tarixi ədaləti bərpa edəcəyik, doğma torpaqlarımıza qayıdacağıq! Bunun başqa yolu yoxdur! Tarixin inkişafı, tarixin gedişatı, dünyada gedən proseslər, güclənən Azərbaycan, zəifləyən, yoxsullaşan Ermənistan – bütün bunlar reallıqdır və bu reallıqları biz yaratmışıq, öz siyasətimizlə, öz iradəmizlə. Biz Ermənistanı bundan sonra da bütün beynəlxalq və regional layihələrdən təcrid edəcəyik. Azərbaycanı bundan sonra da gücləndirəcəyik. Dövlətimiz bu münaqişənin həllində öz sözünü deyəcək və bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmrini icra edəcəkdir.

Eşq olsun Azərbaycan Ordusuna!

Yaşasın Azərbaycan!

* * *

*Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.*

*Meydana əvvəlcə Azərbaycan Respublikasının Dövlət bayrağı gətirildi.*

*Uzun illərdən sonra ulu öndər Heydər Əliyevin yenidən dalğalandırdığı Azərbaycan Xalq Cümhuriyyətinin şanlı üçrəngli bayrağı bu gün də etibarlı əllərdədir. Prezident, Silahlı Qüvvələrin*

*Ali Baş Komandanı İlham Əliyev demişdir: «Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada da dalğalanacaqdır!».*

*Dövlət bayrağının ardınca quruda, dənizdə və havada müqəddəs Vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqlarını aparan hərbçilər addımlayırdılar. Azərbaycan əsgəri şücaət və rəşadət rəmzi olan bu bayraqlar altında daha böyük qələbələr qazanmaq əzmindədir.*

*Sonra ümummilli lider Heydər Əliyevin 42 il öncə yaratdığı və Azərbaycanın hərb tarixində xüsusi yeri olan Cəmşid Naxçıvanski adına Hərbi liseyin kursantları, quru qoşunlarının, hərbi hava və hərbi dəniz qüvvələrinin zabit bölükləri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Ali Hərbi Təyyarəçilik və Ali Hərbi Dənizçilik məktəblərinin kursantları tribunanın önündən vüqarla keçdilər.*

*Onların ardınca cəbhə bölgələrindəki hərbi birlikləri təmsil edən motoatıcılar addımlayırdılar. Ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə orden və medallarla təltif olunmuş döyüşçülərimiz onların sıralarında idi.*

*Doğma Azərbaycanımızın qorxmaz, igid övladları – Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının, Milli Təhlükəsizlik Nazirliyinin, Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunlarının bölmələri, Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlıları, Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları, beynəlxalq təhlükəsizliyin qorunmasında fəal iştirak edən Silahlı Qüvvələrimizin sülhməramlıları, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları da nizami addımlarla tribunanın önündən keçdilər.*

*Azadlıq meydanındakı hərbi paradda mətin addımlarla Ali Baş Komandanın qarşısından keçən igidlərimiz ötən qısa müddətdə Azərbaycanda ordu quruculuğu sahəsində əldə olunan in-*

*kişafı əyani nümayiş etdirdilər. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Milli Ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır. Onlar Ali Baş Komandanın əmrini gözləyirlər. Onlar öz doğma torpaqlarını azad etməyə hər an hazırdırlar. Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur.*

*Daha sonra müqəddəs Azərbaycan bayrağı altında hərbi texnikanın keçidi başladı.*

*Azadlıq meydanına əvvəlcə düşmənin canlı qüvvəsini və zirehli texnikasını məhv etmək üçün nəzərdə tutulmuş, üzərində müxtəlif silah sistemləri quraşdırılmış «Gürzə», «Bəbir» və «Əqrəb» xüsusi avtomobilləri daxil oldu.*

*Onların ardınca meydandan üzərində müxtəlif çaplı pulemyotlar quraşdırılmış «Land Rover» avtomobilləri, döyüş zamanı şəxsi heyətin daşınması və yüngül zirehli texnikaların, sığınacaqlardakı canlı qüvvələrin, eləcə də zirehli texnikaların məhv edilməsi üçün nəzərdə tutulmuş «Kobra» yüngül zirehli döyüş maşınları, şəxsi heyətin döyüş meydanında daşınmasını təmin edən transportyorlar, ZPT, «Storm-Sofa» markalı zirehli maşınlar və 107 millimetrlik reaktiv buraxıcı qurğular keçdi.*

*Ölkəmizdə istehsal olunan «Şahin» və «Qaranquş» pilotsuz uçuş aparatlarının nümayişi hərbi parada tamaşa edənlərdə daha böyük maraq doğurdu. Bu aparatlar düşmənin taktiki dərinliklərində kəşfiyyat aparılması üçün istifadə edilən ən müasir və səmərəli texnikadır. Bu aparatlar geniş ərazilərdə mühüm obyektlərin kəşfiyyatını aparmağa imkan verir.*

*Sonra meydandan Azərbaycanın müdafiə sənayesinin istehsalı olan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan «Maral» və «Maral-1» zirehli döyüş maşınları keçdi. Düşmənin canlı qüvvə və hərbi texnikasını məhv etmək üçün nəzərdə tutulmuş bu maşınlar yüksək keçid manevrinə malikdir.*

*Zirehli döyüş maşınlarının ardınca meydana «Gürzə» haubitsaları, ilk dəfə hərbi paradda nümayiş etdirilən «SANİ» minaatan sistemləri, eləcə də «Cardom» tipli özüyeriyən*

minaatanlar, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinin istehsalı olan 82 millimetrlik minaatanlar daxil oldu.

Ən müasir reaktiv yaylım atəş sistemləri, «Sakarya», «Qrad-1M», «Leysan», «Ekstra», «Smerç»lər, «Toçka-U» raket kompleksləri tribunanın önündən keçdi. Bu raket kompleksləri ən uzaq dərinlikdə günün istənilən vaxtında düşmənin hərbi təyinatlı strateji obyektlərinə tələfat vermək üçün nəzərdə tutulub.

Sonra Müdafiə Nazirliyi Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş texnikaları meydana daxil oldu.

Azərbaycanda yüksək dəqiqliklə aparılmış modernləşdirmə nəticəsində «Kaman-2T» zenit-raket kompleksinin maksimal vurma qabiliyyəti 35 kilometrə çatdırılıb. Yüksək hündürlükdə uçan sürətli təyyarələri, qanadlı raketləri vurmaq üçün təyin edilmiş «Qalxan» zenit-raket kompleksinin hədəfi məhvetmə zonasının uzaq məsafəsi 250 kilometrdir. «S-300–Favorit» zenit-raket kompleksi sonuncu və ən müasir radar sistemidir. Bu radar sistemi eyni anda 115 müxtəlif hədəfi müşahidə etməyə qadirdir. «S-300 PMU-2-Favorit» zenit-raket sisteminin məhvetmə zonasının məsafəsi isə hədəflərə qarşı 200 kilometrdir.

Azərbaycanda modernləşdirilmiş yüksək döyüş qabiliyyətinə malik, hədəf üzrə ikikanallı «OSA-AK» mobil, avtonom, yaxın məsafəli zenit raket kompleksinin məhvetmə zonasının uzaq məsafəsi 12, hədəfləri vurmaq hündürlüyü 7 kilometrə qədər artırılıb. «BUK-1MB-569» zenit-raket kompleksi ilk dəfə olaraq Azadlıq meydanında təqdim edilir. Bu kompleks bütün növ döyüş fəaliyyətlərində, həmçinin mühüm hərbi və iqtisadi geniş hündürlük diapazonunda qorunması, uçan pilotlu, pilotsuz hava hücumu vasitələri, qanadlı və ballistik raketləri məhv etmək üçündür.

Daha sonra yüksək atış sürətinə malik top və tank əleyhinə idarəolunan raket sistemi ilə silahlanmış «BMP-2» piyada döyüş maşınları, Azərbaycanda modernləşdirilmiş, atəşi və döyüşü

*idarəetmə sistemləri xeyli təkmilləşdirilmiş «T-72M-1» tankları, piyadaların ən müasir və güclü döyüş maşını «BMP-3»lər tribunanın önündən keçdi. «T-90S» tankları, «TOS-1A» ağır odatan sistemləri, «MSTA-S» özüyeriyən artilleriya haubitsaları hərbi paradda ilk dəfədir iştirak edir. «TOS-1A» qurğusu yaylım atəşilə 4 hektar ərazidə hər cür hədəfi məhv etmək imkanına malikdir.*

*Ağır artilleriyanın keçidi «Qvozdika», «Akasiya» özüyeriyən haubitsalarının və postsovet məkanında ən nəhəng, uzaqvuran və strateji təyinatlı silah olaraq hazırda Azərbaycan Silahlı Qüvvələrinin silahlandırılmasında mövcud olan özüyeriyən «Pion» topları ilə başa çatdı.*

*Ölkəmizin müdafiə potensialının əsaslı şəkildə möhkəmləndirilməsində Müdafiə Sənayesi Nazirliyinin yaradılması da mühüm rol oynayıb. Qısa müddətdə rəqabətə davamlı müdafiə sənayesini formalaşdıran Azərbaycan artıq NATO standartları səviyyəsində məhsullar istehsalını qaydaya salır və beynəlxalq müdafiə sənayesi sərgilərində uğurla təmsil olunur. Hərbi paradda nümayiş etdirilən texnikalar ən müasir elmi-texniki yeniliklər səviyyəsindədir və istənilən döyüş tapşırığını dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir.*

*Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrinə məxsus 40-dək gəmi hərbi reyddə sıralanmışdı. Digər qoşun növləri kimi, Hərbi Dəniz Qüvvələri də məhz ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində formalaşmış və müasir nizami qüvvəyə çevrilmişdir. Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qarşısında Xəzər dənizinin Azərbaycana aid hissəsində dövlətimizin maraqlarını qorumaq vəzifəsi durur. Hərbi Dəniz Qüvvələri Xəzər dənizinin Azərbaycan sektorunda əlverişli əməliyyat rejiminin saxlanılması üzrə əməliyyat planlarını mütəmadi olaraq təkmilləşdirir, döyüş hazırlığının keyfiyyətini yüksəldir. Artıq müasir standartlara cavab verən hərbi donanmamız formalaşdırılmış və peşəkar kadrlar yetişdirilmişdir. Hərbi Dəniz Qüvvələri istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir.*

*Sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələri döyüş təyyarələrinin və helikopterlərinin uçuşu hərbi paraddakı xüsusi əhval-ruhiyyəni daha da gücləndirdi. Hərbi paradda 100-dən çox, o cümlədən döyüş, təlim-məşq təyyarələri və helikopterlər iştirak edirdi.*

*Hərbi Hava Qüvvələrinin uçuş nümayişi «Mi-17» tipli helikopterin Azərbaycanın Dövlət bayrağını aparması ilə açıldı. Uçuş nümayişini «L-39» təlim-məşq, modernləşdirilmiş «MiQ-29» qırıcı-bombardmançı, «SU-25» hücumçu təyyarə qrupları davam etdirdi.*

*Sonra milli şahinlərimiz «Mi-17» və «Mi-24» helikopterlərini də məharətlə idarə edərək, yüksək peşəkarlıq və döyüş qabiliyyətinə malik olduqlarını bir daha təsdiqlədilər. Yeni istehsal olunan və hərbi paradda ilk dəfə iştirak edən, gecə və gündüz ən mürəkkəb hava şəraitində uçmağa qadir «Mi-35M» döyüş-hücum helikopterləri qrupu da Azadlıq meydanı üzərindən keçdi.*

*Azərbaycanın milli şahinlərinin məharətlə idarə etdikləri «SU-25» hücumçu təyyarə qrupu səmada Azərbaycan bayrağının üzərindəki 3 rəngin təsvirini yaratdı.*

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyinə həsr olunmuş təntənəli hərbi paradın bu cür rəmzi sonluqla başa çatması müqəddəs bayrağımızın tezliklə işğaldan azad ediləcək Vətən torpaqlarında əzəmətlə dalğalanacağına olan ümidlərimizi daha da artırdı, xalqımızın bu yolda dönməzliyini və qətiyyətini, ordumuzun güc və qüdrətini növbəti dəfə təcəssüm etdirdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər bizim üçün xüsusi əhəmiyyət daşıyır. Ötən dövrdə bu münasibətlərin keçdiyi böyük inkişaf yolu məmnunluq doğurur.

Bu gün Azərbaycan ilə Birləşmiş Ştatları möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində birgə işimiz münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir. Dünyanın ən qaynar nöqtələrində beynəlxalq birliyin sülhyaratma missiyasında iştirakımız tərəfdaşlığımızı daha da möhkəmləndirir.

Biz həmçinin xalqımızın qarşılaşdığı ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Birləşmiş Ştatların və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Hörmətli cənab Prezident, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına isə daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2013-cü il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin Əmiri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan–Qətər münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. Ümidvaram ki, xalqlarımızın iradəsindən qaynaqlanan dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qətər xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2013-cü il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin şəxsinizdə bütün Belarus xalqını milli bayram – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan və Belarusu tarixən yaranmış dostluq və əməkdaşlıq münasibətləri bağlayır. Sevindirici haldır ki, bu gün həmin münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Əminəm ki, birgə səylərimiz bundan sonra da Azərbaycan–Belarus ikitərəfli əməkdaşlığının, bizim çoxplanlı qarşılıqlı fəaliyyətimizin genişlənməsinə yönələcəkdir. Şübhə etmirəm ki, yaxın vaxtlarda Sizinlə Bakıda görüşümüz buna kömək edəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə sizə möhkəm cansağlığı və uğurlar, dost Belarus xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2013-cü il*

## RUMINİYA RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR PONTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Rumıniyanın Baş naziri Viktor Pontanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rumıniya arasında fəal əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında güclü ikitərəfli münasibətlərin mövcud olduğunu vurğulayan prezident İlham Əliyev özəl sektorda yaxşı əməkdaşlığın yaradılması, həmçinin iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə əlaqələrin genişləndirilməsi ilə bağlı imkanların müəyyənləşdirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Rumıniyanın Baş naziri Viktor Pontanın Azərbaycana səfərinin uğurla inkişaf edən əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Rumıniyanın Baş naziri Viktor Ponta ölkəsinin Avropa İttifaqında Azərbaycanın ən yaxın dostlarından biri olaraq qalmaqda davam edəcəyini qeyd etdi. Azərbaycan prezidentinin Rumıniyaya, Rumıniya prezidentinin isə Azərbaycana səfərlərini məmnunluqla xatırladan Baş nazir ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsində siyasi əlaqələrlə yanaşı, iqtisadi əlaqələrin də əhəmiyyətini qeyd etdi.*

*Görüşdə birgə layihələrin həyata keçirilməsi, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Monqolustan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monqolustan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda bundan sonra da birgə səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Monqolustan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2013-cü il*

# AVROPA XALQ PARTİYASININ XARİCİ ƏLAQƏLƏR ÜZRƏ EKSPERT QRUPUNUN HƏMSƏDRİ, İTALİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ FRANKO FRATTİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Avropa Xalq Partiyasının Xarici Əlaqələr üzrə ekspert qrupunun həmsədri, İtaliyanın sabiq Xarici İşlər naziri Franko Frattininin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, prezident İlham Əliyevin Brüsselə səfəri və səfər zamanı əməkdaşlığımızın genişləndirilməsinə dair Avropa İttifaqının rəhbərləri ilə apardığı səmərəli müzakirələrin önəmli olduğu qeyd edildi. Yeni Azərbaycan Partiyası ilə Avropa Xalq Partiyası arasında əməkdaşlığı genişləndirməyin əhəmiyyəti vurğulandı, Avropa Xalq Partiyasının Xarici Əlaqələr üzrə ekspert qrupunun həmsədri, İtaliyanın sabiq Xarici İşlər naziri Franko Frattininin ölkəmizə səfərinin bu əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı, həmçinin Avropanın bəzi qurumlarının, o cümlədən Avropa Xalq Partiyasının bəzi nümayəndələrinin Azərbaycanda gedən inkişaf prosesləri ilə əlaqədar həqiqətə uyğun olmayan qeyri-obyektiv mövqe nümayiş etdirmələrinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət etmədiyi vurğulanaraq bu məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan–Fransa münasibətlərinə böyük əhəmiyyət verirəm. Yüksək səviyyəli siyasi təmaslarımız, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığımız, davamlı mədəni əlaqələrimiz ölkələrimizin və xalqlarımızın dostluğunu nümayiş etdirən mühüm amillərdir.

Regionumuzda sülhün və sabitliyin bərqərar olması prosesində Fransanın mövqeyi bizim üçün əhəmiyyətlidir. Biz xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına isə daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2013-cü il*

**MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Monteneqro əlaqələri dinamik inkişaf yolundadır. Yüksək səviyyədə qarşılıqlı səfərlərimiz və ölkələrimiz arasındakı əməkdaşlığa dair imzalanan sənədlər bu inkişafa güclü təkan vermişdir.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin bütün sahələrdə dərinləşməsi və əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına isə daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2013-cü il*

## ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏR

*1 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Şirvan şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Şirvan şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov abidənin ətrafında görülmüş abadlıq işləri barədə Azərbaycan prezidentinə məlumat verdi.*

### Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Şirvan şəhərindəki Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycanın əksər bölgələrində olduğu kimi, Şirvanda da yeni yaradılmış Bayraq Meydanı və burada ucaldılan Dövlət bayrağı möhtəşəmliyi ilə diqqəti cəlb edir. Bayraq Meydanı Heydər Əliyev prospektində, Şirvan şəhərinin giriş hissəsində yerləşir. Meydanın ümumi ərazisi 1,3 hektar, bayraq dirəyinin hündürlüyü 76 metrdir. Təbii mərmərlə üzlənmiş postamentin üzərində Azərbaycanın xəritəsi, Dövlət himninin mətni və Dövlət gerbi əks olunub.*

*Meydan inşa olunarkən burada Azərbaycan memarlıq məktəbinin elementlərindən geniş istifadə edilmişdir. Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmış, 6 minə yaxın ağac, müxtəlif növ gül və bəzək kolları əkilmiş, 5 min kvadratmetr sahədə çəmənlik salınmış,*

*mərmər plitələr döşənmiş, müasir* oturacaqlar *qoyulmuş, işıqlandırma* sistemi *quraşdırılmışdır.*

*Dövlətimizin başçısı Bayraq Meydanında yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## «Cənub» Elektrik Stansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Şirvana səfəri çərçivəsində «Cənub»* Elektrik Stan*siyasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə* ulu *öndər Heydər Əliyevin xatirəsini* ehtiramla *yad etdi, ümummilli* liderin *stansiyanın həyətindəki abidəsi önünə gül dəstəsi* qoydu.

*Prezident İlham Əliyev* avtobusla *stansiyanın ərazisini gəzdi. «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin* prezidenti Eti*bar* Pirverdiyev *dövlətimizin başçısına məlumat* verdi *ki,* son *illərdə Azərbaycanda* elektroenergetika sisteminin *inkişafı ilə bağlı mühüm tədbirlər* icra olunub. *Bu sahədə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə* energetikanın maddi-texniki bazası *möhkəmləndirilmiş, xeyli sayda modul tipli* elektrik stansiyaları *istifadəyə verilmişdir.* Bununla da *əhalinin* elektrik enerjisi *ilə təmin olunmasında* ciddi *nailiyyətlər qazanılıb.* Bu *sahədə beynəlxalq* standartlara *uyğun* qanunvericilik *bazası formalaşdırılmışdır* ki, bu da *ölkədə* enerji sisteminin *müasir tələblər səviyyəsində inkişafına təkan* verir. *Bütün* bunlarla *yanaşı,* indi *mövcud* elektrik *stansiyalarının modernləşdirilməsi* prosesi *vüsət alıb. 2007-ci il dekabrın 24-də* prezident *İlham Əliyevin iştirakı ilə təməli* qoyulan *«Cənub»* Elektrik *Stansiyasında həyata keçirilən işlər də* bunun bariz *nümunəsidir. Bütün* tikinti-*quraşdırma və* sazlama *işləri* respublikada ilk *dəfə* olaraq *layihənin* baş *podratçısı* yerli *«Azenco» şirkəti tərəfindən həyata keçirilib. Stansiyanın ümumi ərazisi* 20 *hektardır. Tikintisində* 800 *nəfərin çalışdığı* elektrik *stansiyası fəaliyyətə başladıqdan* sonra burada *215 nəfər* daimi *işlə təmin ediləcəkdir. Ərazidə* olan *köhnə yaşayış yerlərinin əvəzinə beşmərtəbəli* 60 *mənzilli* bina, *ikimərtəbəli*

mehmanxana, üçmərtəbəli Qonaq evi, 14 fin evi və yeməkxana tikilib. Stansiyanın ərazisində yaşıllaşdırma işləri aparılıb, 30 min ağac, 60 mindən çox müxtəlif gül kolu əkilib. Ərazidə 61 min kvadratmetr sahədə beton yol salınıb. Hazırda əhalinin tələbatı nəzərə alınaraq ötürücü və paylayıcı şəbəkələrin genişləndirilməsi istiqamətində atılan addımlara, bu məsələdə ekoloji təhlükəsizliyin diqqət mərkəzində saxlanmasına xüsusi əhəmiyyət verilir. Bu prinsip «Cənub» Elektrik Stansiyasının fəaliyyətində də başlıca meyara çevrilib. Bu mühüm amili şərtləndirən digər məsələ indi Azərbaycanda bərpa olunan və alternativ enerji mənbələrinin yaradılmasına xüsusi diqqətin göstərilməsidir. Bununla bağlı artıq konkret tədbirlər həyata keçirilir və bu da ölkəmizin elektroenergetika infrastrukturunun daha da möhkəmləndirilməsinə xidmət edir. «Cənub» Elektrik Stansiyası isə böyük regional infrastruktur layihəsi olmaqla, ölkəmizin enerji təhlükəsizliyinə mühüm töhfə verəcəkdir.

Ölkənin cənub bölgəsində 50 il əvvəl istismara verilmiş «Şirvan» Elektrik Stansiyası istismar müddətini 2 dəfə başa vurduğuna görə prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı sərəncamla Şirvan şəhərində «Cənub» Elektrik Stansiyası inşa edilmişdir. Stansiyanın gücü 780 meqavatdır.

Prezident İlham Əliyev «Sahil» nasos stansiyasında oldu.

Bildirildi ki, nasos stansiyasında hər birinin məhsuldarlığı saatda 80 min kubmetr olan 3 qaz kompressoru quraşdırılmış, Kür çayı üzərində diametri 2 min millimetr olan 2 kollektorlu 4 nasosdan ibarət 3 kilometr uzunluğunda susoyuducu sistemi yaradılmışdır. Burada 2 köməkçi işəsalma və qızdırıcı qazan quraşdırılıb. Stansiyada hər birinin məhsuldarlığı saatda 100 ton olan 2 qurğudan ibarət sutəmizləmə sistemi də fəaliyyət göstərir. «Sahil» nasos stansiyasında quraşdırılan avadanlıqlar ən müasir tələblərə cavab verir.

Dövlətimizin başçısı «GİS» tipli qapalı 330/220/110 kilovoltluq yarımstansiyanın fəaliyyəti ilə də maraqlandı. Burada xidmətə ehtiyacı olmayan qazla izolə edilmiş 3 qapalı yarımstansiyada hər birinin gücü 180 meqavolt amper olan 6 yüksəldici transformator,

hər birinin gücü 250 meqavolt amper olan 4 sistem transformatoru və hər birinin gücü 25 meqavolt amper olan 4 xüsusi sərfiyyat transformatoru quraşdırılıb. Yarımstansiyada ümumi uzunluğu 50 kilometr olan 330, 220 və 110 kilovoltluq kabel və hava xətləri, həmçinin uzunluğu 130 kilometr olan 220 kilovoltluq 2 dövrəli «Cənub Elektrik Stansiyası – Böyük Şor Yarımstansiyası» hava xətti çəkilib.

Qeyd edildi ki, 110 kilovoltluq xətlər Sumqayıt Texnologiyalar Parkının istehsalıdır. Ümumilikdə, stansiyada Sumqayıt Texnologiyalar Parkının istehsalı olan 150 kilometr uzunluğunda 6 və 0,4 kilovoltluq güc, həmçinin 100 kilometrdən çox siqnal və ölçü kabelləri çəkilib.

Stansiyanın baş korpusunda ən müasir avadanlıq quraşdırılıb. Burada hər birinin gücü 128 meqavat olan 4 qaz turbini, hər birinin gücü 135 meqavat olan 2 buxar turbini, hər birinin məhsuldarlığı saatda 186 ton olan 4 qazan-utilizator və hər birinin gücü 160 meqavolt amper olan 6 generator və digər zəruri avadanlıqlar qoyulub. Baş korpusda 1,5 milyon kubmetrdən çox torpaq işləri görülmüşdür. Burada dəmir-beton məmulatın həcmi 82 min kubmetrdir. «Cənub» Elektrik Stansiyasının faydalı iş əmsalı 52 faiz, 1 kilovat/saat elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın miqdarı isə 237 qramdır. Müqayisə üçün deyək ki, əvvəlki «Şirvan» Elektrik Stansiyasında bu göstəricilər müvafiq olaraq 26 faiz və 460 qram təşkil edirdi. Digər analoji stansiyalardan fərqli olaraq burada 3 yanacaq növündən – qaz, mazut və dizel yanacağından istifadə etmək imkanı vardır. Stansiyanın fəaliyyəti yüksək keyfiyyətli olmaqla yanaşı, həm də qənaətcilliyi ilə seçilir. Bu nəhəng infrastruktur qurğusunun fəaliyyətə başlaması ilə ildə 780 milyon kubmetr qaza və 650 min ton mazuta qənaət etmək mümkündür. Stansiya ildə 6 milyard kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcəkdir. Mütəxəssislərin hesablamalarına görə, stansiya öz dəyərini maksimum 4 ilə tam ödəyəcəkdir.

*Azərbaycan prezidentinə məlumat verildi ki, sutəmizləyici stansiya da ən müasir avadanlıqla təchiz edilib. Stansiyanın Kür çayından götürülən xam su məhsuldarlığı saatda 430 kubmetrdir.*

*Bildirildi ki, stansiyaya lazım olan əsas avadanlıq dünyanın 70-ə yaxın aparıcı şirkətindən alınıb. Bununla yanaşı, bir çox zəruri avadanlıq, o cümlədən metal konstruksiyalar, körpülü kranlar, borular, mazut çənləri və digər avadanlıqlar yerli «Azenco» şirkəti tərəfindən hazırlanıb.*

*Prezident İlham Əliyev stansiyanın idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, bu mərkəzdə stansiyanın idarə olunması və müşahidə kameraları ilə qurğunun ərazisinə nəzarət həyata keçirilir. Stansiyanın bütün avadanlığının qoşulub-açılması da buradan idarə olunur.*

*Dövlətimizin başçısı «Cənub» Elektrik Stansiyasını işə saldı.*

*Sonra prezident İlham Əliyev şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

# ŞİRVAN ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*1 iyul 2013-cü il*

Əziz dostlar!

Bu gün çox gözəl və əlamətdar bir gündür. Şirvan şəhərində «Cənub» Elektrik Stansiyası işə başlayır. Bu əlamətdar hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu stansiyanın tikintisində iştirak etmiş bütün vətəndaşları salamlayıram, onlara minnətdarlığımı bildirirəm.

Bu stansiya müstəqillik dövründə tikilmiş ən böyük elektrik stansiyasıdır. 780 meqavat gücündə olan stansiya Azərbaycanın enerji potensialını gücləndirəcək, imkan verəcəkdir ki, ölkə iqtisadiyyatı bundan sonra da uğurla inkişaf etsin. Çünki elektrik stansiyalarının fəaliyyəti ümumi inkişafa təkan verir.

Son 10 il ərzində Azərbaycanda 14 elektrik stansiyası tikilmişdir. Ümumi stansiyaların sayı isə 23-dür, 10 il ərzində təxminən 3 min meqavat gücündə stansiyalar tikilmişdir və hazırda ümumi generasiya gücümüz 6 min meqavatdır.

Bu stansiyada ən son texnologiyalar tətbiq edilmişdir, ən müasir standartlara cavab verir. Deyə bilərəm ki, bu, bölgənin ən müasir stansiyasıdır və burada quraşdırılmış bütün avadanlıq ən yüksək səviyyədədir. Sevindirici hal ondan ibarətdir ki, stansiyanın tikintisində Azərbaycan mütəxəssisləri işləmiş və bu stansiyanı Azərbaycan şirkətləri tikmişdir. Bu da zəmanənin əlamətidir. İlk illərdə biz daha çox xarici şirkətlərə üz tuturduq, onları bu işlərə cəlb edirdik. Amma indi Azərbaycan şirkətləri belə nəhəng obyektləri tikə bilir və tikir də.

Əminəm ki, bu stansiyanın fəaliyyəti nəticəsində bölgə qarşısında, ölkə qarşısında duran bütün vəzifələr icra ediləcəkdir. Çünki Azərbaycanda gedən uğurlu inkişaf, sənayeləşmə prosesi diktə edir ki, bizdə generasiya gücləri yaradılsın. Əgər son 10 il ərzində 14 elektrik stansiyası tikilməsəydi, biz bu gün indiki

iqtisadi inkişafa nail ola bilməzdik. Çünki Azərbaycanda hər il çoxlu sayda yeni müəssisə tikilir, yeni zavodlar, fabriklər açılır və beləliklə, ölkənin sürətli inkişafı təmin edilir. Generasiya gücləri, əlbəttə ki, bütün bu inkişafın təməlində durmalıdır və Azərbaycanda istehsal edilən enerji tələbatdan həmişə artıq olmalıdır. Bu gün bu belədir. Bu gün bizdə hələ ehtiyat vardır ki, sənayenin inkişafı davam etsin. Eyni zamanda, yeni stansiyaların tikintisi də nəzərdə tutulur. Gələn illərdə 2 min meqavat gücündə olan yeni stansiyalar tikilməlidir.

Biz bərpa olunan elektrik enerjisinin yaradılması ilə ciddi məşğuluq. Su-elektrik stansiyaları tikilir, günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulur və beləliklə, Azərbaycanda enerji sektorunda bütün məsələlər uğurla inkişaf edir və uğurla öz həllini tapır.

Azərbaycanın inkişafı dünya miqyasında artıq bir reallıqdır. Bu inkişaf son 10 il ərzində özünü daha da çox göstərmişdir. Bu ilin 5 ayında qeyri-neft sektorumuz daha çox sənaye müəssisələrinin fəaliyyəti hesabına 11 faiz artmışdır. Əlbəttə, generasiya güclərinin yaradılması və inkişafı ümumi inkişafımıza xidmət göstərir.

Bununla bərabər, Azərbaycan hazırda elektrik enerjisini qonşu ölkələrə də ixrac edir və əlbəttə, bu da bizim iqtisadi gücümüzü artırır. Energetika hər bir ölkənin əsas sahəsidir. Energetika inkişaf etmədən heç bir ölkə inkişaf edə bilməz. İnkişaf üçün mütləq generasiya gücləri lazımdır. Biz bu gücləri yaradırıq və yaradacağıq. Bununla bərabər, hazırda biz daha çox ötürücü xətlərə, paylayıcı şəbəkələrə diqqət yetiririk. Çünki generasiya gücləri yarandıqdan sonra, əlbəttə ki, diqqət bu istiqamətə yönəldilməlidir. Biz bunu edirik ki, enerji məsələləri tam şəkildə həllini tapsın.

Ümumiyyətlə, Azərbaycanda enerji təhlükəsizliyi məsələləri uğurla icra edilir. Biz bütün vəzifələri ardıcıllıqla icra edirik. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, enerji təhlükəsizliyini özü 100 faiz təmin edir. Bu, təbii resursların

işlənməsi sahəsində özünü büruzə verir, generasiya güclərinin yaradılması da bu istiqamətdə bizə kömək edir.

Enerji təhlükəsizliyi məsələləri hər bir ölkə üçün böyük əhəmiyyət daşıyır. Hər bir ölkə çalışmalıdır ki, enerji təhlükəsizliyini təmin etsin. Bunsuz inkişaf mümkün deyildir. Bunsuz müstəqil inkişaf mümkün deyildir. Azərbaycan nəinki öz enerji təhlükəsizliyini təmin edib, eyni zamanda, digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynayır. Bu yaxınlarda qəbul edilmiş qərarlar Azərbaycanı dünya miqyasında, qlobal müstəvidə çox ciddi tərəfdaşa çevirir. Azərbaycan öz enerji resurslarını artıq neçə ildir ki, dünya bazarlarına çıxarır. Gələcəkdə təbii ehtiyatlarımızın dünya bazarlarına çıxarılması üçün əlavə imkanlar yaranır.

Bu o deməkdir ki, Azərbaycan bundan sonra uzun illər ərzində öz iqtisadi gələcəyini təmin edir. Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı üçün şərait yaradılır. Azərbaycanın dünyadakı rolu artır və yeri möhkəmlənir. Bu, ölkəmizin gücünü artıracaqdır. Çünki biz enerji siyasətimizi uğurla aparırıq və bu siyasət bəhrəsini verməkdədir. Biz bu siyasətdən əldə edilmiş gəlirləri bütün başqa sahələrə yönəldirik.

Bu stansiyanın tikilməsi də enerji siyasətimizin təzahürüdür. Düzdür, bu stansiyanın tikilməsində xarici banklar və fondlar bizə dəstək olmuşlar. Əgər Azərbaycanın güclü maliyyə və iqtisadi imkanları olmasaydı, biz bu kreditləri ala bilməzdik. Amma bununla bərabər, indi biz özümüz kreditlər veririk və Azərbaycanın maliyyə vəziyyəti çox möhkəmdir.

Biz bundan sonra da bütün işləri ardıcıllıqla görəcəyik. Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır, heç kimdə şübhə doğurmur. Azərbaycan hətta dünyanı bürümüş böhran illərində də öz inkişafını təmin etmişdir, inamla irəliyə getmişdir, insanların rifah halı yaxşılaşır, iqtisadiyyat artır. İqtisadiyyatın bütün sektorları inkişafdadır. Şaxələndirmə siyasəti öz nəticəsini verməkdədir. Beləliklə, uğurlu inkişaf üçün bütün imkanlar vardır. Sadəcə olaraq, gələn illərdə də biz bu ardıcıl siyasəti aparmalıyıq. Biz bütün sahələrdə, o cümlədən enerji sahəsində

yeni təşəbbüslər irəli sürəcəyik, yeni addımlar atacağıq ki, uzunmüddətli dayanıqlı inkişafı təmin edək.

Bu stansiyanın tikilməsi özlüyündə gözəl rəmzi xarakter daşıyır və onu göstərir ki, müstəqil Azərbaycan dövləti böyük işləri görməyə qadirdir. Bu stansiyanın işə salınması ilə biz, demək olar ki, standartlara cavab verməyən bütün köhnə stansiyaları artıq dayandırırıq. Stansiyanın iqtisadi cəhətdən böyük səmərəsi vardır. Burada sərfiyyat əvvəlki stansiya ilə müqayisədə təxminən 2 dəfə azdır və bu da ölkə iqtisadiyyatına böyük dəstək olacaqdır.

Mən bu gün bütün energetikləri xüsusi salamlamaq istəyirəm. Azərbaycanda energetika sahəsinə çox böyük diqqət göstərilir və mən prezident kimi, 2004-cü ildən başlayaraq bu sahəni daim diqqət mərkəzində saxlamışam. Bütün bölgələrdə modul tipli elektrik stansiyaları, böyük elektrik stansiyaları tikilmişdir. Əlbəttə, bu istiqamətdə dövlət siyasəti çox açıqdır, aydındır, birmənalıdır. Ancaq mən energetiklərin fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. Çünki qısa müddət ərzində bu istiqamətdə çox böyük islahatlar aparılmışdır. Energetiklərin peşəkarlığı artmışdır. Azərbaycanda müasir texnologiyalar tətbiq edilir və bu texnologiyaları Azərbaycan mütəxəssisləri tətbiq edirlər. Stansiyaların işlədilməsində Azərbaycan mütəxəssisləri iştirak edirlər. Bu, kadr hazırlığı üçün də böyük dəstəkdir və bütün bu işləri görən energetiklər, inşaatçılar yüksək qiymətə layiqdirlər. Nəzərə alsaq ki, planlarımız çoxdur, Azərbaycanda texnoparklar tikilir, Bakıda, Sumqayıtda, Gəncədə və Mingəçevirdə böyük texnoparklar tikiləcəkdir, hələ energetiklər üçün işlər çox olacaqdır. Biz stansiyaları tikəcəyik, Azərbaycanın iqtisadi inkişafını təmin edəcəyik. Əminəm ki, bundan sonra da bu gözəl tədbirlərdə sizinlə bərabər iştirak edəcəyik.

Eyni zamanda, bu gün Şirvan şəhərinin inkişafı ilə bağlı bir neçə kəlmə söz demək istərdim. Şirvan şəhərinin inkişafı təmin edilir. Bu gün növbəti açılışlar olacaqdır. Mən dəfələrlə Şirvan şəhərində olmuşam. Əvvəllər də burada sosial obyektlər, zavodlar tikilmişdir. Bu gün də Şirvan üçün çox vacib olan içməli su

layihəsi icra ediləcəkdir. Biz bunun açılışını qeyd edəcəyik. Böyük Olimpiya İdman Kompleksi, hərbi zavodlar açılır. Əvvəlki dövrlərdə Diaqnostika Mərkəzi açılmışdır. Yəni Şirvan şəhərinin uğurlu inkişafı üçün hər şey edilir və əminəm ki, burada işlər bundan sonra da yaxşı gedəcəkdir.

Bir daha, əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

**T o f i q  H ü s e y n o v** (*şəhər sakini):* Möhtərəm cənab Prezident! Hər bir azərbaycanlı kimi, biz də Sizin dəyərli fəaliyyətiniz, xalqımızın rifahı naminə gördüyünüz misilsiz işlər nəticəsində ölkəmizin əldə etdiyi nailiyyətlərə ürəkdən sevinirik. Sizin rəhbərliyiniz altında dövlətimiz artıq sübut etdi ki, müstəqil yaşamağa qadirdir. Siz ölkəmizin iqtisadi gücünü, hərbi qüdrətini bütün dünyaya hərbi paradda bir daha nümayiş etdirdiniz. Azərbaycanımızın bu inkişafına, bu qüdrətinə görə hər bir dünya azərbaycanlısı kimi, mən də Sizə «Çox sağ olun!» – deyirəm.

Bu gün isə açılışında iştirak etdiyimiz bu nəhəng, valehedici layihə – «Cənub» Elektrik Stansiyası Azərbaycan dövlətinin qüdrətinin daha bir göstəricisidir.

Möhtərəm cənab Prezident!

Şirvan ulu öndərimiz Heydər Əliyevin diqqəti ilə bir şəhər kimi formalaşaraq respublikanın sənaye mərkəzlərindən birinə çevrilmişdir. Ulu öndərin tapşırığı ilə burada məişət cihazları, dəmir-beton məmulatı, kərpic, süni dəri, saxsı boru, şirə, yeyinti konsentratları zavodları və digər istehsal müəssisələri inşa edilmişdir.

İndi isə Sizin rəhbərliyinizlə Şirvan ən müasir şəhərlərdən birinə çevrilməkdədir. Sakinlərimizin layiqli həyat yaşamaları üçün bütün tələbatları ödənilmişdir. Şəhərimizdə göz oxşayan, bizə dinclik-rahatlıq gətirən tikililər, tibb ocaqları, məktəblər, yeni iri sənaye müəssisələri yaradılmış, park və xiyabanlar, nümunəvi məhəllələr salınmışdır. Bu barədə iftixar hissi ilə, şirvanlı qüruru ilə çox danışmaq olar.

Şəhər infrastrukturunun inkişafı da diqqətinizdən yayınmamışdır. Şirvan Mərkəzi Xəstəxanası əsaslı təmir olunmuş, qabaqcıl avadanlıqlarla təchiz edilmiş, Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Heç bir şirvanlı ağlına belə gətirə bilməzdi ki, burada ciddi cərrahiyyə əməliyyatları keçiriləcəkdir. Cənab Prezident, yeganə arzum budur ki, kaş ki, burada şəfa tapan insanların alqışlarını və Sizə olan minnətdarlıq dualarını özünüz eşidəydiniz.

İndiyədək şəhərimizin yarısı içməli sudan korluq çəkirdi. Bu gün şəhərimizi içməli su ilə təmin edirsiniz. Bu müqəddəs əməli həyata keçirməklə Siz şəhər sakinlərinə yeni sağlam və firavan həyat bəxş edirsiniz. Şirvan sakinləri şəhər həyatı üçün vacib olan fasiləsiz enerji və qazla da təmin olunmuşlar.

Möhtərəm cənab Prezident!

Bu gün şəhərimizin sənaye potensialı da inkişaf etməkdədir. Müasir sənaye müəssisələri yaradılır, yeni iş yerləri açılır. Xüsusi vurğulamaq istəyirəm ki, yüzlərlə gənc hərbi sənaye müəssisələrində çalışır, yeni peşələrə yiyələnirlər və bu sahədə əldə olunmuş nailiyyətlərə öz töhfələrini verirlər. Şəhərimizdə bu gün gənclərimizin sağlam ruhda böyümələrinə xidmət edəcək möhtəşəm Olimpiya İdman Kompleksi də istifadəyə verilir. Bu müasir tikili də şəhərin görkəminə xüsusi gözəllik verir. Gənclərimizin müasir peşələrə maraqlarını, ictimai fəallığını artıracaq Gənclər Mərkəzinin tikintisi də başa çatmaq üzrədir. Bu bir daha göstərir ki, Siz Azərbaycanın gələcəyi olan gənc nəslin sağlam, təhsilli, ümumilikdə hərtərəfli inkişafını da daim düşünürsünüz.

Yaxşı xatirimizdədir. 2010-cu ildə Şirvana səfəriniz zamanı söyləmişdiniz ki, «Şirvan ölkəmiz üçün Bakıdan sonra çox vacib sahəni əhatə edən ikinci şəhər olacaqdır». Bütün bu nəhəng layihələrin şəhərimizdə həyata keçirilməsi Sizin bu fikirlərinizin reallığa çevrilməsini sübut edir. Beləliklə, Şirvan üçün bu əlamətdar gündə Siz sakinlərimizə nur, yeni həyat, sağlam ruh, rahat yaşayış bəxş edirsiniz. Bir sözlə, bu gün Şirvanda əsl şəhər həyatı yaşanır. Bunu bizə Siz verdiniz! Çox

sağ olun, cənab Prezident! Biz şirvanlılara göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Əminliklə deyirik ki, cənab Prezident, Sizin gərgin əməyiniz və yorulmaz fəaliyyətiniz sayəsində digər bölgələrlə yanaşı, Şirvanda da həll olunmamış böyük problem qalmamışdır.

Möhtərəm cənab Prezident!

Siz bir nursunuz. Bir ziyalı kimi düşünürəm ki, indi Vətəninə, xalqına bağlı olan hər bir azərbaycanlı qəlbində bir istək yaşadır – Sizin işığınızla bu işlərin davam etdirilməsi istəyini. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Sizin bayrağınız altında doğma Vətənimizin daha da gücləndirilməsi üçün öz töhfələrini vermək arzusundadır. Çünki Siz güclü Azərbaycanımızın qarantısınız. Biz Sizə inanır, Sizə güvənir və gələcəyimizi yalnız Sizinlə bağlayırıq! Qoy Ulu Tanrı Sizi, ailənizi və xalqımızı qorusun.

## Şirvan–Muğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 1-də Şirvan–Muğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Şirvan–Muğan qrup su kəmərinin texniki göstəricilərini və Şirvan şəhərinin su təchizatı sisteminin baş planını əks etdirən stendlərlə tanış oldu.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov prezident İlham Əliyevə məlumat verdi ki, Şirvan şəhərinə içməli su 1952-ci ildə tikilmiş sutəmizləyici qurğudan verilir. Bu sistemin istismar müddəti çoxdan başa çatmışdır. Şəhər əhalisinin bir hissəsi Kür çayının qismən təmizlənmiş suyu ilə günaşırı olmaqla, 12 saatlıq rejimlə təchiz edilir. Mövcud sutəmizləyici qurğunun məhsuldarlığı yeni salınan yaşayış massivini su ilə təchiz etməyə imkan vermir. Artan tələbatı ödəmək üçün yeni mənbə kimi, Şirvan–Muğan qrup kəməri seçilib. Rəsmi statistikaya əsasən, hazırda Şirvan şəhərinin əhalisinin sayı 79 min nəfərdir və onların*

50 faizə yaxını mərkəzləşdirilmiş içməli su şəbəkəsi ilə təmin olunmuşdur. Qalan əhali isə öz tələbatını fərdi qaydada ödəyir.

Şirvan şəhərinin mərkəzləşdirilmiş içməli su şəbəkəsinin uzunluğu 66, kanalizasiya şəbəkəsinin uzunluğu isə cəmi 22 kilometrdir. Şəhərdə çirkab sutəmizləyici qurğu yoxdur və tullantı suları təmizlənmədən Baş Şirvan kollektoruna axıdılır. Dövlətimizin başçısına yeni layihə barədə məlumat verildi.

Bildirildi ki, Şirvan–Muğan qrup su kəmərinin bir hissəsinin istismara verilməsi ilə Şirvan şəhərinin içməli sudan əziyyət çəkən Yeni Yaşayış Massivinin problemi həllini tapacaqdır. Yeni Yaşayış Massivini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün magistral kəmər çəkilmiş və daxili şəbəkənin qurulmasına başlanılmışdır. Qısa müddətdə 2 kilometrdən artıq magistral xəttin inşası, həmçinin 60 kilometr uzunluğunda şəbəkənin 35 kilometrlik hissəsinin tikintisi tamamlanıb. İşlərin ilkin nəticəsi olaraq artıq 15 mindən çox sakin Şirvan–Muğan qrup kəməri vasitəsilə 24 saat su ilə təchiz olunur. Daxili şəbəkənin qurulması başa çatdıqdan sonra bu layihədən faydalananların sayı 35 min nəfərə çatacaqdır. Layihəyə uyğun olaraq Yeni Yaşayış Massivində abonentlər əvvəlcədən ödənişli «smart» tipli sayğaclarla da təmin olunacaqlar.

Qeyd olundu ki, Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının ilkin layihəsi hazırdır. Layihənin Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi»nə uyğun olaraq reallaşdırılması nəzərdə tutulub. Oğuz–Qəbələ–Bakı kəməri ilə Abşeron yarımadasına saniyədə 5 kubmetr əlavə içməli suyun verilməsi, 2011-ci il sentyabrın 8-də prezident İlham Əliyev tərəfindən təməli qoyulan və məhsuldarlığı saniyədə 6 kubmetr təşkil edəcək Ceyranbatan Ultrasüzgəcli sutəmizləyici qurğunun istismara verilməsi ilə Abşeron yarımadasında kifayət qədər içməli su ehtiyatı yaranacaqdır. Bu isə Kür su kəmərləri sisteminin imkanlarından istifadə etməklə, Kürətrafı şəhər və kəndlərin əhalisinin təmiz və keyfiyyətli su ilə təchiz olunmasına imkan verəcəkdir.

*Prezident İlham Əliyevə tikintisi davam edən Şirvan–Muğan qrup su kəməri layihəsi çərçivəsində görülən işlər barədə də məlumat verildi.*

*Stendlərlə tanışlıqdan sonra dövlətimizin başçısı ötən il iyulun 16-da təməlini qoyduğu Şirvan–Muğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə saldı.*

*Sonra prezident İlham Əliyev kəmərin və şəhərin su şəbəkəsinin inşaatçıları ilə görüşdü, tapşırıq və tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 1-də Şirvan Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir. Bu kompleksin təməli prezident İlham Əliyevin 2010-cu ilin aprelində Şirvana səfəri zamanı qoyulub.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi. Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına məlumat verdi ki, ümumi sahəsi 4,5 hektar olan Olimpiya İdman Kompleksinin həyətində geniş abadlıq-quruculuq işləri görülmüşdür. Burada idmanın bir çox növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Kompleksin binasının foyesində ümummilli lider Heydər Əliyevin idmançılara göstərdiyi qayğını, sovet və müstəqillik dövrlərində Şirvana səfərlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Burada prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqəti və bu rayona səfərlərini əks etdirən fotolar da böyük maraq doğurur.*

*Bildirildi ki, Şirvan Olimpiya İdman Kompleksində 20 otaqdan ibarət 44 yerlik müasir mehmanxana da fəaliyyət göstərəcəkdir. Burada qonaqların və idmançıların qalması, istirahəti üçün hər cür şərait yaradılıb. Kompleksdəki yeməkxana da müasir səviyyədədir.*

*Kompleksdə yaradılan şəraitlə tanışlıq zamanı prezident İlham Əliyevə Olimpiya Hərəkatı Muzeyinin, eləcə də Əl*

*Oyunları Sarayının əsaslı təmir və yenidənqurma layihələri barədə məlumat verildi.*

*Dövlətimizin başçısına bildirildi ki, kompleksdə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı və inzibati otaqlar mövcuddur. Burada müasir idman qurğuları ilə təchiz edilmiş trenajor, cüdo, güləş, boks zalları, sauna və bilyard otağı da fəaliyyət göstərəcəkdir. Bu müasir kompleksin idman zalında 980 tamaşaçı yeri vardır. Zalda idmançılar mini-futbol, voleybol və basketbol ilə məşğul olacaqlar. Burada istər yerli, istərsə də beynəlxalq əhəmiyyətli idman tədbirləri keçirmək mümkün olacaqdır. Kompleksin ümumi uzunluğu 50 metr olan üzgüçülük hovuzu da müasir səviyyədə yaradılıb. İdman qurğusunun həyətində 1020 yerlik futbol stadionu, mini-futbol, basketbol meydançası inşa edilmişdir.*

*Prezident İlham Əliyev Şirvan Olimpiya İdman Kompleksində yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

*Qeyd edək ki, 1997-ci ildə Azərbaycanda olimpiya hərəkatında yeni mərhələnin başlanması ilə ölkəmiz dünyanın idman ailəsinə daxil olmuşdur. Bu sahənin sürətli inkişafının təmin edildiyi Azərbaycan artıq beynəlxalq əhəmiyyətli idman yarışlarının keçirilməsi üçün əlverişli məkana çevrilmişdir.*

*2003-cü ildən prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq, idman ölkədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ölkəmizin idman statusunun daha da möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər görülüb. Bu dövrün əsas xarakterik xüsusiyyəti ölkədə geniş maddi-texniki bazaya malik idman infrastrukturunun yaradılması, bu sahənin inkişafı ilə bağlı dövlət proqramlarının qəbul olunması, idmançıların sosial problemlərinin həllinə dair daha təsirli tədbirlərin görülməsi idi. İlk növbədə, regionlar da daxil olmaqla, bütün ölkə üzrə beynəlxalq standartlara malik yeni, müasir idman qurğularının, olimpiya idman komplekslərinin tikilməsinə başlanılmış və bu məqsədə yüksək səviyyədə nail olunmuşdur. Bununla da ölkədə yeni idmançı nəslinin yetişməsini, idmanın kütləviliyinin təmin olunmasını*

*qarşıya əsas məqsəd qoyan prezident İlham Əliyevin bu sahənin inkişafına göstərdiyi diqqət və qayğı idmançılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr qazanmasına gətirib çıxarmışdır. Azərbaycan atletlərinin Atlanta Yay Olimpiya oyunlarından başlayan zəfər yolu Sidney, Afina, Pekin və Londonda yüksək nəticələrin qazanılmasına rəvac verdi. Beləliklə, Azərbaycan dünya idman aləminə nəhəng mərkəzlərdən biri kimi daxil olur. Bu məsələdə prezident İlham Əliyevin göstərdiyi səylər ölkəmizin idman sahəsində yetərincə nüfuz qazanması ilə nəticələnir. İlk Avropa oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi ilə bağlı qərar isə ölkəmizin yürütdüyü idman siyasətinə dünyada göstərilən etimadın təzahürüdür. Heç şübhəsiz ki, ölkəmiz bu sınaqdan da uğurla çıxacaq və idman dövləti kimi, statusunu daha da möhkəmləndirəcəkdir.*

## Müdafiə Sənayesi Nazirliyinin «Üfüq» İstehsalat Birliyinin Şirvan «Araz» zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyulun 1-də Müdafiə Sənayesi Nazirliyinin «Üfüq» İstehsalat Birliyinin Şirvan «Araz» zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzinin açılışında iştirak etmişdir.Dövlətimizin başçısının fərmanı ilə 2005-ci ildən fəaliyyətə başlayan Müdafiə Sənayesi Nazirliyi tabeliyindəki müəssisələrdə genişmiqyaslı yenidənqurma işlərini həyata keçirməyə başlamışdır. Həmin müəssisələrin maşın və avadanlıq parkının yenilənməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıq alınıb quraşdırılıb. İndiyədək nazirliyin müəssisələrində müxtəlif istehsal sahələri yaradılıb. Şirvandakı «Araz» zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzinin yaradılması da Müdafiə Sənayesi Nazirliyinin son illərdəki inkişafını göstərir. Hərbi bazalarda saxlanılan və istifadə olunmayan bütün növ döyüş sursatları istehsalçı tərəfindən verilən zəmanətli saxlanma müddəti bitdikdən sonra yararsız vəziyyətə düşür ki, bu səbəbdən də onların*

*utilizasiya edilməsi zərurəti yaranır. Əksər hallarda sursatlar açıq şəkildə partlatma və yandırma üsulları ilə məhv edilir ki, bu da atmosferi çirkləndirir və ekoloji problemlər yaradır. Bu proses zamanı təhlükəli halların baş verməsi faktları da nəzərə alınarsa, utilizasiya işi daha mütərəqqi və təhlükəsizdir. Bu məqsədlə Şirvandakı «Araz» zavodunda döyüş sursatlarının utilizasiya mərkəzi yaradılıb. Zavodda, həmçinin döyüş sursatlarının doldurulması mərkəzi də fəaliyyət göstərəcəkdir. Burada müxtəlif çaplı artilleriya minaları presləmə, şnekləmə və aviabombalar əritmə üsulu ilə doldurulacaqdır. Minalar və aviabombalar partlayıcı maddələrlə doldurulduğu üçün mərkəz xüsusi təhlükəli istehsal sahələri kateqoriyasına aiddir. Burada texniki və yanğın təhlükəsizliyinin təmin edilməsi üçün mövcud normativ sənədlərə uyğun olaraq lazımi tədbirlər görülmüşdür. Atıcı silahlar üçün döyüş sursatlarının istehsalı kompleksinin tamamlanması məqsədi ilə nazirliyin «Araz» zavodundan patronların əsas tərkib hissələrindən biri olan kapsul-alışdırıcıların istehsalı sahəsi də yaradılıb. Burada 5 növ «Berdan» tipli kapsul-alışdırıcısının istehsalı nəzərdə tutulub.*

*Dövlətimizin başçısı döyüş sursatlarının utilizasiya mərkəzinin maketi ilə tanış oldu. Müdafiə Sənayesi naziri Yavər Camalov məlumat verdi ki, Polşanın «Yakuş» şirkəti ilə birlikdə yaradılan mərkəzin ümumi sahəsi 12 hektardır. Mərkəz xüsusiyyətlərinə görə bir-birindən təhlükəsiz məsafələrdə yerləşdirilmiş və mühafizə sipərləri ilə əhatə olunan 24 obyektdən ibarətdir. Buraya utilizasiya proseslərini həyata keçirmək üçün modul tipli 20 konteyner, transformator yarımstansiyası, müxtəlif növ partlayıcı maddələr və utilizasiya məmulatları saxlanılan anbarlar, zərərsizləşdirmə kamerası, kompressor binası, döyüş sursatlarının texniki vəziyyətinin qiymətləndirilməsi sahəsi və s. daxildir.*

*Ali Baş Komandan İlham Əliyev utilizasiya mərkəzinin fəaliyyətini əks etdirən filmə baxdı. Mərkəz müxtəlif çaplı mərmili atəş yığımlarının, artilleriya minalarının, qumbaraların, radioaktiv mərmilərin, partladıcıların, siqnal və işıqlandırıcı patronların sökülməsi, tərkib hissələrinə ayrılması, tullayıcı və partladıcı*

*atımların presləmə və əritmə üsulu ilə çıxarılaraq toplanması, yenidən* forma *dəyişikliyi verilərək qablaşdırılması üçün nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev mərkəzi işə saldı.Qeyd* olundu *ki, mərkəz alışdırıcı və partladıcıların tərkib* hiss*ələrinin zərərsizləşdirilməsi üçün* texnologiyaya *uyğun avadanlıqla təchiz olunmuşdur.* Utilizasiya *məqsədilə gətirilən döyüş sursatları tiplərinə və növlərinə görə qruplaşdırılaraq müvəqqəti* saxlama *anbarlarına yerləşdirilir.* Sonra *döyüş sursatlarının hər növündən nümunələr götürülərək* texniki *qiymətləndirmə laboratoriyalarına gətirilir. Xüsusi ayrılan* otaqda *böyüdücü vasitələrdən istifadə* olunmaqla *müayinədən keçirilir və ilkin qiymətləndirmə* prosesi aparılır*. Tipindən və ölçülərindən asılı* olaraq utilizasiya prosesi *müxtəlif konteynerlərdə bütün* texniki *təhlükəsizlik qaydaları nəzərə alınmış avadanlıqlarda* avtomatik *idarəetmə və xüsusi* zirehli kameralarda *kənardan nəzarət* olunmaqla *həyata keçirilir.*

*Ali Baş* Komandan *utilizasiya prosesini izlədi.*Proses *zamanı partlayıcı maddələrin çıxarılmasından* sonra *alınan materialların təkrar* xammal *kimi istifadə edilməsi nəzərdə tutulmuşdur.* Burada il *ərzində* 5 min ton *müxtəlif döyüş sursatlarının utilizasiyası aparılacaqdır. Layihə üzrə işçilərin sayı* 62 *nəfərdir. Mərkəzin bütün sahələrində yerli mütəxəssislər çalışacaqlar.* Onlar *«Yakuş» şirkətinin aparıcı mütəxəssislərinin təşkil* etdiyi kurslara *cəlb olunmuş və* bila-*vasitə sahələrdə quraşdırılan* texnoloji *avadanlıq üzərində təcrübə keçmişlər.* Utilizasiya *sahəsində tullantısız* texnolo-giyalar *əsasında* ekoloji *tələblərə* cavab *verən təhlükəsiz* metodlar *tətbiq edilmişdir.*

Sonra *prezident İlham Əliyev Şirvan* «Araz» *zavodunun döyüş sursatlarının doldurulması mərkəzinə gəldi. Ali Baş* Komandan burada *mərkəzin fəaliyyətini əks etdirən filmə baxdı.* Bildirildi *ki, mərkəzin ümumi sahəsi 4 min* kvadratmetrdir. Burada *60, 82 və 120* millimetrlik *minaların gövdələrinin partladıcı maddələrlə doldurulması üçün xüsusi avadanlıq quraşdırılıb.*

*Dövlətimizin başçısı mərkəzi işə saldı.İş prosesi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, doldurma mərkəzində 60 millimetr çaplı minaların gövdələrinə trotil maddəsinin presləmə yolu ilə, 82 və 120 millimetr çaplı minaların gövdələrinə isə trotil, trotil-dinitronaftalin partladıcı maddə qarışığının şnekləmə üsulu ilə doldurulması həyata keçirilir. Mərkəz texnologiyaya uyğun tələb olunan istehsal və nəzarət avadanlığı ilə təchiz edilib. İstehsalat sahəsində 4 xətt quraşdırılıb. Hazırlıq, köməkçi və doldurma işlərini yerinə yetirmək üçün təhlükəsiz iş şəraitini təmin edən sahələr hazırlanıb. Birinci xətdə 60 millimetrlik minanın, ikinci lentşəkilli xətdə 82 və 120 millimetrlik minaların sökülməsi və doldurmaya hazırlanması işlərini aparmaq, üçüncü konveyer xəttində 120 millimetr çaplı mərmilərin, dördüncüdə isə 60 və 82 millimetr çaplı mərmilərin yığılması üçün texnoloji iş sahələri yaradılıb.*

*Dövlətimizin başçısına məlumat verildi ki, doldurma mərkəzi il ərzində birnövbəli iş rejimində 20 min ədəd 60 millimetr çaplı, 40 min ədəd 82 millimetr çaplı və 40 min ədəd 120 millimetr çaplı mərmilərin doldurulması və yığılmasını təmin edən istehsal gücünə malikdir.*

*«Araz» zavodunun kapsulların hazırlanması sahəsi müxtəlif növ alışdırıcı kapsulların istehsalı üçün nəzərdə tutulub. Kapsulların doldurulması, dozalaşdırılması, yoxlanılması və qablaşdırılması ən müasir texnoloji avadanlıqla avtomatik rejimdə həyata keçirilir. Mərkəzdə il ərzində birnövbəli iş rejimində 40 milyon kapsul istehsalı nəzərdə tutulub.*

## Müdafiə Sənayesi Nazirliyinin Şirvanda Telemexanika zavodunun iriçaplı patronların istehsalı mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyulun 1-də Müdafiə Sənayesi Nazirliyinin Şirvanda Telemexanika zavodunun iri-*

*çaplı patronların istehsalı mərkəzinin açılışında iştirak etmişdir.*

*Müdafiə Sənayesi Nazirliyi fəaliyyət göstərdiyi 7 il ərzində tabeliyində olan müəssisələri ən müasir texnologiya və avadanlıqlarla təmin etmək üçün bir sıra işlər həyata keçirib. Onlarla texnoloji avadanlıq, 1500-dən çox müxtəlif növ dəzgah, cihaz, alət və tərtibatlar alınıb quraşdırılıb. Nazirliyin müəssisələrində yaradılan yeni istehsalat sahələri Azərbaycan Silahlı Qüvvələrini müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla və sənayenin maşınqayırma, cihazqayırma, elektrotexnika, rabitə sahələrində istifadə olunan avadanlıq və ehtiyat hissələri ilə təmin etmək üçün tam gücü ilə fəaliyyət göstərir. Belə istehsalat sahələrindən biri də Şirvan şəhərindəki Telemexanika zavodunun iriçaplı patronların istehsalı mərkəzidir.Dövlətimizin başçısı mərkəzi işə saldı və istehsal prosesini izlədi. Məlumat verildi ki, burada il ərzində üçnövbəli iş rejimində 3 növdə 7 milyon patron istehsalı nəzərdə tutulub. Mərkəzdə quraşdırılmış 106 dəzgahın yarıdan çoxu Avropa ölkələrində hazırlanmış xüsusi texnoloji avadanlıqdır. Yeni istehsal sahəsində avtomatlaşdırılmış mexaniki emal, ştamplama, termokimyəvi emal, texniki nəzarət, pirotexniki və partlayıcı maddələrin preslənməsi sahələri, yığım xətləri və laboratoriya fəaliyyət göstərir. Burada 264 nəfər ixtisaslı mütəxəssisin işlə təmin olunması nəzərdə tutulub. İşçilərə xarici mütəxəssislər tərəfindən xüsusi təlimlər keçirilib.*

*Zavoddakı nəzarət-sınaq mərkəzi üçün yeni inzibati bina müəssisədə istehsal olunan xüsusi təyinatlı məmulatların taktiki-texniki xarakteristikalarının, iqlim dəyişmələrinə, nəqliyyat silkələnməsinə dözümlülüyün yoxlanılması üçün nəzərdə tutulub. Burada atəş sınaqları aparmaq üçün 3 sahə yaradılıb. Sınaq atışları zamanı müxtəlif ölçülü güllələrin ballistik xüsusiyyətlərinin – təzyiq, sürət və atəşləmə sıxlığının yoxlanılması mümkündür.*

*Prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi, kollektivə uğurlar arzuladı.*

## ABŞ MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ AVRASİYA ÜZRƏ MÜŞAVİRİ EVELİN FARKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də ABŞ Müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya üzrə müşaviri xanım Evelin Farkasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan hərbçilərinin beynəlxalq sülhməramlı missiyanın tərkibində iştirakının önəmi qeyd olundu, bu sahədə əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İSVEÇRƏ KONFEDERASİYASI FEDERAL PARLAMENTİNİN KANTONLAR ŞURASININ SƏDRİ FİLİPPO LOMBARDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də İsveçrə Konfederasiyası Federal Parlamentinin Kantonlar Şurasının Sədri Filippo Lombardinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu, münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu, əlaqələrimizin enerji, sərmayə qoyuluşu, parlamentlərarası əməkdaşlıq və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN POLİSİNİN YARANMASININ 95 İLLİYİ MÜNASİBƏTİLƏ POLİS AKADEMİYASININ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan polisinin yaranmasının 95-ci ildönümü günündə – iyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Polis Akademiyasına gələn dövlətimizin başçısına Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov raport verdi.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin Akademiyanın baş meydanında ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev Mərkəzdə yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, daxili işlər orqanlarının inkişafı daim ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin peşəkarlığının artırılmasına öz töhfəsini vermişdir. Ümummilli liderin bu istiqamətdəki əvəzsiz xidmətlərini daxili işlər orqanlarının əməkdaşları daim ehtiramla yad edirlər. Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni inşa olunmuş Heydər Əliyev Mərkəzində yaradılan şərait ulu öndərin mənalı həyatının və eləcə də müasir Azərbaycan tarixinin zəngin bir dövrünün öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Hakimiyyətə qayıdışı ilə ölkənin geosiyasi imkanlarını düzgün qiymətləndirən ulu öndərin siyasi*

*uzaqgörənliyi sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qalxmışdır. Ümummilli lider Heydər Əliyevin dünyada cərəyan edən proseslərə müdrik yanaşması ölkəmizin nüfuzunu artırmışdır. Ulu öndərin həyata keçirdiyi məqsədyönlü islahatlar nəticəsində Azərbaycanın gələcək inkişafının təməli qoyulmuşdur.*

*Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yaradılan Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli liderinin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi və təbliğ olunması üçün bütün imkanlar yaradılmışdır. Mərkəzin əsas vəzifəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı materialların toplanması və kataloqlaşdırılmasından, Heydər Əliyevin irsinə dair Polis Akademiyasında aparılan araşdırmaların təbliğindən, bu istiqamətdə plan və proqramların hazırlanmasından, onların maddi-texniki təminatı üçün tədbirlərin görülməsindən ibarətdir.*

*Heydər Əliyev Mərkəzinin ən müasir üslubda inşa olunmuş üçmərtəbəli binasında dahi rəhbərin büstü qoyulub. Mərkəzin ikinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin həyatının və çoxşaxəli ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotostendlər yaradılıb. Birinci stenddə ulu öndərin uşaqlıq, tələbəlik və gənclik dövrünün fotoşəkilləri yer almışdır. Sonrakı stend isə ümummilli lider Heydər Əliyevin təhlükəsizlik orqanlarında fəaliyyətinə həsr olunmuşdur. Burada, həmçinin dahi şəxsiyyətin keçən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyinin ayrı-ayrı məqamları fotolar və sənədlər vasitəsilə əks olunur. Mərkəzdə ulu öndərin Moskvada işlədiyi XX əsrin 80-ci illərindəki fəaliyyəti haqqında da geniş məlumat əldə etmək mümkündür. Buradakı fotostendlərdə, həmçinin ümummilli lider Heydər Əliyevin 1990–1993-cü illərdə Naxçıvandakı fəaliyyətindən də bəhs olunur.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, Mərkəzdə yaradılan 2 ayrı guşədə ulu öndərə aid fərmanlar, diplomlar və digər müxtəlif sənədlər sərgilənir. Mərkəzdə yaradılan növbəti stendlər görkəmli şəxsiyyətin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrü əhatə edir. Ulu öndər Heydər Əliyev daxili işlər*

orqanlarına və onun əməkdaşlarına həmişə xüsusi qayğı ilə yanaşmışdır. Mərkəzdə ümummilli liderin hakimiyyətə qayıdışını əks etdirən fotoşəkillər də yerləşdirilib. Ulu öndərin layiqli davamçısı, prezident, Ali Baş Komandan İlham Əliyevin daxili işlər orqanlarının müxtəlif tədbirlərində iştirakından bəhs edən fotoşəkillər isə xüsusi stenddə toplanmışdır. Azərbaycanın dövlət rəmzləri və polisin fərqlənmə nişanları üçün ayrıca guşə yaradılıb. Mərkəzin müxtəlif hissələrində ümummilli lider Heydər Əliyevin daxili işlər orqanları və polis haqqında dediyi müdrik kəlamların yazıldığı lövhələr, videogörüntüləri əks etdirən monitorlar yerləşdirilib.

Mərkəzin üçüncü mərtəbəsi Akademiya heyətinin asudə vaxtının daha da səmərəli keçirilməsi üçün nəzərdə tutulmuşdur. Buradakı fotostudiyada ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən fotomaterialların toplanması, tədqiqi və çapı həyata keçirilir. Ümummilli lider Heydər Əliyev irsinin daha dərindən öyrənilməsi məqsədilə fotostudiyada çəkilən və toplanan şəkillərdən gələcəkdə müdavim və dinləyicilər Polis Akademiyasında keçirilən dərslərdə, slayd müsabiqələrində, treninq və konfranslarda istifadə edə bilərlər.

Şahmat dərnəyi otağında da hər cür şərait yaradılmışdır. Mərkəzdə fikir mübadilələrinin aparılması, virtual dərslərin keçirilməsi üçün sinif, eləcə də yeni texnologiya əsasında ingilis dilinin tədris olunduğu funksional kompüterlərdən ibarət xarici dil mərkəzi də fəaliyyət göstərir. Burada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin öyrənilməsi mərkəzi də fəaliyyət göstərəcəkdir. Dahi şəxsiyyətin «Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik olmalıdır» kəlamı rəhbər tutularaq müdavimlərin mütaliə tələblərinin ödənilməsi və intellektual səviyyələrinin artırılması məqsədilə elektron kitabxana da yaradılıb. Kitabxanada ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə və Polis Akademiiyasının profilinə aid olan elektron kitablar yerləşdirilib.

Mərkəzin birinci mərtəbəsi isə müxtəlif tədbirlərin və konfransların keçirilməsi üçün akt zalından, eləcə də istirahət guşələrindən ibarətdir.

*Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyinin əməkdaşları ilə görüşdü, Polis Günü münasibətilə təbriklərini çatdırdı.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev tədbirdə nitq söylədi.*

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nitqi

Hörmətli Daxili İşlər Nazirliyinin əməkdaşları!

Mən sizi və Daxili İşlər Nazirliyinin bütün şəxsi heyətini Polis Günü münasibətilə təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

Bu gün biz Polis Akademiyasında Heydər Əliyev Mərkəzinin açılışını qeyd edirik. Çox gözəl Mərkəzdir, çox gözəl memarlıq əsəridir, eyni zamanda, daxili tərtibat da göz oxşayır. Əminəm ki, bu Mərkəz çox səmərəli fəaliyyət göstərəcək və Akademiyada təhsil alan kadrların hazırlanmasında Mərkəzin çox böyük rolu olacaqdır.

Bildiyiniz kimi, ulu öndər Heydər Əliyev polis orqanlarının formalaşmasında xüsusi rol oynamışdır. Məhz onun rəhbərliyi ilə Azərbaycanda müasir polis orqanları yaranmışdır. 1993-cü ilə qədərki vəziyyəti biz yaxşı xatırlayırıq, siz də xatırlayırsınız. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində polis orqanlarında hökm sürən özbaşınalıq, anarxiya ölkəyə çox böyük zərbə vurmuşdur. O vaxt – bütövlükdə 1991–93-cü illərdə, Azərbaycanın uğurlu inkişafı təmin edilmirdi, Azərbaycanda sabitlik pozulmuşdu, daxili çəkişmələr baş verirdi və bu çəkişmələr nəticədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı.

Tarix üçün bu vacib müddətdə əgər polis orqanları və polis orqanlarına rəhbərlik edən şəxslər öz vəzifə borclarını ləyaqətlə yerinə yetirsəydilər, bəlkə də ölkə bu qədər ağır vəziyyətlə üzləşməzdi. İş burasındadır ki, Daxili İşlər Nazirliyinin o vaxtkı rəhbərliyi, onlar özləri anarxiyanın, özbaşınalığın inkişafında və ya tüğyan etməsində əsas rol oynamışlar. O vaxt daxili işlər

orqanlarının rəhbərləri faktiki olaraq, ölkədə kriminogen vəziyyət yaratmışdılar. Polis orqanları, xüsusilə nazir və onun müavinləri özləri quldurluqla məşğul idilər. O illər hamımızın yaxşı yadındadır – özbaşınalıq, reket, qanunsuz hərəkətlər faktiki olaraq, cəmiyyətdə polisə qarşı münasibəti, hörməti sıfıra endirmişdi.

Belə ağır vəziyyətdə ulu öndər xalqın tələbi ilə hakimiyyətə gələndə, əlbəttə ki, bütün başqa sahələrlə bərabər, polis orqanlarının müasir səviyyədə formalaşmasına çox böyük təkan vermişdir. Polis orqanlarının inkişafı, polisdə sağlam ab-havanın yaranması, polis orqanlarının öz vəzifə borcunu ləyaqətlə yerinə yetirməsi – bütün bu məsələlər ölkəmizin ümumi inkişafına çox müsbət təsir göstərmişdir.

Çünki yaxşı xatırlayırıq ki, o vaxt Azərbaycanda sabitlik pozulmuşdu, iqtisadi tənəzzül müşahidə olunurdu, Azərbaycan dünyada çox riskli bir ölkə kimi tanınırdı, Azərbaycana investisiyalar gəlmirdi, iqtisadi inkişaf, ümumiyyətlə, dayanmışdı. Sənaye sahəsində isə tənəzzül elə idi ki, bütün sənaye müəssisələri, demək olar ki, iflic vəziyyətə düşmüşdü.

Hər bir ölkənin inkişafı üçün əsas şərt sabitlikdir. Bu gün biz dünyanın müxtəlif bölgələrində hökm sürən prosesləri izləyərkən bir daha görürük ki, sabitlik pozulduqda bütün başqa məsələlər də öz həllini tapa bilməz. Sabitlik pozulduqda inkişafdan söhbət gedə bilməz. Ona görə sabitliyin bərpa edilməsi o illərdə ən başlıca vəzifə idi. Ulu öndərin qətiyyəti, müdrikliyi, xalqın ona olan inamı və polis orqanlarının fəaliyyəti bu sabitliyi yarada bildi və artıq 20 ildir ki, Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. 20 ildir ki, biz uğurlu inkişaf yolu ilə gedirik və bu sabitlik, bir daha demək istəyirəm ki, bütün inkişafın təməlində dayanan amildir.

Biz, əlbəttə ki, gələcək planlarımızı da bəyan etmişik və planlarımız çox açıqdır. Azərbaycan bundan sonra da inkişaf etməlidir. Azərbaycanda çox böyük quruculuq işləri aparılır. Sosial məsələlər öz həllini tapır. Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biridir. Son 10 il ərzində iqtisadi sahədə Azərbaycan kimi inkişaf edən ikinci dövlət yoxdur. Əsas

nailiyyətimiz ondan ibarətdir ki, biz ulu öndərin qoyduğu yola sadiqik. Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin davam etdirilməsi bizim gələcək uğurlarımızı da şərtləndirir.

Əlbəttə ki, Azərbaycan bu gün dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınır. Bizim təşəbbüslərimiz artıq dünya miqyasında öz böyük əhəmiyyətini göstərməkdədir. O ki qaldı daxili vəziyyətə, Azərbaycanda daxili vəziyyət çox sabitdir, müsbətdir. Bütün iqtisadi layihələr uğurla icra edilir. İqtisadiyyatımız artır. İqtisadiyyatın bütün sahələri inkişafdadır. Cəmiyyətdə çox müsbət ovqat, ab-hava vardır. Azərbaycana gələn yüksək səviyyəli qonaqlar mənimlə görüşlər əsnasında bunu daim vurğulayırlar. Əlbəttə ki, Bakının gözəlliyi, Azərbaycanın inkişafı onlara çox böyük təsir göstərir. Eyni zamanda, vurğulayırlar ki, cəmiyyətdə çox gözəl ab-hava vardır. İnsanların rahat yaşamaları, səhər, axşam, gecə vaxtlarında ictimai yerlərdə ailələri ilə rahat gəzintiyə çıxmaları – bütün bunlar bizim üçün artıq bir reallıqdır.

Amma bir çox ölkələrdə vəziyyət tam başqadır. İndi biz görürük ki, müxtəlif bölgələrdə, müxtəlif qitələrdə qarşıdurmalar, etirazlar, daxili çəkişmələr böyük fəlakətlərə gətirib çıxarır. İnsanların böyük əksəriyyəti vəziyyətdən narazıdırlar. Bəzi ölkələrdə hər 3-4 ildən bir dəyişən hakimiyyət də, bax, bu narazılığın əlamətidir. İnsanlar ümid etmək istəyirlər ki, yeni hakimiyyət onların hansısa problemlərinin həlli ilə məşğul olacaqdır. Ancaq vaxt keçir və insanlar məyus olurlar.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycan cəmiyyətində, vətəndaşlarda gələcəyə çox böyük inam vardır. Bütün rəy sorğuları onu göstərir ki, Azərbaycan vətəndaşları gələcəkdə onları daha da gözəl şəraitin, gözəl həyatın gözlədiyinə inanırlar. Biz, əlbəttə ki, bu müsbət meyilləri gücləndirməliyik, Azərbaycanın uğurlu inkişafını təmin etməliyik və edəcəyik. Son illər ərzində apardığımız siyasət onu göstərir ki, bu, düzgün siyasətdir. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, hətta böhranlı illərdə öz inkişafını davam etdirir. Bu inkişaf insanların rifah halının yaxşılaşmasında da özünü göstərir.

Əlbəttə, ictimai asayiş Azərbaycanda daim yüksək səviyyədə qorunmalıdır. Xüsusilə 1992–93-cü illəri yaxşı xatırlayırıq. Xatırlayırıq ki, ictimai asayiş pozulduqda ölkə idarəedilməz vəziyyətə düşür. Bu gün ictimai asayiş polis orqanları tərəfindən layiqincə qorunur.

Azərbaycanda bugünkü vəziyyətin, bu sabitliyin, inkişafın, gələcəyə inamın təməlində dövlət siyasəti dayanır. Düzgün, müdrik dövlət siyasəti ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşıdır. Eyni zamanda, polis işçilərinin fəaliyyəti, onların peşəkarlığı, ictimai asayişin onlar tərəfindən qorunması bu sabitliyi daha da möhkəmləndirir.

Mən çox şadam ki, Azərbaycanda polis orqanlarında islahatlar uğurla gedir, peşəkarlıq artır. Bax, bu Akademiyada hazırlanan kadrlar peşəkar kadrlar olacaqlar. Eyni zamanda, Azərbaycanda cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədədir. Azərbaycanda kriminogen durum çox müsbətdir. Başqa ölkələrlə müqayisədə görürük ki, biz ən qabaqcıl yerlərdəyik. Mənə nazir tərəfindən hər gün məlumat verilir ki, gün ərzində təqribən 30-40 cinayət törədilir. Cinayətlərin mütləq əksəriyyəti o qədər də ağır cinayətlər deyildir. Yəni 9 milyon 300 min əhalisi olan ölkə üçün 30-40 cinayət çox cüzi bir rəqəmdir.

Bu onu göstərir ki, cəmiyyətdə hökm sürən sabitlik, müsbət inkişaf dinamikası, əlbəttə ki, kriminogen durumun da müsbət səviyyədə qalmasına xidmət edir. Çünki işsizliyi, yoxsulluğu həddən artıq çox olan ölkələrdə cinayətkarlıq da çox olur, yəni bütün bu məsələlər bir-biri ilə bağlıdır. Cəmiyyət bir canlı orqanizmdir. Azərbaycanda son illər ərzində işsizlik, demək olar ki, aradan qaldırılıb, cəmi 5,2 faizdir. Yoxsulluq şəraitində yaşayanların sayı 6 faizdir və mən qarşıya vəzifə qoymuşam ki, yoxsulluq aradan qaldırılmalıdır.

Yəni cinayətkarlığın inkişafına rəvac verən amillər Azərbaycanda, demək olar ki, aradan qaldırılır. Bu vəziyyət məni çox sevindirir. Çünki Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən, Bakı ən təhlükəsiz şəhərlərindən biridir. Bakıda sutka ərzində insanlar rahat yaşayırlar, axşam, gecə saatlarında rahat gəzirlər.

Siz, polis işçiləri, bunu yaxşı bilirsiniz, çünki bu vəziyyətə nəzarət edirsiniz. İnsanlar doğrudan da həyatdan zövq alırlar.

Azərbaycanda mütəşəkkil cinayətkarlığa qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə nəticəsində deyə bilərəm ki, Azərbaycanda mütəşəkkil cinayətkarlıq aradan qaldırılıbdır. Ayrı-ayrı təzahürlər olur, amma dərhal onların qarşısı alınır. Hesab edirəm ki, biz bu istiqamətdə də çox böyük uğurlara nail olmuşuq. Başqa ölkələrlə müqayisədə Azərbaycanda bu sahədəki vəziyyət çox müsbətdir.

Polisin texniki təminatı da yüksək səviyyədə həll edilir. Bu məsələ daim diqqət mərkəzindədir. Yeni texniki vasitələrdən istifadə, deyə bilərəm ki, profilaktika məsələlərini də uğurla həll etməyə imkan verir. Şəhərimizin müxtəlif yerlərində quraşdırılmış təhlükəsizlik kameraları öz müsbət rolunu oynayır, həm profilaktika nöqteyi-nəzərdən, eyni zamanda, cinayətlərin açılması üçün onların çox böyük faydası vardır. Azərbaycanda cinayətlərin açılması da yüksək səviyyədədir. Bu da polis işçilərinin peşəkarlığından xəbər verir. Biz yeni texniki vasitələrdən uğurla istifadə edirik və edəcəyik. Texnologiyalar sürətlə inkişaf edir. Bildiyiniz kimi, Azərbaycan texnoloji tərəqqiyə çox böyük diqqət göstərir. Biz ən qabaqcıl texnologiyaları Azərbaycanda tətbiq edirik, o cümlədən təhlükəsizlik məsələlərinin həlli üçün biz bu texnologiyalardan səmərəli şəkildə istifadə edirik.

Deyə bilərəm ki, son illər bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Əminəm ki, Azərbaycanda bu müsbət dinamika gələcəkdə də davam etdiriləcəkdir.

Daxili Qoşunlar da inkişafdadır. Daxili Qoşunların təminatı yüksək səviyyədə həll edilir. Ən müasir texnika, döyüş avadanlıqları gətirilir. Daxili Qoşunlar böyük qüvvədir və əlbəttə, Daxili Qoşunların da cəmiyyətdə çox böyük funksiyaları vardır. Hər an, hər zaman Daxili Qoşunlar sabitliyin, asayişin keşiyində olmalıdırlar və belə də olacaqdır. Polis orqanları qarşısında duran vəzifələrlə bağlı bir neçə kəlmə demək istərdim. Əlbəttə, ilk növbədə, asayişi qorumaq polisin əsas funksiyasıdır. Deyə bilərəm ki, polis işçiləri bu vəzifəni uğurla icra edirlər. İnsanlara polis

əməkdaşları tərəfindən daim diqqət, qayğı göstərilməlidir, kobudluğa yol verilməməlidir. Belə faktlar aşkarlanarsa, dərhal tədbir görülməlidir.

Cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə aparılmalıdır. Azərbaycan, bir daha demək istəyirəm ki, bütün istiqamətlər üzrə nümunə ola bilər, o cümlədən cinayətkarlığa qarşı mübarizə sahəsində də bizim təcrübəmiz hesab edirəm ki, başqa ölkələr üçün də maraqlı ola bilər. Yəni polis orqanları və onun əməkdaşları bu istiqamətdə də çox ciddi olmalıdırlar.

Polis əməkdaşları korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə də ön sıralarda olmalıdırlar. Bilirsiniz ki, Azərbaycanda bu xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, ciddi tədbirlər görülür və polis əməkdaşları nümunə olmalıdırlar. Bütövlükdə cəmiyyətdə polis orqanlarına münasibət cəmiyyətin, ümumiyyətlə, inkişaf səviyyəsini göstərir. Polis orqanlarına cəmiyyətdə çox böyük hörmət olmalıdır və bu hörmət polis orqanları tərəfindən qazanılmalıdır. Polis orqanlarının əməkdaşları özlərini insanlarla təmaslarda elə aparmalıdırlar ki, onlara hörmət daha da çox olsun. Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yəni cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edir. Onların çox böyük funksiyaları, çox böyük zəhmətləri vardır. Mən görülmüş bu işləri yüksək qiymətləndirirəm və bilirsiniz ki, polis orqanlarını daim müdafiə edirəm və müdafiə edəcəyəm.

Xatırlayıram ki, 2005-ci ildə bəzi qüvvələr Azərbaycanda qondarma «narıncı inqilab» etmək istəyəndə polis orqanlarının qətiyyətli hərəkətləri bütün bu xoşagəlməz halların qarşısını aldı. O vaxt – 2005-ci ildə vəziyyət indiki kimi deyildi. Bəzi hallarda Azərbaycan beynəlxalq qurumlar tərəfindən təzyiqlərə də məruz qalırdı. İndi, əlbəttə ki, bizə heç kim təzyiq edə bilməz və deyə bilərəm ki, bu cəhdlər artıq tükənibdir. Amma o vaxtlar güclü təzyiqlər var idi ki, polis orqanlarının hərəkətləri pislənilsin, guya onlar həddindən artıq hərəkət etmişlər, polis orqanlarının əmək-

daşları cəzalandırılsın. Yəni qarşımıza şərt qoymuşdular. Mən o vaxt da demişəm, bu gün də demək istəyirəm, polis orqanlarının bir nəfər də olsun əməkdaşı cəzalandırılmayacaqdır. Çünki onlar qanunun keşiyində dayanır, təhlükəsizliyi təmin edirlər. Onlar öz həyatlarını risk altına ataraq Azərbaycan dövlətinin rahat yaşamasını təmin edirlər.

Bu gün də demək istəyirəm ki, polis orqanları bütün hərəkətlərini qanun çərçivəsində aparır, bütün qanunsuz hərəkətlərə öz layiqli cavabını verir və verəcəklər. Heç kimdə şübhə olmasın ki, əgər kimsə yenə də bizim gücümüzü sınamaq istəsə, öz layiqli cavabını alacaqdır.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanın bugünkü uğurlu inkişafı realdır. Bu bizi, dostlarımızı sevindirir, bizi istəməyən qüvvələri isə məyus edir. Azərbaycan həddindən artıq önəmli ölkəyə çevrilibdir. Azərbaycanın coğrafi vəziyyəti, bizim geosiyasi məsələlərlə bağlı tutduğumuz mövqe, enerji resurslarımız, nəqliyyat infrastrukturumuz, digər amillər, yəni iqtisadi inkişaf, Azərbaycanın siyasi cəhətdən güclü ölkə olması, əlbəttə ki, bizə diqqəti artırır. Əlbəttə, Azərbaycan bir güclü dövlət kimi, bəzi dairələr üçün böyük maraq doğurur. Biz buna etiraz etmirik. Çünki biz beynəlxalq aləmin bir parçasıyıq və bu gün beynəlxalq aləmin ən ali qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüyük. Dünyada bundan yuxarı səviyyə yoxdur.

Əlbəttə ki, biz bütün əməkdaşlığa açığıq və beynəlxalq əməkdaşlıq üçün öz konkret addımlarımızı atırıq. Ancaq bir daha demək istəyirəm ki, bütün ölkələrlə, bütün qurumlarla bizim münasibətlərimiz qarşılıqlı maraqlar, qarşılıqlı hörmət üzərində qurulur. Bir-birinin işinə qarışmamaq prinsipi bizim üçün əsasdır. Bu bizim prinsipial mövqemizdir. Bu mövqe ədalətə və beynəlxalq hüquq normalarına söykənir.

Ancaq şübhə yoxdur ki, Azərbaycanı öz tərəfinə çəkmək, müəyyən dərəcədə bizim siyasətimizə təsir etmək cəhdləri vardır. Buna oxşar digər cəhdlər bu gün də var, gələcəkdə də olacaqdır. Əsas odur ki, Azərbaycan dövləti öz müstəqil siyasətini aparır və aparacaqdır. Bu müstəqil siyasətin təməlində Azərbaycan xalqının

iradəsi dayanır və eyni zamanda, Azərbaycanda hökm sürən sabitlik və ictimai-siyasi asayiş bizim gücümüzü daha da artırır.

Biz müstəqillik yolu ilə gedəcəyik. Bu gün müstəqil Azərbaycan region üçün sabitləşdirici bir amildir. Biz sabitləşdirici rol oynayırıq və əlbəttə ki, heç bir qüvvə bizi müstəqil siyasətdən döndərə bilməz. Daxili vəziyyətlə bağlı bizim heç bir problemimiz yoxdur. Xalqla iqtidar arasında birlik vardır. Bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bizə qarşı çıxmaq istəyənlər isə öz iç üzünü bir daha açmışlar. Onlar bir daha göstərirlər ki, müstəqilliyin nə olduğunu başa düşmürlər. Bir daha göstərirlər ki, qul psixologiyası ilə yaşayırlar. Bu qul psixologiyası ondan ibarətdir ki, daim bir böyük qardaş axtarışındadırlar. Daim kiminsə ayağına yıxılmaq istəyirlər, kiminsə ətəyindən tutub yardım diləyirlər. Budur bugünkü Azərbaycanın siyasi mənzərəsi: bir tərəfdə Azərbaycan iqtidarı, müstəqil siyasət, ləyaqətli siyasət və heç kimin qarşısında baş əyməmək siyasəti, digər tərəfdə öz şəxsi maraqlarını təmin etmək üçün istənilən yola getməyə hazır olan antimilli, satqın, xain – onlara heç qüvvə də deyə bilmərəm – ünsürlər, qruplar. Bax, budur bugünkü siyasi palitra.

Əlbəttə, Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi çox açıq-aydın görür. Görür ki, kim ölkəni hara aparır və kim ölkəni hara aparmaq istəyir. Artıq Azərbaycan 20 ildən çoxdur ki, müstəqil dövlətdir. Bundan böyük xoşbəxtlik ola bilməz. Nəyin bahasına olursa-olsun müstəqilliyi qoruyacağıq, Azərbaycanın uğurlu inkişafını təmin edəcəyik.

Polis orqanlarının da bu işdə çox böyük rolu vardır. Əminəm ki, polis işçiləri həmişə olduğu kimi, dövlətə, dövlətçiliyə öz sədaqətini göstərəcəklər.

Bir daha, əziz dostlar, sizi bayram münasibətilə ürəkdən təbrik edirəm.

## YENİ AZƏRBAYCAN PARTİYASI BİNƏQƏDİ RAYON TƏŞKİLATININ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*3 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin binanın qarşısında ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Azərbaycan prezidenti İlham Əliyevə məlumat verdi ki, son bir ildə rayonda çoxlu sayda sosial təyinatlı infrastruktur obyekti istifadəyə verilmişdir. Bu sırada inzibati binalar xüsusi əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yeni inzibati binasında da səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır.*

*Diqqətə çatdırıldı ki, ikimərtəbəli binada tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Binanın ikinci mərtəbəsində divarda qranit üzərində işlənmiş Yeni Azərbaycan Partiyasının emblemi fonunda ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Bu mərtəbədə, həmçinin konfrans zalı, iş otaqları və 120 yerlik akt zalı yerləşir. Akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün əlverişli şərait vardır. Bütün otaqlar zəruri avadanlıqla təchiz olunmuş, kompüterlər quraşdırılmışdır. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.*

*Divarlarda ulu öndər Heydər Əliyevin müdrik kəlamlarından ibarət lövhələr asılıb.*

*Qeyd edildi ki, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının 14 mindən çox üzvü vardır.*

*Dövlətimizin başçısı binada yaradılmış şəraitdən razılığını bildirdi.*

## BİNƏQƏDİ RAYONUNDA HEYDƏR ƏLİYEV PARKINDA YENİDƏNQURMADAN SONRAKI ŞƏRAİTLƏ TANIŞLIQ

*3 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Bakının Binəqədi rayonunda yenidən qurulmuş Heydər Əliyev adına İstirahət parkında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün dünya standartlarına uyğun istirahət guşələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Salınan yeni parklar və yaşıllıq zolaqları, əhaliyə xidmət göstərən müasir iaşə obyektləri, bağlarda və xiyabanlarda ən yüksək standartlar səviyyəsində infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan, Binəqədi rayonunun ərazisində yerləşən istirahət parkı tamamilə yenidən qurulub. Parkın giriş hissəsində Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yeni inşa edilən inzibati binasının qarşısında ulu öndər Heydər Əliyevin bürüncdən ucaldılmış abidəsi diqqəti cəlb edir.*

*Bildirildi ki, burada paytaxt sakinlərinin istirahətinin mənalı təşkili üçün hər cür şərait yaradılıb. Park 4,5 hektar sahəni əhatə edir. Əvvəllər mövcud olan, lakin baxımsızlıq üzündən yararsız hala düşmüş parkın yenidən qurulmasına 2012-ci ilin avqust ayından başlanılmışdır. Yenidənqurma işlərini yerli və Türkiyədən dəvət olunmuş mütəxəssislər həyata keçirmişlər.*

*Parkdakı yararsız tikililər sökülmüş, kommunikasiya xətləri dəyişdirilmişdir.*

*Qeyd olundu ki, parkın yerləşdiyi ərazinin mürəkkəb relyefi nəzərə alınmaqla, tikintidə landşaft memarlığından istifadə edilmişdir. Dünyanın müxtəlif ölkələrindən gətirilən çoxillik bitkilər əkilməklə yaşıllıq zolaqları salınıb. Parkda əvvəllər mövcud olan ağac növlərinin bir qismi saxlanılıb. Bununla yanaşı, 60 min kol, 10 min sarmaşıq, 600-dən çox uzunömürlü ağac əkilib. Parkın landşaft örtüyündə 167 növ nadir ağac, kol və bitki növlərindən istifadə edilib. Uşaqlar üçün müxtəlif attraksionlar, yelləncəklər və digər idman və oyuncaq elementləri quraşdırılmışdır. Gənclərin istirahəti və asudə vaxtlarını səmərəli keçirməsi üçün parkın mərkəzi hissəsində yerləşən internet-kafedə hər cür şərait yaradılıb. İstirahət məkanının ən yüksək ərazisində 85 metrlik platforma quraşdırılıb. İstirahət guşəsinin bu hissəsində fərqli ölçülərdə 70-dən çox kürəşəkilli xüsusi fənərlər quraşdırılıb. Burada relyef nəzərə alınmaqla, müasir üslubda hazırlanmış körpülərdən, şəlalələrdən, fəvvarələrdən, çeşmələrdən və digər kiçik memarlıq elementlərindən məharətlə istifadə olunub. Parkın mərkəzində müasir texnologiyalardan istifadə etməklə, milli və dünya musiqi nümunələrindən təşkil olunmuş kompozisiyalardan ibarət musiqili fəvvarə də yaradılıb. Fəvvarə parka xüsusi yaraşıq verməklə yanaşı, həm də istirahət edənlərin könlünü oxşayır. Burada, həmçinin müxtəlif tədbirlərin keçirilməsi üçün avanqard üslubda səhnə və amfiteatr formasında oturacaqlar quraşdırılıb. Çoxsaylı güzgülərdən ibarət kürə formalı memarlıq elementi də parka yaraşıq verir. Parkın işıqlandırılması da mükəmməl formada həyata keçirilib. Belə ki, parkın gecə işıqlandırılması üçün ətrafa füsunkar yaraşıq verən 2630 lampa quraşdırılıb.*

*Dövlətimizin başçısı parkda yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN İNZİBATİ BİNASINDA YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*3 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Bakının Binəqədi Rayon İcra Hakimiyyətinin inzibati binasında yenidənqurmadan sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında Bakıda həyata keçirilən quruculuq işləri ilk növbədə, paytaxtın inkişaf strategiyasına uyğun aparılır. Tikilən binalar paytaxtın simasına xüsusi yaraşıq verir, müasirləşən şəhərimizin memarlıq quruluşuna əlavə çalarlar qatır. İndi Bakının bütün rayonlarında davam edən abadlıq-quruculuq işləri paytaxtın kompleks inkişafını təmin edir. Bu sırada son illərdə paytaxtın Binəqədi rayonunda görülən işlər də diqqəti cəlb edir. Rayonun sosial-iqtisadi inkişafı çərçivəsində görülən tədbirlər sırasında icra hakimiyyətinin binasında yenidənqurmadan sonra yaradılan şərait bir məqamı təsdiqləyir ki, ölkədə dövlət idarəçiliyi işinin stimullaşdırılması diqqət mərkəzində saxlanılır. Bundan başqa, müasir memarlıq üslubunda yenidən qurulan bina həm də bu ərazinin görkəminə xüsusi gözəllik verir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bina keçən əsrin 70-ci illərinin əvvəllərində inşa edilmişdir. Sovet dövründə burada rayon partiya komitəsi yerləşmişdi. Daha sonra binadan başqa təyinatlar üçün istifadə olunmuşdur. Ötən illərdə binada əsaslı təmir işləri aparılmamışdır. Keçən ilin mayından binanın tamamilə yenidən qurulmasına başlanılmışdır. Bina 1 mərtəbə artırılmış və müasir memarlıq üslubunda yenidən qurulmuşdur.*

*Diqqətə çatdırıldı ki, ümumi sahəsi 4 min kvadratmetr olan beşmərtəbəli bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Binadakı otaqların hamısı müasir tələblər səviyyəsində*

qurulub. Heydər Əliyev adına İstirahət parkının qərb hissəsində yerləşən binanın fasadının ağ rəngli yerli tikinti materialları ilə üzlənməsi onun görkəminə xüsusi yaraşıq verir. Binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulmuş, divarda Binəqədi rayonunun inzibati xəritəsi asılmışdır. İş otaqlarının arakəsmələrində şəffaf, interyerdə isə Avropa ölkələrində istehsal olunan materiallardan istifadə edilmişdir.

Prezident İlham Əliyev binanın yeməkxanası ilə tanış oldu. Vurğulandı ki, inzibati binada müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki şərait yaradılıb.

Prezident İlham Əliyev Binəqədi Rayon İcra Hakimiyyətində sakinlərin müraciətləri üçün yaradılmış «1646» xidməti ilə də tanış oldu. Sakinlər icra hakimiyyətinə gəlmədən müraciətlərini daha çevik və operativ şəkildə telefonla çatdıra və məlumat ala bilərlər. «1646» xidməti bütün mobil operatorlardan və stasionar telefonlardan eyni vaxtda 30 zəngi qəbul edir. Xidmətə daxil olan icra hakimiyyətinin vəzifə və səlahiyyətlərinə aid müraciətlər qanunvericilik bazası üzrə «sual-cavab» blokuna əsasən cavablandırılır. Yaradılan şərait rayon icra hakimiyyətində «Elektron hökumət»in bir çox elementlərinin reallaşdırılmasına imkan vermişdir. İnzibati binada, həmçinin elektron kargüzarlıq, sakinlərlə və yerli icra nümayəndəlikləri ilə videokonfrans zalı, elektron xəritə, operativ idarəetmə mərkəzi, elektron köşklər və digər texniki vasitələr quraşdırılmışdır. Bütün bunlar Binəqədi Rayon İcra Hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi və sakinlərin rahatlığının təmin olunması məqsədilə yaradılmışdır.

Prezident İlham Əliyev böyük akt zalı ilə də tanış oldu. Bildirildi ki, binaya bitişik 270 yerlik akt zalının divar və tavanında, zalın daxili tərtibatında müasir materiallardan istifadə olunub. Akt zalında rayon və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi üçün lazımi şərait vardır.

Sonra dövlətimizin başçısı təqdimat otağında elektron xəritə ilə tanış oldu.

Qeyd edildi ki, burada rayonun bütün ərazisi üzrə vahid elektron xəritə-məlumat bazası yaradılıb. Sistem artıq rayon

*təsərrüfatının idarə olunmasında ən yeni texnoloji vasitə kimi tətbiq edilməyə başlanıb. Elektron xəritənin köməyi ilə planlaşdırma aparılır və həyata keçirilən işlər haqqında operativ məlumatlar əldə edilir.*

*Prezident İlham Əliyevə son 1 ildə rayonda görülən işlər barədə də məlumat verildi. Diqqətə çatdırıldı ki, ötən dövr ərzində rayon ərazisində 6 yeni park salınmış, 2-si əsaslı təmir edilmiş, 24 yeni mədəni-kütləvi tədbirlər evi sakinlərin istifadəsinə verilmişdir. Rayonda 166 kilometr yol asfaltlanmış, 127 min kvadratmetrlik fasad işləri görülmüşdür. Ekoloji tarazlığın təmin edilməsi məqsədilə 10 minə yaxın yeni ağac, 120 minə yaxın çiçək və bəzək kolu əkilib, 76 min kvadratmetrlik çəmənlik salınıb. Azadlıq prospekti boyunca yerləşən binaların fasadları müasir üslubda üzlənib, işıqlandırılıb. Bakı–Sumqayıt avtomagistralının rayon ərazisindən keçən hissəsinin hər iki tərəfi milli ornamentli landşaft memarlığı elementlərindən istifadə olunmaqla yenidən qurulub. Binəqədi və Biləcəri qəsəbələrində daxili və qəsəbələrarası yollar genişləndirilib. Bütün bunlarla yanaşı, vətəndaşlara elektron xidmətlərin göstərilməsi, idarəetmədə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahələrində də strateji layihələr həyata keçirilib. Artıq rayon icra hakimiyyətində avtomatlaşdırılmış informasiya sistemi yaradılıb. Bu sistemin geniş imkanları sayəsində real vaxt rejimində elektron qaydada sənədlərin qəbulu, onların yoxlanılması, çatışmazlıqların aşkar edilməsi və qiymətləndirilməsi həyata keçirilir. Yeni sistemdə 4 – kargüzarlıq, kadr, ev təsərrüfatları və sosial iqtisadi təhlil altsistemləri fəaliyyət göstərir. Rayon icra hakimiyyətində, həmçinin «onlayn» videoqəbul da yaradılıb. Sakinlər binaya gəlmədən qəsəbə icra nümayəndəliklərinə müraciət edərək, onları maraqlandıran məsələlərlə bağlı rayon icra hakimiyyətinin başçısı və digər məsul şəxslərlə birbaşa videoəlaqə yarada biləcəklər.*

*Dövlətimizin başçısı inzibati binada yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ TAMARA SİNYAVSKAYAYA

Əziz Tamara İlyiniçna!

Sizi – görkəmli musiqi mədəniyyəti xadimini, gözəl müğənni və istedadlı pedaqoqu yubileyiniz münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Sizin opera səhnəsinə ilk gəlişinizdən başlayaraq sənətşünaslar səsinizin bənzərsiz tembrini, böyük fitri istedadınızı və şəxsiyyətinizin heyrətamiz cazibəsini qeyd etmişlər. Nüfuzlu beynəlxalq müsabiqələrdə qazandığınız mükafatlar nadir istedadınızın və yüksək peşəkarlığınızın təsdiqidir. Böyük metso-sopranoların ənənələrinin davamçısı kimi, Siz məxsusi ifaçılıq tərzinizi formalaşdırmağa, opera teatrı salnaməsində həmişəlik yaşayacaq parlaq səhnə obrazları yaratmağa nail olmusunuz.

Sizə xas olan incə musiqi zövqü konsert fəaliyyətinizdə klassik repertuarı rus xalq mahnıları və müasir estrada ilə harmonik şəkildə əlaqələndirməklə, müxtəlif janrlarda uğur qazanmaq imkanı vermişdir. Bu gün Sizin zəngin təcrübənizin gənc müğənnilərə çatdırılmasına yönəlmiş pedaqoji fəaliyyətiniz, heç şübhəsiz, yeni mədəni elitanın formalaşmasına şərait yaradır.

Siz Azərbaycanın böyük dostu kimi, bizim musiqi mədəniyyətimizi həmişə ləyaqətlə təmsil etmiş, Azərbaycan–Rusiya mədəni əlaqələrinin inkişafına və genişlənməsinə töhfə vermisiniz. Əminəm ki, bundan sonra da belə olacaqdır.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyul 2013-cü il*

## ABŞ SENATORU, SİLAHLI QÜVVƏLƏR ÜZRƏ KOMİTƏNİN ÜZVÜ ROCER UİKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də ABŞ senatoru, Silahlı Qüvvələr üzrə komitənin üzvü Rocer Uikerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu. ABŞ senatoru, Silahlı Qüvvələr üzrə komitənin üzvü Rocer Uikerin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurla inkişaf edən əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə daha da inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XORVATİYA RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ İOSİP LEKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Xorvatiya Respublikası Parlamentinin Sədri İosip Lekonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, Xorvatiyanın Avropa İttifaqına üzv qəbul olunmasından məmnunluq ifadə edildi. Ölkələrimizin bundan sonra həm ikitərəfli, həm də Azərbaycan–Avropa İttifaqı çərçivəsində fəal əməkdaşlıq edəcəyi əminliklə qeyd olundu. Xorvatiya Respublikası Parlamentinin Sədri İosip Lekonun Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində daha da genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.*

## RUSİYANIN «ROSNEFT» ŞİRKƏTİNİN PREZİDENTİ İQOR SEÇİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Rusiya Federasiyasının «Rosneft» şirkətinin prezidenti İqor Seçini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Rosneft»in prezidenti İqor Seçinin Azərbaycana səfərinin neft-qaz sektorunda əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi. Ölkələrimizin bu sahədə əməkdaşlığının inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğulayan prezident İlham Əliyev bu əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni imkanların müəyyənləşdirilməsinin önəmini qeyd etdi.*

*«Rosneft» şirkətinin prezidenti İqor Seçin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. SOCAR-ın regionun ən böyük şirkətlərindən biri olduğunu vurğulayan İqor Seçin «Rosneft»in SOCAR ilə beynəlxalq miqyasda uğurla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın böyük perspektivlərə malik olduğunu dedi.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinin səmimi salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev bu yaxınlarda Rusiya prezidenti Vladimir Putinlə telefon danışığı zamanı ikitərəfli münasibətlərimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi apardıqlarını qeyd etdi. Ölkələrimiz arasında neft-qaz sektorunda da əməkdaşlığın yaxşı təcrübəyə malik olduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin daha da genişləndirilməsi üçün səyləri artırmağın önəmini qeyd etdi.*

# TOVUZ RAYONUNA SƏFƏR

*5 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Tovuz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Tovuz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsi önünə gül dəstəsi qoydu.*

*Rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov Azərbaycan prezidentinə abidənin yerləşdiyi Heydər Əliyev parkında görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, parkda sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb.*

## Yenidən qurulan Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də yenidən qurulan Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, prezident İlham Əliyevin «Tovuz rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında» 2012-ci il 1 may tarixli Sərəncamına əsasən 40 min nəfərin yaşadığı 35 məntəqəni birləşdirən Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolunun tikintisi məqsədilə 2012-ci ilin dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Tovuz Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3 milyon manat ayrılıb.*

*Bildirildi ki, ümumi uzunluğu 51 kilometr olan Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolunun tikintisinə 2012-ci ilin oktyabrında başlanılıb. Sonrakı dövrdə həmin yolun tikintisi davam etdirilərək başa çatdırılması üçün daha 11,5 milyon manat vəsait ayrılıb. Yenidənqurma işləri zamanı yol yatağına 10*

*minlərlə kubmetr torpaq, qum-çınqıl qarışığı yayılıb, 330 min kvadratmetr asfalt-beton örtük salınıb.*

*Qeyd olundu ki, layihə çərçivəsində Əhmədabad kəndi ərazisində Zəyəm çayı üzərində uzunluğu 62 metr olan üçaşırımlı körpü də tikilib. Bundan başqa, yol boyunca xeyli sayda su keçidləri tikilib və təmir olunub.*

*Rayonun sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malik Tovuz–Qovlar–Ağbaşlar avtomobil yolundan qonşu Gədəbəy rayonunun sakinləri də istifadə edirlər. Yeni yolun turizmin və bütövlükdə rayonun iqtisadiyyatının inkişafı baxımından müstəsna əhəmiyyəti vardır. Yolun yenidən qurulması layihəsi çərçivəsində yolboyu yaşayış məntəqələrinin girişi və daxili yollarında da xeyli işlər aparılıb.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi.*

## Qovlar şəhər Mədəniyyət və istirahət parkının yenidənqurmadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Tovuz rayonuna səfəri çərçivəsində Qovlar şəhər Mədəniyyət və istirahət parkının yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin 2012-ci il 9 aprel tarixli Sərəncamına uyğun olaraq Qovlar qəsəbəsinə şəhər statusu verilmişdir. Şəhərin Azadlıq prospekti və Vağzal küçəsi asfalt-betonla örtülmüş, ayırıcı zolaq salınmış, yeni müasir işıqlandırma sistemi quraşdırılmışdır. Prospektin kənarında təbii qaya daşlarından və üzlük tavalardan istifadə olunmaqla, dekorativ hasar inşa edilmişdir. Qovlar şəhərinin Vağzal və Şəhriyar küçələrində ictimai binaların, ticarət və xidmət obyektlərinin fasadları müasirləşdirilmiş və yeni layihələr əsasında obyektlər tikilmişdir.Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, sahəsi 5 hektar olan Qovlar şəhər Mədəniyyət və istirahət parkında istinad divarları tikilmiş və bəzədilmişdir. Parkda yeni layihə əsasında inşa edilmiş fəvvarə istirahət məkanına əlavə gözəllik verir. Burada*

*Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsini əbədiləşdirən memorial kompleks daha uyğun yerdə bərpa edilərək ətrafı abadlaşdırılmışdır. İşıqlandırma və suvarma sistemlərinin yenidən qurulduğu parkda qazonlar salınmış, dekorativ ağac və gül kolları əkilmişdir. Uşaqların istirahətinin səmərəli təşkili məqsədi ilə attraksionlar və digər əyləncə qurğuları quraşdırılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev parkda görülmüş işləri yüksək qiymətləndirdi.*

## Hemodializ Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Tovuzda Hemodializ Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı səhiyyə ocağının rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və prezident İlham Əliyevin uğurla davam etdirdiyi sosialyönümlü siyasətin tərkib hissəsi olan insanların sağlamlığının qorunması dövlətimizin qarşıya qoyduğu prioritet məsələlərdən biridir. Həyata keçirilən sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin beynəlxalq səviyyəyə çatmasına zəmin yaratmışdır. Azərbaycan səhiyyəsinin inkişafı Heydər Əliyev Fondu və qurumun prezidenti Mehriban Əliyevanın da fəaliyyətinin əsas istiqamətlərindəndir. Ötən illər ərzində Azərbaycan səhiyyəsinin uğurlarından biri də regionlarda vətəndaşlarımızın sağlamlığının qorunması istiqamətində atılan addımlardır. Xüsusilə də müalicə diaqnostika mərkəzlərinin və digər səhiyyə obyektlərinin tikilib istifadəyə verilməsi regionlarda əhalinin müayinə və müalicəsinin lazımi səviyyədə təşkilinə əlverişli şərait yaradır. Böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə son illər dövlət səviyyəsində xüsusi diqqət yetirilir. Tovuzda Hemodializ Mərkəzinin tikilməsi bunu bir daha sübut edir.*

*Mərkəzlə tanışlıq zamanı diqqətə çatdırıldı ki, 3 mərtəbəli səhiyyə ocağının tikintisinə 2008-ci il sentyabrın 24-də başlanılmışdır. Mərkəzin təməlqoyma mərasimində prezident İlham Əliyev iştirak*

etmişdir. Hemodializ Mərkəzinin inşaat işləri müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilmişdir.

Tibb ocağının foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə səhiyyə sisteminin inkişafındakı xidmətlərini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılmışdır. Hemodializ Mərkəzində qəbul, hemodializ və diaqnostika şöbələri fəaliyyət göstərir.

Prezident İlham Əliyev hemodializ şöbəsi ilə tanış oldu.

Bildirildi ki, burada müasir tipli 20 hemodializ aparatı quraşdırılıb. Diqqətə çatdırıldı ki, hazırda Azərbaycanda 2208 nəfər böyrək çatışmazlığından əziyyət çəkir. Onların hamısı dövlət vəsaiti hesabına müalicə alır, müvafiq dərman vasitələri ilə tam təmin olunurlar. Qərb bölgəsində böyrək çatışmazlığından əziyyət çəkən xəstələr Hemodializ Mərkəzinin xidmətindən istifadə edə biləcəklər. Ümumilikdə qərb bölgəsi üzrə 308 hemodializ xəstəsi vardır. Bu günədək Tovuz və Qazax rayonlarından olan xəstələr Gəncədəki Hemodializ Mərkəzinin xidmətindən istifadə edirdilər. Yeni mərkəzin fəaliyyətə başlamasından sonra artıq bu bölgədən olan xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin hemodializ seansları qəbul etmək üçün respublikanın digər regionlarına və Bakıya getmələrinə ehtiyac olmayacaqdır.

Məlumat verildi ki, Tovuz Hemodializ Mərkəzində 2 növbədə təqribən 160 xəstə dializ olunacaqdır. Mərkəzin müasir şəraitlə təmin edilməsi ilk növbədə, burada tibbi müayinə və müalicə işinin ən yüksək səviyyədə təşkili və aparılması üçün hərtərəfli imkan yaradır. Bu tibb ocağının istifadəyə verilməsi həm də ölkəmizdə səhiyyə sisteminin ən müasir səviyyəyə çatdırılması istiqamətində dövlət tərəfindən görülən tədbirlərin növbəti uğurudur. Dövlətimizin başçısının təşəbbüsü ilə həyata keçirilən bu tədbirlər Azərbaycanda səhiyyə sisteminin daha yaxşı təşkilinə geniş imkanlar açmışdır.

Dövlətimizin başçısı mərkəzlə tanışlıqdan sonra tibb ocağının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## TOVUZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*5 iyul 2013-cü il*

Bu gün yenə Tovuzdayam, çox şadam, sizinlə bərabər olmağımdan çox məmnunam. Keçən il də görüşmüşdük. Son illər bir neçə dəfə Tovuza gəlmişəm və bu gün də gözəl açılışlar, gözəl tədbirlər keçirilir. Əlbəttə, onların içində bu Diaqnostika və Hemodializ Mərkəzi xüsusi yer tutur.

Yadımdadır, bu mərkəzin təməl daşını bərabər qoymuşduq və şadam ki, indi gözəl bir tibb ocağı yaradılıbdır. Bütün şərait vardır. Bunun adı Hemodializ Mərkəzidir, amma əslində burada həm diaqnostika, həm müalicə, həm də cərrahiyyə üçün imkanlar vardır. Böyük bir tibb mərkəzidir və hesab edirəm ki, vətəndaşlar bu mərkəzdən səmərəli şəkildə istifadə etməlidirlər. Əlbəttə, profilaktik tədbirlər görülməlidir. Diaqnostika müalicənin aparılması üçün başlıca şərtdir. Mən bütün tibb ocaqlarının açılışlarında qeyd edirəm və bir daha deyirəm, gərək vətəndaşlar vaxtlı-vaxtında müayinədən keçsinlər ki, sağlamlıqlarını qoruya bilsinlər.

İnsan amili bizim siyasətimizin prioritetidir. Bu mərkəzlərin açılması da onu göstərir ki, çox güclü sosial siyasət aparılır. Bu diaqnostika və müalicə mərkəzlərinin tikintisi indi geniş vüsət almışdır. Son 10 il ərzində Azərbaycanda 500-dən çox tibb mərkəzi tikilmişdir və demək olar ki, bütün bölgələrdə keyfiyyətli tibbi xidmət almaq üçün indi imkan vardır. Avadanlıq ən müasir standartlara cavab verir, memarlıq baxımından bütün xəstəxanalar çox gözəldir, çox genişdir, rahatdır və demək olar ki, indi elə bölgə yoxdur ki, orada müasir tibb ocağı olmasın. Məhz qarşıya belə məqsəd qoyulmuşdur ki, hər bir yaşayış məntəqəsində, böyük şəhərlərdə, rayon mərkəzlərində keyfiyyətli tibbi xidmət olmalıdır. Çox şadam ki, artıq Tovuzda da bu mərkəz yaradılır və insanların sərəncamına verilir.

Deyə bilərəm ki, son illər bütövlükdə səhiyyə sahəsində nəticələr yaxşıdır. Bunu həm biz deyirik, həm də beynəlxalq qurumlar və onların arasında dünya miqyasında bu məsələlərlə məşğul olan Ümumdünya Səhiyyə Təşkilatı bunu qeyd edir. Keçən il Bakıda keçirilmiş Avropa Konfransında qeyd olundu ki, Azərbaycanda səhiyyə sahəsində böyük irəliləyiş əldə edilmişdir. Bunu statistik göstəricilər də təsdiqləyir. Səhiyyə sisteminin səmərəliliyini göstərən bir neçə meyar vardır. Onların arasında insanların ömrünün uzunluğu – Azərbaycanda bu istiqamətdə irəliləyiş vardır – artır, uşaq ölümü isə azalır. Uşaq ölümü bizdə bütün dövrlərdə böyük problem idi. Bu gün də o problem hələ ki, lazımi səviyyədə həll olunmur. Hələ ki, biz inkişaf etmiş ölkələrdən bir az geridəyik. Ancaq hesab edirəm ki, belə mərkəzlərin yaradılması və digər tədbirlərin görülməsi nəticəsində biz bu sahədə də dünyanın aparıcı ölkələrinin səviyyəsinə qalxmalıyıq və digər göstəricilər deməyə əsas verir ki, səhiyyə sisteminin təkmilləşməsində yaxşı nəticələr vardır.

Amma hələ ki, bu sahə bizi tam qane edə bilməz. Əlbəttə, biz çalışırıq müasir mərkəzlər tikilsin, avadanlıq alınır, böyük vəsait xərclənir. Ancaq bəzi hallarda xidmətlərin keyfiyyəti bizi qane etmir və bu məsələlər üzərində daha da çox işləməliyik.

Burada göstəriləcək xidmət əminəm ki, yüksək səviyyədə olmalıdır. Yaxın zamanlarda bu mərkəz fəaliyyətə başlayacaqdır. İndi fəaliyyətə başlamaq üçün bütün imkanlar vardır. Burada yaxşı həkim heyəti formalaşmalıdır ki, Tovuz rayonunun sakinlərinə yaxşı xidmətlər göstərilsin. İnsanın sağlamlığı üçün lazım olan amillər bəllidir. İlk növbədə, diaqnostika və müalicə vaxtında aparılmalıdır, ətraf mühit də yaxşı vəziyyətdə olmalıdır. Bu baxımdan Tovuzda heç bir problem yoxdur, ekoloji vəziyyət burada yaxşıdır. İçməli su mütləq təmiz olmalıdır və bu gün biz Tovuzda içməli su layihəsinin istismara verilməsini qeyd edəcəyik. Bu da hesab edirəm ki, böyük hadisədir. Ondan sonra, əlbəttə ki, keyfiyyətli qida olmalıdır. Biz bu məsələyə də diqqət yetiririk. Müvafiq orqanlar istehlak bazarındakı vəziyyəti müşahidə edir, nəzarət edirlər. Hesab edirəm ki, bu istiqamətdə də irəliləyiş vardır.

Digər amillər də öz rolunu oynayır. Onların arasında idman da çox vacib məsələdir. Tovuzda artıq neçə ildir ki, idman mərkəzi vardır. Yəni bütün bu amillər insanların sağlamlığını təmin edir və eyni zamanda, maddi rifah məsələləri. Son illər biz Azərbaycanda bütün bu istiqamətlər üzrə yaxşı dinamikanı görürük. Nəinki Tovuzda, istənilən bölgədə, bütün bu istiqamətlər üzrə bizim siyasətimiz aparılır. Bu ilin sonunda regionların sosial-iqtisadi inkişafı üzrə 2-ci Dövlət Proqramı başa çatır və proqramda nəzərdə tutulmuş bütün məsələlər artıqlaması ilə öz həllini tapır.

Gələcək planlarımızla bağlı da bizim kifayət qədər dəqiq fikirlərimiz vardır. Gələcək illərdə Azərbaycan, əlbəttə ki, bundan da sürətlə inkişaf etməlidir və edəcəkdir. Bütün infrastruktur layihələri yaxın gələcəkdə başa çatmalıdır. Deyə bilərəm ki, Tovuzda da bu istiqamət üzrə işlər yaxşı gedir. Bu gün buraya gəlməzdən əvvəl biz yeni kəndləri birləşdirən yolun açılışında da iştirak etdik. Bu, Tovuz rayonunda icra edilən ikinci böyük layihədir. Birinci layihəni biz keçən il başa vurduq. Beləliklə, 80-ə yaxın kəndi birləşdirən bu yollar artıq istismara verilir. Yol inkişaf, həyat və rahatlıq deməkdir. Onu da qeyd etmək istəyirəm ki, bütün bu layihələr sırf sosial xarakter daşıyır. Bu layihələrin heç biri kommersiya xarakteri daşımır. Bu layihələrə qoyulan investisiyalar insan kapitalına qoyulan investisiyalardır. Bu mərkəz, içməli su layihəsi, kənd yollarının inşası, Olimpiya Kompleksi, məktəb tikintisi Tovuzda geniş vüsət almışdır. Bütün bu layihələr insanlar üçündür, ölkəmiz üçündür, sizin üçündür və dövlətin borcudur ki, bu siyasəti aparsın. Azərbaycanda bu istiqamət üzrə çox ciddi siyasət aparılır. Dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bu sadəcə, xoş sözlər deyil, bizim bütün siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun sağlamlığı, təhlükəsizliyi, rifahı və rahatlığı dayanır.

Mən hər dəfə belə açılışlarda olarkən çox sevinirəm və eyni zamanda, düşünürəm ki, biz daha nə etməliyik, əlavə nə etməliyik? Keçən dəfə Tovuzda olarkən mən icra başçısından, sonra deputatlardan soruşdum əlavə nə etməliyik?! Onlar kənd yolu layihəsini verdilər, indi onu da icra edirik. İndi sizdən soruşmaq istəyirəm ki, biz əlavə nə etməliyik ki, burada işlər

daha da yaxşı getsin. İndi yəqin ki, bu məsələlərlə bağlı sizin fikirləriniz vardır.

**T o f i q   Z e y n a l o v** (*Tovuz Rayon İcra Hakimiyyətinin başçısı)*: Daha yaxşı işləməliyik, cənab Prezident.

**İ l h a m   Ə l i y e v:** Əlbəttə, hər kəs yaxşı işləməlidir, hər kəs öz vəzifə borcunu yerinə yetirməlidir – vətəndaşlar, icra nümayəndələri, digər fəallar. Çünki bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycan daha da güclü dövlətə çevrilsin və bütün işlər Azərbaycanda yüksək səviyyədə aparılsın.

**A y b ə n i z   D ə m i r o v a** *(rayon sakini):* Möhtərəm cənab Prezident! İcazə verin, Sizi rayonumuzun ictimaiyyəti adından, o cümlədən səhiyyə işçiləri adından salamlayım, rayonumuza «Xoş gəlmisiniz!» – deyim. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, bu gün açılışına yığışdığımız bu müəssisə Sizin Tovuz rayonuna növbəti böyük töhfənizdir. Bütün bunlara görə biz Sizə səmimi minnətdarlığımızı bildirmək istəyirik. Sizin doğma Azərbaycanımıza rəhbərlik etdiyiniz bu 10 ildə ölkəmizin siması köklü surətdə dəyişmişdir. Kəndlərimiz, şəhərlərimiz tanınmaz dərəcədə gözəlləşib. Bununla bərabər, insanlarımızın da həyat səviyyəsi, həyat şəraiti, onların ictimai-siyasi həyata baxışları da tamamilə dəyişmişdir.

Bu gün ölkəmizin bütün bölgələri kimi, Tovuz rayonu da gündən-günə inkişaf edir. Bu qısa müddətdə Tovuz rayonunda çoxsaylı təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilmiş, parklar salınmış, geniş yollar çəkilmişdir. Bütün bunların hamısı Azərbaycanın çiçəklənməsini göstərir. Bu gün açılışına yığışdığımız bu mərkəz öz gözəlliyi ilə şəhərimizə xüsusi yaraşıq verməklə yanaşı, əhalimizin sağlamlığına xidmət göstərəcəkdir. Bu mərkəz ən müasir avadanlıqla təchiz olunmuşdur. Bu mərkəzdə tibbi heyətin fəaliyyəti üçün bütün şərait yaradılmışdır. Mərkəz hemodializ və perinatal şöbələrindən, laboratoriyalardan, rentgen-diaqnostika kabinetlərindən və digər otaqlardan ibarətdir. 2 il əvvəl istifadəyə verilmiş 80 çarpayılıq Tovuz Rayon Mərkəzi Xəstəxanası və bugünkü istifadəyə verilən bu mərkəz bizə imkan yaradacaqdır ki, Sizin göstərişlərinizi

həyata keçirək, insanlara daha yaxşı, yüksək keyfiyyətli tibbi xidmət göstərək.

Cənab Prezident, 2008-ci il sentyabrın 14-də Siz Tovuz ictimaiyyətinin nümayəndələri ilə görüşünüzdə demişdiniz ki, rayondakı infrastruktur obyektlərinin, səhiyyə və təhsil ocaqlarının səviyyəsi dünya ölkələrinin səviyyəsində olmalıdır, Azərbaycan vətəndaşları gözəl şəraitdə yaşamalıdırlar, yaxşı iş yerlərində işləməlidirlər, onlar üçün yaxşı iş yerləri olmalıdır, uşaqlarımız yaxşı məktəblərdə oxumalıdır, əhaliyə yüksək keyfiyyətli tibbi xidmət göstərilməlidir. Artıq Sizin dedikləriniz bu gün öz təsdiqini tapmışdır. Biz bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk. Bir həkim kimi, bildirmək istəyirəm ki, Siz həmişə əhalinin sağlamlığı ilə bağlı sahələrin inkişafına xüsusi diqqət yetirirsiniz. Bu gün Tovuz rayonunda su-kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına Sizin xeyir-duanızla başlanması rayonumuz üçün xüsusi əhəmiyyətə malik tarixi hadisədir. Buna görə biz Sizə minnətdarlığımızı bildiririk.

Bu layihənin həyata keçirilməsi nəticəsində insanlarımız ekoloji cəhətdən təmiz su ilə təmin olunacaqlar və rayonumuzda antisanitariya hallarının, infeksion xəstəliklərin yayılmasının qarşısı alınacaqdır. Biz bunları görürük, bunları yüksək qiymətləndiririk. Buna görə Sizə yenə də öz dərin minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Bu gün əhalinin sağlamlığı naminə görülən işlər gələcək nəslin sağlamlığına göstərilən qayğıdır.

Möhtərəm Prezident, biz canlı şahidik ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi, Siz son 10 ildə Azərbaycanı, xalqımızı yorulmaz fəaliyyətiniz, mətin iradənizlə daim xoşbəxt gələcəyə doğru aparırsınız və bunu hər bir azərbaycanlı öz həyatında hiss edir. Onlar əmindirlər ki, bütün arzularını Siz reallaşdıracaqsınız, Siz gerçəkləşdirəcəksiniz. Biz həmişə Sizinləyik, Sizin siyasətinizi dəstəkləyirik. Azərbaycanın bu günü, gələcəyi Sizinlədir. Həmişə Sizin yanınızdayıq. Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Siz 2008-ci ili yada saldınız. Doğrudan da o vaxt mən belə ifadələr işlədirdim ki, hər şey dünya səviyyəsində olmalıdır. Amma iş burasındadır ki, son 5 il ərzində dünya standartları bir qədər aşağı düşdü, Azərbaycan standartları qalxdı.

Belə mərkəzlər deyə bilərəm ki, hər bir inkişaf etmiş ölkə üçün bir nümunə olmalıdır. Hesab edirəm ki, belə də vardır. Çünki mən dünyanın müxtəlif yerlərində olmuşam. Əlbəttə ki, vəziyyətlə tanış olmuşam. Belə yaraşıqlı, o cümlədən memarlıq baxımından gözəl tibb mərkəzləri heç də hər bir ölkədə tikilmir. Azərbaycanda dövlət nəzarətində olan bütün obyektlər böyük zövqlə, ustalıqla tikilir. Bu obyektlər şəhərləri gözəlləşdirir. Bax, bu mərkəz də öz memarlığı ilə seçilir. Burada və bütünlükdə bizim tibb ocaqlarında yaradılan şərait, alınan avadanlıqlar ən müasir standartlara cavab verir. Çünki mən həmişə deyirəm ki, ən yaxşı şərait bizdə olmalıdır. Azərbaycan vətəndaşı yaşadığı bölgədən asılı olmayaraq ən gözəl xidmətə malik olmalıdır. Ona görə bizdə tikilən məktəblər elə bil ki, saraydır. Bizdə tikilən xəstəxanalar da, həmçinin çəkilən yollar, digər obyektlər də yüksək səviyyədədir. Son bir neçə il ərzində mən daha çox Azərbaycan standartları haqqında danışıram. Əgər biz dünyada gedən proseslərə, siyasi, iqtisadi hadisələrə nəzər salsaq görərik ki, doğrudan da Azərbaycan standartları bu gün bir çox ölkələr üçün nümunə olmalıdır. Bizdə olan sabitlik, inkişaf, hətta böhranlı illərdə yaşanan tərəqqi, deyə bilərəm ki, heç bir yerdə yoxdur. Azərbaycanda mövcud olan sabitlik, ictimai asayiş – bütün bunlar reallıqdır. Biz Azərbaycan vətəndaşları bu reallığa öyrəşmişik. Ancaq heç də hər yerdə belə deyildir. İndi biz televizordan, başqa informasiya mənbələrindən görürük ki, nə qədər böyük problemlər yaşanır dünyanın istənilən yerində. Bütün qitələrdə çox ağır hadisələr baş verir. Azərbaycan elə bil ki, bir inkişaf, sabitlik, həmrəylik adasıdır. Bunun əsas səbəbi ondan ibarətdir ki, Azərbaycanda aparılan işlər xalq tərəfindən nəinki dəstəklənir, xalq bilavasitə bu işlərin iştirakçısıdır. Görülən bütün işlər bir məqsədi güdür ki, Azərbaycanın

maraqları müdafiə olunsun, qorunsun, daha da yaxşı şərait yaradılsın, maddi rifah artsın, ölkəmiz dövlət müstəqilliyini qorusun, möhkəmləndirsin və bölgədəki mövqelərini daha da gücləndirsin.Hesab edirəm ki, son illər ərzində biz böyük dərəcədə bu hədəflərə çata bilmişik. Bu hədəflər hələ 2003-cü ildə qarşıya qoyulmuşdur. Son 10 il ərzindəki işlər hesab edirəm ki, təqdirəlayiqdir. Ancaq bunu, əlbəttə ki, siz qiymətləndirməlisiniz. Mən sadəcə olaraq, çalışıram və çalışacağam ki, sizə – yəni Azərbaycan vətəndaşlarına xidmət edim. Görəndə ki, hansısa gözəl bir nəticə əldə olunur, əlbəttə, mən də sizin qədər buna sevinirəm. Sağ olun.

## Şəhərin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin 2005-ci il oktyabrın 14-də imzaladığı sərəncama əsasən Azərbaycan regionlarının, o cümlədən Şirvan şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq Tovuz şəhərinə də içməli su xəttinin çəkilişi nəzərdə tutulurdu. Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə Ağstafa və Tovuz şəhərlərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihələrinin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyə tapşırılmış və layihə-smeta sənədləri hazırlanaraq həmin ilin noyabr ayında «Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» ASC tərəfindən işlərin yerinə yetirilməsinə başlanılmışdır. Layihələrin icrasına 2010-cu ilin dekabr ayında start verilmişdir. Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi rayon mərkəzi, Abulbəyli, Bozalqanlı, Aşağı Öysüzlü, Düz Cırdaxan, Cəlilli və Qazqulu kəndlərinin su tələbatını ödəyəcəkdir. Layihənin tələblərinə əsasən 16 min şəhər və 28 min kənd*

*əhalisinin sutka ərzində su tələbatı tam ödənilməlidir. Bütövlükdə tikintinin başa çatdırılması ilə 20 min şəhər və 30 min kənd əhalisinin suya olan tələbatı tam ödəniləcəkdir. Mənbədən alınan suyun keyfiyyəti mövcud içməli su standartlarına tam uyğundur. Gələcəkdə Tovuzçay dəryaçasının tikintisinin başa çatdırılması ilə əlaqədar quyuların məhsuldarlığının artması da gözlənilir.Dövlətimizin başçısına məlumat verildi ki, Tovuz şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması işləri 3 mərhələdə aparılmışdır.*

*Birinci mərhələdə magistral boru xətti, su anbarları, xlorlama və digər struktur obyektlərinin tikintisi başa çatmışdır. Bu mərhələdə subartezian quyularından nasos stansiyasına qədər 1588 metr uzunluqda polietilen borulardan xətt, nasos stansiyasından su anbarları meydançasına qədər magistral su kəməri və su anbarlarından şəhər şəbəkəsinə qədər uzunluğu 3434 metr olan magistral su xətləri çəkilmişdir. Suqəbuledici qurğular meydançasında keçid məntəqəsi, suqəbuledici kamera, suya xlor vurma və laboratoriya binaları, hər birinin həcmi 2500 kubmetr olan yeni su anbarları tikilmişdir.*

*Azərbaycan prezidentinə icra işlərinin ikinci mərhələsi barədə məlumat verildi. Bildirildi ki, bu mərhələdə hidrogeoloji və mühəndis-axtarış işlərinin nəticəsinə əsasən su mənbəyi olaraq Tovuzçayın məcrası boyunca Qazqulu kəndi zonasında 5 subartezian quyusu qazılmış, şəhərin su və kanalizasiya şəbəkələri, kanalizasiya kollektor xətti, yerli «Su-kanal» idarəsi üçün xidməti bina və istehsalat bazası tikilmişdir.Layihənin icrasının üçüncü mərhələsində çirkab su təmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya şəbəkələri sisteminin potensialı Tovuz şəhərinin Əlimərdanlı, Abulbəyli və Bozalqanlı kəndlərini əhatə edir. Məhsuldarlığı gün ərzində 7 min kubmetr olan çirkab təmizləyici qurğuya gələcəkdə əlavə yaşayış məntəqələrinin də qoşulması mümkün olacaqdır.*

*Prezident İlham Əliyev şəhərə çəkilmiş yeni su xəttinin açılışını bildirən düyməni basdı.*

## QAZAX RAYONUNA SƏFƏR

*5 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Tovuza səfərini başa çatdıraraq Qazax rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev abidənin ətrafında aparılan yenidənqurma işləri ilə tanış oldu, elektromobillə parkın ərazisini gəzdi.*

*Qazax Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov Azərbaycan prezidentinə məlumat verdi ki, abidənin yerləşdiyi 4 hektarlıq parkın yenidən qurulmasına 2012-ci ildə başlanılmış, ərazinin yarısında bərpa işləri həmin il başa çatdırılmışdır. Qalan 2 hektar sahə isə bu il abadlaşdırılıb. Burada sakinlərin istirahəti üçün bütün lazımi şərait yaradılıb.*

### Sement zavodunun sement istehsalı xəttinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Qazax Sement zavodunun sement istehsalı xəttinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verildi ki, «Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» ASC və Azərbaycan Beynəlxalq Bankı ASC-nin Akkord sement zavodunun tikintisi üzrə investisiya layihəsi uğurla reallaşdırılır. Bu müəssisənin inşasına 2010-cu ildə başlanılmışdır.*

*Bildirildi ki, Qazax–Gürcüstan sərhədi avtomagistralından Daş Salahlı kəndinə asfalt yol çəkilmişdir. Bu yolun başlanğıcında quraşdırılan monitorlarda ulu öndərin həyat və fəaliy-*

*yəti, ölkənin iqtisadiyyatı və regionların inkişafı üçün həyata keçirdiyi ardıcıl tədbirləri əks etdirən videoçarxlar nümayiş etdirilir. Asfalt yolun kənarı ilə zavoda dəmir yolu və 110 kilovoltluq yüksək gərginlikli elektrik xətti çəkilmişdir. Bundan başqa, su xətti, suvarma kanalı, seldən mühafizə bəndi və digər qurğular inşa olunmuşdur.*

*Müəssisənin ərazisində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılıb. Burada orijinal layihə əsasında park salınıb. Bu istirahət məkanı müasirliyi ilə diqqəti çəkir. Zavodun ərazisində ümumi sahəsi 4 min kvadratmetrdən çox olan altımərtəbəli, 56 otaqlı, dördulduzlu mehmanxana, müasir avadanlıqla təchiz edilən 250 yerlik üçmərtəbəli yeməkxana inşa olunub. Ümumi sahəsi 3400 kvadratmetr olan 69 otaqlı, beşmərtəbəli inzibati binanın tikintisi də tamamlanıb. Hazırda ərazidə silsilə qurğular inşa edilir.*

*Dövlətimizin başçısına istehsal prosesində istifadə edilən xammal və müəssisənin əmtəələri təqdim olundu.*

*Sonra prezident İlham Əliyev inzibati binada yaradılan şəraitlə tanış oldu. Birinci mərtəbədə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin sosial-iqtisadi, o cümlədən regionların inkişafı ilə bağlı həyata keçirdikləri tədbirləri əks etdirən fotoguşə yaradılmışdır. İnzibati binada işçilərin normal fəaliyyəti üçün hər cür şərait vardır. Burada informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə geniş yer verilmişdir. Dəhlizlərdə Azərbaycanın qədim tarixi, maddi-mədəniyyət abidələri barədə dolğun təəssürat yaradan incəsənət nümunələri də xoş ovqat doğurur.*

*Dövlətimizin başçısına mərkəzi nəzarət otağında müəssisə barədə ətraflı məlumat verildi. Buradakı stendlərdə zavodun texnoloji sxemi, tikinti üzrə investisiya layihəsi, baş plan və layihəyə aid digər məsələlər konkret əksini tapmışdır.*

*Müəssisənin maketi əsasında prezident İlham Əliyevə bildirildi ki, gündəlik istehsal gücü 2500 ton klinker və ildə 1 milyon ton sement olan zavodun inşası 2 mərhələdə aparılır. Birinci mərhələdə sement istehsalı xətti istifadəyə verilir. İkinci*

mərhələdə isə klinker istehsalı xəttinin tikinti-quraşdırma işlərinin başa çatdırılması nəzərdə tutulub. Bu ilin martında sement istehsalı xəttinin inşaat və quraşdırma işləri tamamlanmış, avadanlıq üzrə soyuq və isti sınaqlara başlanılmışdır. Sınaqlar uğurla yekunlaşmışdır. Müəssisədə bir neçə markada sement istehsal olunacaqdır. Bununla əlaqədar uyğunluq sertifikatları alınıb.

Prezident İlham Əliyevə məlumat verildi ki, sement istehsalında istifadə olunan xammalın və hazır məhsulun keyfiyyətinin müntəzəm yoxlanması üçün zavodda kimyəvi və fiziki laboratoriya quraşdırılmışdır. Laboratoriyada gips, əhəng daşı, mergel, gil, vulkan külü, klinker və sementin növlərinin kimyəvi, fiziki və mexaniki sınaqları həyata keçirilir.

Dövlətimizin başçısına bildirildi ki, zavodun avtomatik idarəetmə sistemi «Siemens» firmasının mütəxəssisləri tərəfindən proqramlaşdırılmış və ən müasir avadanlıqla təchiz edilmişdir. Zavodun idarə edilməsi mərkəzi nəzarət otağından həyata keçirilir.

Prezident İlham Əliyev buradan istehsal xəttini işə saldı.

Qeyd olundu ki, zavodun klinker istehsalı bölməsində quraşdırma işləri proqram üzrə davam etdirilir. Bu il həmin istehsal xəttinin işə salınması nəzərdə tutulub. Müəssisənin ümumi tikinti kompleksinə 49 bina və qurğu daxildir. Bunların 34-ü əsas, 15-i isə yardımçı bina və qurğulardır. Sement istehsalında mineral xammala olan tələbatı ödəmək üçün 452 hektar torpaq sahəsi ayrılıb. Bu layihənin reallaşması ölkəmizin qərb regionunun sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Gündəlik istehsal gücü 2500 ton klinker təşkil edəcək istehsal xətti üçün dağ-mədən, nəqliyyat və digər infrastrukturlarda çalışacaq 700 işçinin cəlb olunması nəzərdə tutulub. İşçilərin əksəriyyətini Qazax rayonunun və yaxın bölgələrin sakinləri təşkil edir.

Müəssisə ilə tanışlıqdan sonra prezident İlham Əliyev zavodun kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## QAZAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*5 iyul 2013-cü il*

Əziz dostlar, bu gün Qazax rayonunda çox gözəl, müasir, yüksək standartlara cavab verən sement zavodu açılır. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu hadisə ölkəmiz üçün böyük əhəmiyyət daşıyır. Çünki Azərbaycanda belə müasir müəssisələrin tikilməsi ölkə iqtisadiyyatını gücləndirir və burada tətbiq edilən texnologiyalar yüksək standartlara cavab verir. İstehsal olunan sement də yüksək keyfiyyətlidir və beləliklə, zavodun fəaliyyəti bir neçə məqsədi təmin edəcəkdir. İlk növbədə, burada 700-dən çox yeni iş yeri açılır. Bu da Azərbaycanda işsizliyin aradan qaldırılması üçün çox vacib məsələdir, yüksək maaş verilir və beləliklə, burada insanların rifah halı yaxşılaşacaqdır.

Bu sement zavodunun fəaliyyəti nəticəsində bizim idxaldan asılılığımız azalacaqdır. Yerli istehsal yaranır və bu da bizim iqtisadi sahədəki siyasətimizin əsas istiqamətlərindən biridir. Yəni zavodun tikilməsi doğrudan da böyük hadisədir. Nəzərə alsaq ki, yaxın keçmişdə Azərbaycanda 2 yeni sement zavodu tikilmişdir, deməli, biz bu sahədə də özümüzü təmin məsələlərində böyük addımlar atırıq. Mən əvvəlki dövrdə Naxçıvanda Sement zavodunun açılışında iştirak etmişdim. O zavod Naxçıvan Muxtar Respublikasının bütün daxili tələbatını ödəyir. Bakının Qaradağ rayonunda xarici investorlar tərəfindən tikilmiş Sement zavodunun açılışı da gözəl hadisə idi və görürəm ki, artıq bu dinamika davam edir. Qazax Sement zavodunun açılması da çox önəmli hadisədir. Ancaq buna

baxmayaraq, biz hələ ki, idxaldan asılıyıq. Bunun yeganə səbəbi ondan ibarətdir ki, ölkə iqtisadiyyatı yüksək sürətlə inkişaf edir, tələbat hələ ki, daxili istehsaldan çoxdur. Ancaq Azərbaycanda növbəti böyük sement zavodu tikilir və güman edirəm ki, o zavodun fəaliyyətə başlaması nəticəsində biz idxaldan asılılığımızı tamamilə aradan götürəcəyik.

Yəni iqtisadi sahədə bizim məqsədlərimiz təmin edilir – idxaldan asılılığın azaldılması, yerli istehsalın gücləndirilməsi, yeni iş yerlərinin açılması ümumi daxili məhsulumuzun qeyri-neft sektoru hesabına formalaşmasında çox ciddi bir addımdır. Bu zavodun tikintisi həm də Azərbaycanda sahibkarlığın inkişafına dövlət tərəfindən verilən dəstəyin təzahürüdür. Azərbaycanda sahibkarlıq sürətlə inkişaf edir. Mən sahibkarlara daim öz dəstəyimi göstərirəm, sahibkarlarla görüşürəm, onların problemlərinin həlli üçün əməli addımlar atılır, göstərişlər verilir. Kiçik və orta sahibkarlığın inkişafı üçün hər il dövlət tərəfindən güzəştli kreditlər verilir. Bu il 200 milyon manatdan çox güzəştli kreditlər verilib. Bu kreditlər iqtisadiyyatın real sektoruna qoyulan investisiyaları daha da çox cəlb edir. Çünki dövlət tərəfindən verilən kreditlər sahibkarların vəsaiti ilə tamamlanır və beləliklə, ümumi qaydada bu kreditlərin verilməsi il ərzində təqribən 300–400 milyon manat həcmində investisiyaların qoyuluşunu təmin edir.

Deyə bilərəm ki, bu həftə ölkəmizdə mənim iştirakımla açılan böyük obyektlərin maliyyə həcmi 1 milyard manat ətrafındadır. Həftənin əvvəlində mən Şirvanda dövlət vəsaiti ilə tikilmiş böyük elektrik stansiyasının açılışında iştirak etmişəm. Bu gün Tovuz rayonunda Diaqnostika-Hemodializ Mərkəzinin açılışını, içməli su layihəsinin istismara verilməsini qeyd etdik. Bu gün artıq sement zavodu fəaliyyətə başlayır, Ağstafada digər layihələr, içməli su ilə bağlı layihələr nəzərdə tutulur. Yəni 1 həftə ərzində açılan müəssisələrin maliyyə dəyəri 1 milyard manat ətrafındadır. Bu doğrudan da gözəl göstəricidir – ölkəmizin dinamik inkişafının göstəricisidir. Azərbaycanda düşünülmüş iqtisadi siyasətin nəticəsidir. Hesab edirəm ki, belə

gözəl hadisələr sahibkarları daha da ruhlandırır və onlara yol göstərir. Çünki dövlət sahibkarlığın inkişafında maraqlıdır. Ölkə iqtisadiyyatının inkişafı gələcəkdə də sahibkarlığın inkişafından asılı olacaqdır. Xüsusilə nəzərə alsaq ki, biz indi qeyri-neft sektorunun inkişafına çox böyük diqqət veririk və bu zavodun tikintisi məhz qeyri-neft iqtisadiyyatının bir hissəsidir.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatına verilən töhfədir, eyni zamanda, iş yerlərinin açılmasına gətirib çıxarır. Son 10 il ərzində 1 milyon 100 mindən artıq iş yeri açılmışdır, işsizlik 5 faiz ətrafındadır. Hesab edirəm ki, gələn illərdə yeni açılacaq müəssisələrin hesabına biz işsizliyi daha da aşağı səviyyədə saxlayacağıq. İnsanların maddi rifahı artır, insanlar yaxşı maaş alırlar, gözəl şəraitdə işləyirlər. Yəni qeyri-neft sektorunun rolu çox böyükdür. İqtisadiyyatın əsas hissəsinin hazırda qeyri-neft sektorunda formalaşmasına baxmayaraq, mən çox istərdim ki, qeyri-neft sektorunun payı daha da artsın. Hazırda təqribən 52 faizdir, 48 faiz neft iqtisadiyyatımızdır. Ancaq artıq iqtisadiyyatın əksər hissəsi qeyri-neft sektorunda formalaşır.

Biz sənaye müəssisələrinin yaradılması ilə bağlı çox ciddi addımlar atmışıq. Burada həm dövlət investisiyaları öz rolunu oynayır və ölkədə mövcud olan gözəl sərmayə iqlimi də, bax, bu reallıqları yaradır. Çünki adambaşına qoyulan birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında 1-ci yerdədir. Həm xarici, həm daxili investisiyalar qoyulur. Hazırda daxili investisiyalar ümumi investisiyaların 70 faizini təşkil edir. Bu onu göstərir ki, həm dövlət investisiyaları daha çox qoyur, həm də yerli şirkətlər öz maliyyə resurslarını ölkə iqtisadiyyatına cəlb edirlər. Bu zavodun tikintisi də yerli investorlar tərəfindən həyata keçirilmişdir. Mən bunu çox alqışlayıram.

Əvvəlki illərdə biz daha çox xarici sərmayədən asılı idik. Ancaq indi nəinki özümüz bizə lazım olan layihələri maliyyələşdiririk, Azərbaycan şirkətləri başqa bazarlara da investisiyalar qoyur – həm dövlət, həm özəl şirkətlər. Beləliklə, Azərbaycanda biznes sektoru güclənir. Biznes sektoru gücləndikcə vergilər daha

çox yığılır və yeni  iş yerləri açılır. Yəni bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Biz bu zavodun timsalında Azərbaycanın uğurlu siyasətini görürük.

Mən əminəm ki, biz tikinti materialları sektorunda da özümüzü təmin məsələlərini tam şəkildə həll edəcəyik. Necə ki, bu gün biz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilmişik, ərzaq təhlükəsizliyini təmin edirik. Əminəm ki, yaxın 2-3 il ərzində Azərbaycan əsas ərzaq məhsulları ilə özü-özünü təmin edəcəkdir və tikinti materialları sektorunda da buna oxşar yanaşma tətbiq edilməlidir. Nəzərə alsaq ki, Azərbaycanda gələcəkdə də böyük tikinti layihələri icra ediləcək, Azərbaycana xaricdən gələn investisiyaların məbləği artır və dövlət investisiya proqramı icra edilir, qarşıdakı illərdə tikinti-quruculuq işləri daha da böyük həcmdə aparılacaqdır.

Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyulmuşdur. Əlbəttə, bu sərmayənin əsas hissəsi tikinti işlərinə qoyulur. Bu il təxminən eyni səviyyədə sərmayə qoyuluşu gözlənilir. Gələn il və ondan sonrakı illərdə daha da çox sərmayə qoyulacaqdır. Yəni Azərbaycan, sözün əsl mənasında, dünyada iqtisadi sahədə ən sürətlə inkişaf edən ölkədir.

Biz bu liderliyi əldən verməyəcəyik, bu liderliyi qoruyub saxlayacağıq və gələcək illərdə daha da böyük işlər görüləcəkdir. Biz indi ölkəmiz üçün lazım olan infrastruktur layihələrinin icrasını başa çatdırırıq. Hesab edirəm ki, yaxın bir neçə il ərzində infrastruktur layihələri tam başa çatacaq və ondan sonra biz ancaq sənaye müəssisələrinin tikintisinə, yeni texnologiya parklarının yaradılmasına, innovasiyaların tətbiq edilməsinə – bu sahələrə daha çox fikir verəcəyik. Çünki hazırda icra edilən və icra edilmiş infrastruktur layihələri, demək olar ki, ölkə iqtisadiyyatına böyük dərəcədə təkan vermişdir. Elektrik enerjisi layihələri, qazlaşdırma, içməli su layihələri, kənd yollarının tikintisi, məktəb, xəstəxana binalarının tikintisi, sosial infrastrukturun yaradılması layihələrinin, demək olar ki, mütləq əksəriyyəti bu ilin sonuna

qədər başa çatacaqdır. Yenə də demək istəyirəm ki, növbəti onillik plan da hazırdır və Azərbaycan bu plan əsasında keyfiyyətcə yeni pilləyə qalxacaqdır.

Bizim bütün işlərimiz planlı şəkildə aparılır. Əsas məqsədimiz ölkəmizi gücləndirmək, iqtisadiyyatı inkişaf etdirmək, güclü sənaye potensialı yaratmaq və insanların yaxşı həyatını təmin etməkdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülmüşdür, o cümlədən Qazax rayonunda böyük işlər görülür. Qazax rayonu abadlaşır, gözəlləşir, çox önəmli addımlar atılır, sənaye müəssisələri açılır, kənd yollarına vəsait ayrılır, kənd yolları, sosial obyektlər tikilir. Əvvəlki dövrdə gözəl Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi tikilmişdir. Yəni biz çalışırıq ki, Qazax rayonunun inkişafını daim diqqət mərkəzində saxlayaq. Qazax ictimaiyyətinin qaldırdığı bütün məsələlər öz həllini tapır. Yadımdadır, keçən il burada ziyalılarla görüş əsnasında onlar məsələ qaldırdılar ki, Qazaxda Ədəbiyyat Muzeyi yaradılsın. Mən Bakıya qayıdan kimi dərhal göstəriş verdim, müvafiq sərəncam imzalandı, vəsait ayrıldı və bu gün biz Ədəbiyyat Muzeyinin açılışını da qeyd edəcəyik. Yəni əhalidən gələn hər bir təklif, hər bir istək dövlət tərəfindən təmin edilməlidir. Bu bizim əsas istiqamətimizdir. Çünki bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rifah halı, təhlükəsizliyi, yaşayışı dayanır. Hər bir dövlət və hər bir rəhbər məhz bu prinsiplərlə yaşamalıdır: xalqa xidmət etmək, xalqın qayğıları ilə yaşamaq, xalqı narahat edən problemləri daim diqqət mərkəzində saxlamaq və onları həll etmək lazımdır.

Mən çox şadam ki, Qazax rayonunda işlər yaxşı gedir. Mən son 10 il ərzində dəfələrlə Qazaxda olmuşam. Keçən il olmuşam və bundan sonra da olacağam. Çünki hələ görüləsi işlər çoxdur, hələ çoxlu müəssisələr, sosial obyektlər tikiləcək, kəndlərdə böyük quruculuq işləri aparılacaqdır. Bir sözlə, rayonun inkişafı müsbətdir, gələcək inkişafı şübhə doğurmur. Əminəm ki, rayon dinamik şəkildə inkişaf edəcəkdir. Belə gözəl müəssisələr rayonun iqtisadiyyatına da böyük təkan verir.

Mən bir daha demək istəyirəm ki, bu zavodun tikintisi ölkə miqyasında önəmli bir addımdır. Bu zavodun fəaliyyəti nəticəsində ölkə iqtisadiyyatı xeyir görəcəkdir. Əminəm ki, biz belə gözəl müəssisələrin bundan sonra da Qazax rayonunda tikilməsini görəcəyik.

Əziz dostlar, mən sizi bir daha salamlayıram və bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sağ olun.

**Xaqani Quluzadə** *(«Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» ASC-nin Direktorlar Şurasının sədri):* Möhtərəm cənab prezident İlham Əliyev!

Hörmətli qonaqlar! «Akkord» sement zavodunun açılışı mərasimi münasibətilə bu gün bizimlə olmağınızdan xüsusi şərəf duyuruq.

Möhtərəm cənab Prezident, Sizin uzaqgörən siyasətiniz və gərgin fəaliyyətiniz nəticəsində bu gün ölkəmizdə iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli – Azərbaycan modeli yaranmışdır. Uğurla davam etdirdiyiniz və müasir məzmunla zənginləşdirdiyiniz sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və dünya iqtisadiyyatına inteqrasiyanın təmin olunmasına əsaslanır. Elmi əsaslarla irəli sürülmüş milli iqtisadi inkişaf modelinə söykənən ölkəmizdə sahibkarlığa dövlət dəstəyi nəticəsində irihəcmli Azərbaycan şirkətlərinin respublika daxilində və transmilli layihələrdə iştirakının təməli qoyulmuşdur.

Möhtərəm cənab Prezident, zavodun təməlqoyma mərasimində iştirakınız, həmçinin ötən il Qazaxa səfəriniz çərçivəsində tikinti işlərinin gedişi ilə tanış olarkən verdiyiniz müvafiq tövsiyələr bu layihənin əhəmiyyətini daha da artırmışdır.

*Xaqani Quluzadə bildirdi ki, tikintisinə 225 milyon manat investisiya qoyulmuş zavodda 700 nəfər işlə təmin olunacaqdır. Orta əməkhaqqı 600–700 manat təşkil edəcəkdir. Zavodun tikintisi ilə paralel olaraq bir sıra infrastruktur və enerji obyektləri, sosial təyinatlı binalar inşa olunub. Müəssisənin özünün yataqxanası, uşaq bağçası, poliklinikası və digər xidmət*

*müəssisələri olacaqdır. O, «Akkord» korporasiyasının dünyanın aparıcı şirkətləri, maliyyə qurumları ilə sıx əməkdaşlığı və beynəlxalq tenderlərdə iştirakı barədə də dövlətimizin başçısına məlumat verdi, bu nəhəng müəssisənin yaradılmasının dövlətimizin başçısının sahibkarlığa dəstəyinin daha bir bariz nümunəsi olduğunu vurğuladı.*

**X a q a n i Q u l u z a d ə:** Hörmətli cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, «Akkord» sement zavodunun istismara verilməsi Sizin rəhbərliyiniz altında həyata keçirilən müdrik siyasətin nəticəsi kimi, Azərbaycan Respublikasında sahibkarlığın inkişafına yaradılmış şəraitin bəhrəsi olmuşdur. Zavodun istismara verilməsi regionun iqtisadi inkişafına dəstək olmaqla yanaşı, yerli əhalinin daimi iş yerləri ilə təmin olunmasına, Azərbaycanın inşaat materiallarına tələbatının ödənilməsinə, ölkəmizin ixrac potensialının artmasına və iqtisadiyyatın qeyri-neft sektorunun güclənməsinə xidmət edəcəkdir.

**M ə m m ə d Y u s i f o v** *(rayon sakini):* Azərbaycanımızın müstəqillik illərində keçdiyi inkişaf yolu dünya miqyasında artıq bir reallıqdır. Bu inkişaf son 10 ildə özünü daha çox göstərmişdir. Ötən 10 il müasir Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələdir. Dünyanın heç bir ölkəsinin nail ola bilmədiyi sürətli inkişafa Azərbaycan nail olmuşdur. Bu illər tarix baxımından qısa olsa da, həyata keçirilən tədbirlər, aparılan islahatlar bir çox ölkələrin 100 ildə keçdikləri yola bərabərdir. Bütün bunlara Sizin yorulmaz fəaliyyətiniz, yaradıcı iş üsulunuz nəticəsində nail olunmuşdur. Bu inkişaf Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə respublikanın hər bir vətəndaşının rifahına yönəldilmiş, mühüm sosial və iqtisadi layihələrin həyata keçirilməsi nəticəsində baş vermişdir. Siz bu illərdə atdığınız addımlarla xalqımıza qürur verdiniz, onun başını uca etdiniz.

Azərbaycanda xalqın maraqlarına cavab verən bu davamlı, sabit inkişaf yolunun alternativi yoxdur. Bu gün hər birimiz ölkəmizə görə çox böyük fərəh hissi keçiririk. Qazaxda istifadəyə verdiyiniz bu böyük sement zavodu da bu inkişafın, bu tərəqqinin bir göstəricisidir. Cəbhə bölgəsində belə bir

möhtəşəm zavodun inşasının mühüm siyasi və mənəvi dəyəri vardır. Bu zavodun rayonumuzun iqtisadiyyatının inkişafında çox böyük rolu olacaqdır. Yüzlərlə qazaxlı yeni iş yeri ilə təmin olunacaqdır ki, bu da onların həyat səviyyəsini daha da yüksəldəcəkdir.

Möhtərəm cənab Prezident, respublikamızın bütün bölgələrində olduğu kimi, rayonumuzda da böyük tikinti, quruculuq və abadlıq işləri aparılır. Bu gün Sizin rəhbərliyinizlə Qazaxda sakinlərimizin rahat həyat yaşamaları üçün hər cür şərait yaradılmışdır. Şəhərimizdə yeni tibb ocaqları, məktəblər, mədəniyyət obyektləri inşa edilmiş, park və xiyabanlar salınmışdır. Son illərdə tikilmiş Olimpiya İdman Kompleksi, Şahmat Mərkəzi, Gənclər Mərkəzi də şəhərimizə xüsusi yaraşıq verməklə yanaşı, gənclərimizin sağlam ruhda böyüməsində və ictimai fəallığın artırılmasında önəmli rol oynayır. Bu gün düşmənlə təmas xəttində yerləşən kəndlərimizə belə, yeni yollar çəkilmişdir. Cəbhə bölgəsində yerləşən rayonumuzun bütün yaşayış məntəqələri təbii qazla və fasiləsiz elektrik enerjisi ilə təmin olunmuşdur. Bax, budur müasir Azərbaycanımızın reallıqları! Çox sağ olun, cənab Prezident!

Möhtərəm cənab Prezident, bu gün xalqımız qüdrətli Vətənimizdə çox rahat yaşayır. Bizim nəsil nikbindir. Çünki Siz Azərbaycanımızı, müstəqil dövlətimizi daim irəliyə, daha xoşbəxt gələcəyə aparırsınız. Yalnız Siz qüdrətli Azərbaycanımızın qarantı ola bilərsiniz. Yalnız Siz Azərbaycanımızın davamlı inkişafını təmin edə bilərsiniz. Bütün qazaxlılar Sizə inanır, Sizə güvənirlər. Gələcəyini Sizə etibar edən qazaxlılar növbəti seçkilərdə də öz sözlərini deyəcəklər. Diqqətinizə görə çox sağ olun.

## Qazax–Quşçu Ayrım avtomobil yolunun inşası başa çatmış 15 kilometrlik hissəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Qazax–Quşçu Ayrım avtomobil yolunun inşası başa çatmış 15 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun texniki göstəricilərini əks etdirən stendə baxdı. Məlumat verildi ki, Azərbaycanda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolayırıcılarının tikilməsi, magistral yolların salınması sosialyönümlü tədbirlər olmaqla yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir. Hazırda respublikamızda kənd yollarının inşası və yenidən qurulması vüsət almışdır. Ölkəmizdə beynəlxalq və respublika səviyyəli yolların salınması ilə bağlı silsilə layihələr reallaşdırıldığından indi kənd yollarının çəkilişi ön plandadır. Qazaxda da kənd yollarının inşası və yenidən qurulması ilə bağlı silsilə tədbirlər reallaşdırılır.*

*Bildirildi ki, ümumi uzunluğu 27 kilometr olacaq bu yol öz başlanğıcını Bakı–Gürcüstan dövlət sərhədi magistralının 469-cu kilometrliyindən götürür. Yol rayonun 26 min əhalisinin yaşadığı 15 kəndini – Çaylı, Kommuna, Ürkməzli, Dəmirçilər, Daş Salahlı, Alpout, Aşağı Əskipara, Bağanis Ayrım, Yuxarı Əskipara və digər yaşayış məntəqələrindən keçir. İnşasına bu ilin mayında başlanmış və Prezidentin ehtiyat fondundan ayrılmış 6,9 milyon manat vəsait hesabına tikilmiş yolun 15 kilometri istismara hazırdır. Yolun qalan 12 kilometrlik hissəsi isə bu ilin sentyabrında istifadəyə veriləcəkdir.*

*Qeyd edildi ki, ikizolaqlı yolun torpaq yatağının eni 10-12, hərəkət zolağının hər birinin eni 3,5 metrdir.*

*Yeni yolla tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Uşaq Əyləncə Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Qazaxda Uşaq Əyləncə Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, uşaqların keyfiyyətli təhsil və dünya*

*standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilməsi, qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir. Dövlətin uşaq siyasətinə hər zaman dəstək verən Heydər Əliyev Fondu da bu istiqamətdə vacib layihələr həyata keçirir. Bu sahə ilə bağlı müvafiq dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsi davamlı xarakter almışdır. Bakıda və regionlarda körpələr evləri, uşaq bağçaları, əyləncə mərkəzləri tikilir, internat və orta məktəblər əsaslı şəkildə yenidən qurulur.*

*Azərbaycan prezidenti Uşaq Əyləncə Mərkəzində yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, ətraf ərazidə abadlıq-quruculuq işləri aparılmış, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılmışdır. Mərkəzin ərazisi 1,2 hektardır. Mərkəzin qarşısında sahəsi 1080 kvadratmetr olan süni göl yaradılmışdır ki, bu da binanın görünüşünə daha da gözəllik qatır. Mərkəzin tikinti sahəsi 400 kvadratmetrdir.*

*Bildirildi ki, Uşaq Əyləncə Mərkəzinin tikintisinə 2013-cü ilin yanvarında başlanılmışdır. Burada istirahət edən uşaqlara 8 nəfərlik işçi heyət nəzarət edəcəkdir. Mərkəzdə kompüter zalı, inzibatçı otağı, oyun zalı, bufet-kafe, mətbəx və xidmət heyəti üçün otaqlar vardır.*

*Dövlətimizin başçısı mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev binada yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi*

*olan Yeni Azərbaycan Partiyasının ümumi amallar naminə göstərdiyi uğurlu fəaliyyətində rayon təşkilatlarının rolu danılmazdır. Partiyanın rayon təşkilatlarının yeni inşa olunmuş inzibati binaları da müasirliyi ilə seçilir. Həmin binalarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır.*

*Bildirildi ki, son illər Qazax rayonunda çoxlu sosial təyinatlı infrastruktur obyektləri tikilib istifadəyə verilmişdir. Yeni Azərbaycan Partiyası rayon təşkilatının yeni inzibati binası da memarlıq üslubu və əməkdaşların səmərəli fəaliyyəti üçün yaradılmış şəraiti ilə seçilir.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli liderin və onun siyasi kursunun layiqli davamçısı prezident İlham Əliyevin partiya quruculuğu ilə bağlı fəaliyyətlərini əks etdirən fotostendlər quraşdırılmışdır.*

*Birinci mərtəbə ilə tanış olan prezident İlham Əliyevə bildirildi ki, inzibati binanın inşasına 2013-cü ilin yanvarında başlanılmışdır. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan 65 yerlik akt zalı, iş otaqları vardır. Binanın ikinci mərtəbəsində isə məşvərət otağı, 20 yerlik konfrans zalı, istirahət və kompüter otaqları, arxiv yerləşir. Daxili sahəsi 378 kvadratmetr olan ikimərtəbəli binanın həyəti abadlaşdırılmışdır.*

*Dövlətimizin başçısı binada yaradılmış şəraitdən razılığını bildirdi.*

## Ədəbiyyat Muzeyinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Qazaxda Ədəbiyyat Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə muzeyin yerləşdiyi Fəxri Qazaxlılar parkında yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, parkın yenidən qurulmasına bu ilin yanvarında başlanılmışdır. 3 hektar sahəni əhatə edən parkın ərazisində abadlıq-quruculuq*

*işləri görülüb, şəlalə, 4 fəvvarə yaradılıb, əyləncə qurğuları quraşdırılıb.*

*Sonra prezident İlham Əliyev Ədəbiyyat Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, Azərbaycanda muzey işinin yaxşılaşdırılması xüsusi diqqət mərkəzindədir. Bu baxımdan prezident İlham Əliyevin «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» 2007-ci il 6 mart tarixli Sərəncamı milli-mədəni sərvətlərimizin qorunması, muzey fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarlarının gələcək nəsillərə çatdırılmasında mühüm keyfiyyət dəyişikliyinə təkan vermişdir. Respublikamızda muzey şəbəkəsinin inkişafı və muzey işinin hərtərəfli yaxşılaşdırılmasına Heydər Əliyev Fondu da əvəzsiz töhfələr bəxş edir.*

*Qazax şəhərinin Heydər Əliyev prospektindəki muzeyin binası üçmərtəbəlidir. Birinci mərtəbədə 106 nəfərlik konfrans zalı, yeməkxana və xidməti otaqlar yerləşir. Binanın foyesində Azərbaycanın görkəmli ədəbiyyat xadimlərinin şəkilləri asılmışdır. İkinci mərtəbədə Yazıçılar Muzeyi fəaliyyət göstərir. Üçüncü mərtəbədə inzibati otaqlar, kabinetlər və konfrans zalı vardır. Bu muzey Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 1 iyun tarixli Sərəncamı ilə Prezidentin ehtiyat fondundan ayrılmış 5 milyon manat vəsait hesabına tikilmişdir.*

## AĞSTAFA RAYONUNA SƏFƏR

*5 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Ağstafa rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Ağstafa şəhərinin mərkəzindəki Heydər Parkında xalqımızın ümummilli liderinin abidəsi önünə gül dəstəsi qoydu.*

*Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Azərbaycan prezidentinə ulu öndərin abidəsi ətrafında aparılan abadlıq işləri barədə məlumat verdi.*

### Tarixi və müasir abidələr parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Ağstafada açıq səma altında salınan Tarixi və müasir abidələr parkı ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Tarixi və müasir abidələr parkında bu gün öz inkişaf dövrünü yaşayan Azərbaycanın coğrafi mövqeyi, tarixi abidələri sərgilənir. Məqsəd mədəniyyətimizi və tarixi abidələrimizi təbliğ etməklə yanaşı, Ağstafa şəhərinin simasına yeni memarlıq elementlərini daxil etməkdir.*

*Bildirildi ki, parkın tikintisinə 2012-ci ilin noyabrında başlanılmışdır. Ağstafa şəhərinin mərkəzində yerləşən parkın ərazisi 2,5 hektardır. Bu miniatür park Azərbaycanı əhatə edən dağ silsilələrini, çay və gölləri, təbiət mənzərələrini xəritə üzərində əks etdirir. Azərbaycanın ayrı-ayrı bölgələrində olan və xalqımızın tarixi keçmişini yaşadan tikililər, abidələr, saray və qala divarları, müqəddəs ziyarətgahlara aid türbə və məscidlər, müasir dövrə aid arxitektura nümunələri yüksək peşəkarlıqla yaradılıb. Böyük və Kiçik Qafqaz sıra dağları, Bakının, Naxçıvanın, Qarabağın və digər bölgələrin qədim və müasir tikililərinin kiçik maketləri xüsusi məharətlə hazırlanmışdır. Burada, həmçinin Kür*

*və Araz çayları, Göygöl və Batabat gölləri, əsas avtomobil və dəmir yolları, yol qovşağı və körpülər də əksini tapmışdır. Müasir dövrdə Azərbaycanda inşa olunan və memarlıq üslubu ilə seçilən arxitektura nümunələrinin də parkın ərazisində təsvirləri yer almışdır. Parkın ətrafında uzunluğu 160 metr, eni 10 metr olmaqla, Xəzər dənizinin təsviri yaradılıb. Ərazidə piyada keçidlərinə qranit döşənib, 5 min kvadratmetr yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma və suvarma sistemləri quraşdırılıb. Gecələr hər bir eksponatın ayrıca işıqlandırılması təmin edilib. Məlumat lövhəsində hər bir eksponat haqqında Azərbaycan və ingilis dillərində informasiyalar yazılıb.*

*Prezident İlham Əliyev parkda yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## Ağstafa şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Ağstafa şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**İlham Əliyev:** Biz bu gözəl layihənin istismara verilməsini qeyd edirik. Çox şadam ki, nəhayət, Ağstafanın su problemi həllini tapır.

Doğrudan da çox böyük tarixi hadisədir. Bilirəm ki, uzun illər su problemi insanlara əziyyət verib. Nəhayət, bu layihə də artıq başa çatır. Bundan sonra su ilə problem olmamalıdır. Çünki içməli su hər bir insan üçün çox əhəmiyyətlidir. İnsanların sağlamlığı üçün təmiz içməli su xüsusi əhəmiyyət daşıyır.

İndi ölkəmizin müxtəlif yerlərində bu layihələr icra edilir. Bu gün biz buna oxşar layihəni Tovuzda, həftənin əvvəlində Şirvan

şəhərində istismara verdik. Demək olar ki, bu məsələlər, bu layihələr geniş vüsət alıb. Çünki bunların həlli çox lazımdır. Bütün infrastruktur layihələri lazımdır və biz bu layihələri ardıcıllıqla icra edirik. İndi Ağstafa rayonunda da qazlaşdırma prosesi gedir, kənd yolları tikilir, elektrik enerjisi ilə bağlı məsələlər həllini tapır. Əlbəttə, onların içində içməli su, kanalizasiya layihələri xüsusi yer tutur və biz də əlimizdən gələni edirik ki, bu məsələlər öz həllini tapsın.

Əlbəttə ki, bu layihələr böyük vəsait tələb edir. Dövlət bu maliyyə yükünü öz üzərinə götürüb. Düzdür, bəzi layihələr xaricdən verilən kreditlər hesabına icra edilir, ancaq bu kreditlər onsuz da qaytarılacaqdır. Yəni bütün maliyyə yükünü Azərbaycan dövləti öz üzərinə götürüb. Onu da qeyd etmək istəyirəm ki, bu layihələr sırf sosial xarakter daşıyır. Çünki Azərbaycanda su tarifləri çox aşağıdır. Yəni bu layihələrə qoyulan vəsait bu tariflərin hesabına heç vaxt dövlətə qayıda bilməz. Bəlkə 100 ildən sonra. Ancaq qarşıya belə məqsəd də qoyulmamışdır. Əsas məqsəd insanları təmiz içməli su ilə təmin etməkdir. Biz bu məqsədə çatırıq. Bu ilin sonuna qədər bir çox rayonlarda buna oxşar layihələr istismara veriləcəkdir. Gələn il də bu proses davam edəcək. Çalışmalıyıq ki, gələn ilin sonuna qədər əksər məsələlər öz həllini tapsın. Amma bu layihələr həm çox böyük maliyyə vəsaiti, həm də texniki vəsait tələb edir. Çünki bu, bir şəhər, bir kənd deyildir, Bakı daxil olmaq şərti ilə bu layihələr ölkə üzrə icra edilir.

Bu, tarixi bir layihələrdir. Çünki əfsuslar olsun ki, bütün dövrlərdə biz içməli su ilə lazımi səviyyədə təmin olunmamışıq. Bütün dövrlərdə bu problem kəskin olaraq qalmışdır. Ancaq bu gün müstəqil Azərbaycan dövləti bu problemi də həll edir. Bu layihələrin icrası, əlbəttə ki, ilk növbədə, insanlara xidmət göstərir, digər tərəfdən, dövlətimizin gücünü, müstəqilliyimizin üstünlüyünü göstərir.

Bu gün müstəqil dövlətik və ölkəmiz üçün, xalqımız üçün nə lazımdırsa, onu edirik. Bax, müstəqilliyin üstünlükləri bu layihələrin icrasındadır. Azərbaycan nəinki müstəqildir, həm də

müstəqil siyasət aparır və güclü dövlətdir. Ancaq güclü dövlətlər belə nəhəng layihələri icra edə bilər.

Onu da əlavə etmək istəyirəm ki, buna bənzər layihələr bütün ölkə üzrə icra olunur. Qazlaşdırma layihələri. Bu ilin sonuna qədər biz çalışmalıyıq ki, qazlaşdırmanı təqribən 90 faizə çatdıraq. Bu heç vaxt olmamışdır. Heç vaxt qazlaşdırılmayan kəndlərə mütəmadi qaydada qaz xətləri çəkilir, elektrik enerjisi layihələri icra edilir, yollar salınır. İndi magistral yollar göz oxşayır, rahat gedib-gəlmək olar. İndi Bakı–Gürcüstan dövlət sərhədi yolunun birinci mərhələsi başa çatıbdır. Ancaq biz bundan sonra, gələn il Gəncədən sərhədə qədər yolun genişlənməsi ilə məşğul olmağa başlayacağıq. Yəni Bakıdan Gürcüstan sərhədinə qədər bütün yol dördzolaqlı olmalıdır. Bunu da biz edəcəyik. Dəmir yolunda bərpa işləri aparılır və qatarların sürəti artırılacaqdır. Bu da xüsusilə paytaxtdan uzaqda yerləşən bölgələr üçün çox əhəmiyyətlidir. Biz bu sürəti yeni dəmir yolu xətlərinin çəkilişi ilə 2-3 dəfə artıracağıq.

Buna bənzər layihələr çoxdur. Biz bütün bu layihələri ona görə edirik ki, insanlar daha da yaxşı, daha da rahat yaşasınlar, sağlam olsunlar. İnsanların sağlamlığı üçün içməli su birinci şərtdir. Hesab edirəm ki, biz bu layihələrin icrası ilə çox böyük tarixi işi görmüş oluruq.

Ağstafa şəhərində və rayonunda digər layihələr də icra edilir. Quruculuq, abadlıq işləri gedir, yeni təşəbbüslər irəli sürülür. Bu gün Tarixi abidələr parkında görülmüş işlərlə tanış oldum. Bu da çox gözəl təşəbbüsdür. Azərbaycanın qədim tarixi abidələrini və yeni abidələri orada görmək olar. Hər bir yerdə inkişaf, hər bir yerdə irəliləyiş vardır və bu, ölkəmizin gələcək uğurlu inkişafını təmin edəcəkdir.

Görülən bütün bu işlərin təməlində düşünülmüş siyasət dayanır. 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı həlledici rol oynamışdır. Bu il ikinci proqram başa çatır, gələn ilin əvvəlində 2018-ci ilə qədərki dövr üçün üçüncü proqram da qəbul ediləcəkdir. Orada da bu günə həll edilməmiş bütün məsələlər əksini tapacaqdır.

Mən çox şadam ki, yenidən Ağstafadayam. Ağstafa rayonunda bir neçə dəfə olmuşam. Prezident kimi, yadımdadır, birinci dəfə 2004-cü ildə gəlmişdim. O vaxt vəziyyət tam başqa idi. İndi Ağstafa inkişaf edir, çiçəklənir, qabaqcıl rayona çevrilir.

**S a k i n l ə r:** Sizin sayənizdə, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Mən bunu görəndə çox sevinirəm. Sizi görülmüş işlər, əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Sağ olun.

**Q a l i b C ə f ə r o v** *(Zəlimxan kənd orta məktəbinin direktoru):* Möhtərəm cənab Prezident!

Sizi Ağstafa ictimaiyyəti adından təbrik edirəm. Bizim rayonumuza, gözəl Ağstafamıza xoş gəlmisiniz! Bayaq özünüz qeyd etdiniz, Sizin Ağstafaya hər gəlişiniz bütün insanların ürəyincədir. Siz böyük Heydər Əliyevin yadigarısınız, hörmətli Prezident! Ulu öndər Heydər Əliyev də həmişə ağstafalılara xüsusi məhəbbət bəsləyib. Bu gün ağstafalılar xoşbəxtdirlər ki, onun yadigarı Ağstafaya gəlib. Buna görə mən Sizə öz minnətdarlığımı bildirirəm. Böyük Heydər Əliyev Azərbaycanı bütün təhlükələrdən xilas etdi. Heç insanın ağlına gəlməzdi ki, Azərbaycan, Ağstafa bu gün belə gözəl olacaqdır. İndi Ağstafa avropasayağı gözəl bir məkana çevrilib. Cənab Prezident, şəhərimizin, kəndlərimizin gözəlliyi insanı valeh edir.

Ağstafa yaxın illərdə bu dərəcədə gözəlləşib. Bunun hamısını, cənab Prezident, Siz edibsiniz. Buna görə biz ağstafalılar Sizə minnətdarıq. Sizin hər gəlişiniz Ağstafa üçün əlamətdar olur, bugünkü gəlişiniz də. Orada ulu öndərin müdrik kəlamı yazılıb: «Su həyat deməkdir». Siz bu gün ulu öndərimizin müdrik sözlərini Ağstafada reallığa çevirmisiniz. Cənab Prezident, buna görə Sizə minnətdaram.

Mən Heydər Əliyevi çox istəyirdim. Onun haqqında yazılar yazmışam. Mən müəlliməm. «Heydər Əliyev Azərbaycan məktəblilərinin gözü ilə» inşa müsabiqəsində bizim məktəbin şagirdi də qalib gəlib. Müsabiqəyə həsr olunmuş kitabda

Ağstafanın da adı vardır. O yazının altında bizim məktəbin şagirdinin imzası gedir.

Budəfəki gəlişiniz zamanı, cənab Prezident, 40 mindən çox əhalisi olan rayonumuzun mərkəzi və yaxın kəndlər içməli su ilə təmin ediləcək. Bu çox xeyirxah məsələdir. Bizim rayonun ərazisindən Həsənsu çayı axır. Həsənsu çayının hövzəsindən həmişə ağstafalılar çirkablı, təmizlənməmiş sudan istifadə ediblər. Bu gün biz çox xoşbəxtik. Allah ulu öndərimizə rəhmət etsin. Onun müəyyənləşdirdiyi düzgün siyasət, onun layiqli davamçısı prezident İlham Əliyevin apardığı sərrast siyasət bu gün Ağstafanı belə gülüstana çeviribdir. Təkcə Ağstafa belə deyildir, cənab Prezident, bütün Azərbaycan belədir.

Biz tez-tez Azərbaycanın başqa rayonlarına da gedirik. Bu yaxınlarda Bakıda olmuşam. İnanın, cənab Prezident, Bakını tanımaq olmur. Adam elə bilir Parisdədir. Bəlkə də Parisdən də gözəldir. Ona görə, cənab Prezident, Sizə minnətdaram. Sevinirəm ki, böyük Heydər Əliyevin ideyaları yaşayır. Siz onun yadigarısınız, Siz onun işlərini davam etdirirsiniz. Biz də bu işdə Sizə kömək etməliyik.

Ağstafada bundan əlavə, gözəl bir Səməd Vurğun parkı yaradılıbdır. Mən o parka girəndə, Ağstafaya baxanda Səməd Vurğunun:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma Vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan! – misraları yadıma düşür. Bu misraları parkdakı kitab abidəsinin üzərinə yazıblar. Onu Siz yazdırmısınız, cənab Prezident. Səməd Vurğunun 80 illiyində ulu öndər Heydər Əliyev bu şeiri dedi, özü də gözləri doldu. İnanın, cənab Prezident, mən uşaq kimi ağladım. Gör bu insan öz Vətənini nə qədər sevib. Bu gün Səməd Vurğunun ruhu şaddır. Onun misraları kitab abidəyə yazılıb. Bildiyimə görə Azərbaycanda belə bir abidə yoxdur, ancaq Ağstafadadır. Buna görə Sizə minnətdaram. Siz ötən dəfə Ağstafaya gələndə – səhv

etmirəmsə keçən il aprelin 12-si idi – Yazıçılar evində bizim yazıçılarla görüş keçirdiniz. Həmin binanı da bizim yazarların xahişi ilə Siz tikdirmisiniz. Ondan sonra çox böyük işlər görülüb. Əziz ağstafalılar, görün 1 il ərzində Prezidentimiz nələr edib. Ona görə, cənab Prezident, biz Sizə minnətdarıq. Ağstafalılar adından Sizə təşəkkür edirəm. Ürəyimdə o qədər söz var ki, cənab Prezident, nə qədər danışsam da qurtaran deyildir. Şagirdlərimdən biri ulu öndər Heydər Əliyev haqqında inşasında belə bir şeir yazmışdır. Bu sözlər Sizə də aiddir, cənab Prezident.

İllər ağartdığı saçların kimi,
Ellərin yanında üzün də ağdır.
Xalqın ürəyinə yatan işlərin,
Nəsildən-nəsilə yaşayacaqdır.

Cənab Prezident, Siz çıxışlarınızın birində dediniz ki, mən Bakını gəzəndə bir uşaq mənimlə görüşdü. Dediniz ki, uşaqdan soruşdum: sən məni tanıyırsan? Cavab verdi ki, bəli tanıyıram, sən Heydər babanın oğlusan.

Cənab Prezident, biz sizinlə fəxr edirik. Siz ingiliscə, rusca danışanda övladlarıma deyirəm: gör Azərbaycanın nə qədər böyük, dəyərli bir oğlu vardır. İstənilən milləti öz dilində danışdırır. İstənilən milləti öz dilində başa salır. Başa düşməyəni səmimi başa salır. Biz bununla fəxr edirik. Siz bizim fəxrimizsiniz, cənab Prezident. Allah Sizə cansağlığı versin. Biz oktyabr ayında keçiriləcək prezident seçkilərində seçimimizi etmişik. Biz Sizi Azərbaycana əbədi prezident seçmişik. Biz Sizə səs verəcəyik. Siz böyük Heydər Əliyevdən Azərbaycan xalqına yadigar qalıbsınız. Ona görə də biz Sizinlə fəxr edirik.

Ağstafa gündən-günə gözəlləşir. Xahiş edirəm 1 ildən sonra yenə Ağstafaya gəlin ki, rayonumuz ikiqat gözəlləşsin. Biz ağstafalılar Sizi çox istəyirik, cənab Prezident.

**İlham Əliyev:** Sağ olun, çox sağ olun!

**Qalib Cəfərov:** Biz Sizin əsgərinizik. Torpaqlarımızı düşməndən azad etmək üçün əmrinizi gözləyirik. Tale elə gətirib ki, biz dünyaya özünü məzlum kimi göstərən bir dövlətlə

qonşu olmuşuq. O dövlətin prezidenti ulu öndər Heydər Əliyevin də qabağından qaçırdı. Biz inanırıq ki, prezident İlham Əliyevin də qabağından qaçacaqdır. Nəhayət, onlar Azərbaycan torpaqlarından da qaçacaqlar.

Bir daha, cənab Prezident, mən Sizə minnətdaram. Mənim çoxdankı arzum idi ki, Sizin qarşınızda çıxış edəm. Nəhayət, bu mənə qismət oldu.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Səmimi sözlərə, mənim fəaliyyətimə verdiyiniz qiymətə görə sizə minnətdaram. Mən çalışıram ki, xalqa ləyaqətlə xidmət edim. 2003-cü ildə söz vermişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən xalq üçün yaşayacağam. İndi son 10 ilin təcrübəsinə nəzər saldıqda görürük ki, doğrudan da az iş görülməyib 10 il ərzində.

Azərbaycan istənilən sahədə güclənib. Azərbaycan indi regional dövlətdir. Azərbaycan dünya miqyasında çox böyük nüfuza malik olan bir ölkədir. Beynəlxalq məsələlərin həllində biz o zirvələrə çatmışıq. O zirvədən yuxarı zirvə yoxdur. Yəni biz BMT Təhlükəsizlik Şurasının üzvüyük. Ermənistan da bizimlə bərabər bu yarışa girmişdi, 4 ölkə var idi. Macarıstan, Sloveniya, Azərbaycan və Ermənistan. Ermənistan tərəfi biləndə ki, bizim qabağımızda aciz qalacaq, yarışdan çəkildi. Sakitcə, qorxaqcasına çəkildi, öz namizədliyini geri götürdü. O vaxt mən bir daha gördüm ki, Azərbaycanın gücü nə qədər böyükdür. Bir daha əmin oldum ki, bax, siyasi səhnədə bizdən qaçan kimi, döyüş meydanında da bizdən qaçacaqdır. Azərbaycanda ötən ay keçirilən hərbi parad bir daha bizim qüdrətimizi göstərdi. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Son 10 il ərzində biz hər bir istiqamət üzrə işləmişik ki, ölkəmizi gücləndirək. Əlbəttə, Azərbaycanın önəmi, resurslarımız, coğrafi vəziyyətimiz və ümumiyyətlə, strateji əhəmiyyətimiz diktə edir ki, biz təhlükəsizlik məsələlərinə xüsusi diqqət göstərək. Ordu quruculuğu, təhlükəsizlik tədbirləri ön planda olmalıdır.

Bu gün Azərbaycanın istənilən nöqtəsində hər bir vətəndaş rahat yaşayır, özünü çox rahat hiss edir. Təhlükəsizlik şəraitində yaşayır. Bu, böyük bir nəticədir, böyük bir nailiyyətdir. Çünki biz

görürük dünyanın müxtəlif yerlərində hansı hadisələr baş verir. Qarşıdurmalar, toqquşmalar, vətəndaş müharibələri, qanlı qırğınlar, etiraz dalğası bəzi ölkələri bürüyübdür. İndi dünyada kütləvi etiraz hökm sürür. Bu görünür ki, zəmanənin əlamətidir. Elə dövr var ki, sakitçilik yaranır, amma elə dövr var ki, istənilən yerdə – Yaxın Şərqdə, Avropada, başqa yerlərdə, bax, bu kütləvi etiraz dalğası müxtəlif formalarla özünü büruzə verir. Biz görürük ki, Azərbaycanda vəziyyət tam başqadır. Azərbaycan elə bil ki, bu alovlanan qonşuluqda, necə deyərlər, bir sabitlik adasıdır. Biz Azərbaycanı qoruyuruq və qorumalıyıq.

**S a k i n l ə r:** Sağ olun! Çox sağ olun! Var olun!

**İ l h a m  Ə l i y e v:** Mən də çalışıram ki, Azərbaycanı bütün bəlalardan, təhlükələrdən qoruyum. Qorumaq lazımdır və qoruyuruq.

**S a k i n l ə r:** Sağ olun, cənab Prezident!

**İ l h a m  Ə l i y e v:** Bu gün, məsəl üçün, Bakıya gələn qonaqlar nəyi deyirlər? Əlbəttə ki, Bakının gözəlliyini vurğulayırlar.

**S a k i n l ə r:** Bakı gözəldir.

**İ l h a m  Ə l i y e v:** Siz deyirsiniz ki, Bakı indi Avropa paytaxtlarına oxşayır. Əlbəttə ki, bu, yüksək qiymətdir. Ancaq mən hesab edirəm ki, Bakı bir çox meyarlar üzrə onları da arxada qoyub.

Mənimlə görüşən xarici qonaqlar bir şeyi də vurğulayırlar ki, burada insanlar rahat gəzirlər, çıxırlar küçələrə, insanların üzü gülür, belə xoş ab-hava hökm sürür. Bu onları təəccübləndirir. Çünki bir çox yerlərdə insanların əhval-ruhiyyəsi o qədər də yüksək səviyyədə deyildir. Haradasa müəyyən iqtisadi məsələlər, haradasa digər problemlər insanları incidir. Əlbəttə, Azərbaycan cəmiyyətində də problemlər vardır, hər bir ailədə problemlər vardır. Amma bütövlükdə götürəndə cəmiyyətdə çox gözəl ruh yüksəkliyi, nikbinlik vardır.

Bütün beynəlxalq sorğular da onu göstərir ki, Azərbaycan vətəndaşı gələcəyə çox böyük nikbinliklə baxır. Bu yaxınlarda bir mötəbər təşkilat ölkələrdə xoşbəxtlik indeksi üzrə sorğu

keçirib. Azərbaycan ilk onluğa daxil edilib. Bu, müstəqil bir Avropa qurumudur, beynəlxalq qurumdur. Xoşbəxtlik indeksi nə deməkdir? Yəni insanlar özlərini necə hiss edirlər. Ona görə, bax, bu müsbət ab-hava, dinamizm, quruculuq və nəticələr insanları daha da ruhlandırır.

Daxili siyasətlə bağlı Azərbaycanda vəziyyət çox sabitdir. İqtisadi sahə ilə bağlı son 10 il ərzində bizdə olan inkişaf heç bir başqa ölkədə olmayıb. Bunu hər kəs indi sadəcə olaraq, statistik rəqəmlərə baxmaqla yəqin edə bilər. Heç bir başqa ölkədə son 10 il ərzində Azərbaycandakı qədər inkişaf olmamışdır. Yəni mən çalışmışam ki, bütün bu istiqamətlər üzrə öz xidmətimi göstərim. Bu mənim borcumdur. Mən öz borcumu belə başa düşürəm. Hesab edirəm ki, hər bir prezident öz vəzifə borcunu dərk etməlidir. Bəziləri üçün prezident kürsüsü bir imtiyazdır, bəziləri üçün bir imkandır. Mənim üçün bu məsuliyyətdir və xalq tərəfindən göstərilən böyük inamdır. Mən bu inamı hər gün doğrultmağa çalışıram.

Belə layihələr məni sizin qədər sevindirir, bəlkə də sizdən də çox. Çünki mənim üçün ən başlıca amal odur ki, insanlar daha da yaxşı yaşasınlar. Hər tikilən bina, çəkilən yol, açılan müəssisə, yaxud da ki, su kəməri mənim gücümü və inamımı daha da artırır. Şadam ki, bu müddət ərzində öz xalqıma xidmət edə bilmişəm. Azərbaycan xalqına minnətdaram ki, mənə bu imkanı yaradıbdır.

**S a k i n l ə r:** Sağ olun! Eşq olsun! Biz də Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Deyirsiniz gələn il, gələn il də məmnuniyyətlə gələrəm.

**S a k i n l ə r:** İnşallah.

**İ l h a m Ə l i y e v:** Mən hər il gəlirəm. Keçən il də olmuşam. Ondan əvvəlki il də.

**S a k i n l ə r:** Xahiş edirik. Siz hər gələndə Ağstafa inkişaf edir.

Allah Sizi saxlasın, Allah Sizi, ailənizi qorusun, balalarınızı qorusun, cənab Prezident! Sizə cansağlığı arzulayırıq! Sizdən çox razıyıq, sağ olun!

* * *

*Sonra prezident İlham Əliyev yeni xətlə şəhərə suyun verilməsini bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı şəhərin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması sahəsində görülən işlərlə tanış oldu.*

*Ərazilərin Bərpası üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov məlumat verdi ki, prezident İlham Əliyevin 2005-ci il oktyabrın 14-də imzaladığı Sərəncama əsasən, Azərbaycanın bir sıra regionları ilə yanaşı, Ağstafa rayonunun da sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı təsdiq edilib. Plana Ağstafa şəhərinə içməli su xəttinin çəkilişi də daxil idi. Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə Ağstafa və Tovuz şəhərlərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihələrinin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyə tapşırılıb. Layihə-smeta sənədləri hazırlanaraq həmin ilin noyabrında «Akkord» Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC tərəfindən işlərin yerinə yetirilməsinə başlanılmış və layihənin ilk mərhələsi başa çatmışdır.*

*Diqqətə çatdırıldı ki, su təchizatı sistemlərinin yenidən qurulması layihəsinin potensialı Ağstafa şəhəri, Xətai qəsəbəsi, Qaçaq Kərəm, Yenigün, Aşağı Kəsəmən və Aşağı Göycəli kəndlərini əhatə edir. Hazırda tikintisi başa çatdırılmış su mənbəyinin potensialı 18 min şəhər və 22 min kənd əhalisinin suya tələbatını tam ödəyəcəkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiq etmişdir.*

*Bildirildi ki, layihənin icrası 3 mərhələyə bölünüb. Əvvəlcə magistral boru xətti, su anbarları, xlorvurma təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılıb.*

*Bu mərhələdə subartezian quyularından su anbarlarına müxtəlif diametrli polietilen borulardan ibarət xətt, su anbarlarından şəhər şəbəkəsinə qədər isə uzunluğu 4,27 kilometr olan magistral su xətləri çəkilmişdir. Suqəbuledici qurğular meydançasında keçid məntəqəsi, suqəbuledici kamera, nasos stansiyası, suya xlorvurma və laboratoriya binaları tikilmiş, 1000 kubmetrlik mövcud su anbarı təmir edilmiş, həcmi 1500 kubmetr olan yeni su anbarı inşa olunmuşdur.*

*Növbəti mərhələdə hidrogeoloji və mühəndis-axtarış işlərinin nəticəsinə əsasən su mənbəyi olaraq dəmir yolu boyunca Həsənsu və Vurğun kəndləri zonasında 5 subartezian quyusu qazılmış, şəhərin su və kanalizasiya şəbəkələri, kanalizasiya kollektor xətti, yerli su-kanal idarəsi üçün inzibati bina və istehsalat bazası tikilmişdir.*

*Layihənin icrasının üçüncü mərhələsində çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya şəbəkələri sisteminin potensialı Ağstafa şəhərinin Xətai qəsəbəsi, Qaçaq Kərəm və Yenigün kəndlərini əhatə edir. Məhsuldarlığı gündə 5 min kubmetr olan çirkab təmizləyicisinə əlavə yaşayış məntəqələrinin də qoşulması mümkün olacaqdır.*

*Prezident İlham Əliyev layihənin icrasının uğurla davam etdirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi .*

## Peyntbol və Atıcılıq Mərkəzində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 5-də Ağstafa Peyntbol və Atıcılıq Mərkəzində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti Rasim Rzayev bildirdi ki, Ağstafa rayonunun Həsənsu çayı sahilində inşa olunan Peyntbol və Atıcılıq Mərkəzində inzibati bina, atıcılıq tirləri, atəş zonaları, təlim mərkəzləri inşa olunub. Ərazi abadlaşdırılmış, yaşıllıqlar salınmışdır. Burada müasir*

işıqlandırma sistemi qurulmuş, istirahət üçün hər cür şərait yaradılmışdır.

Diqqətə çatdırıldı ki, 2,6 hektar ərazidə inşa edilmiş mərkəzin inzibati binasının ümumi sahəsi 510 kvadratmetr olmaqla ikimərtəbəlidir. Binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoşəkillərdən ibarət guşə yaradılıb.

Qeyd edildi ki, inzibati binada silah və ov ləvazimatları mağazası, həkim məntəqəsi, silah və paltar seçimi, təlimatçılar, xüsusi geyim otaqları və kafe vardır.

Dövlətimizin başçısı həvəskar komandaların şərti döyüşünü izlədi. Mərkəzdə müşahidə məntəqəsi, rayonda olimpiya hərəkatının genişləndirilməsi və idmanın kütləviliyinin təmin edilməsi məqsədilə olimpiya idman növü olan stend atıcılığı və idman ovçuluq atıcılığı meydançası da tikilir. Peyntbol meydançasında süni maneə və taxta evlərin quraşdırılması başa çatmışdır.

Bildirildi ki, mərkəz həm də istirahət və əyləncə məkanı kimi fəaliyyət göstərəcəkdir. Burada idman silahlarından istifadə etməyin xüsusi qaydaları müəyyən edilmişdir. Mərkəz yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində və hərbi xidmətə hazırlıqlarında mühüm rol oynayacaqdır.

Dövlətimizin başçısı peyntbol silahı ilə hədəfə atəş açdı, oxatanların və stend atıcılarının çıxışlarına baxdı. Mərkəzin ərazisində Olimpiya yarışlarında tətbiq olunan və bütün texniki inventarlarla təchiz edilmiş sahə də yaradılıb.

Prezident İlham Əliyev mərkəzdə görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

# ƏFQANISTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ QULAM MUSTAFA PATANQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Əfqanıstanın Daxili İşlər naziri Qulam Mustafa Patanqı qəbul etmişdir.*

*Daxili İşlər naziri Qulam Mustafa Patanq Əfqanıstan prezidenti Həmid Kərzainin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu bildirildi, ölkələrimizin müxtəlif sahələrdə yaxşı əməkdaşlıq etdiyi vurğulandı. Bu əməkdaşlığın daxili işlər orqanları arasında da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu diqqətə çatdırıldı. Nazir Qulam Mustafa Patanqın Azərbaycana səfəri zamanı bu sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə ediləcəyinə və yaxşı nəticələrin əldə olunacağına əminlik ifadə edildi.*

*Dövlətimizin başçısı prezident Həmid Kərzainin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ LEONİD KOJARA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də ATƏT-in fəaliyyətdə olan sədri, Ukraynanın Xarici İşlər naziri Leonid Kojaranı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın gələcək inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Söhbət zamanı, həmçinin Azərbaycanla Ukrayna arasında münasibətlərin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu inkişafından məmnunluq ifadə olundu.*

## KOLUMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MARİA ANGELA HOLGİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Kolumbiya Respublikasının Xarici İşlər naziri xanım Maria Angela Holginin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, bu münasibətlərin siyasi, iqtisadi, mədəni, beynəlxalq əməkdaşlıq və digər sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Söhbət zamanı əlaqələrimizin inkişaf etdirilməsində qarşılıqlı marağın olduğu qeyd edildi, əməkdaşlığımızın möhkəmləndirilməsində müxtəlif səviyyəli səfərlərin önəmi vurğulanaraq Kolumbiya Respublikasının Xarici İşlər naziri xanım Maria Angela Holginin Azərbaycana səfərinin bu münasibətlərin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN JURNALİSTLƏRİNİN VI QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli Qurultay nümayəndələri!

Sizi salamlayır və növbəti ali toplantınızın işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikasında siyasi plüralizmin təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə əlverişli şəraitin yaradılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. 1993-cü ildən sonra ölkədə həyata keçirilən ardıcıl islahatlar nəticəsində söz və məlumat azadlığını məhdudlaşdıran bütün süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılmış və milli mətbuatın maddi-texniki bazası möhkəmləndirilmişdir.

Azərbaycan Jurnalistlərinin I Qurultayında mətbuatın özünü-tənzimləmə orqanı kimi yaradılmış Mətbuat Şurası media–dövlət və media–cəmiyyət münasibətlərinin müasir beynəlxalq təcrübəyə uyğun nizamlanmasında əhəmiyyətli rol oynamışdır. Mətbuat Şurasının fəaliyyəti bütövlükdə Azərbaycan jurnalistikasının inkişafına, dövlət orqanları, vətəndaşlarla mətbuat arasında münasibətlərin tənzimlənməsinə, jurnalistlərin peşəkarlığının yüksəlməsinə, söz və məlumat azadlığından sui-istifadə hallarının qarşısının alınmasına xidmət etmişdir.

Bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Azərbaycan hökuməti redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi və digər istiqamətlər üzrə ardıcıl tədbirlər həyata keçirir. Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni

zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır. Qlobal informasiya məkanının beynəlxalq ictimai rəyə təsirinin gücləndiyi müasir dövrdə mətbuatımız Azərbaycan xalqının maraqlarını daim müdafiə etməli, cəmiyyətimizin tərəqqisinə, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini əsirgəməməlidir.

Ümidvaram ki, qurultayda qəbul olunacaq qərarlar Azərbaycan jurnalistikasına ölkə daxilində və xarici aləmdə öz missiyasını daha yüksək səviyyədə davam etdirməyə şərait yaradacaq, milli mətbuatımızın inkişafına müsbət təsir göstərəcəkdir.

Qurultay iştirakçılarına, Azərbaycanın bütün jurnalistlərinə uğurlar, uzun ömür və möhkəm cansağlığı arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2013-cü il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Podolsk yaxınlığında avtomobil qəzası nəticəsində çox-saylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verirəm, zərər çəkənlərin hamısının tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyul 2013-cü il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Belçika Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Belçika arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyul 2013-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Türkiyə Respublikasının Xarici İşlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.*

*Xarici İşlər naziri Əhməd Davudoğlu Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını və Ramazan bayramı münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bu münasibətlərin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu. Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, enerji, regional və digər sahələrdə daha da genişləndirilməsinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına və Ramazan bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını və təbriklərini Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK *

*18 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 18-də Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü toplantısında biz 6 ayın yekunlarını müzakirə edəcəyik. İlin 6  ayı çox müsbət keçib, göstəricilər çox müsbətdir. Bu 6 ayda Azərbaycan dinamik inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub. Bu göstəricilər deməyə əsas verir ki, bu müsbət dinamika ilin sonuna qədər də qorunacaqdır. Ən əsas iqtisadi göstəricilərimiz yüksək səviyyədədir. Hesab edirəm ki, Azərbaycanda iqtisadi

---

* Назирляр Кабинетинин 2013-ъц илин бириньи йарысынын сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласında Малиййя назири Самир Шярифов, Кянд Тясяррцфаты назири Исмят Абасов və Nяглиййат назири Зийа Мяммядов çıxış etdilər.

artım bu il də dünya miqyasında nümunə ola bilər. Ümumi daxili məhsul 5 faiz artmışdır və ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz təxminən 11 faiz artmışdır.

Bu, son illər ərzində Azərbaycanda görülmüş işlərin, düzgün aparılan iqtisadi islahatların nəticəsidir. Bu göstəricilər, deyə bilərəm ki, dünya miqyasında ən yüksək səviyyədədir. Çünki bizim əsas hədəfimiz bu gün qeyri-neft sektorunu inkişaf etdirməkdən ibarətdir və hesab edirəm ki, bu istiqamətdə çox ciddi nailiyyətlər əldə edilib.

Hesab edirəm ki, biz bir müddət bundan əvvəl növbəti 10 il ərzində qeyri-neft sektorumuzu 2 dəfə artırmaq barədə qarşımıza qoyduğumuz məqsədə çatacağıq. Qeyri-neft sektorunun artması bizi çox sevindirir, bu, ölkə iqtisadiyyatında gedən dinamik inkişafın təzahürüdür. Ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir və hesab edirəm ki, növbəti illərdə bu inkişaf özünü daha da qabarıq şəkildə göstərəcəkdir. Çünki bu gün icra edilən və icrasını gözləyən layihələr növbəti illərdə güclü qeyri-neft sektorumuzun yaranmasına gətirib çıxaracaqdır, 11 faiz səviyyəsində artan qeyri-neft iqtisadiyyatımız bütün işlərə çox gözəl təkan verir. Əlbəttə, iqtisadiyyatımızın əsas sahəsi neft sektorudur. Ancaq son müddət ərzində ümumi daxili məhsulun əsas hissəsi qeyri-neft sektorunda formalaşır ki, bu da aparılan islahatların məntiqi nəticəsidir.

Kənd təsərrüfatı da artıbdır, təxminən 5 faiz səviyyəsində. Bu da yaxşı artımdır. Hesab edirəm ki, növbəti illərdə bu artım daha da güclü olmalıdır. Bunu etmək üçün indi əlavə tədbirlər görülür. İnvestisiya qoyuluşu bizi sevindirir. İlin birinci yarısında ölkə iqtisadiyyatına 12,6 milyard dollar sərmayə qoyulmuşdur. Bunun böyük hissəsi daxili sərmayədir, təqribən 7 milyard. 5 milyard isə xarici sərmayələrdir. Bu da çox vacib məsələdir. Çünki uzun illərdir Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır, bax, 6 ayda qoyulan bu 5 milyard xarici sərmayə bunu bir daha təsdiqləyir. Hər bir ölkə üçün xarici investisiyalar önəmli rol oynayır. Baxmayaraq ki, özümüzün də indi kifayət qədər böyük maddi imkanlarımız var, yenə də xarici investorların Azərbaycana

olan inamı və xarici investisiyaların qoyuluşu ölkənin ümumi inkişafını əks etdirir. Əlbəttə ki, beynəlxalq maliyyə qurumlarına da ciddi siqnal göndərir ki, Azərbaycanda iqtisadi sahədə çox müsbət vəziyyət yaranmışdır. Son illər ərzində daxili investisiyalar xarici investisiyaları üstələyir. Bu da bizim məqsədimiz idi. Bir neçə il bundan əvvəl qarşıya bu məqsəd qoyulmuşdu və biz buna çatmışıq.

Düzdür, daxili investisiyalar daha çox dövlət xərcləri hesabına formalaşır. Ancaq özəl sektor da tədricən öz investisiya imkanlarını artırır. Şübhə etmirəm ki, vaxt gələcək Azərbaycan iqtisadiyyatına yatırılan daxili investisiyaların böyük hissəsi özəl qurumlar tərəfindən qoyulacaqdır. Buna nail olmaq üçün özəl qurumlar daha da fəal işləməlidir, daha da böyük güc toplamalıdırlar. Dövlət isə öz tərəfindən onlara bütün lazımi dəstəyi göstərir. Azərbaycanda gözlənilən nəhəng enerji layihələri özəl sektorun da inkişafına təkan verəcəkdir. Çünki Azərbaycanın neft-qaz sektorunun işlənilməsi ilə bağlı nəzərdə tutulan nəhəng layihələr 10 milyard dollarla ölçülür. Bu sifarişlərin böyük əksəriyyəti hesab edirəm ki, Azərbaycanda reallaşmalıdır. Artıq Azərbaycanda güclü sənaye imkanları da vardır. Belə olan halda yerli şirkətlər üçün əlavə imkanlar yaranacaq və onlar da bu imkanlardan səmərəli şəkildə istifadə edəcəklər.

Hesab edirəm ki, 12,6 milyard dollar səviyyəsində qoyulan sərmayə çox gözəl göstəricidir. Əgər biz bu tempi saxlaya bilsək, ilin sonuna qədər sərmayələrin səviyyəsi təqribən 25 milyard dollara çatacaqdır. İlin əvvəlində mən qarşıya vəzifə qoymuşdum ki, bu il Azərbaycana qoyulacaq sərmayə keçən ildən az olmamalıdır. Keçən il 20 milyard dollardan çox vəsait qoyulmuşdur. Artıq görürük ki, bu il keçən ildən daha da çox sərmayə qoyulacaqdır. Qoyulan vəsait – hər manat və ya dollar, avro ölkə iqtisadiyyatına xidmət göstərir, yeni iş yerlərinin açılmasına şərait yaradır, Azərbaycanın iqtisadi qüdrətini artırır. Hər bir ölkə maraqlıdır ki, o ölkəyə sərmayə qoyulsun, o cümlədən Azərbaycan. Baxmayaraq ki, artıq Azərbaycan da başqa ölkələrin iqtisadiyyatına sərmayələr qoymağa başlamışdır və bu da müasir

Azərbaycanın üstünlükləridir. Son bir neçə il ərzində dünyanı, xüsusilə Avropanı bürümüş iqtisadi və maliyyə böhranı şəraitində xarici iqtisadiyyatlara qoyulan vəsait onu göstərir ki, biz doğrudan da böyük imkanlara malikik. Biz özümüzü çox rahat hiss edirik. Əlbəttə ki, bizim iqtisadi imkanlarımız və siyasi addımlarımız bir-biri ilə bağlıdır və biz gələcəkdə xarici bazarlara nə qədər çox investisiya qoysaq, bölgədə və dünyada siyasi çəkimiz də o qədər artacaqdır. Bu təbiidir və biz bu yolla gedirik. Deyə bilərəm ki, dünyanın ancaq inkişaf etmiş ölkələri başqa ölkələrin iqtisadiyyatlarına böyük həcmdə sərmayə qoyurlar. Azərbaycan inkişafda olan bir ölkədir. Vaxt gələcək biz də inkişaf etmiş ölkələrin bütün meyarlarına cavab verəcəyik.

Bizim maddi imkanlarımız, valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız 48 milyard dollardan çoxdur. Bu da çox gözəl göstəricidir. Çünki həm bizə güc, rahatlıq verir, eyni zamanda – baxmayaraq ki, Azərbaycanda çox böyük investisiya layihələri icra edilir – biz ildən-ilə öz valyuta ehtiyatlarımızı artırırıq. Şadam ki, bu ilin 6 ayında valyuta ehtiyatlarımız azalmır, yerində də durmur, artır və əgər belə getsə, ilin sonuna qədər daha da artacaqdır. Bu göstəriciyə görə də – həm mütləq rəqəmləri, həm adambaşına düşən valyuta ehtiyatlarının həcmini götürsək – Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bu da son illər ərzində əldə edilmiş uğurların bir hissəsidir.

Son illər Azərbaycanın dinamik inkişafı reallığa çevrilibdir. Artıq dünya birliyi bunu görür, qiymətləndirir. Dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda həyata keçirilən islahatları təqdir edir. Azərbaycanda aparılan islahatlar bir çox ölkələr üçün nümunə olmalıdır və deyə bilərəm ki, bir çox ölkələrdə Azərbaycanın təcrübəsi öyrənilir.

Biz öz yolumuzla gedirik. İqtisadi və sosial inkişaf məsələlərini bir paketdə həll edirik. Azərbaycanda əsaslı iqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanır. Əgər belə olmasaydı, əhalinin gəlirləri artmazdı. Əsaslı iqtisadi islahatlar bir sıra hallarda insanlara çox baha başa gəlir. İnsanlar əziyyət çəkirlər. Biz indi müxtəlif yerlərdə iqtisadiyyatı dirçəltmək,

iqtisadi böhrandan çıxmaq üçün daha çox əhali hesabına atılan addımları görürük. İş yerləri ixtisar edilir, maaşlar kəsilir, iş günü uzadılır, pensiya həddi uzadılır. Yəni bəzi hökumətlər öz iqtisadi vəziyyətini insanların hesabına sağlamlaşdırmaq istəyirlər. Bizdə isə iqtisadi islahatlar köklü xarakter daşıyırdı. Çünki biz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid yoluna qədəm qoymuşduq. Bu islahatlar güclü sosial siyasətlə də tamamlanır, dəstəklənir. Belə olan halda təsadüfi deyil ki, hətta böhranlı illərdə Azərbaycan əhalisinin gəlirləri artmışdır.

Azərbaycanda manatın məzənnəsi sabitdir. Bunun ilk növbədə, çox böyük sosial mənası vardır. Çünki insanların əmanətləri dövlət tərəfindən qorunur. Bu məsələyə gəldikdə deyə bilərəm ki, bu 6 ayda əhalinin pul gəlirləri 7 faizdən çox artmışdır. İnflyasiya isə cəmi 2 faiz olmuşdur. Bu da hesab edirəm ki, çox gözəl göstəricidir.

Sosial məsələlərə gəldikdə, bu 6 ayda maaşlar artıb. Bu gün Azərbaycanda orta əməkhaqqı 520 dollar səviyyəsindədir. Orta pensiya 200 dollar səviyyəsindədir. Gələn illərdə bu rəqəmlər artacaqdır. Bu rübdə vətəndaşların pensiyaları da, əmək haqları da artırılacaqdır. Gələn illərdə də eyni siyasət aparılacaqdır. Bir daha demək istəyirəm ki, iqtisadi islahatlar çox güclü sosial siyasətlə dəstəklənməlidir. Hesab edirəm ki, ölkəmizin bu sahədə əldə etdiyi uğurlar nümunə ola bilər.

Regional inkişaf proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmaqdadır. Regionlara mənim mütəmadi səfərlərim imkan verir ki, vəziyyətlə yerində tanış olum və müvafiq göstərişlər verim. Deyə bilərəm ki, bütün bölgələrdə, bütün rayonlarda çox ciddi inkişaf gedir, canlanma, çox gözəl əhval-ruhiyyə vardır. Quruculuq-abadlıq işləri üstünlük təşkil edir. Rayonlar, kəndlər abadlaşır, böyük sənaye müəssisələri yaradılır. İşsizlik, demək olar ki, aradan qaldırılır. Bütövlükdə bu ilin əvvəlində işsizliyin səviyyəsi 5 faizdən bir qədər çox idi. Hesab edirəm ki, ilin sonuna qədər bu rəqəm daha da azalacaqdır. Amma o da həqiqətdir ki, 5 faiz səviyyəsində işsizlik istənilən ölkə üçün arzu olunan rəqəmdir. Bəzi inkişaf

etmiş ölkələrdə bu rəqəm 10 faiz, 15 faiz, 25 faiz səviyyəsinə qalxır. Əlbəttə, bu çox ciddi sosial problemlərə gətirib çıxarır. İşsizliyin aradan qaldırılması 10 il bundan əvvəl qarşıya qoyulmuş ən əsas vəzifələrdən biri idi. 10 il ərzində 1 milyon 180 min yeni iş yeri açılmışdır. Bu ilin 6 ayında 55 min iş yeri yaradılmışdır. Onlardan 45 mini daimi iş yeridir. Yəni bu proses davam edir və bu da təbiidir. Çünki bizim iqtisadi siyasətlə bağlı təşəbbüslərimiz, o cümlədən Azərbaycanda aparılan sənayeləşmə siyasəti, əlbəttə, yeni iş yerlərinin açılmasına gətirib çıxarır.

Regional inkişaf üzrə 2-ci Dövlət Proqramı bu il başa çatır. Bu proqram artıqlaması ilə yerinə yetirilib. Bakının və ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Bu proqram nəticəsində Bakıətrafı qəsəbələrdə çox böyük işlər görülür, işlər davam etdirilir. Proqram bu ilin sonuna qədər başa çatmalıdır. Əlbəttə, ondan sonrakı illərdə də biz bu məsələyə daim diqqət göstərəcəyik.

Deyə bilərəm ki, keçən rübdə Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bu da Azərbaycanın, Bakının dünya miqyasında bir siyasi, iqtisadi, mədəni mərkəzə çevrilməsinə xidmət göstərmişdir. Bu tədbirlər çoxsaylı idi. Onların hamısını sadalamağa vaxt çatmaz. Sadəcə olaraq, mən bir neçə əlamətdar tədbiri qeyd etmək istərdim. Birinci növbədə, Azərbaycanda ilk dəfə olaraq Davos Forumu keçirilmişdir. Bu da ölkəyə verilən böyük dəyər kimi qiymətləndirilməlidir. Davos Forumu dünya miqyasında bir nömrəli forumdur. Bu, təkcə iqtisadi forum deyil, baxmayaraq ki, adı Dünya İqtisadi Forumudur. Bu siyasi və iqtisadi Forumdur. Bu Forumun Azərbaycanda keçirilməsi, əlbəttə ki, böyük məsuliyyət idi. Şadam ki, bu Forum ən yüksək səviyyədə keçirilmişdir.

Bütövlükdə deyə bilərəm ki, son bir neçə il ərzində Azərbaycan Davosda keçirilən forumlarda fəal iştirak edir və diqqət mərkəzində olur. Azərbaycanın inkişaf dinamikası, əldə edilmiş uğurlar Davos Forumunda kifayət qədər geniş işıqlandırılır. Davos Forumunun hesablamalarına görə Azərbaycan dünya miqyasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdədir. Bu

qiymətləndirmə hesab edirəm ki, ən ciddi və ən böyük diqqətə layiq olan qiymətləndirmədir. Çünki bu, dünyanın bir nömrəli Forumu tərəfindən verilən qiymətləndirmədir. Bu Forumun Azərbaycanda keçirilməsi bir daha demək istəyirəm ki, böyük uğurumuz idi. Xüsusilə nəzərə alsaq ki, Forumun mövzusu Qafqaz və Orta Asiyada gedən proseslər, iqtisadi və siyasi vəziyyətlə bağlı idi. Bu bir daha göstərir ki, Azərbaycan nəinki coğrafi mərkəzdir, eyni zamanda, siyasi, iqtisadi və mədəni mərkəzdir.

Keçən rübdə Madrid Klubunun toplantısı da Azərbaycanda keçirilmişdir. Bu da dünya miqyasında mötəbər beynəlxalq təşkilatdır. Çox böyük nüfuza malik olan siyasətçiləri, ictimai xadimləri birləşdirən bir qurumdur. Bu Forum da çox yüksək səviyyədə keçirilmişdir. Bakıda Amerika–Azərbaycan konfransı keçirilmişdir. Hesab edirəm ki, bu da çox əlamətdar hadisə idi. Çünki konfransda federal və ştatlar səviyyəsində olan 300-dən çox senator, konqresmen, ictimai xadim, politoloq iştirak edirdi. Burada çox vacib məsələlər müzakirə edilmişdir.

Keçən rübdə Bakıda II Dünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir ki, bu da Azərbaycanın humanitar sahədə, yəni dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün bir mərkəz kimi formalaşmasına öz xidmətini göstərmişdir. Bu, ikinci forumdur. Onu deməyə əsas verir ki, bu, ənənəvi xarakter daşıyacaqdır. Azərbaycanda bu səpkidən olan tədbirlər vaxtaşırı keçirilir. Dünya Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, digər tədbirlər, dünya dinlərinin liderlərinin zirvə görüşləri keçirilmişdir. Yəni ölkəmiz siyasi, iqtisadi və humanitar mərkəzə çevrilibdir.

Bu reallıqdır və bu reallığı biz yaratmışıq öz siyasətimizlə, öz addımlarımızla. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Əlbəttə, bu bizi çox sevindirir və bu bizim məqsədimiz idi. Mən bunu dəfələrlə demişəm və son 10 il ərzində bu siyasəti aparmışam ki, ilk növbədə, bizim bütün səylərimiz daxildə gedən proseslərin müsbət istiqamətdə davam etməsinə yönəlsin və biz bu istiqamətdə çox böyük uğurlara nail olduq.

Dünyanın ən sürətli iqtisadiyyatı Azərbaycan iqtisadiyyatıdır. Dünyada ən dinamik inkişaf edən ölkə Azərbaycandır. Bu reallıqdır və bu reallığı artıq bölgə ilə məşğul olan bütün qurumlar qəbul edir. Eyni zamanda, ölkəmizin beynəlxalq nüfuzu da böyük əhəmiyyətə malikdir. Biz bu nüfuzu qazanmışıq və bu nüfuzun nə qədər yüksək səviyyədə olmasının göstəricisi bizim hazırda BMT Təhlükəsizlik Şurasında üzvlüyümüzdür. Bu, dünya tərəfindən Azərbaycana verilən qiymətdir. Azərbaycanda keçirilən yüksək səviyyəli, mötəbər beynəlxalq tədbirlər bizim beynəlxalq nüfuzumuzu daha da artırır. Hesab edirəm ki, keçən rübdə, bütövlükdə, son 6 ayda bu məsələlərlə bağlı çox ciddi addımlar atılmışdır.

Xarici siyasətlə bağlı addımlarımız həmişəki kimi, uğurlu olmuşdur. Keçən rübdə hesab edirəm ki, bir neçə əlamətdar hadisə baş vermişdir. Əlbəttə, mənim xarici ölkələrə səfərlərim, xarici dövlət başçılarının Azərbaycana səfərləri və ikitərəfli formatda münasibətlərin inkişafı böyük əhəmiyyətə malikdir. Beynəlxalq təşkilatlarla əməkdaşlığımız da böyük diqqətə layiqdir. Keçən rübdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanda keçirilən tədbirlər yadda qaldı. Fələstinə yardım məqsədilə donor konfransı keçirilmişdir. Donor konfransının keçirilməsi bizim niyyətimizi, siyasətimizi göstərir. Bütövlükdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycan öz fəallığını artırır və bildiyiniz kimi, islam həmrəyliyi məsələləri həmişə diqqət mərkəzində olmuşdur.

Bu gün də demək istəyirəm ki, biz hələ çox işləməliyik. Hər bir müsəlman ölkəsi çox işləməlidir ki, biz bu birliyi gücləndirək. Dünyada gedən bəzi proseslər, qütbləşmə, ayrı-seçkilik meyilləri bizi narahat edir. Azərbaycan öz tərəfindən çalışır və çalışacaqdır ki, mədəniyyətlərarası münasibətlər sağlam zəmində öz həllini tapsın və bayaq sadaladığım tədbirlər bunun əyani sübutudur. Biz çalışırıq, öz təcrübəmizi, nailiyyətlərimizi ortaya qoyuruq və göstəririk ki, bu mümkündür.

Keçən rübdə mənim Avropa İttifaqına səfərim olmuşdur. Hesab edirəm ki, bu səfərin də çox böyük əhəmiyyəti vardır.

Baxmayaraq ki, bu mənim prezident kimi, Avropa Komissiyasına beşinci səfərimdir. Son 10 il ərzində mən 5 dəfə səfər etmişəm. Bu səfərlər özlüyündə münasibətlərin yüksək səviyyədə olmasının təzahürüdür. Ancaq bu səfər də çox önəmli idi. Xüsusilə nəzərə alsaq ki, son 1 ildə bəzi Avropa qurumları tərəfindən Azərbaycana qarşı çirkin kampaniya aparılır. Deyə bilərəm ki, bu kampaniya heç səngimirdi. Son 10 il ərzində vaxtaşırı bu kampaniya gah canlanır, gah səngiyir. Ancaq bir trend kimi, bir istiqamət kimi, daim biz bunu müşahidə edirdik. Son 1 ildə bu kampaniya çox eybəcər formalara gəlib çatıb. Təkcə onu demək kifayətdir ki, son 1 ildə Avropa Parlamenti 3 antiazərbaycan qətnamə qəbul etmişdir. Düzdür, bu qətnamələrin qəbul edilməsində eyni adamlar iştirak edir və Avropa Parlamenti 750 deputatdan ibarətdir. Bu qətnamələrin qəbulunda təqribən 20, 30, 40 nəfər iştirak edir. Əlbəttə ki, onların rəyi Avropa Parlamentinin rəyini əks etdirmir. Ancaq onlar müəyyən prosedur boşluqlardan istifadə edərək, bax, bu qətnamələrin qəbul edilməsinə nail olurlar.

Əslində bu barədə heç danışmağa da dəyməz, çünki Azərbaycanda bu kimi qətnamələrə heç kim fikir vermir və onlar bizim işimizə təsir edə bilməz. Ancaq bir tendensiya kimi, biz bunu, əlbəttə ki, qeyd etməliyik. Prezident Administrasiyası, Milli Məclis onlara tutarlı cavab verib. Mən bu barədə çox danışmaq istəməzdim. Sadəcə olaraq, onu demək istəyirəm ki, son 1 il ərzində antiazərbaycan qüvvələri, Azərbaycanın uğurlu inkişafını qəbul edə bilməyən və ermənipərəst qüvvələr Azərbaycana qarşı fəaliyyətlərini gücləndirmişdir. Bu da yəqin ki, təbiidir. Çünki ölkəmizin uğurlu inkişafı, xüsusilə böhranlı illərdə inkişafı, ölkəmizin müstəqil siyasəti və hər bir beynəlxalq məsələ ilə bağlı bizim konkret mövqemiz heç də hamını qane edə bilməz. Azərbaycanın daxilində hökm sürən sabitlik, xoş əhval-ruhiyyə, xoş ovqat, əlbəttə, bu gün böhran içində yaşayanları yəqin ki, sevindirmir. Ona görə mənim Avropa İttifaqına budəfəki səfərimin xüsusi əhəmiyyəti var idi. Nəzərə alsaq ki, Avropa Şurasında da antiazərbaycan qüvvələr vardır. Düzdür, onlar azlıq təşkil edirlər.

Son illər Azərbaycanın fəal işləri və beynəlxalq nüfuzunun artması, əlbəttə ki, bir çox beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı dolğun məlumatın formalaşmasına gətirib çıxarmışdır. Ancaq yenə də qərəzli insanlar, Azərbaycanın uğurlarını qəbul edə bilməyən deputatlar var ki, onlar mütəmadi qaydada Azərbaycana hücum etməyə cəhd göstərirlər.

Avropa Şurasında sonuncu cəhd bu ilin yanvarında baş vermişdir. Qondarma siyasi məhbuslar üzrə məruzənin müzakirəsində Avropa Şurası Parlament Assambleyasının üzvlərinin mütləq əksəriyyəti bu çirkin təşəbbüsə yox demiş, bu çirkin məruzəni rədd etmişdir. Avropa Şurası Parlament Assambleyasının deputatları həqiqəti, haqq-ədaləti müdafiə etdilər, ikili standartlara qarşı öz səslərini ucaltdılar. Çünki bu qondarma məruzənin ortaya çıxması sırf ikili standartlar prinsipinin əlaməti idi. Biz görürük ki, bəzi ölkələrdə islamofobiya meyilləri həddindən artıq güclənib. Əfsuslar olsun ki, bu meyillər yüksələn xətlə gedir, mənfi istiqamətdə cərəyan edir. Mən müxtəlif görüşlərdə bu məsələləri daim qaldırıram. Çünki bu bizi narahat edir.

Biz Avropa qurumları ilə uzun illərdir ki, əməkdaşlıq edirik. 10 ildən çoxdur ki, Avropa Şurasına üzv olmuşuq. Avropa İttifaqı ilə səmərəli əməkdaşlıq edirik. Ancaq bu meyillər vardır. Yəni gələcəkdə bu əməkdaşlığın hansı formatda davam etməsi bu gün müəyyən edilməlidir.

Biz görürük ki, ümumi mənzərə, əlbəttə, müsbətdir və dediyim hallar fərdi xarakter daşıyır. Ancaq tendensiyalar var və biz bunu görməliyik, bu barədə danışmalıyıq. Ona görə mənim Avropa İttifaqına budəfəki səfərim xüsusi əhəmiyyət daşıyırdı. Biz bir çox məsələləri aydınlaşdırmalı idik. Biz aydınlaşdırmalı idik ki, gələcəkdə necə əməkdaşlıq edəcəyik? Əməkdaşlığın formatı nədən ibarət olacaqdır? Azərbaycanın maraqları necə təmin ediləcəkdir? Hesab edirəm ki, Avropa İttifaqına səfərim və Avropa İttifaqının rəhbərləri ilə apardığım səmimi görüşlər çox müsbət idi. Mən bu səfərdən çox razıyam. Bir çox məsələ aydınlaşdı və hesab edirəm ki, gələcək

əməkdaşlıq üçün daha da gözəl zəmin yaradıldı. Çünki hər bir ölkə əgər hansısa quruma inteqrasiya edirsə, o bilməlidir ki, nə üçün inteqrasiya edir. Kortəbii şəkildə inteqrasiya etmək mümkün deyildir.

Mən həmişə demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan özünü tam şəkildə təmin edən ölkədir. İstənilən cəhətdən. Siyasi cəhətdən tam müstəqildir, müstəqil xarici siyasət aparır. İqtisadi cəhətdən tam müstəqildir. Enerji resursları baxımından zəngindir. Yəni bizim gələcək illərdə inteqrasiya addımlarımız ölçülüb-biçilməlidir. Nə üçün biz bunu edirik? Hansı məqsədlər üçün biz bunu edirik? Biz bunsuz da yaşaya bilərik və yaşayırıq da. Biz öz hesabımıza yaşayırıq. Ona görə də Avropa İttifaqı ilə apardığım danışıqlar, bir daha demək istəyirəm ki, müsbət nəticələrlə tamamlandı və növbəti illər üçün hesab edirəm ki, hər iki tərəfdə gələcək əməkdaşlıqla bağlı çox ciddi baxışlar vardır. Hesab edirəm ki, növbəti illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələr inkişaf edəcək və bu əlaqələr strateji xarakter alacaqdır. Hər halda, bizim istəyimiz bundan ibarətdir. Ancaq yenə də demək istəyirəm ki, bu əlaqələr qarşılıqlı maraqlar, qarşılıqlı hörmət üzərində qurulmalıdır.

Keçən rübdə enerji siyasətimizlə bağlı çox ciddi hadisələr, deyə bilərəm ki, tarixi hadisələr baş vermişdir. «Cənub Qaz Dəhlizi»nin marşrutu seçildi. Bu, tarixi hadisədir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri qədər bizim üçün önəmlidir. Bildiyiniz kimi, dünyanın diqqəti Azərbaycana yönəldilmişdir. Azərbaycanda verilən qərarlar əminəm ki, bölgənin gələcək enerji xəritəsinə ciddi dəyişikliklər edəcəkdir. «Cənub Qaz Dəhlizi»nin seçilməsi və bu məsələ ilə bağlı «Şahdəniz» konsorsiumunun vahid mövqeyi çox müsbət hal kimi qiymətləndirilməlidir. Bu layihə bizə imkan verəcək ki, qaz potensialımızı maksimum dərəcədə realizə edək və bayaq qeyd etdiyim kimi, Azərbaycan iqtisadiyyatına 10 milyard dollar səviyyəsində ölçülən investisiyalar qoyulacaqdır.

Biz öz təşəbbüsümüzü əldən vermirik. Enerji sahəsində bizim təşəbbüslərimiz həlledici rol oynayır. Bizim təşəbbüslərimiz

əməkdaşlığa yönəldilibdir. Enerji təhlükəsizliyi məsələlərinin həlli bu gün Azərbaycansız mümkün deyildir. Bu da reallıqdır və hesab edirəm ki, hər kəs bunu bilməlidir. Azərbaycanda verilən qərarlar həlledicidir. Azərbaycanda verilən qərarlar enerji təhlükəsizliyi məsələlərinə əvəzsiz töhfədir. Azərbaycanda verilən qərarlar gələcəkdə də bu məsələ ilə bağlı son sözü deyəcəkdir. Bu reallıqdır. Mən hesab edirəm ki, bunu hamı bilməlidir. Əlbəttə, bu, ölkəmizin önəmini daha da artırır, ölkəmizin siyasətinin bölgə üçün və qitə üçün önəmli olduğunu bir daha təsdiqləyir. Bu bizim üstünlüyümüzdür. Ancaq həmişə dediyim kimi, bu üstünlük göydən düşməyib. Biz özümüz bunu yaratmışıq – öz fədakar işimizlə, məqsədyönlü siyasətlə, cəsarətli addımlarla. Bu gün enerji məsələlərini siyasi məsələlərdən ayırmaq mümkün deyildir. Əgər bizim siyasi gücümüz, güclü iradəmiz olmasaydı, cəsarətli addımlar atılmasaydı, bunların heç biri mümkün olmazdı. Bunu da hamı bilməlidir.

Keçən rübdə bir əlamətdar hadisəni də qeyd etmək istəyirəm. O da Azərbaycanda keçirilmiş hərbi paraddır. Bu parad Azərbaycan Ordusunun gücünü göstərdi. Paradda nümayiş etdirilən silah-sursat və texnika ən son modellərdir, ən güclü texnikadır. İstər helikopterlər, istər tanklar, zirehli maşınlar, artilleriya qurğuları, hava hücumuna qarşı qurğular, digər texnikalar bir daha göstərir ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu hərbi parad son illər ərzində ordu quruculuğu işində görülmüş işlərin hesabatı idi. Əlbəttə, bilirəm ki, Azərbaycan xalqı bu paradı böyük maraqla izləmişdir və qürur hissi keçirmişdir ki, bizim belə güclü imkanımız, güclü ordumuz vardır. Bu parad Ermənistanda böyük narahatlığa səbəb oldu. Bilirəm ki, paraddan sonra orada yaşanan isterika, panika və qorxu hissi bu günə qədər hələ çəkilməyib. Bu da təbiidir, çünki düşmən Azərbaycanın qüdrətini öz gözü ilə gördü və bir daha bildi ki, biz istənilən varianta hazırıq. Biz əldə etdiyimiz texnika ilə düşmənin istənilən nöqtəsini məhv etməyə qadirik. Paradda dediyim kimi, düşmənlə istənilən dildə danışa bilərik. Bütün siyasi və diplomatik səylərlə yanaşı, bizim hərbi

gücümüz Dağlıq Qarabağ məsələsinin həllində həlledici rol oynayacaqdır.

Biz bundan sonra da hərbi qüdrətimizi artıracağıq, bundan sonra da ən müasir texnikanı alacağıq. Bildiyiniz kimi, bu texnikanın alınması ilə heç bir problem yoxdur. Biz müxtəlif ölkələrdən texnika alırıq, eyni zamanda, Azərbaycanda istehsal edirik. Bizimlə hərbi sahədə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmaqdadır. Mətbuatda rəqəmlər səslənir ki, Azərbaycan bəzi ölkələrdən 1 milyard dollar dəyərində silah alıb, bəzi ölkələrdən 1,6 milyard dollar həcmində silah alıb. Deyə bilərəm ki, bu rəqəmlər reallığı əks etdirmir. Əslində, bizim hərbi-texniki əməkdaşlıq bu rəqəmlərdən bir neçə dəfə böyük rəqəmlərlə ölçülür. Sadəcə olaraq, biz bu rəqəmləri açıqlamırıq. Vaxtaşırı xarici mətbuatda gedən məlumatlara şərh veririk. Amma biz bütün məlumatları açıqlaya bilərik. Çünki bizim dövlət büdcəmiz şəffafdır, bütün xərclərimiz də açıqdır.

Ermənistan xalqı isə hesab edirəm ki, bundan qorxmamalıdır. Ermənistan xalqı öz rəhbərliyindən qorxmalıdır. Onların fəaliyyətindən qorxmalıdır. Qaniçən, gözü doymayan, korrupsiyaya uğramış, kriminal hakimiyyətdən qorxmalıdır ki, bu hakimiyyət onları bu vəziyyətə salıb. Bu hakimiyyətin fəaliyyəti nəticəsində hər il 100 minə qədər erməni öz ölkəsini həmişəlik tərk edir. Belə getsə 5-6 ildən sonra orada 1 milyondan az əhali qalacaqdır. Bu günah bilavasitə Ermənistanın rəhbərliyi üzərinə düşür. Çünki onların işğalçı və yırtıcı siyasəti, onların qaniçən, gözü doymayan mahiyyəti Ermənistanı, bax, bu fəlakətə gətirib çıxarıbdır. Biz isə inamla qabağa gedirik. Biz güclü dövlətik. Bizim gücümüz getdikcə artacaqdır. Bu gücü daha da möhkəm etmək üçün biz daha da fəal işləməliyik.

# YEKUN NİTQİ

Bir daha qeyd etmək istəyirəm ki, bu ilin 6 ayında görülmüş işlər deməyə əsas verir ki, biz bu yüksək templəri saxlayacağıq və ilin əvvəlində qarşıda duran vəzifələrin hamısını icra edəcəyik. Biz yüksək templəri saxlamalıyıq, bütün layihələri vaxtında icra etməliyik. Bu il çox böyük Dövlət İnvestisiya Proqramı icra edilir. Əminəm ki, ilin sonuna qədər bu Dövlət İnvestisiya Proqramı tam şəkildə icra ediləcəkdir. Bu da öz növbəsində gələcək illər üçün daha da yaxşı zəmin yaradacaqdır. Çünki Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan bütün məsələlər öz həllini tapacaqdır.

Ölkəmizdə böyük tikinti işləri gedir. Görülən işlərin bir hissəsi bu gün məruzələrdə də qeyd edildi. Azərbaycan böyük tikinti meydançasıdır, Bakı şəhəri, digər bölgələr abadlaşır, qurulur, nəhəng sənaye, infrastruktur layihələri icra edilir. Dövlət İnvestisiya Proqramının icrası nəticəsində biz bütün bu məsələləri ardıcıllıqla həll edirik. Proqram üzrə gedirik və ildən-ilə öz investisiya imkanlarımızı da artırırıq.

Qeyd etdiyim kimi, artıq birinci 6 ayda 12,6 milyard dollar sərmayə qoyulmuşdur və bu sərmayənin içində, əlbəttə ki, dövlət investisiya layihələri də önəmli yer tutur. Biz elə etməliyik ki, bu temp gələcək illərdə də saxlanılsın. Baxmayaraq ki, çox işlər görülüb, hələ görüləsi işlər çoxdur və infrastruktur layihələrinin bir hissəsi ya başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Ancaq biz gələn il də investisiya layihələrinə xüsusi diqqət göstərəcəyik. Bunu və eyni zamanda, gözlənilən maaş və pensiyaların artımını nəzərə alaraq, biz makroiqtisadi sabitliyə də daim böyük fikir verməliyik. Sevindirici hal ondan ibarətdir ki, ilin əvvəlindən inflyasiya templəri çox aşağıdır. Giriş sözümdə qeyd etdiyim kimi, inflyasiya cəmi 2 faiz təşkil edir. İlin əvvəlində qarşıya vəzifə qoyulmuşdur ki, inflyasiya birrəqəmli olsun və görürük ki, biz buna nail oluruq. Əminəm ki, ilin sonuna qədər inflyasiya

məqbul səviyyədə olacaqdır. Ancaq buna nail olmaq üçün biz gərək çox ciddi iş aparaq.

Azərbaycanda dövlət xərcləri, büdcə xərcləri ildən-ilə artır. Bu gün bu rəqəmlər səsləndi, icmal büdcə də, investisiya layihələri, sosial ödəmələr, maaşlar, pensiyalar da artır. Sovet dövründən qalmış əmanətlərin, demək olar ki, mütləq əksəriyyətini qaytarmışıq. Bax, görülən bütün bu işlərin fonunda inflyasiyanı aşağı səviyyədə saxlamaq, əlbəttə ki, böyük nailiyyətdir və mən bunu qiymətləndirirəm. İnflyasiyanın aşağı səviyyədə qalması ilk növbədə, sosial məna daşıyır. Bu, dövlətin öz vətəndaşlarına olan münasibətini bir daha göstərir.

Bu ilin sonunda 2-ci Dövlət Proqramı başa çatmalıdır. Birinci proqram 2004-cü ildə qəbul edilmişdi və artıqlaması ilə icra olunmuşdur. Ondan sonra 2009–2013-cü illəri əhatə edən 2-ci Dövlət Proqramı qəbul edilmişdir. Artıq proqramın icrasının başa çatmasına bir neçə ay vaxt qalır. Bu gün artıq, demək olar ki, bu proqram da artıqlaması ilə icra edilir. Elə etməliyik ki, ilin sonuna qədər bu proqram tam icra edilsin.

Bu proqramların qəbul edilməsi nəticəsində hesab edirəm ki, biz böyük nailiyyətlərə imza atdıq. Bütün görüləcək işlər bu proqramlarda çox dəqiq qaydada göstərilmişdir. Əlbəttə ki, ölkəmizin inkişafı ilə bağlı çox konkret planlarımız vardır. Mən bu planlar haqqında vaxtaşırı öz fikirlərimi bildirirəm. Ancaq bütün bu planları, görüləcək bütün işləri vahid proqramda əks etdirmək, əlbəttə ki, bizim işimizi asanlaşdırdı və eyni zamanda, proqramın icrasına nəzarəti gücləndirdi. Ona görə hesab edirəm ki, bu ilin sonuna qədər bu proqram tam şəkildə icra edilməlidir.

Bakı və onun qəsəbələrinin inkişafı proqramı da bu ilin sonuna qədər başa çatmalıdır. Bu proqram ikiillik proqram idi. İşlər çox qısa müddət ərzində görülməli idi. İşlərin böyük əksəriyyəti görülmüşdür. Bakı qəsəbələrində quruculuq işləri davam edir, infrastruktur layihələri icra edilir, məktəb tikintisi, tibb ocaqlarının tikintisi gedir, qəsəbələrarası və qəsəbələrdaxili yollar tikilir və ilin sonuna qədər proqramın böyük hissəsi icra edilməlidir.

Növbəti aylarda biz regionlarda kənd yollarının tikintisinə daha da böyük diqqət göstərəcəyik. Bu gün bu rəqəmlər səsləndi, son illər ərzində kənd yollarının tikintisinə böyük vəsait ayrılmışdır. Kəndlərdə yaşayan 100 minlərlə insan bu vəsait hesabına yeni imkanlara malik oldu. Çünki yol – həyat, inkişaf, rahatlıq deməkdir. Kənd yollarının tikintisi sırf sosial xarakter daşıyır və biz elə etməliyik ki, növbəti illərdə bütün kənd yollarını normal vəziyyətə gətirə bilək. Hesab edirəm ki, artıq götürülən bu temp əgər saxlanılarsa, biz buna nail olacağıq. Bildiyiniz kimi, kənd yollarının tikintisi 2 mənbədən maliyyələşir – dövlət büdcəsindən və Prezidentin ehtiyat fondundan vəsaitlər ayrılır. İlin sonuna qədər bu proses davam etdiriləcəkdir.

Bütövlükdə yolların tikintisi ilə bağlı çox böyük işlər görülmüşdür, magistral yolların böyük əksəriyyəti, demək olar ki, tikilmişdir. Qalan işlər də növbəti illərdə görüləcəkdir. Biz yol təsərrüfatımızı tamamilə yeniləşdirə bilmişik. Son illər bütün magistral yollarda böyük işlər görülür, rahat yollar salınır. Onlar müasir standartlara cavab verən yollardır. Şəhərlərarası yollara fikir verilir, kənd yolları tikilir. Bu, ölkəmizin inkişafını göstərir və eyni zamanda, infrastruktur layihələri arasında yol tikintisi xüsusi yer tutur. Yol olmasa heç bir inkişafdan, ölkəmizin çoxşaxəli inkişafından, turizmin inkişafından söhbət gedə bilməz.

Əlbəttə, yollar insanların rahatlığı üçün tikilir. Yəni bu başlıca məqsəddir və digər bütün məqsədlər də gözlənilir. Ona görə nəqliyyatla bağlı olan məsələlər kompleks şəkildə icra edilir. Dəmir yolunun yenidən qurulması gedir və bu layihə imkan verəcək ki, qatarların sürəti də artsın. İnsanların rahatlığı üçün bu çox böyük əhəmiyyət daşıyır.

Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizlərinin də fəal işləməsi üçün buna böyük ehtiyac vardır. Bakı–Tbilisi–Qars dəmir yolu strateji əhəmiyyətə malik olan layihədir. Mən çox şadam ki, Azərbaycan bu layihənin təşəbbüskarı kimi, böyük işləri öz üzərinə götürmüşdür və bu gün yolun tikintisi davam edir. Hesab edirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu nəzərdə tutulmuş vaxtda istismara veriləcəkdir. Bu layihənin

iqtisadi baxımdan çox böyük əhəmiyyəti vardır. Azərbaycan bundan sonra artıq tranzit ölkəyə çevriləcəkdir. Biz öz tranzit imkanlarımızı onsuz da artırırıq. Bu gün artıq bizim tranzit imkanlarımız daha da genişdir. Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi nəticəsində bu imkanlar daha da genişlənəcəkdir. Bizim coğrafi vəziyyətimiz çox əlverişlidir. Ancaq müasir infrastruktur olmadan bu coğrafi vəziyyət o qədər də böyük əhəmiyyətə malik olmur.

Ona görə nəqliyyat infrastrukturuna qoyulan sərmayə, Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi ölkəmizin gələcək iqtisadi və siyasi maraqlarını daha da dolğun şəkildə təmin edəcəkdir. Azərbaycanda, Xəzərdə ən böyük dəniz limanı tikilir. Bu da bizim təşəbbüsümüz idi, buna da böyük ehtiyac vardır. Nəzərə alsaq ki, Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyəti nəticəsində ən azı 10 milyondan artıq yük daşınacaqdır – yəni biz bunu gözləyirik, gələcək illərdə bu rəqəm daha da artacaqdır – əlbəttə, müasir dəniz limanına böyük ehtiyac vardır. Yeni tikilən dəniz limanı Bakıda, şəhərin mərkəzində yerləşən dəniz limanının şəhərdən köçürülməsinə də imkan yaradacaqdır. O ərazidə ictimai yerlər salınacaqdır.

Ümumiyyətlə, son illər Bakıda ictimai yerlərin salınması prosesi geniş vüsət almışdır. Yeni parklar salınır, yeni xiyabanlar, yollar açılır, ictimai yerlər yaradılır. Deyə bilərəm ki, ictimai yerlərin sayına, onların həcminə, gözəlliyinə görə Bakı ən qabaqcıl yerlərdədir. Dənizkənarı bulvar genişləndirilmişdir. Şəhərin mərkəzindəki köhnəlmiş, yarıdağılmış vəziyyətdə olan tikililər artıq yığışdırılır. Onların yerində yeraltı parkinqlər və yerüstü parklar salınır. Görün bu gözəllik nə qədər insanlara rahatlıq verir, insanların gözünü oxşayır. Yeni salınmış bu parklarda gün ərzində bəlkə də 10 minlərlə insan öz asudə vaxtlarını keçirir.

Bu proses bir daha onu göstərir ki, düşünülmüş siyasət olan yerdə nəticələr də olur. Əlbəttə, bütün köçürülmələr qanun çərçivəsində aparılmalıdır. Vətəndaşlara lazımi səviyyədə

kompensasiya da ödənilməlidir. Qeyd etmək istəyirəm ki, verilən kompensasiya bazar qiymətindən təxminən 2 dəfə çoxdur. Biz hamımız bilirik ki, şəhərin hansı yerində qiymətlər necədir və verilən kompensasiya təxminən bazar qiymətindən 2 dəfə artıqdır. Bu da Azərbaycan dövlətinin öz vətəndaşlarına olan münasibətinin təzahürüdür. Hesab edirik ki, bütün köçürülmələr bu prinsiplər əsasında öz həllini tapmalıdır.

Bakıda yeni yolların çəkilişi prosesi gedir. Çünki buna böyük ehtiyac vardır. Əgər biz vaxtilə bu proqramı başlamasaydıq, indi şəhər nəqliyyatı tam iflic vəziyyətinə düşərdi. Bu il ərzində 100 minə qədər yeni avtomaşının idxalı gözlənilir. Əgər biz yolları genişləndirməsək, köçürülmələri etməsək və yeni yol qovşaqlarını, tunelləri tikməsək, onda şəhər nəqliyyatı dayanar. Biz bəzi böyük şəhərlərin vəziyyətini yaxşı bilirik. Orada, demək olar ki, nəqliyyat iflici hökm sürür. Ona görə Bakının tarixi yerlərində genişləndirmə işlərinin aparılması çox çətindir. Bunu etmək mümkün deyildir, tarixi binalar vardır. Ancaq harada mümkündürsə, orada biz yeni yolları açmalıyıq, açırıq da, açacağıq da. Çünki bunsuz mümkün deyildir. Bu, böyük vəsait tələb edir. Çünki yolun tikintisi özlüyündə çox böyük vəsait tələb edən məsələdir. Köçürülmələr, kompensasiyalar, kommunikasiyaların yerinin dəyişdirilməsi – yəni biz bütün bu işləri kompleks şəkildə aparırıq və aparacağıq.

Sosial məsələlərin həllinə gəldikdə, bu barədə mən giriş sözümdə qeyd etdim. Gələn aylarda maaşların, pensiyaların artırılması nəzərdə tutulur. Digər sosial tədbirlər görüləcəkdir. Bakıda və bölgələrdə sosial infrastrukturun tikintisi davam etdirilir. Hesab edirəm ki, bu sahədə nailiyyətlər böyükdür.

Sahibkarlığın inkişafı ilə bağlı nəzərdə tutulmuş kreditlərin böyük əksəriyyəti artıq verilmişdir. Bu il kreditlər 250 milyon manat məbləğində nəzərdə tutulubdur. Kreditlərin böyük hissəsi əvvəlcə verilmiş və qaytarılmış kreditlər hesabına verilir. Bu kreditlər çox səmərəli şəkildə işləyir və iqtisadiyyatın real sektoruna bir töhfədir. Sahibkarlığın inkişafına da bir töhfədir.

Yəni artıq bundan sonra hər il sahibkarlara ən azı 250 milyon manat güzəştli şərtlərlə kredit veriləcəkdir ki, bu, qeyri-neft sektorunun, sahibkarlığın inkişafına xidmət göstərəcək, beləliklə, ölkə qarşısında duran vəzifələri icra etmək üçün daha da yaxşı şərait yaradacaqdır.

Mən ərzaq təhlükəsizliyi ilə bağlı fikirlərimi dəfələrlə bildirmişəm. Sahibkarlarla görüşlərdə də bu mövzu daim qaldırılmışdır. Mən hesab edirəm ki, biz son illər ərzində bu istiqamətdə çox önəmli addımlar atmışıq və bəzi pozisiyalar üzrə artıq özümüzü 100 faiz təminetmə səviyyəsinə yaxınlaşırıq. Bəzi pozisiyalar üzrə əvvəlki dövrlərdə biz özümüzü 100 faiz təminetmə məsələsini həll etdik. Sahibkarlığın inkişafı dövlət siyasəti, bütün bu işlərin koordinasiyası, infrastruktur layihələrinin icrası və əlbəttə ki, qeyri-neft sektorunun inkişafı tam şəkildə ərzaq təhlükəsizliyini təmin etmək üçün bizə imkan yaradacaqdır.

Bizdə hələ ki, dövriyyədə olmayan torpaqlar vardır. Bu torpaqlarda meliorativ tədbirlər görülməlidir və görüləcəkdir. Burada qeyd olunduğu kimi, 5 min hektar torpaq artıq dövriyyəyə buraxılıb və orada məhsuldarlıq hektardan 54 sentnerdir. Bu, orta məhsuldarlıqdan 2 dəfə çoxdur. Yəni biz əslində bu rəqəmləri də gözləyirdik. Çünki bu yeni, iri fermer təsərrüfatlarında bütün tədbirlər yüksək səviyyədə görülür. Aqrotexniki, meliorativ tədbirlər, gübrə ilə təminat, əlbəttə ki, dövlət tərəfindən verilmiş kreditlər hesabına bütün bu işlər görülür.

Hesab edirəm ki, biz bu təcrübəni genişləndirməliyik. Bizə təqribən 40–50 böyük, iri fermer təsərrüfatı lazımdır ki, taxıla olan tələbatı biz tam şəkildə ödəyək. Biz bu təcrübəni digər, yəni böyük olmayan fermer təsərrüfatlarında da tətbiq etməliyik. Kənd təsərrüfatı texnikasının alınması ilə bağlı son qərarım da məhz bu məqsədi güdür. Bir daha demək istəyirəm ki, vaxtilə «Aqrolizinq»in yaradılması bu sahədə bir dönüş oldu. Əgər biz «Aqrolizinq»i yaratmasaydıq, indi bu texnikanın heç yüzdə biri də bizdə olmazdı. Kəndlilər özləri bu texnikanı almaq üçün imkanlara malik deyillər. Dövlət burada öz rolunu

oynamışdır. Gələcək illərdə kənd təsərrüfatı texnikasının, xüsusilə kombaynların alınması ilə bağlı əlavə tədbirlər görüləcəkdir. İlin sonuna qədər əlavə vəsait də ayrıla bilər. Biz yaxın 3-4 il ərzində özümüzü ən müasir texnika ilə tam şəkildə təmin etməliyik. Çünki biz gələcəkdə yeni iri fermer təsərrüfatlarını yaradacağıq. Burada təxminən 10 minlərlə hektar torpaqdan söhbət gedir. Mövcud fermer təsərrüfatlarında da yeni texnika olmalıdır. Ona görə mütləq Kənd Təsərrüfatı Nazirliyi bu istiqamətdə təkliflərini bir daha verməlidir ki, biz öz işlərimizi planlaşdıraq, bilək, nə qədər traktor, nə qədər kombayn hansı ildə alınmalıdır ki, bu məsələlər tam şəkildə öz həllini tapsın.

Bununla bərabər, meliorasiya tədbirləri də böyük əhəmiyyətə malik olan məsələlərdir. Bu il Taxtakörpü Su Anbarı layihəsi istismara veriləcəkdir. Bu, nəhəng infrastruktur layihəsidir. Bunun böyük əhəmiyyəti, tarixi əhəmiyyəti vardır. Bu, müstəqillik dövründə qeyri-neft sektorunda icra edilən ən böyük layihələrdən biridir, bəlkə də birincisidir. Bu layihə sırf sosial xarakter daşıyır, suvarılan torpaqların sahəsi xeyli artacaqdır. Eyni zamanda, içməli su məsələləri öz həllini tapacaqdır.

İndi Vəlvələçay – Taxtakörpü su kanalı açılışa hazırdır və Taxtakörpü anbarının su ilə doldurulması başlanacaqdır. İlin sonuna qədər bu nəhəng layihə – bunun içində elektrik stansiyası da vardır – istismara veriləcəkdir.

Bununla bərabər, digər meliorativ tədbirlər görülməlidir. Hesab edirəm, meliorasiya ilə bağlı gələcəkdə xüsusi proqram da qəbul edilə bilər ki, biz öz strategiyamızı və planlarımızı proqram şəklinə salaq və bu məsələləri ardıcıllıqla həll edək. Onsuz da biz bunu həll edirik. Yeni kanallar tikilir, artezian quyuları qazılır, indi Taxtakörpü, Şəmkirçay su anbarları tikilir. Şəmkirçay anbarı yəqin ki, gələn il istismara veriləcəkdir. Bu da 10 minlərlə hektar yeni torpaqlara suyun verilməsi deməkdir. Ancaq bununla bərabər, başqa imkanlar da vardır. Biz kiçik çaylardan daha da səmərəli şəkildə istifadə etməliyik. Hesab

edirəm ki, bu sahədə çox dəqiq, müfəssəl və dünya praktikasına uyğun bir proqram işlənib təqdim edilməlidir.

Sənayeləşmə ilə bağlı artıq bütün müvafiq göstərişlər verilmişdir. Sadəcə olaraq, bir daha qeyd etmək istəyirəm ki, bu sahə prioritet olaraq qalır. Sənaye parklarının yaradılması prosesi gedir. Yaxın aylarda biz bu parklarda artıq yeni müəssisələrin açılışını qeyd edəcəyik. Azərbaycanın sənaye potensialı böyüyür, artır. Bu ilin birinci rübündə qeyri-neft sənayemiz təxminən 3 faiz artmışdır. Əminəm ki, gələcək illərdə bu artım daha da böyük rəqəmlərlə ölçüləcək. Hazırda tikilməkdə olan böyük sənaye kompleksləri Azərbaycanda çox güclü ixracyönümlü sənaye potensialı yaradacaqdır. Bu məsələlər diqqət mərkəzindədir. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir əsas sənaye şəhərlərimizdir və bu şəhərlərdə sənaye komplekslərinin tikintisi planlı şəkildə təmin ediləcəkdir.

Bununla bərabər, ixrac məhsullarının istehsalının artırılması da daim diqqət mərkəzindədir. Əlbəttə, ilk növbədə, biz diqqətimizi daxili bazara yönəldirik. Daxili bazarı həm sənaye məhsulları, həm tikinti materialları və həm də ərzaq məhsulları ilə təmin etməliyik. Bu, birinci məsələdir. Ancaq görülən və görüləcək işlərin miqyasını nəzərə alsaq görərik ki, biz ancaq daxili bazarla kifayətlənə bilmərik. Bizdə istehsal olunacaq məhsullar daxili bazarın tələbatından qat-qat üstün olacaqdır. Ona görə mən indidən bu göstərişləri mütəmadi qaydada verirəm. Hesab edirəm ki, bunda böyük fayda vardır. Biz yeni bazarlara çıxış yollarını axtarmalıyıq. Xüsusilə indi dünyanı bürümüş böhran hələ ki, davam edir, alıcılıq qabiliyyəti bəzi ölkələrdə aşağı düşübdür və tələbat da aşağı düşübdür. Ona görə də yeni bazarlara çıxmaq o qədər də bizə asan olmayacaqdır. Burada ilk növbədə, həm rəqabətqabiliyyətli məhsullar buraxılmalıdır, eyni zamanda, çox fəal siyasət aparılmalıdır ki, biz yeni bazarlara çıxaq, özümüzü təqdim edək və məhsullarımızı orada sata bilək.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə gözəl səmərəsini verir. Bunu həm ölkə əhalisi hiss edir, bu məsələ ilə məşğul

olan beynəlxalq qurumlar da bunu qeyd edirlər. Bu yaxınlarda beynəlxalq təşkilatlar tərəfindən aparılan sorğu da onu göstərir ki, Azərbaycan əhalisi korrupsiyaya qarşı mübarizənin aparılması ilə bağlı atılan addımları alqışlayır.

Əhalinin təxminən 70 faizi hesab edir ki, Azərbaycanda bu istiqamətdə çox ciddi və səmərəli mübarizə aparılır. Deyə bilərəm ki, dünya miqyasında bu göstərici təxminən 20 faiz səviyyəsindədir. Azərbaycanda isə 70 faiz səviyyəsindədir. Yəni budur göstərici və budur gördüyümüz işlərin əsas nəticəsi. Ona görə mən çox şadam ki, bu mübarizə öz səmərəsini verməkdədir. Hesab edirəm ki, biz daha da fəal olmalıyıq. Korrupsiya, rüşvətxorluq üçün mövcud olan meydanı maksimum dərəcədə daraltmalıyıq. Bir daha demək istəyirəm ki, cəza tədbirləri tətbiq olunur və tətbiq olunacaqdır. Eyni zamanda, inzibati tədbirlər və sistem xarakterli addımlar atılır və atılacaqdır. Onların içində, əlbəttə ki, «Elektron hökumət», elektron xidmətlər xüsusi yer tutur. «Asan xidmət»in fəaliyyətini mən xüsusi vurğulamaq istəyirəm. Qısa müddət ərzində əhali arasında böyük rəğbət qazanan bu xidmət öz fəaliyyətini genişləndirir. Mənim göstərişimlə orada göstərilən xidmətlərin sayı da artır. Gələcəkdə biz baxmalıyıq ki, orada qısa müddət ərzində toplanan təcrübəni başqa sahələrdə də necə tətbiq edə bilək. Biz bunu edəcəyik, bu bizim seçdiyimiz yoldur. Əlbəttə ki, dövlət məmurlarının məsuliyyəti də bu məsələdə öz rolunu oynayır, oynamalıdır. Hər bir dövlət məmuru korrupsiyaya qarşı çox ciddi mübarizə aparmalıdır. Hər idarə rəhbəri bu prinsipləri əsas tutmalıdır. Çünki Azərbaycanın sürətli inkişafı reallıqdır. Gələcəyimiz çox parlaqdır. Azərbaycan bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir, mütləq bu olacaqdır. Ona görə də biz bütün xoşagəlməz halları aradan götürməliyik və elə etməliyik ki, bu göstəriciyə görə də Azərbaycan dünyada qabaqcıl yerlərdə olsun.

İnfrastruktur layihələri arasında, xüsusilə içməli su, kanalizasiya layihələrini qeyd etmək istəyirəm. Çünki bu layihələr növbəti aylarda, illərdə də icra ediləcəkdir. Digər infrastruktur

layihələrinin icrası tamamlanır. Elektrik enerjisi ilə bağlı artıq bütün layihələr, demək olar ki, başa çatıbdır. Sonuncu böyük elektrostansiya – 780 meqavat gücündə olan stansiya bu yaxınlarda Şirvan şəhərində istismara verilibdir. Demək olar, sonuncu bir stansiyadır ki, artıq ən yüksək standartlara cavab verir və orada şərti yanacağın sərfiyyatı da lazımi səviyyədədir və bütün texniki parametrlər də dünya səviyyəsindədir.

Qazlaşdırma prosesi sürətlə gedir. Bu ilin sonuna qədər qarşıya vəzifə qoyulmuşdur ki, bütün yaşayış məntəqələrinin 90 faizi qazlaşdırılmalıdır. Xüsusilə indi bölgələrdə bu iş geniş vüsət almışdır. Elə etməliyik ki, biz qazlaşdırmanı maksimum dərəcədə təmin edək. Ona görə içməli su-kanalizasiya layihələri bu gün əsas prioritetdir. Gördüyünüz kimi, demək olar ki, biz hər həftə, hər ay hansısa bir şəhərdə yeni su layihəsinin istismara verilməsini qeyd edirik, yaxud da onun təməlini qoyuruq. Bu proses artıq geniş vüsət almışdır. Dövlət büdcəsində də kifayət qədər vəsait nəzərdə tutulur. İçməli su, kanalizasiya xətləri infrastruktur layihələri arasında bu gün prioritet məsələdir.

Enerji təhlükəsizliyi ilə bağlı mən giriş sözümdə qeyd etdim ki, Azərbaycan tərəfindən qəbul edilmiş qərarlar çox böyük beynəlxalq əhəmiyyətə malikdir. Bizim tərəfimizdən irəli sürülmüş layihələr böyük beynəlxalq dəstəyə malikdir. TANAP layihəsi artıq beynəlxalq aləm tərəfindən dəstəklənir və beynəlxalq layihəyə çevrilibdir. «Cənub Qaz Dəhlizi»nin icrası nəticəsində Azərbaycan bundan sonra ən azı 100 il ərzində çox önəmli və əvəzolunmaz qaz ixrac edən ölkəyə çevriləcəkdir. Bütün bunları biz edirik, Azərbaycanın bu günü və ölkəmizin gələcəyi üçün. Əlbəttə ki, enerji layihələri əlavə investisiyaların cəlb edilməsinə də gətirib çıxaracaqdır. İlkin hesablamalara görə «Şahdəniz-2» və bu layihə ilə bağlı olan digər layihələr Azərbaycana təxminən 40 milyard dollar yeni investisiyaların qoyulmasına gətirib çıxaracaqdır. Təbii ki, bu investisiyalar digər neft sektoruna, neft-qaz sektoruna yaxın

olan, o cümlədən xidmət sektoruna da öz müsbət təsirini göstərəcəkdir.

Bu rübdə gələn ilin büdcəsi artıq hazırlanacaqdır. İndidən büdcə üzərində işlər aparılır. Büdcə, əlbəttə ki, həm investisiya, həm sosialyönümlü olmalıdır. Büdcədə müdafiə xərcləri önəmli yer tutmalıdır, bütün infrastruktur layihələri, sosial layihələr, sosial ödəmələr nəzərə alınacaqdır.

Bu ilin sonunda, bayaq qeyd etdiyim kimi, regional inkişaf proqramının ikinci hissəsi başa çatır. Gələn il yeni, üçüncü proqram qəbul ediləcəkdir. Müvafiq qurumlar bu proqramın tərtibatı üzərində işləyirlər. Növbəti proqram 2014–2018-ci illəri əhatə edəcək və bizə imkan verəcək ki, bundan sonra da Azərbaycan uğurla inkişaf etsin, qarşıda duran bütün vəzifələr icra edilsin. Sağ olun!

## SİYƏZƏN RAYONUNA SƏFƏR

*18 iyul 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 18-də Siyəzən rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Siyəzən şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov prezident İlham Əliyevə ulu öndərin abidəsi ətrafında aparılan abadlıq işləri barədə məlumat verdi.*

### İçməli su xəttinin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 18-də Siyəzən şəhərində içməli su xəttinin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, layihə Azərbaycan hökuməti və Dünya Bankının vəsaiti hesabına həyata keçirilir.*

*Prezident İlham Əliyev Siyəzən şəhərinin su təchizatı şəbəkəsinin planı, su təchizatı və kanalizasiya qurğularının yerləşmə sxemi, kanalizasiya şəbəkəsinin planı, çirkab sutəmizləyici qurğunun sxemi ilə tanış oldu. Qeyd edildi ki, Siyəzən rayon mərkəzinin əhalisini içməli su ilə təmin etmək üçün layihədə su mənbəyi kimi, ikinci Bakı su kəməri qəbul edilib. Layihələrdə yeni qurğuların texniki parametrləri öz əksini tapıb.*

*Prezidentə məlumat verildi ki, Fransanın «SADE» və Azərbaycanın «RAMKO» şirkətləri arasında imzalanmış tikinti müqaviləsi əsasında Siyəzən şəhərinin su təchizatı və kanalizasiya şəbəkələrinin bərpası və tikintisinə başlanılmışdır. Şəhərin bütün evləri su və kanalizasiya şəbəkələrinə qoşulmuşdur. İkinci Bakı kəmərindən suyun götürülməsi və şəhərə paylanması üçün 100 kubmetrlik təmizləyici su anbarının, 1000 və 3000 kubmetrlik su anbarlarının tikintisi başa çatdırılmışdır. Çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilir. Layihənin həyata keçirilməsi ilə Siyəzən şəhər əhalisini 24 saat ərzində içməli su ilə təmin etmək mümkün olacaqdır.*

*Prezident İlham Əliyev şəhərə suyun verilməsini bildirən düyməni basdı.*

*Azərbaycan prezidenti işlərin uğurla başa çatdırılması ilə əlaqədar tapşırıqlarını verdi.*

## Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev binada yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, inzibati binanın inşasına 2013-cü ilin yanvarında başlanılmış və iyul ayında başa çatdırılmışdır. İkimərtəbəli binanın ümumi sahəsi 753 kvadratmetrdir.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin barelyefi qoyulub. Burada ümummilli liderin ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən YAP-ın fəaliyyəti ilə bağlı gördüyü işləri əks etdirən fotoguşələr yaradılıb. Tarixi sənəd və eksponatların da sərgiləndiyi binanın iclas zalında müxtəlif tədbirlərin keçirilməsi üçün əlverişli şərait vardır. Bütün otaqlar zəruri avadanlıqla təchiz olunub, kompüterlər quraşdırılıb, kitabxana fəaliyyət göstərir.*

*Binanın həyəti tamamilə abadlaşdırılmış, yaşıllıq salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Bir sözlə, rayonun ictimai-siyasi həyatında mühüm rol oynayan partiyanın yeni inzibati binasında yaradılan şərait təsdiqləyir ki, YAP müstəqil Azərbaycanın daha parlaq gələcəyi naminə fəaliyyətində yeni uğurlara imza atacaqdır.*

*Dövlət başçısı binada yaradılmış şəraitdən razılığını bildirdi.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 18-də Siyəzəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mərkəzin yerləşdiyi ərazi Siyəzən şəhər sakinlərinin üz tutduqları ən sevimli məkanlardan biridir. Burada sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Ərazidə aparılan kompleks yenidənqurma, abadlaşdırma və yaşıllaşdırma işləri bu məkanı Siyəzənin ən gözəl yerlərindən birinə çevirib.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, Mərkəz siyəzənlilərin dahi rəhbərin xatirəsinə olan ehtiramını nümayiş etdirir. Mərkəzin yaradılması həm də ulu öndərin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır. Buradakı foto və digər eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən inkişaf mərhələsinə qədəm qoyması və hazırkı hərtərəfli yüksəlişi, beynəlxalq nüfuzunun artması məhz ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Bu cür mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır. Siyəzəndə ulu öndərin adını daşıyan prospektdə inşa edilən Heydər Əliyev Mərkəzi həm də şəhərin görünüşünə əlavə gözəllik verir.*

*Qeyd edildi ki, 3 mərtəbədən və 14 otaqdan ibarət olan Mərkəzin müasir orijinal layihə əsasında inşasına 2013-cü ilin yanvarında başlanılmış və iyul ayında başa çatdırılmışdır.*

*Ümumi sahəsi 1200 kvadratmetr olan Mərkəzdə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar və digər sənədlər sərgilənir. Fotolarda ulu öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik illəri, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi, Azərbaycan Kommunist Partiyasının Birinci katibi olduğu dövrlərdə Siyəzənə səfərləri əks olunub. Mərkəzdə, həmçinin ümummilli lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini, müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrlərdə Siyəzənə səfərlərini əks etdirən fotolar da yer almışdır. Buradakı eksponatlar və fotolardan aydın görünür ki, müasir Azərbaycan tarixinin çox mühüm və taleyüklü səhifəsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.*

*Diqqətə çatdırıldı ki, Mərkəzdə prezident İlham Əliyevin Siyəzənə səfərləri ilə bağlı fotoguşə də yaradılıb. Binanın birinci mərtəbəsində muzey, xalçaçılıq dərnəyi fəaliyyət göstərəcəkdir. Mərkəzin ikinci mərtəbəsində konfrans zalı, dizayn və rəsm studiyaları, sərgi salonu vardır. Üçüncü mərtəbədə isə müasir internet klub, kitabxana və xarici dil öyrədən kurslar yaradılıb.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## SİYƏZƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*18 iyul 2013-cü il*

Bu gün biz Siyəzən rayonunda Heydər Əliyev Mərkəzinin açılışını qeyd edirik. Gözəl hadisədir, gözəl Mərkəzdir. Yeni tikilmiş Mərkəzdir, həm xarici görünüşü gözəldir, həm daxili tərtibatı yüksək səviyyədədir. Əminəm ki, Mərkəz Siyəzən rayonuna çox gözəl bir töhfə olacaqdır və burada, əlbəttə ki, müxtəlif tədbirlər keçiriləcək, ulu öndərin siyasi irsi öyrəniləcəkdir.

Biz bu ilin may ayında ulu öndərin 90 illik yubileyini təntənəli şəkildə qeyd etdik. Bir daha görürük ki, ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətə çevrilmişdir. Eyni zamanda, biz bu ilin iyun ayında Qurtuluş Gününün 20-ci ildönümünü qeyd etdik. Qurtuluş Günü bir dönüş nöqtəsidir. Çünki o günə qədər Azərbaycanda proseslər mənfi istiqamətdə gedirdi, müstəqilliyimizin ilk illəri çox ağır keçirdi və demək olar ki, xoşagəlməz halların qarşısı alınmırdı. Əksinə, onlara rəvac verilirdi və ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsindən sonra bütün xoşagəlməz halların qarşısı alındı və Azərbaycan inamla inkişaf yoluna qədəm qoydu.

O vaxtdan bu günə qədər 20 il keçir. Bu illər inkişaf, quruculuq illəri olmuşdur. Azərbaycan bu illər ərzində böyük nailiyyətlərə imza atmışdır. Ölkədə proseslər müsbət istiqamətdə gedir. Son 10 il ərzində Azərbaycan dünyada misli görünməmiş templərlə inkişaf edir. 20 il bundan əvvəl isə biz bu inkişafın başlanğıcında idik və ulu öndərin siyasi təcrübəsi, onun biliyi, cəsarəti və dünyagörüşü Azərbaycanın inkişafını təmin etdi. Çünki 20 il bundan əvvəl Azərbaycanın hansı yollarla inkişaf edəcəyi haqqında müxtəlif

fikirlər, yanaşmalar var idi. Heydər Əliyevin böyüklüyü ondan ibarətdir ki, o, düzgün istiqamət seçmişdir və Azərbaycanda gedən inkişafa təkan vermişdir. Həm beynəlxalq əməkdaşlıqla, daxili proseslərlə bağlı, həm də iqtisadi islahatlarla əlaqədar aparılan siyasət bu gün də davam etdirilir. Bu gün Azərbaycan dünya miqyasında böyük nüfuza malik olan bir ölkədir. Biz ən mötəbər beynəlxalq təşkilatlarda fəal iştirak edirik. Bu gün Azərbaycan iqtisadiyyatı inkişaf edir, bölgələr inkişaf edir. Biz bu inkişafı hər bir sahədə görürük. Bu həm statistik göstəricilərdə özünü göstərir, həm də bu inkişafı insanlar öz gözü ilə görə bilirlər.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı da ümumi işimizdə çox vacib bir vasitədir. 2-ci Dövlət Proqramı artıq bu ilin sonuna qədər başa çatacaqdır. Gələn il 3-cü Dövlət Proqramı qəbul ediləcək. Ancaq ilin sonuna qədər bölgələrdə əsas infrastruktur layihələri öz həllini tapmalıdır.

Siyəzən rayonunda da son illər ərzində böyük işlər görülmüşdür. Rayonun inkişafı, abadlaşması ilə bağlı müvafiq göstərişlər verilmişdir. İnfrastruktur layihələri icra edilir, yollar çəkilir. Əvvəllər şimal istiqamətində gedən yol düz şəhərin mərkəzindən keçirdi, böyük narahatlığa səbəb olurdu. İndi yeni çəkilmiş yol, əlbəttə ki, həm gediş-gəliş üçün yeni imkanlar yaradır, həm də ki, şəhərin sakinləri üçün rahatlıq verir. Bildiyimə görə, indi şəhərin ortasından tranzit yük maşınları daha keçmir. Hər halda, keçməməlidir.

Bu gün biz bu gözəl Mərkəzin açılışını qeyd edirik. İndi Gənclər Mərkəzinin açılışını da qeyd edəcəyik. Görürəm, o da çox gözəl binadır. Bu gün biz içməli su layihəsinin istismara verilməsini də qeyd etdik. Bu da hər bir bölgə, hər bir rayon üçün çox vacib layihədir. Çox şadam ki, içməli su layihəsi də Siyəzəndə artıq icra edilibdir. Mənə verilən məlumata görə, sayğaclaşdırma işləri aparılacaq və su kəməri şəbəkəyə qoşulacaqdır. Beləliklə, Siyəzən şəhərində suyun 24 saat ərzində verilməsi təmin ediləcək. Bu doğrudan da böyük sosial məna daşıyan bir layihədir. Çünki içməli su insanın sağlamlığı üçün əsas məsələdir və bu layihələr ölkə üzrə icra edilir. O

cümlədən Siyəzəndə də içməli su layihəsinin icrası, əlbəttə ki, böyük sevincə səbəb olmuşdur.

Gələcək illərdə rayonun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Burada məşğulluğun artırılması üçün əlavə tədbirlər görülməlidir. Baxmayaraq ki, mənə verilən məlumata görə, indi məşğulluqla o qədər də böyük problem yoxdur. Burada böyük quşçuluq fabriki fəaliyyət göstərir. Bu fabriki də sovet dövründə ulu öndərin səyləri nəticəsində tikmək mümkün olmuşdur. O vaxt bu fabrik Macarıstandan valyuta hesabına gətirilmişdir, Azərbaycanda quraşdırılmışdır və bu gün də bu fabrik xidmət göstərir. İndi mənə deyirlər ki, orada 2 mindən artıq vətəndaş işləyir. Neft Şirkətinin strukturlarında, özəl sektorda işləyənlər var. Yəni Azərbaycanda bütövlükdə məşğulluqla bağlı problemlər uğurla icra edilir və əlbəttə, rayonlarda, bölgələrdə bu problem daha da böyük dərəcədə öz həllini tapmalıdır. Çünki böyük şəhərlərdə işsizlik, demək olar ki, aradan qaldırılıbdır. Rayonlarda hələ ki, var, bu məsələ də daim diqqət mərkəzində olmalıdır.

Bir sözlə, biz Siyəzənin timsalında Azərbaycanda son illər ərzində gedən inkişafı görürük. Gələcək illər üçün də bizim konkret planlarımız vardır. Rayonun gələcək inkişafı üçün əlavə vəsaitin ayrılması nəzərdə tutulur ki, burada işlər daha da sürətlə getsin və insanları narahat edən bütün məsələlər öz həllini tezliklə tapsın. Onların içində, əlbəttə ki, ilk növbədə, infrastruktur layihələridir, qazlaşdırmadır – indi qazlaşdırma burada təxminən 100 faizə çatıbdır – içməli su layihəsidir. Bu gün biz bunun açılışını qeyd etdik. Elektrik enerjisi ilə olan bəzi problemlər də öz həllini tapmalıdır. Kənd yollarının tikintisi, iş yerlərinin yaradılması, ictimai yerlərin, parkların salınması – biz bu məsələlərə kompleks şəkildə yanaşırıq. Əminəm ki, biz gələcək illərdə hələ çox görüşəcəyik, çünki burada hələ təntənəli açılışlar çox olacaqdır. Sizi bir daha salamlayıram və sizə uğurlar arzulayıram.

**R a m i l ə S e y i d o v a** *(Siyəzən rayon 2 saylı şəhər orta məktəbinin müəllimi):* Çox hörmətli möhtərəm cənab Prezident!

İcazə verin, Sizi siyəzənlilər adından ürəkdən salamlayım. Bütün siyəzənlilərin ən gözəl və xoş duyğularını Sizə çatdırmaqla «Xoş gəlmisiniz!» – deyirəm.

Möhtərəm cənab Prezident, bu gün bizim üçün əlamətdar və xoş bir gündür. Biz Azərbaycan xalqının ümummilli lideri, böyük şəxsiyyət, ulu öndər Heydər Əliyevin adını daşıyan bu möhtəşəm Mərkəzin açılışını edirik. Əlbəttə, cənab Prezident, hər bir azərbaycanlı bilir ki, ulu öndər Heydər Əliyev öz ölkəsini, öz xalqını canından çox istəmişdir. Cənab Prezident, ulu öndər Heydər Əliyev canı bahasına, qanı bahasına müstəqil Azərbaycan Respublikasını qurub-yaratmışdır. Ulu öndərin tarixi irsini öyrənmək, gələcək nəsillərə çatdırmaq biz gənclərin mənəvi borcudur.

Cənab Prezident, mən özüm Siyəzən rayonunda böyüyüb boya-başa çatmışam. Siyəzən rayonu ərazisi və əhalisinin sayına görə respublikamızın kiçik rayonlarından olmasına baxmayaraq, iqtisadiyyatının inkişafına görə heç də digər rayonlarımızdan geri qalmır. Bu gün həqiqətən də Siyəzən rayonunun siması məhz Sizin sayənizdə tamamilə dəyişmişdir. Rayonumuzun inkişafına göstərdiyiniz qayğıya görə Sizə, Sizinlə çiyin-çiyinə çalışan, təhsilimizin, mədəniyyətimizin inkişafına verdiyi töhfəyə görə Mehriban xanıma öz minnətdarlığımızı bildiririk.

Biz siyəzənlilər inanırıq ki, apardığınız uğurlu xarici siyasət nəticəsində Ali Baş Komandan kimi, məhz Sizin rəhbərliyiniz altında, Dağlıq Qarabağ problemi öz müsbət həllini tapacaq, respublikamızın ərazi bütövlüyü təmin ediləcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, müstəqil Azərbaycan Respublikasının rifahı naminə apardığınız daxili və xarici siyasətinizdə yeni-yeni uğurlar arzu edirik. Diqqətinizə görə sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## Siyəzən Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 18-də Siyəzən Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, rayonun sosial-iqtisadi inkişafı çərçivəsində görülən tədbirlər sırasında icra hakimiyyətinin yeni tikilən inzibati binasında yaradılan şərait bir daha təsdiq edir ki, ölkədə dövlət idarəçiliyi sistemi işinin stimullaşdırılması diqqət mərkəzindədir.*

*Qeyd edildi ki, müasir memarlıq üslubunda inşa olunan bina həm də rayonun görkəminə xüsusi gözəllik verir. 3 mərtəbədən ibarət bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Binadakı otaqlar müasir tələblərə cavab verir. Heydər Əliyev prospektində inşa olunmuş binanın fasadı yerli tikinti materialları ilə üzlənmişdir. Binanın tikintisinə 2012-ci ilin oktyabrında başlanılmış və 2013-cü ilin iyulunda başa çatdırılmışdır. İnşaat işləri büdcə vəsaiti hesabına həyata keçirilmişdir. Ərazidə geniş yaşıllaşdırma işləri aparılmış, 2 müasir bəzək elementi, işıqlandırma sistemi müasir standartlara uyğun şəkildə quraşdırılmışdır.*

*Binanın girişində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü qoyulub. Burada dahi rəhbərin Siyəzənə səfərlərini əks etdirən fotoguşə yaradıb. Bina müasir idarəetmə metodlarından istifadə olunması üçün bütün texniki şəraitlə təchiz edilib. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına kömək edəcəkdir.*

*Diqqətə çatdırıldı ki, inzibati binada sakinlərlə və yerli icra nümayəndəlikləri ilə videokonfrans zalı, operativ idarəetmə mərkəzi də vardır. Bütün bunlar icra hakimiyyətinin əməkdaşlarının səmərəli fəaliyyət göstərməsi və sakinlərin rahatlığının təmin olunması məqsədi ilə yaradılıb. Müasir standartlara cavab verən səs, istilik, işıq sistemləri ilə təchiz edilən*

*128 nəfərlik konfrans zalında rayon və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi mümkündür.*

*Vurğulandı ki, rayon icra hakimiyyətində, həmçinin, «onlayn», videoqəbul da yaradılıb. Sakinlər binaya gəlmədən kənd və qəsəbə icra nümayəndəliklərinə müraciət edərək, onları narahat edən problemlərlə əlaqədar rayon icra hakimiyyətinin başçısı və digər məsul şəxslərlə birbaşa videoəlaqə yarada biləcəklər. Artıq rayonun Məşrif, Zarat, Eynibulaq, Sədan və Böyük Həmyə icra nümayəndəlikləri şəbəkəyə qoşulmuşdur.*

*Görülən işlərdən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Siyəzəndə Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmiş Gənclər Mərkəzinin inşası 2012-ci ilin aprelində başlanılmış və 2013-cü ilin iyulunda başa çatdırılmışdır. Layihənin smeta dəyəri 714,91 min manatdır.*

*Qeyd edildi ki, ümumi sahəsi 1634 kvadratmetr olan Gənclər Mərkəzi 3 mərtəbədən ibarətdir. Binanın birinci mərtəbəsində bar, bilyard zalı fəaliyyət göstərir. Mərkəzdə, həmçinin Dövlətçilik Muzeyi yaradılıb. Muzeydə Azərbaycan ərazisində müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin bayraqları, pul əsginasları, medal və tarixi sənədlər toplanmışdır. Bildirildi ki, mərkəzdə gənclərin istirahətini təmin etmək üçün stolüstü oyunlar, bilyard, oyun avtomatları zalları, eləcə də kafe, bar, internet klub, internet-kafe də fəaliyyət göstərir. Bütün kompüterlər sürətli internetə qoşulmuşdur. Bu mərkəz rayon gənclərinin asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayacaqdır.*

*Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başcısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## XAÇMAZ RAYONUNA SƏFƏR

*19 iyul 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Xaçmaz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev məlumat verdi ki, Heydər Əliyev parkı son illər sakinlərin istirahəti üçün ən çox üz tutduqları məkanlardan birinə çevrilib.*

### Tarix-Diyarşünaslıq Muzeyinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Xaçmaz rayonuna səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyətə malikdir. Muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat vardır. Yeni muzey Xaçmaz şəhərinin Heydər Əliyev prospektində, Şəxsiyyətlər Muzeyinin ərazisində inşa edilmişdir. 2 filial və 7 şöbədə fəaliyyət göstərən muzeyin 1930-cu ildə tikilən binası artıq istismar müddətini başa vurmuş və istifadəyə yararsız vəziyyətə düşmüşdür.*

*Yeni binanın tikintisinə isə 2013-cü ilin əvvəlində başlanılmışdır. Xüsusi memarlıq üslubunda tikilən bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqlarla təchiz edilmişdir.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin abidəsi qoyulub. Burada ümummilli liderin, eləcə də prezident İlham Əliyevin müxtəlif illərdə Xaçmaz rayonuna səfərlərini əks etdirən foto-guşələr yaradılmışdır. Muzeyin birinci mərtəbəsində İstiqlal bölməsi yerləşir. Burada dövlətçilik tariximiz dövrlər üzrə əksini tapmışdır. Bu bölmədə İstiqlal tariximizlə bağlı maraqlı eksponatlar toplanmışdır. İkinci dünya müharibəsinə aid eksponatlardan da zəngin tarixi məlumatlar əldə etmək mümkündür.*

*Bildirildi ki, İkinci dünya müharibəsi illərində Xaçmaz rayonundan 8 min 739 nəfər döyüşlərdə iştirak etmişdir. Onlardan 2 min 800-ü həlak olmuş, Moskvanın müdafiəsi döyüşlərində 124 xaçmazlı dünyasını dəyişmişdir. Muzeydə döyüş iştirakçılarına aid döş nişanları, orden və medallar nümayiş olunur. Bu bölmədə, həmçinin 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinə aid eksponatlar da vardır.*

*Diqqətə çatdırıldı ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Xaçmaz rayonundan 226 nəfər şəhid olmuşdur. Onlardan biri Milli Qəhrəman adına layiq görülüb.*

*Müxtəlif tarixi formasiyalar zamanı əhali tərəfindən istifadə edilən pul nümunələrindən ibarət numizmatika guşəsi də muzeyə gələnlərdə maraq doğurur.*

*Muzeyin 2-ci mərtəbəsində tarix-etnoqrafiya bölməsi də fəaliyyət göstərir. Burada müxtəlif dövrlərdə xaçmazlıların həyat tərzini və məişətini əks etdirən eksponatlar yerləşdirilib.*

*Vurğulandı ki, Xaçmaz rayonunun ərazisində 28 qədim kurqan aşkarlanıb. Ehtimal olunur ki, qədim türklərə aid olan kurqanların 4 min il yaşı vardır.*

*Muzeydə Xaçmazdakı 28 min hektar meşə sahəsi ilə bağlı guşə də yaradılıb. Bu bölmədəki dəmirçi və dulusçu emalatxanalarının, evlərin kiçik maketləri əhalinin qədim dövrlərdəki yaşayış tərzini və məşğuliyyətini əks etdirir.*

*Qeyd edildi ki, rayonun Ləcət kəndi ərazisində aparılan qazıntılar zamanı e.ə. I minilliyə aid saxsı küp aşkarlanıb. O vaxtlar bu küpdə ərzaq saxlanıldığı ehtimal olunur. Mədəniyyət bölməsində müxtəlif sənət əsərləri, xüsusilə də xalçaçılığa aid nümunələr, bəzək əşyaları sərgilənir.*

*Muzeydə ideoloji tədris bölməsi də yaradılıb. Burada Azərbaycan tarixinə, görkəmli şəxsiyyətlərə və dövlətçiliyimizə həsr edilmiş filmlər nümayiş olunacaqdır. Muzeydə eksponatların bərpası və qorunması məqsədi ilə ayrıca fond-bərpa otaqları da vardır. Gələcəkdə muzeyin birinci mərtəbəsində rəsm qalereyası da yaradılacaqdır.*

*Tarix-Diyarşünaslıq Muzeyində ayrıca konfrans zalı, fond və digər texniki otaqlar da vardır.*

*Yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Xaçmaz Olimpiya İdman Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevə məlumat verildi ki, bu, ölkədə istifadəyə verilən sayca 38-ci Olimpiya İdman Kompleksidir.*

*Kompleksin tikintisinə 2010-cu ilin sonunda başlanılmışdır. Tikinti işlərinin ən yüksək səviyyədə aparıldığı binanın inşası üçün 6 hektar torpaq sahəsi ayrılmışdır. Həyatində geniş abadlıq-quruculuq işləri görülmüş kompleksdə idmanın bir çox növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılmışdır. Kompleksin həyatində 1020 tamaşaçı yeri olan stadion, mini-futbol, basketbol meydançaları inşa edilmişdir. Azərbaycanda «Skate Park» ilk dəfə məhz Xaçmaz Olimpiya İdman Kompleksində fəaliyyət göstərir.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin idmançılara göstərdiyi diqqət və qayğını, eləcə də sovet dövründə və müstəqillik illərində Xaçmaza səfərlərini əks etdirən fotolar-*

dan ibarət stend yaradılıb. Burada prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqəti və bu rayona səfərlərini əks etdirən fotolar da böyük maraq doğurur.

Prezident İlham Əliyev kompleksin üzgüçülük hovuzu ilə tanış oldu. Qeyd edildi ki, burada uzunluğu 25 metr olan və ən müasir səviyyədə qurulan hovuz böyüklər, uzunluğu 10 metr olan üzgüçülük hovuzu isə balacalar üçün nəzərdə tutulmuşdur. Hovuzlarda xüsusi nəmalma qurğusu da quraşdırılmışdır. Kompleksdəki yeməkxana da müasir səviyyədədir.

Bildirildi ki, kompleksin idman zalı 750 yerlikdir. Zalda idmançıların mini-futbol, voleybol və basketbolla məşğul olmaları üçün hər cür şərait vardır. Burada istər yerli, istərsə də beynəlxalq əhəmiyyətli idman tədbirləri keçirmək mümkün olacaqdır. Kompleksdəki güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun qurulmuşdur. Müasir idman qurğuları ilə təchiz edilmiş aerobika və trenajor zalları da idmançıların ixtiyarına verilmişdir.

Kompleksdə 2 nəfərlik 18 və ikiotaqlı 3 lüks nömrənin olduğu mehmanxana da vardır. Mehmanxanada idmançıların və qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılmışdır.

Kompleksə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

# XAÇMAZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 iyul 2013-cü il*

Sizi yenidən görməyimə çox şadam. Bildiyiniz kimi, mən Xaçmaz rayonunda dəfələrlə olmuşam. Son illər ərzində bu mənim prezident kimi 6-cı səfərimdir və hər dəfə burada olanda sevinirəm ki, Xaçmazda işlər çox yaxşı gedir.

Şəhər gözəlləşir, abadlaşır, böyük işlər görülür, gözəl binalar tikilir. Onların içində bu möhtəşəm Olimpiya İdman Kompleksi də öz yerini tutacaq. Şadam ki, bu kompleks çox böyük imkanlara malikdir. Burada həm idmançılar, həm də ki, rayon sakinləri vaxtlarını keçirə bilərlər. Azərbaycanda idmanın inkişafı sürətlə gedir və belə komplekslərin yaradılması əslində idmanın kütləviliyini də təmin edir. Ancaq adi vətəndaşlar da idmanla məşğul olmalıdırlar. Çünki idman sağlamlıq, sağlam həyat tərzi deməkdir. Belə komplekslərin tikilməsi bu imkanları da yaradır. Burada üzgüçülük hovuzları, açıq meydançalar, idman zalları, trenajor zalları vardır. Yəni gənclər, uşaqlar, yeniyetmələr, yaşlı nəsil də istifadə etməlidir.

Xaçmazda böyük olimpiya kompleksinin tikilməsi lazım idi. Çünki artıq başqa şəhərlərdə komplekslər vardır və bu, sayca 38-cidir. Bu onu göstərir ki, indi ölkəmizin bütün bölgələrində idmanla məşğul olmaq üçün yaxşı imkanlar vardır. İdmançılarımız da bizi sevindirirlər. Bu yaxınlarda universiadada idmançılarımız çox böyük uğurlara imza atıblar – 15-ci yerə layiq görülüblər, 16 medal qazanmışıq və Avropa ölkələri arasında 9-cu, müsəlman ölkələri arasında isə 1-ciyik. Keçən il London Yay Olimpiya oyunlarında idmançılarımız tarixi qələbə qazanmışlar. Yəni idmanın inkişafı Azərbaycanda

sürətlidir, hərtərəflidir və indi dünyada Azərbaycan idman ölkəsi kimi tanınır.

Əlbəttə, idmanın kütləviliyini təmin etmək, gənc, peşəkar kadrları hazırlamaq üçün belə imkanlar lazımdır. Bu kompleks ən yüksək dünya standartlarına cavab verir və burada idmanla məşğul olmaq üçün bütün şərait vardır, bir də ki, Xaçmaz şəhərinə yaraşıq verir. Keçən dəfə bu ətrafda olarkən gördüm ki, burada quruculuq işləri aparılır, parklar salınır. Xaçmaz indi parklar şəhəridir. Gözəl abidələr tikilir, bu gün biz Tarix-Diyarşünaslıq Muzeyinin açılışını qeyd etdik. Çox möhtəşəm binadır, memarlıq baxımından çox gözəldir və daxili tərtibatı da çox yaxşıdır. Deyə bilərəm ki, rayonlarımızda mövcud olan tarix-diyarşünaslıq muzeyləri arasında bunun xüsusi yeri var, bəlkə də ən böyüyüdür və ən gözəlidir desəm, səhv etmərəm.

Bu gün sahibkarlığa dəstək üçün Regional İnkişaf Mərkəzi də açılır. Buna da böyük ehtiyac vardır. Təsadüfi deyil ki, bu mərkəz məhz Xaçmazda yaradılıb. Çünki Xaçmaz bu zonanın ən böyük rayonudur, böyük imkanları var, o cümlədən sahibkarlığın inkişafı üçün böyük imkanlar var və Regional İnkişaf Mərkəzi də bu zonada biznes imkanlarını artıracaqdır. Buna da böyük ehtiyac vardır. Çünki ölkə iqtisadiyyatı bundan sonra daha çox sahibkarlığın fəaliyyətindən asılı olacaqdır.

Dünən Nazirlər Kabinetinin növbəti toplantısında ilin 6 ayının yekunlarına baxaraq bir daha gördük ki, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, qeyri-neft sektoru inkişaf edir, sahibkarlıq inkişaf edir və bölgələrin inkişafı da artıq reallıqdır. Biz bunu Xaçmazın timsalında görürük. Çünki əvvəlki dövrlərlə müqayisədə böyük inkişaf, böyük irəliləyiş var, sosial obyektlər tikilir. Keçən dəfə burada olarkən biz Mərkəzi Xəstəxananın təmirdən sonra açılışını qeyd etdik.

Bundan əvvəlki dövrlərdə digər açılışlar olmuşdur. Yadımdadır, ilk modul tipli elektrik stansiyasını biz Xaçmazda yaratdıq. Yəni infrastruktur layihələri icra edilir. İndi qazlaşdırma prosesi sürətlə gedir. Rayonun, demək olar ki, əksər məntəqələri qazlaşdırılıbdır. İçməli su layihəsinin icrasına

başlanılmışdır. Artıq işlər gedir. Yəqin ki, gələn il, bəlkə də 2015-ci ildə Xaçmazın içməli su problemi tamamilə həll olunacaqdır, 24 saat ərzində təmiz içməli su veriləcəkdir.

İnfrastruktur layihələrinin icrası bütövlükdə ölkə qarşısında duran əsas vəzifələrdir. Hər rayon üzrə xüsusi proqramlar mövcuddur. Biz bütün işləri planlı şəkildə aparırıq. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində gözəl nəticələri də görürük. Nəticələr göz qabağındadır – tikilən binalar, salınan parklar, açılan yollar, çəkilən qaz, su xətləri. Azərbaycanın inkişafı bu istiqamətdə gedir. Şadam ki, Xaçmaz kimi böyük rayonda bu işlər yüksək səviyyədə aparılır.

Gələcək illərdə görüləcək işlərlə bağlı bizim konkret fikirlərimiz vardır. Gələn ilin əvvəlində üçüncü regional inkişaf proqramı qəbul ediləcəkdir. Düzdür, 2 proqramın icrası nəticəsində bölgələrdə mövcud olan problemlərin böyük əksəriyyəti öz həllini tapmışdır. Xüsusilə infrastruktur layihələri. Ancaq hələ görüləsi işlər çoxdur.

Xüsusilə kənd yollarının tikintisi yəqin ki, növbəti 5 il üçün prioritet olacaqdır. Məktəb tikintisi sürətlə getmişdir. Ancaq hələ də qəzalı, yararsız vəziyyətdə olan məktəblər vardır. Bu məsələ də, əlbəttə ki, növbəti 5 ildə öz həllimi tam tapmalıdır. Tibb müəssisələrinin yaradılması, təmiri ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Yəni həyat yerində durmur. Biz bir çox məsələləri həll etdik. Ancaq hələ ki, həllini gözləyən məsələlər vardır. Biz bunları tədricən, ardıcıllıqla həll edəcəyik. Ölkəmizin dinamik inkişafını gələcəkdə də təmin edəcəyik.

**S a k i n l ə r:** Çox sağ olun!

**N ə r i m a n B a b a y e v** *(rayon sakini):* Möhtərəm cənab Prezident, Xaçmaza xoş gəlmisiniz! Şadam ki, mənə ikinci dəfədir Sizin qarşınızda çıxış etmək nəsib olur. İlk dəfə 2005-ci ildə rayonumuzda idman məktəbinin açılışında çıxış etmişdim. O vaxt belə bir kompleksin tikintisi barədə arzumuzu Sizə çatdırdıq. Siz isə bu gün həmin arzularımızı gerçəkləşdirdiniz. Bu kompleks bütün xaçmazlılar üçün böyük bir hədiyyədir, olduqca əlamətdar bir hadisədir. Buna görə Sizə xaçmazlıların

çox böyük təşəkkürünü və minnətdarlığını çatdırıram, cənab Prezident. Eşq olsun Sizə!

Möhtərəm cənab Prezident, son 10 ildə Azərbaycan sürətlə inkişaf edərək dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilmişdir. Azərbaycanın hərtərəfli inkişafını bütün dünya etiraf edir. Bu inkişaf idmandan da yan keçməmişdir. Ona görə də Azərbaycan bütün dünyada idman dövləti kimi tanınır. Azərbaycanın idman nailiyyətləri bütün dünyaya yaxşı bəllidir. Son günlər Rusiyanın Kazan şəhərində tələbələr arasında keçirilən 27-ci yay universiadasında idmançılarımızın uğurlu qələbəsi buna əyani sübutdur.

Cənab Prezident, Siz respublikamızda idmanın kütləviliyini təmin edirsiniz. Bununla da ölkədə tam sağlam nəsil formalaşdırırsınız. İndi elə bir rayon, elə bir şəhərimiz yoxdur ki, orada olimpiya mərkəzi, yaxud idman kompleksi olmasın. Bu gün açılışını etdiyiniz möhtəşəm Xaçmaz Olimpiya İdman Kompleksi sayca 38-cidir. Ona görə biz bütün xalqımız adından Sizə böyük təşəkkür edirik. İndi biz səbirsizliklə 2015-ci ildə I Avropa oyunlarının Azərbaycanda keçirilməsini gözləyirik. Bu oyunların ölkəmizdə keçirilməsi Sizin əməyinizin nəticəsidir. Bu oyunlar ölkəmizin tarixində böyük hadisədir, böyük uğurdur. Bir daha Sizə minnətdarlığımızı bildiririk. Bu oyunların keçirilməsində Azərbaycan xalqı da öz sözünü deyəcəkdir. Mehriban xanım Əliyevanın bu oyunların təşkilati işlərini öz üzərinə götürdüyünə görə ölkəmizdə keçirilən mötəbər tədbirlər kimi, bu tədbirin də yüksək səviyyədə baş tutacağına heç bir şübhəmiz yoxdur. Xalqımız yaxşı bilir ki, ölkəmizdə keçirilən bütün mötəbər tədbirlər Azərbaycanımızın tanınmasına, mədəniyyətimizin təbliğinə xidmət edir. Buna görə Sizə və Mehriban xanıma öz dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, Sizin regionlara səfəriniz hər bir Azərbaycan ailəsində böyük bayram əhval-ruhiyyəsi yaradır. Şübhəsiz ki, bu əhval-ruhiyyə xalqımızın Sizə olan böyük məhəbbətindən irəli gəlir. Xaçmazlılar Sizin hər bir səfərinizi diqqətlə izləyir və bundan qürur duyur. Rayonumuza səfəriniz

zamanı hər dəfə yeni tikililərin açılışını edirsiniz, rayonumuz daha da inkişaf edir. İndi rayonumuz gözəlləşir, cəlbedici, qonaq-qaralı olur. Rayonumuza il boyu gələn hər bir qonaq həm burada, həm bütün respublikada gedən yeniliklərə heyran olur. Mən şəhərimizi açıq səma altında yerləşən böyük bir muzeyə bənzədirəm. Burada xiyabanlar, parklar salınır, geniş küçələr, yollar göz oxşayır. Əlbəttə ki, bu, təkcə rayonun mərkəzi ilə kifayətlənmir, ən ucqar kəndlərimizdə belə, böyük inkişaf gedir. İnsanları narahat edən məsələlər öz həllini tapır. Xaçmazda yaşayıb-yaratmaq üçün hər bir şərait vardır. Xaçmazlılar bunu yaxşı görür və yüksək qiymətləndirirlər. Bunun üçün bir daha xaçmazlıların böyük minnətdarlığını Sizə çatdırıram, cənab Prezident.

Möhtərəm cənab Prezident, Xaçmaz gəncləri və idmançıları Sizi əmin edirlər ki, bu möhtəşəm kompleksin yetirmələri onlara bəxş etdiyiniz imkanlardan səmərəli istifadə edərək, gələcəkdə öz böyük nailiyyətləri ilə bütün xalqımızı sevindirəcəklər. Mən idmançılarımız adından demək istəyirəm ki, bizim bütün qələbələrimiz, sabaha baxışımız, gələcəyə inamımız Sizinlə bağlıdır. Biz həmişə Sizin ətrafınızda, Sizə bağlı olacağıq, cənab Prezident. Sizə uzun ömür, cansağlığı, idmançı ruhu arzulayıram. Allah Sizə işlərinizdə uğurlar gətirsin!

## Quba–Xaçmaz Regional İnkişaf Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Quba–Xaçmaz Regional İnkişaf Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. İqtisadi İnkişaf naziri Şahin Mustafayev prezident İlham Əliyevə məlumat verdi ki, mərkəzin tikintisi 2011-ci ildə başlanılmış, 2013-cü ilin iyulunda başa çatdırılmışdır. Mərkəz inzibati binadan, biznes-inkubatordan, sərgi, akt, konfrans və təlim zallarından, inzibati otaqlardan, yeməkxana və yardımçı tikililərdən ibarətdir. Mərkəzin qazanxana, nasosxana, transformator stansiyası, su anbarları, dizel-generator binaları da*

vardır. Ümumi ərazisi 1,5 hektar olan mərkəzin həyətyanı sahəsində geniş yaşıllıq və abadlıq işləri görülmüşdür.

Bildirildi ki, foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulan mərkəzin sərgi zalında «Quba–Xaçmaz iqtisadi rayonu: uğurlu regional siyasətin nəticələri» adlı sərgi yaradılıb. Sərgidə ulu öndər Heydər Əliyevin Quba–Xaçmaz iqtisadi rayonuna səfərlərini əks etdirən fotoguşə də vardır. Burada, həmçinin regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları çərçivəsində Quba–Xaçmaz iqtisadi rayonunda görülən işlər və əsas sosial-iqtisadi göstəricilər geniş əks olunub.

Mərkəzdə rayonun sosial-iqtisadi inkişafı üçün regionun mövcud potensialından səmərəli istifadə etməklə, prioritet istiqamətlər üzrə təkliflər hazırlanacaqdır. Burada rayon üzrə biznesin inkişafı, sahibkarlıq subyektləri arasında əlaqələrin və işgüzar əməkdaşlığın gücləndirilməsi üçün müxtəlif tədbirlər də təşkil olunacaqdır. Yerli istehsal, habelə sənətkarlıq məhsullarının nümayişi, sərgiyə çıxarılması və satışı ilə bağlı sahibkarlıq subyektlərinə müxtəlif təşkilati-məsləhət xidmətlərinin göstərilməsi də nəzərdə tutulub.

Qeyd olundu ki, mərkəzin ən mühüm istiqamətlərindən biri sahibkarlıq fəaliyyətinə başlayan gənclər və biznesini təkmilləşdirmək istəyən kiçik və orta sahibkarlar üçün davamlı maarifləndirmə işlərinin təşkili, konsaltinq və informasiya xidmətlərinin göstərilməsidir.

Bildirildi ki, 2003–2012-ci illər ərzində bu iqtisadi rayon üzrə 1091 müəssisə açılmış, 65 mindən çox yeni iş yeri yaradılmıdşır. Son 10 ildə iqtisadi rayonda 122 təhsil müəssisəsi tikilmiş, 32 səhiyyə müəssisəsi inşa edilmişdir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 33 yaşayış binası inşa edilmişdir. Bu illər ərzində turizm sahəsi də xeyli inkişaf etmişdir. Hazırda Quba–Xaçmaz iqtisadi rayonunda 100-dən çox mehmanxana və bu tipli obyekt fəaliyyət göstərir. Son 10 ildə 14 gənclər evi və idman müəssisəsi tikilib istifadəyə verilmişdir. Ötən 10 ildə Quba–Xaçmaz iqtisadi rayonunda yol və nəqliyyat infrastrukturu xeyli yaxşılaşdırılmışdır. 150 kilometr yeni yol çəkilmiş, 450 kilometr isə

əsaslı təmir olunmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalında da artım müşahidə olunmuşdur. Meyvə 1,4, ət istehsalı 2, süd istehsalı 1,2, yumurta istehsalı isə 1,7 dəfə artmışdır. Azərbaycanın iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. Dövlət tərəfindən ayrılan kreditlər və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə görülən işlər də özəl sektorun inkişafına çox böyük dəstəkdir. Son illər bu iqtisadi rayon üzrə 1321 sahibkara 109,7 milyon manat güzəştli kredit verilib. Bunun nəticəsində 8,4 min yeni iş yeri yaradılıb.

Prezident İlham Əliyevə biznes-inkubator barədə də ətraflı məlumat verildi. Diqqətə çatdırıldı ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramına əsasən biznes-inkubatorlar yaradılmışdır. Əsas məqsəd gənclər tərəfindən yeni biznes subyektlərinin qısa zamanda rəqabətqabiliyyətliliyinin və inkişafının təmin edilməsi, kiçik sahibkarlıq subyektlərinə olan dəstəyin nümayiş etdirilməsi vasitəsilə investisiya mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu proqram vasitəsilə gənc mütəxəssislərin potensialından səmərəli istifadə olunacaq, innovativ və perspektivli biznes sahələrinin inkişafı təmin ediləcəkdir.

Vurğulandı ki, binanın 276 nəfərlik konfrans zalında müxtəlif tədbirlər keçirmək üçün hər cür şərait yaradılıb. Mərkəzin inzibati otaqları işçilərin rahat fəaliyyət göstərməsi üçün ən son avadanlıqlarla təchiz olunub.

Biznes-inkubator bölməsi ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, layihədə iştirakçıların sayı 15 nəfərdir. Layihənin 24 ay ərzində həyata keçirilməsi planlaşdırılır. Bu müddətdə gənclər ilkin biznes vərdişlərinə yiyələnəcəklər. İnkubator bölməsində gənc sahibkarların fəaliyyəti üçün hər cür imkan yaradılıb. Mərkəzdə tədris otağı da fəaliyyət göstərəcəkdir.

Görülən işlərdən razılığını bildirən prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

# ŞABRAN RAYONUNA SƏFƏR

*19 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Şabran rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Şabran Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov abidə ətrafında görülən yenidənqurma, genişləndirmə və yaşıllaşdırma işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

## Şabran–Pirəbədil–Zeyvə avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Şabran–Pirəbədil–Zeyvə avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Şabran–Pirəbədil–Zeyvə yolunun əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan 7,5 milyon manat vəsait ayrılıb. Layihənin ümumi smeta dəyəri 9,3 milyon manatdır. Uzunluğu 36 kilometr, eni isə 8-10 metr olan avtomobil yolunun əsaslı təmiri 2012-ci ilin iyulunda başlanılmış, 2013-cü ilin iyununda başa çatdırılmışdır.*

*Azərbaycanda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolayrıcılarının tikilməsi, magistral yolların salınması sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından da mühüm əhəmiyyət kəsb edir.*

*Qeyd olundu ki, Şabran–Pirəbədil–Zeyvə yolu 4 min sakinin yaşadığı 11 məntəqəni, o cümlədən Taxtalar, Qələgah, Dağ*

*Bilici, Zöhramlı, Pirəbədil, Sumağova, Qorğan, Kilvar, Zeyvə, Mumlu və Sumağova–Qazma kəndlərini əhatə edir. Yol boyunca 25 su keçidi inşa olunmuşdur. Burada 14 metr uzunluğunda körpü də salınmışdır.*

*Yeni yolla tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Vəlvələçay–Taxtakörpü anbarının su ilə doldurulmağa başlanması mərasimi

*İyulun 19-da Şabrana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vəlvələçay–Taxtakörpü kanalının istifadəyə verilməsi və Taxtakörpü anbarının su ilə doldurulmağa başlanması mərasimində iştirak etmişdir.*

*Layihənin sifarişçisi «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə və layihəni həyata keçirən Avropa–Asiya İnşaat Korporasiyası «Evraskon» ASC-nin Direktorlar Şurasının sədri Əfəndi İsmiyev dövlətimizin başçısına Taxtakörpü Su Anbarı, Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–Ceyranbatan kanallarının inşasının gedişi barədə məlumat verdilər.*

*Bildirildi ki, uzunluğu 34 kilometrdən çox olan Vəlvələçay–Taxtakörpü kanalı vasitəsilə su Samur–Abşeron kanalının 50-ci kilometrindən götürülərək öz axını ilə Taxtakörpü anbarına veriləcəkdir. Bu məqsədlə 27 kilometrdən çox uzunluqda beton üzlüklü açıq kanal, onun üzərində baş qurğu, 2 min 547 metrlik 3 polad və 577 metrlik 2 dəmir-beton düker, 3 min 572 metr uzunluğunda tunel, 14 körpü, 28 selötürücü və 1 sutullayıcı qurğu tikilmişdir. Kanalın İslam İnkişaf Bankının vəsaiti hesabına maliyyələşdirilən 10,7 kilometr uzunluğunda birinci hissəsinin inşası 2011-ci ildə başa çatdırılmış və prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir. Kanalın Dövlət Neft Fondunun vəsaiti hesabına inşa edilən 23,54 kilometr uzunluğunda ikinci hissəsinin və onun sutullayıcı qurğusunun tikintisi*

də artıq başa çatdırılıb. Bu da Samur çayından götürülən suyun Taxtakörpü anbarında toplanmasına imkan verir.

Bildirildi ki, Vəlvələçay–Taxtakörpü kanalının tikintisinin yekunlaşdırılması Şabran rayonunda 9 min 250 hektar və Quba rayonunda 918 hektar mövcud suvarılan torpaqların suvarma suyu ilə təchizatının yaxşılaşdırılmasına, həmçinin Şabran rayonunda 8 min 866 hektar yeni suvarılacaq sahələrin istifadəyə verilməsi hesabına suvarılan torpaq sahələrinin artırılmasına imkan yaradır. Dövlətimizin başçısının iştirakı ilə 2007-ci ilin payızında təməli qoyulan Taxtakörpü su anbarının gölünün sahəsi 8,7 kvadratkilometr, ümumi su tutumu 268,4 milyon kubmetr və faydalı həcmi 238,4 milyon kubmetrdir. Bənddə qapısız sutullayıcı və suqəbuledici qurğular, enerji tuneli, su-elektrik stansiyasının binası və ümumi gücü 25 meqavat təşkil edəcək 3 turbinin quraşdırılması nəzərdə tutulub.

Qeyd edildi ki, indiyə qədər su anbarı bəndinin gövdəsində tələb olunan 23,48 milyon kubmetr torpaq işlərindən 23,26 milyon kubmetri yerinə yetirilmiş və onun üzərindəki qurğularda, eləcə də su-elektrik stansiyasında son tamamlama işləri həyata keçirilir. Su anbarının su-elektrik stansiyası ilə birlikdə tikintisi 2013-cü ilin sentyabr ayında başa çatdırılacaqdır.

Dövlətimizin başçısına Taxtakörpü–Ceyranbatan kanalının tikintisinin gedişi barədə də məlumat verildi. Diqqətə çatdırıldı ki, bu hidrotexniki qurğunun inşasında məqsəd Samur–Abşeron kanalı üzərində nasos stansiyalarını ləğv etməklə, saniyədə 40 kubmetr suyu öz axını ilə Ceyranbatan su anbarına çatdırmaqdır. Kanalda 9 düker, 2 akveduk, 1 tunel, 50 körpü, 231 selötürücü, 1 sutullayıcı qurğu inşa ediləcəkdir. Həmin hidrotexniki qurğunun da tikintisinin 2013-cü ilin sentyabrında başa çatdırılması nəzərdə tutulmuşdur.

Vurğulandı ki, ümumilikdə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi ilə Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadasının suya olan tələbatını yaxşılaşdırmaqla, saniyədə 18 kubmetr su veriləcək, eləcə də respublikanın şimal zonasında ekoloji tarazlıq təmin

*olunacaqdır. Bundan başqa, bu mükəmməl layihə ölkənin şimal bölgəsi rayonlarında 150 min hektar sahədə torpaqların su təminatının yaxşılaşdırılmasına və 30 min hektara qədər yeni suvarılacaq sahələrin əkin dövriyyəsinə verilməsinə imkan yaradacaqdır.*

*Prezident İlham Əliyev düyməni basdı. Vəlvələçay–Taxtakörpü kanalı ilə Taxtakörpü anbarına suyun verilməsi başlandı.*

*Dövlətimizin başçısı «onlayn» rejimdə Vəlvələçay–Taxtakörpü kanalı ilə Taxtakörpü anbarına suyun verilməsini və Taxtakörpü anbarının bəndində son tamamlama işlərinin gedişini izlədi.*

*Prezident İlham Əliyev bu nəhəng layihənin icrasının uğurla tamamlanması üçün tapşırıq və tövsiyələrini verdi.*

## Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Şabrandakı Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycanın əksər bölgələrində olduğu kimi, Şabranda da yeni yaradılmış Bayraq Meydanı və burada ucaldılan Dövlət bayrağı möhtəşəmliyi ilə diqqəti cəlb edir. Bu Bayraq Meydanı da ölkəmizdə dövlət atributlarına hörmət və ehtiramın ən yüksək səviyyədə olmasının daha bir əyani sübutudur. Şabrandakı Bayraq Meydanı da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.*

*Bildirildi ki, bayraq dirəyinin hündürlüyü 26 metrdir. Meydan Şabranın giriş hissəsində yerləşir. Ərazidə geniş abadlıq işləri aparılmış, yaşıllıq salınmışdır. Əhalinin istirahəti üçün hər cür şəraitin yaradıldığı meydanda müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Diqqətə çatdırıldı ki, meydan inşa olunarkən burada Azərbaycan memarlıq məktəbinin elementlərindən geniş istifadə edilmişdir. Bayraq Meydanındakı binada Azərbaycanın dövlət atributları, Şabran rayonunun emblemi və qədim xəritəsi, üçüncü mərtəbədə bölgənin xalçaçılıq sənətinin tarixi ilə bağlı*

*ekspozisiya, dördüncü mərtəbədə «Xınayaxdı» folklor xalq kollektivinin dekorativ xalq tətbiqi sənəti nümunələri, beşinci mərtəbədə rayonun həvəskar rəssamlarının yağlı boya ilə çəkilmiş əsərləri nümayiş etdirilir.*

*Dövlətimizin başçısına görüləcək növbəti işlər barədə məlumat verildi.*

## Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatının inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 19-da Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevə məlumat verildi ki, binanın tikintisinə 2011-ci ilin dekabrında başlanılmış və inşaat işləri 2013-cü ilin iyulunda yekunlaşdırılmışdır. Binanın ətrafında əsaslı abadlıq işləri aparılmış və yaşıllıqlar salınmışdır.*

*Ümumi sahəsi 735 kvadratmetr olan ikimərtəbəli binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Buradakı fotostendlərdə ümummilli liderin və prezident İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən partiyanın fəaliyyəti ilə bağlı gördükləri işlər öz əksini tapıb. Binadakı otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.*

*Qeyd olundu ki, binada informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xüsusi diqqətdə saxlanılmış, bütün otaqlar lazımi avadanlıqla təchiz edilmişdir. Müasir havalandırma sisteminin quraşdırıldığı binada 90 nəfərlik konfrans salonu da vardır.*

*İnzibati binada yaradılan iş şəraiti ilə tanış olan prezident İlham Əliyev buradan şəhərin mənzərəsini seyr etdi, rayon mərkəzinin genişləndirilməsinə dair tapşırıqlarını verdi.*

## ŞABRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 iyul 2013-cü il*

Sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Doğrudan da böyük hadisədir, tarixi hadisədir. Şabran şəhərinə suyun verilməsini qeyd edirik və bir daha demək istəyirəm ki, bu hadisə böyük əhəmiyyətə malikdir. Çünki içməli su insan üçün, insanın sağlamlığı üçün ən vacib amildir. Mən şadam ki, indi Azərbaycanın bütün bölgələrində içməli su və kanalizasiya layihələri icra edilir. Bəzi yerlərdə bu layihələr artıq başa çatıb, bəzi yerlərdə hələ ki, icra edilir və yaxın 2-3 il ərzində ölkəmizin hər bir şəhərində təmiz içməli su layihələri istismara veriləcəkdir.

Bu, tarixi layihədir, tarixi əhəmiyyətə malikdir. Çünki əsrlər boyu su problemi bizim insanları incidirdi, su qıtlığı yaşanırdı. Müxtəlif dövrlərdə layihələr icra edilmişdir. Ancaq sonra bu layihələrin imkanları tələbatımızı ödəmirdi. Çünki ölkə inkişaf edir, əhali artır. İndi artıq Azərbaycanın 9 milyon 400 min əhalisi vardır və tələbat artdıqca, əlbəttə ki, biz yeni layihələrin icrasına da başlamalıyıq və bunu edirik. Bu proses Bakı şəhərində, böyük şəhərlərdə çox geniş vüsət almışdır. Hər bir şəhərdə içməli su-kanalizasiya layihələri icra edilir.

İnsanların sağlamlığı ən başlıca vəzifədir. Sağlamlığı təmin etmək üçün müxtəlif kompleks tədbirlər görülür. İlk növbədə, içməli su təminatına diqqət yetirilir. Özü də bu içməli su Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğundur, yəni təmizdir, keyfiyyətlidir. Tibbi xidmət, əlbəttə ki, çox vacibdir və bu məsələ də öz həllini tapır. Ekoloji tədbirlər, idman, digər

amillər. Ancaq onların içində içməli su birinci yerdədir. Biz bu layihənin səmərəsini görəcəyik, gələcək nəsillər də görəcəkdir. Mən çox şadam ki, Şabranda artıq bu layihə tamamilə hazırdır, içməli su və kanalizasiya layihələri istifadəyə verilir. Əlbəttə ki, bu kimi layihələr ölkəmizin imkanlarını göstərir. Müstəqil Azərbaycan dövləti bu layihələri icra etməyə qadirdir. Biz 20 ildən bir qədər çox müstəqilik. Müstəqilliyin bəhrələrini hər bir Azərbaycan vətəndaşı görür. Bizim taleyimiz öz əlimizdədir və ölkəmiz, xalqımız üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik.

Şabran rayonunda digər böyük layihələr icra edilir. Deyə bilərəm ki, ölkə miqyasında və qeyri-neft sektorunda ən iri layihələrdən biri olan Taxtakörpü Su Anbarı layihəsi icra edilir. Bu gün biz Vəlvələçay–Taxtakörpü su kanalının açılışını qeyd etdik. Artıq Taxtakörpü gölünə suyun doldurulması başlanmışdır. Bu da ölkə miqyasında nəhəng layihədir, 180 min hektar sahəni əhatə edəcəkdir. 180 min hektarda suvarma yüksək səviyyədə təşkil ediləcək, 30 min hektar sahəyə isə yenidən su veriləcəkdir. Yəni bu, kənd təsərrüfatının inkişafına, fermerlik fəaliyyətinə təkan verəcək, nəticədə ölkənin qeyri-neft sektoru inkişaf edəcəkdir. Bizim daxili tələbatımızı öz hesabımıza təminetmə prinsipi təmin ediləcəkdir. Yəni bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Taxtakörpü Su Anbarı, su-elektrik stansiyası, kanallar nəhəng infrastruktur layihələridir. Ancaq güclü dövlətlər belə layihələri icra edə bilər. Azərbaycanda nəhəng layihələr icra edilir. Bu bir tərəfdən, ölkəmizin gücünü göstərir, digər tərəfdən, dövlət siyasətini əks etdirir. Çünki bu layihələr insanların rahat yaşaması üçün icra edilir. Bu elə layihələrdir ki, buraya qoyulan vəsait dövlətə birbaşa qayıdan vəsait deyildir. Bu yalnız insanlara şərait yaratmaq, xidmət göstərmək və biznes imkanlarını genişləndirmək üçün nəzərdə tutulmuşdur. Yaxın aylarda Taxtakörpü gölündə suyun səviyyəsi tamamilə təmin ediləcəkdir və bu nəhəng layihə istismara veriləcəkdir. Bu layihə onilliklər, yüzilliklər bundan sonra da bizə xidmət edəcəkdir.

Bu gün səhər biz kənd yolunun istismara verilməsini də qeyd etdik. Bu da çox vacib layihədir. İndi Zeyvə kəndinə qədər uzanan yol müasir standartlara cavab verir və bu da bizim niyyətimizi göstərir. Kənd yollarının tikintisi ölkəmizdə, o cümlədən Şabran rayonunda geniş vüsət almışdır. Kəndlərdə yaşayan insanlar da normal imkanlardan istifadə etməlidirlər. Kənd yolları vacib məsələdir, insanların rahatlığı, hər bir rayonun inkişafı üçündür.

Bax, bir gündə Şabranda qeyd olunan hadisələr onu göstərir ki, ölkəmiz nə qədər hərtərəfli inkişaf edir. Həm sosial layihələr, infrastruktur layihələri icra edilir, həm də şəhər abadlaşır, yeni parklar salınır. Mən buna çox sevinirəm, bunu təqdir edirəm. Hər bir yerdə, hər bir şəhərdə ictimai yerlər yaradılmalıdır – parklar, bağçalar, xiyabanlar ki, ictimaiyyət onlardan istifadə etsin və Şabranda da bu işlər gedir. Burada gələcəkdə Diyarşünaslıq Muzeyinin tikintisinə böyük ehtiyac vardır. Çünki Şabran qədim yaşayış yeridir, burada arxeoloji qazıntılar da aparılıb və aparılır. Çox qədim tarixə malik olan bir diyardır və mütləq müasir Diyarşünaslıq Muzeyi də yaradılmalıdır, bu gün müvafiq göstərişlər verilmişdir.

Bu gün sizinlə bərabər bu gözəl hadisəni qeyd edirik və bu hadisə münasibətilə sizi təbrik edirəm.

**A ğ a ş i r i n B a ğ ı r o v** *(rayon sakini):* Möhtərəm cənab Prezident! Şabrana xoş gəlmisiniz! Biz Sizi rayonumuzun camaatı adından səmimi-qəlbdən təbrik edirik və salamlayırıq. Cənab Prezident, bu gün rayonumuzun həyatında olduqca əlamətdar günlərdən biridir. Bu müqəddəs Ramazan günlərində Siz bizim camaata içməli su, şəfalı su verirsiniz. Su isə həyat və sağlamlıq deməkdir.

Biz televiziyadan izləyirik. Siz mütəmadi olaraq bölgələrdə, rayonlarda içməli su layihələrinin açılışlarında iştirak edirsiniz. Vaxtınızın çox məhdud olmasına baxmayaraq, şəxsən özünüz bu açılışlarda iştirak edirsiniz. Xalqın sevincli, şad saatlarında onlarla birlikdə olursunuz. Bununla Siz xalqa çox doğma olursunuz. Bu işinizlə, cənab Prezident, Siz mehribanlığınızı büruzə verirsiniz.

Bu yaxınlarda Ağstafa şəhərində içməli su xəttinin açılışında iştirak edirdiniz. İnanın, möhtərəm Prezident, insanların gözündə, mimikasında o xoşbəxtliyi, o məmnunluğu görməmək mümkün deyildi. Siz o insanları məmnun etdiniz. Bu xoşbəxtliyi bu gün bizə bəxş edirsiniz. Yüksək diqqət və qayğınız nəticəsində şəhərimizin 26 min nəfərlik əhalisi daimi içməli su ilə təmin olunur. Bu həm də şəhərimizin içməli su, kanalizasiya probleminin növbəti 50 il müddətində təminatı deməkdir. Buna görə Sizə rayonumuzun sakinləri adından dərin minnətdarlığımızı, təşəkkürümüzü bildirirəm.

Möhtərəm cənab Prezident, ölkəmizin hər bir bölgəsində olduğu kimi, bu gün bizim rayonumuz da inkişaf edir, böyüyür, gözəlləşir. Qədim Şabranımız bu gün müasirləşir, yeniləşir, yeni-yeni park və xiyabanlar açılır, yeni müəssisələr istifadəyə verilir, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün yeni binalar tikilir. Ən ucqar dağ kəndlərimizə yollar çəkilir. Son 10 ildə ölkəmizdə baş verən müsbət dəyişikliklər hamımızın ürəyində böyük iftixar hissi yaradır. Azərbaycanın dünyada qüdrəti artır. Elə bu yaxınlarda Bakıda keçirilən paradda Siz Azərbaycanın hərbi, iqtisadi gücünü bir daha dünyaya nümayiş etdirdiniz, cənab Prezident!

Bu bizim qəlbimizdə böyük fəxarət doğurur. Biz bugünkü firavan günümüzü, sabahkı xoşbəxt gələcəyimizi görüb sevinirik, cənab Prezident!

Sizin nəcib əməlləriniz, fəaliyyətiniz barədə hər yerdə danışılır, övladlarımızın dilindən düşmür, bizi qəlbən sevindirir. Bilirsiniz ki, biz ziyalılar həmişə Sizinlə olmuşuq, açığını deyirəm, bu, sirr deyil, növbəti seçkilərdə də Sizinlə olacağıq, Sizə səs verəcəyik, Sizi seçəcəyik.

Çünki biz bugünkü firavan həyatımızın, xoşbəxt gələcəyimizin davamını görmək istəyirik. Buna isə yalnız Siz qadirsiniz, möhtərəm cənab Prezident! Sizə inanırıq, Sizə güvənirik, Sizdən ilham alırıq. Allah Sizi qorusun!

* * *

*Sonra Azərbaycan prezidenti videoçarx və stendlər vasitəsilə milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə çərçivəsində Şabranda həyata keçirilən tədbirlərlə tanış oldu.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına məlumat verdi ki, Şabran rayon mərkəzinin əhalisini içməli su ilə təmin etmək üçün layihəyə əsasən su mənbəyi kimi, ikinci Bakı su kəməri nəzərdə tutulmuşdur. Bu məqsədlə 134 min 800 metrlik su xəttinin və 122 min 700 metr kanalizasiya xəttinin çəkilməsi, 100 kubmetrlik sutəmizləyici qurğunun nasos stansiyası ilə birlikdə tikintisi, 2 min kubmetrlik su anbarının nasos stansiyası ilə birlikdə inşası, 700 kubmetrlik və 1000 kubmetr həcmində su anbarlarının, həmçinin çirkab su nasos stansiyası və gücü 29 min əhali ekvivalenti olan çirkab sutəmizləyici qurğunun inşası planlaşdırılır.*

*Bildirildi ki, 2010-cu ilin dekabrında Fransanın «SADE» və ölkəmizin «RAMKO» şirkətləri ilə bağlanan müqavilə əsasında Şabran rayon mərkəzinin su təchizatı və kanalizasiya şəbəkələrinin bərpası və tikintisinə başlanılmışdır. İndiyədək 145 min 879 metr su, 129 min 356 poqonometr kanalizasiya xətti çəkilmiş, 5 min 766 ev kanalizasiya xəttinə birləşdirilmişdir.*

*Diqqətə çatdırıldı ki, suyun şəhər əhalisinə verilməsi üçün 100 kubmetrlik tənzimləyici anbarın, həcmi 700, 1000 və 2000 kubmetr olan su anbarlarının və çirkab su nasos stansiyasının tikintisi üzrə işlər artıq tam başa çatıb. Gücü 29 min əhali ekvivalenti olan çirkab sutəmizləyici qurğunun daha müasiri ilə əvəz olunması üçün layihədə dəyişiklik edilib. Qurğunun tikintisi davam etdirilir. Layihənin həyata keçirilməsi ilə Şabran şəhərinə gün ərzində adambaşına 180 litr su verilməklə, əhalini 24 saat ərzində daimi içməli su ilə təmin etmək mümkün olacaqdır.*

*Prezident İlham Əliyev yeni xətlə rayon mərkəzinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

* * *

*Mərasimdən sonra prezident İlham Əliyev Qurtuluş parkı ilə tanış oldu. 1 hektar ərazidə orijinal layihə əsasında salınan park əhalinin ən çox üz tutacağı istirahət mərkəzlərindən biri olacaqdır. Burada quraşdırılan fəvvarə də orijinal layihəsi ilə fərqlənir. Əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılmış parkda əhalinin yaşa görə bütün təbəqələrinin mənalı istirahəti üçün hər cür şərait yaradılıb. Parkın işıqlandırma sistemi də orijinallığı ilə seçilir.*

# RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Müqəddəs Ramazan ayında bizim görüşlərimiz gözəl ənənəyə çevrilib. Mən sizi görməyimə çox şadam. Keçən ilin avqust ayında da görüşmüşdük, il ərzində müxtəlif tədbirlərdə də bir yerdə oluruq. Mən çox şadam ki, müsəlman ölkələrinin səfirləri bizim mərasimlərimizdə fəal iştirak edirlər. Xüsusilə də qədim məscidlərimizin təmirdən sonra açılışlarında iştirak edirlər. Bibiheybət, Təzəpir, Əjdərbəy məscidlərinin açılışlarında bərabər idik. Bu ilin may ayında Azərbaycanın və müsəlman aləminin ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidinin əsaslı təmirdən sonra açılışında da biz bərabər idik.

Bu məsələlər bizi daha da birləşdirir və islam aləmində qarşılıqlı anlaşmanı gücləndirir. Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Ölkələrimiz dost, qardaş ölkələrdir. Mən çox şadam ki, müsəlman ölkələrinin səfirliklərinin sayı Azərbaycanda artır. Biz də öz növbəmizdə diplomatik nümayəndəliklərimizi müsəlman ölkələrində artırırıq. Siyasi əlaqələr çox yüksək səviyyədədir. İqtisadi

sahədə də inkişaf vardır. Hesab edirəm ki, gələcək illərdə iqtisadi sahədə əməkdaşlığa daha da böyük diqqət verilməlidir. Ölkələrimiz beynəlxalq təşkilatlarda da uğurla fəaliyyət göstərirlər, bir-birinə dəstək olurlar, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində bir-birini daim dəstəkləyirlər. 2 il əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsində müsəlman ölkələrinin səyi çox əhəmiyyətli idi. Biz bu dəstəyə görə minnətdarıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də biz daim müsəlman ölkələrinin dəstəyini hiss edirik. Xocalı soyqırımını soyqırımı kimi tanıyan ölkələrin sayı artmaqdadır. Xocalı soyqırımını tanıyan ilk müsəlman ölkəsi Pakistan olmuşdur. Bildiyiniz kimi, uzun illərdir Azərbaycan erməni işğalından əziyyət çəkir. Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşmüşdür. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıbdır. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş ərazilərə 2 dəfə baş çəkibdir. Qeyd edib ki, hər şey dağıdılıb. Bütün binalar, ictimai obyektlər, tarixi abidələr, qəbirlər, məscidlər – hər şey ermənilər tərəfindən dağıdılıb. Münaqişənin həlli üçün beynəlxalq hüquq normaları vardır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır və bu qətnamələr qeyd-şərtsiz icra edilməlidir. Bir daha demək istəyirəm ki, bizim mövqemizə verdiyiniz dəstəyə görə sizə minnətdaram.

Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi işinə də öz töhfəsini verir və gələcəkdə bunu davam edəcəkdir. Son illər ərzində İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanda nazirlər səviyyəsində 5 konfrans keçirilmişdir. Bu yaxınlarda Bakıda Fələstinə yardım məqsədi ilə donor konfransı keçirilmişdir. Biz bu sahədəki səylərimizi bundan sonra da davam etdirəcəyik. İslam Əməkdaşlıq Təşkilatının Azərbaycana verdiyi dəstək, Azərbaycanda görülmüş işlərə verdiyi qiymət bizi sevindirir və ruhlandırır. Azərbaycan gənc müstəqil ölkə olmasına baxmayaraq, islam həmrəyliyi məsələlərində çox fəaldır. Biz bundan sonra da çalışacağıq ki, islam aləmində birliyi daha da möhkəmləndirək.

Buna böyük ehtiyac var, çünki bizim gücümüz birliyimizdədir. Biz daim bütün məsələlərdə bir-birimizə dəstək verməliyik.

Biz çalışırıq ki, dünyada mədəniyyətlərarası məsələlərdə də müsbətə doğru irəliləyiş olsun. Bildiyiniz kimi, Azərbaycanda bu istiqamətdə işlər məqsədyönlü şəkildə aparılır. Artıq 5 ildir ki, Bakı prosesi davam edir. Bu proses 2008-ci ildə başlayıb. O vaxt biz Avropa Şurasına üzv ölkələrin nazirlərinin toplantısına müsəlman ölkələrinin nazirlərini dəvət etmişdik. Beləliklə, ilk dəfə olaraq İslam Əməkdaşlıq Təşkilatını və Avropa Şurasını təmsil edən nazirlər bir araya gəlmişlər. Sonra 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə burada keçirilən konfransa biz Avropa Şurasına üzv ölkələrin nazirlərini dəvət etdik. Bildiyiniz kimi, son illər Bakıda 2 dəfə Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Hesab edirik ki, belə tədbirlərin keçirilməsində böyük fayda və böyük ehtiyac var. Bizə görə müxtəlif dinlərə mənsub olan xalqlar, millətlər sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər və yaşamalıdırlar da. XXI əsrdə ayrı-seçkiliyə, diskriminasiyaya yol vermək olmaz. Bəzi ölkələrdə islamofobiya meyillərinin gücləndirilməsi bizi haqlı olaraq narahat edir və hiddətləndirir. Bu meyillərə qarşı biz birgə mövqe ortaya qoymalıyıq və səylərimizi daha da birləşdirməliyik. İslam dininin sülhsevər, mərhəmətli din olduğunu dünyada təbliğ etməliyik. Bu məqsədlə Azərbaycan müxtəlif beynəlxalq tədbirlər də həyata keçirir. Keçən il dünyanın ən məşhur muzeyi olan Luvr Muzeyində «İslam mədəniyyəti» bölməsi açılmışdır. Biz fərəh hissi ilə deyə bilərik ki, Azərbaycan bu bölmənin yaradılmasına öz töhfəsini vermişdir. Azərbaycan ilk müsəlman ölkəsidir ki, Vatikanda sərgi keçirmişdir. Biz bu istiqamətdə səylərimizi daha da sıx birləşdirməliyik və birgə fəaliyyət göstərməliyik. Öz tariximizi, dinimizi, adət-ənənələrimizi olduğu kimi dünyaya daha dolğun şəkildə təqdim etməliyik.

Əziz dostlar, mən bir daha sizi bu gözəl gündə salamlayıram. Xahiş edirəm ki, Ramazan ayında mənim səmimi salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

**H ə s ə n H a m i** *(Mərakeş Krallığının Azərbaycandakı səfiri):* Zati-aliləri cənab İlham Əliyev! Bizi – islam ölkələrinin Azərbaycanda akkreditə olunmuş səfirlərini və müvəqqəti işlər vəkillərini qəbul etməyinizdən şərəf duyuruq. Biz Ramazan ayı, həmçinin qarşıdan gələn fitrə bayramı münasibətilə Sizə ən xoş arzularımızı çatdırmaq istərdik. Allah Sizi, ailənizi və qardaş Azərbaycan xalqını qorusun.

Biz ölkələrimizi Azərbaycanda təmsil edirik, biz, diplomatik elçilər Sizin gözəl ölkənizdə müxtəlif sahələrdə çox böyük inkişafın şahidi olmağımızdan məmnunluq hissi keçiririk.

Ölkənizin iqtisadiyyatı inkişaf edir. Azərbaycan davamlı artım tempinə malikdir, bu gün dünyanın ən sürətlə inkişaf edən ölkələri sırasındadır. Bütün sahələrdə uğurlu layihələrin həyata keçirilməsini görmək olar. İnfrastruktur inkişaf edir və bütün bunlara bir neçə ildə nail olunmuşdur. Bu, sözün əsl mənasında, heyrətamiz nailiyyətdir.

Zati-aliləri, biz şəxsən Sizin və hökumətinizin Azərbaycanın zəngin mədəniyyətinə və sivilizasiyasına sadiq qalaraq ölkənin daha da müasirləşdirilməsi istiqamətində fəaliyyətinizi təqdir edirik. Son 5 il ərzində Bakı mədəniyyətlər və sivilizasiyalar arasında dialoq mövzusuna həsr edilən beynəlxalq konfransların, seminarların və iclasların keçirildiyi dostluq şəhərinə çevrilmişdir. Bu həqiqətən, möhkəm təməllər üzərində qurulmuş siyasətdir. Bu siyasət xalqları dialoqa, təcrübə mübadiləsinə, birlikdə universal sivilizasiya qurmağa dəvət edir.

Xarici müşahidəçilər tarixi İpək yolunun bərpası işinə Azərbaycan xalqının həssas münasibətini və şəxsən Sizin müdrik rəhbərliyiniz altında hökumətinizin sadiqliyini xüsusi vurğulayırlar. Biz qarşıdan gələn illərdə Azərbaycanın 2 böyük idman tədbirinə – 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarına, 2015-ci ildə isə ilk Avropa Olimpiya oyunlarına ev sahibliyi etməsindən məmnunluq hissi duyuruq. Əminik ki, ölkəniz bu tədbirləri də 2012-ci ildə «Eurovision» mahnı müsabiqəsinin təşkilində olduğu kimi, uğurlu və yaddaqalan edəcəkdir.

Azərbaycan mehriban qonşuluq, xoşməramlı danışıqlar, məsələlərin dialoq yolu ilə həlli istəyi prinsipinə söykənən müdrik siyasəti sayəsində inkişaf edir. İslam Əməkdaşlıq Təşkilatının üzvü olaraq, ölkələrimiz Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstəyini bir daha ifadə edir, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, danışıqlar yolu ilə həllini arzulayır.

Zati-aliləri, icazə verin, bir daha Sizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına tərəqqi və çiçəklənmə arzulayaq. Təşəkkür edirəm.

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD VAHİDƏ**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Maldiv arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Maldiv xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2013-cü il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

Əlahəzrət!

Taxta çıxmağınız münasibətilə Sizi öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Belçika arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. İnanıram ki, dostluq əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Belçika xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2013-cü il*

# MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ JURNALİSTLƏR ÜÇÜN TİKİLMİŞ BİNANIN MƏNZİLLƏRİNİN PAYLANMASI MƏRASİMİ

*Səbail rayonu*

*22 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Milli Mətbuat Günü münasibətilə jurnalistlər üçün tikilmiş binanın mənzillərinin paylanması mərasimində iştirak etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısı binanın texniki-iqtisadi göstəricilərini əks etdirən stendə baxdı.*

*Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlətimizin başçısına məlumat verdi ki, 2 blokdan və 17 mərtəbədən ibarət binanın ümumi yaşayış sahəsi 17 min 600 kvadratmetrdir. Qeyd edildi ki, bina qısa müddətə və yüksək keyfiyyətlə inşa olunub. Ümumi sahəsi 22 min kvadratmetrə yaxın olan binanın həyətində geniş abadlıq-quruculuq işləri görülmüş, həyətdə uşaq meydançası quraşdırılmış, müxtəlif attraksionlar qoyulmuşdur. Binanın 354 saylı elektron ATS-i, 2 su anbarı vardır.*

*Sonra prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, hörmətli jurnalistlər, mətbuat işçiləri!

İlk növbədə, sizi peşə bayramınız münasibətilə ürəkdən təbrik etmək istəyirəm, sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Bu bayram günündə biz gözəl binanın açılışında toplaşmışıq. Jurnalistlər üçün tikilmiş ev bu gün istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Deyə bilərəm ki, bu təşəbbüs dünya praktikasında ilk dəfədir ki, reallaşır. Şadam ki, Azərbaycan bu sahədə də öz liderliyini göstərir. Bildiyiniz kimi, jurnalistlərin peşəsi çox ağırdır, məsuliyyətlidir. Ancaq jurnalistlərin əksəriyyəti aldıqları maaşla bu cür binada mənzil ala bilməzdi. Bu məqsədlə və eyni zamanda, öz sahəsində peşəkarlıq göstərmiş, uzun illər mətbuatda çalışmış jurnalistləri mükafatlandırmaq üçün hesab edirəm ki, bu təşəbbüs ən məqbul yol idi. Mətbuat işçiləri ilə görüşlərimin birində jurnalistlər tərəfindən irəli sürülmüş bu təşəbbüsə dərhal dəstək verildi və qısa müddət ərzində belə gözəl, yaraşıqlı bina tikildi. Əminəm ki, bu binanın ətrafında gələcəkdə böyük bir kompleks yaranacaq. Çünki binanın yerləşməsi də çox gözəldir, buradan Dövlət bayrağına gözəl mənzərə açılır, bu sahələr abadlaşacaq və burada yeni infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur. «Bakı Art City», yəni incəsənət şəhərciyi yaradılacaqdır. Böyük Su İdmanı Sarayı tikilir. Bu zonada bu binadan sonra tikinti-quruculuq işləri sürətlə gedəcək və əminəm ki, biz gələcəkdə belə mərasimlərdə sizinlə yenə görüşəcəyik.

Bildiyiniz kimi, bu evdə mənzil alan jurnalistlərin arasında müxtəlif mətbu orqanların nümayəndələri, müxtəlif siyasi baxışlara malik olan insanlar vardır. Bu da təbiidir və bu təşəbbüs, burada aparılan bölgü bir daha göstərir ki, Azərbaycanda heç bir sahədə ayrı-seçkiliyə yol verilmir və yol verilməməlidir. Məhz buna görə hesab edirəm ki, cəmiyyətdə çox sağlam mühit, sağlam ab-hava vardır. Əlbəttə ki,

jurnalistlərin peşəkarlığı, onların ictimai rəydəki fəaliyyəti bu sağlam ab-havanı daha da sağlam edəcəkdir.

Azərbaycanda söz azadlığı tam şəkildə təmin edilib. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyev tərəfindən senzuranı ləğv etməklə bağlı irəli sürülmüş təşəbbüs azad mətbuata təkan verdi. Çünki senzura olan bir ölkədə azad mətbuatdan söhbət gedə bilməzdi. Hesab edirəm ki, məhz o gündən başlayaraq Azərbaycanda azad mətbuatın tam formalaşması başlamışdır və bu gün Azərbaycanda söz azadlığı tam şəkildə təmin edilir. Yüzlərlə mətbu orqan sərbəst fəaliyyət göstərir, senzuradan söhbət gedə bilməz. Azərbaycan müasir texnologiyaların tətbiqində də öz sözünü deyir. Bildiyiniz kimi, bu gün internet jurnalistikası da sürətlə inkişaf edir, o cümlədən də bizdə. Azərbaycanda internet tam azaddır.

İnternetin yayılması sürətlə gedir, dövlət proqramları icra edilir, o cümlədən Dövlət Neft Fondu tərəfindən genişzolaqlı internet xətlərinin hər bir şəhərə gətirilməsi layihəsi də icra ediləcək. İnternet istifadəçilərinin sayı 70 faizdən çoxdur.

Belə olan halda biz tam əminliklə deyə bilərik ki, Azərbaycanda söz azadlığı maksimum dərəcədə təmin edilir. Bu belə də olmalıdır. Çünki biz müasir dövlət qururuq, biz inkişaf etmiş ölkəyə çevrilməliyik və belə olan halda bütün meyarlar Azərbaycanda yüksək səviyyədə olmalıdır. İqtisadi, sosial və ictimai proseslərin gedişatı da mütərəqqi meyarlar üzərində qurulmalıdır.

Azərbaycanda azad jurnalistikanın rolu çox böyükdür. Ölkəmizdə demokratik cəmiyyətin formalaşmasında jurnalistikanın çox böyük rolu vardır və bu rolu mən yüksək qiymətləndirirəm. Əminəm ki, gələcəkdə də Azərbaycanda söz azadlığı və bütün başqa azadlıqlar təmin ediləcəkdir. Azərbaycanda demokratiyanın inkişafında böyük addımlar atılır, bütün azadlıqlar vardır – söz azadlığı, sərbəst toplaşmaq azadlığı. Bax, bu yaxınlarda icazəli mitinqlərin keçirilməsi üçün yer nəzərdə tutulubdur və gələcəkdə jurnalistlərin bu mitinqləri işıqlandırması üçün böyük problem olmaz, balkondan müşahidə etmək olar. Azərbaycanda

bütün digər azadlıqlar – vicdan azadlığı, din azadlığı tam təmin edilibdir. Beynəlxalq təşkilatlar Azərbaycanda bu sahədəki işlərə yüksək qiymət verirlər. Yəni müasir dövlət prinsipləri elə olmalıdır ki, biz hər bir sahədə qabağa gedək, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edək və ölkəmizi inkişaf etdirək. Bu gün müstəqil Azərbaycan dövləti, sözün əsl mənasında, hərtərəfli inkişaf edir və ictimai proseslərin müsbət istiqamətdə getməsi, əlbəttə ki, bizim gücümüzü artırır.

Jurnalistlərin məsuliyyəti də daim müzakirə mövzusudur. Xüsusilə azad mətbuat olan halda jurnalistlərin məsuliyyəti ön plana çıxır. Mən şadam ki, son illər bu istiqamətdə də müsbətə doğru irəliləyiş vardır, jurnalistlər öz məsuliyyətini daha da dolğun şəkildə dərk edirlər, mətbuatda gedən, həqiqəti əks etdirməyən təhqiramiz yazılara da az-az rast gəlmək olur. Bu da jurnalistlərin məsuliyyətindən xəbər verən amillərdir. Müasir cəmiyyətdə, internet dövründə hər hansı bir yalan məlumatın ömrü uzun ola bilməz. Ona görə jurnalistlərin məsuliyyəti hesab edirəm ki, gələcəkdə də daim diqqət mərkəzində olmalıdır. Bilirəm ki, jurnalist ictimaiyyəti, Mətbuat Şurası bu məsələləri daim diqqət mərkəzində saxlayır. Necə ki, hər bir insan qanun qarşısında, cəmiyyət qarşısında məsuliyyət daşıyır, əlbəttə, jurnalistlər də bu məsuliyyəti daşımalıdırlar və onların məsuliyyəti bəlkə daha da böyük olmalıdır.

Mən jurnalistlərin peşəkarlığı ilə bağlı heç bir şey demək istəmirəm. Bilirəm ki, siz özünüz bu məsələlərlə bağlı vaxtaşırı danışırsınız, yeni təkliflər irəli sürülür. Hesab edirəm ki, dövlət də bu istiqamətdə öz dəstəyini verə bilər. Əgər dövlət tərəfindən hansısa bir əlavə tədbir görülməlidirsə, biz bunu görəcəyik ki, peşəkarlıq artsın. Azərbaycanda gənc peşəkar jurnalist kadrların hazırlanması daha da sürətlə getsin. Əlbəttə ki, jurnalistlərin vətənpərvər olmaları da hesab edirəm ki, çox vacib məsələdir. Bütövlükdə Azərbaycan jurnalistikası öz dövlətinə, xalqına, dövlətçiliyinə bağlıdır. Siyasi baxışlardan asılı olmayaraq, əksər hallarda dövlətin maraqları üstünlük təşkil edir. Ancaq elə hallar var ki, şəxsi maraqlar, yaxud da partiya maraqları, korporativ

maraqlar ön plana çıxır. Buna, əlbəttə ki, yol vermək olmaz. Xüsusilə gənc müstəqil dövlətlərdə vətənpərvərlik hissləri daha da güclü olmalıdır və daim mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirirəm.

Bir daha demək istəyirəm ki, bu sadəcə olaraq, bir şüar, bir söz deyil, bu zərurətdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda böyüməlidir, tərbiyə almalıdır və jurnalistikanın bu sahədə çox böyük rolu vardır.

Çünki biz cəmi 22 ilə yaxındır ki, müstəqil dövlətdə yaşayırıq, azad xalq kimi yaşayırıq. Bu bizim böyük xoşbəxtliyimizdir, böyük dəyərimizdir. Bu vəziyyəti cəmiyyətimiz təqdir etməlidir və qiymətləndirməlidir.

Ona görə jurnalistlərin vətənpərvərliyi çox böyük əhəmiyyətə malik olan bir məsələdir. Dövlətçilik prinsipləri üstünlük təşkil etməlidir. İlk növbədə, dövlət maraqları müdafiə edilməlidir. Dövlətə zərər vura biləcək hər hansı bir addıma yol verilməməlidir. Cəmiyyətdə mövcud olan problemlər ölkə daxilində həllini tapmalıdır. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. Bu gün də demək istəyirəm, hər bir ölkənin öz inkişaf dinamikası, öz problemləri, nailiyyətləri var, o cümlədən Azərbaycanın da. Bütün problemlər ölkə daxilində həllini tapmalıdır. Əgər biz müstəqil ölkə kimi, 22 il yaşayırıqsa, hesab edirəm ki, bütün məsələləri özümüz həll etməliyik.

Nəzərə alsaq ki, cəmiyyətdə ölkənin ümumi inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Ölkənin strateji xətti – istər xarici siyasətlə, yaxud da ki, iqtisadi islahatlar ilə bağlı fikir ayrılığı, demək olar ki, yoxdur. Belə olan halda, əlbəttə ki, daxili problemlər daxildə müzakirə edilməlidir. Çünki müstəqilliyin əsas üstünlüyü məhz bundan ibarətdir. Çünki taleyimiz öz əlimizdədir, Azərbaycan xalqının əlindədir, ölkəmiz Azərbaycan xalqının iradəsi ilə idarə olunur.

Ona görə vətənpərvərlik mövzuları hesab edirəm ki, bizim mətbuatda daha da geniş yer almalıdır. Müstəqilliklə bağlı olan mövzulara daha da geniş yer verməliyik. Müstəqilliyin üstünlükləri nədən ibarətdir. Düzdür, bu mövzularla bağlı vaxtaşırı yazılara,

materiallara rast gəlmək olar. Amma mən hesab etmirəm ki, bu kifayətdir. Çünki bu mövzu daim gündəlikdə olmalıdır. Müstəqilliyin üstünlükləri, müstəqilliyin əlamətləri və gələcək həyatımızla bağlı fikirlər, mülahizələr, fikir mübadiləsi çox vacibdir. Çünki bir daha demək istəyirəm ki, bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşamışlar. Ancaq bu arzulara çata bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq. Biz bunu qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq. Müstəqillik, dediyim kimi, sadəcə olaraq, dövlət atributu deyildir. Müstəqillik müstəqil həyatdır, müstəqil siyasətdir, dövlətin və milli maraqların qorunmasıdır.

Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin xarici mətbuatda işıqlandırılması ilə bağlı daha da böyük işlər görülməlidir. Əlbəttə, daxildə bu problem kifayət qədər işıqlandırılır. Ancaq əsas məqsəd odur ki, biz bu mövzunu xarici mətbuata çıxaraq.

Son illər dövlət və ictimai qurumlar tərəfindən bu istiqamətdə önəmli addımlar atılmışdır, qeyri-hökumət təşkilatları da bu sahədə fəaldır. Mətbuat işçiləri də artıq xarici mətbuat orqanlarına çıxırlar. Biz bu mövzunu daha da geniş şəkildə işıqlandırmalıyıq. Dövlət öz dəstəyini verməyə hazırdır. Hesab edirəm ki, biz müxtəlif layihələr, qrantlar əsasında bu istiqamətdə öz fəaliyyətimizi daha da geniş şəkildə aparmalıyıq.

Xocalı soyqırımı ilə bağlı olan məlumatların xarici mətbuata çatdırılması böyük əhəmiyyətə malikdir. Son bir neçə il ərzində bir neçə ölkə artıq Xocalı soyqırımını soyqırımı kimi tanıyıbdır. Nəyin hesabına?! Ona görə ki, həm dövlət, həm ictimai qurumlar, ümumiyyətlə, cəmiyyət bu mövzunu daim diqqətdə saxlayır və bu, dünyada reallıqları əks etdirir.

Danışmağa da sözümüz vardır. Çünki Azərbaycan qısa müddət ərzində istənilən sahədə böyük, bir çox hallarda analoqu olmayan inkişafa imza atmışdır. Bu inkişaf indi beynəlxalq qurumlar tərəfindən daha da çox tanınır. Yəni bunu inkar etmək olmaz. Bəzi

antiazərbaycan qüvvələri buna nə qədər çalışsalar da, bunu inkar etmək, bunu görməmək mümkün deyil. Biz Azərbaycan reallıqlarını dünya mətbuatına çıxarmalıyıq. Çünki siz jurnalistlər yaxşı bilirsiniz ki, çox aqressiv erməni lobbisi onların gücü olan ölkələrdə bizə qarşı təşkil edilmiş fəaliyyət aparır. Nə üçün?! Bir məqsədlə ki, sübut etsinlər və belə bir fikir yaratsınlar ki, ermənilər Azərbaycanın tərkibində yaşaya bilmirlər və bilməyəcəklər. Ona görə Azərbaycan haqqında iftiralar, uydurmalar, həqiqəti əks etdirməyən məlumatlar vaxtaşırı xarici mətbuata ötürülür. Onlar öz şəbəkələri hesabına buna nail olurlar.

Ona görə də çalışmalıyıq ki, Azərbaycan reallıqlarını dolğun şəkildə xarici mətbuata çatdıraq. Bu gün bizim əlimizdə internet kimi universal bir vasitə vardır. Bundan daha geniş şəkildə istifadə etməliyik. Çünki Azərbaycanın reallıqları dünya birliyinin diqqətinə çatdırılmalıdır, istər ictimai sahədə, milli, dini dözümlülük sahəsində, istərsə də iqtisadi və xarici siyasət sahəsində. Əlbəttə ki, ölkədə həllini gözləyən problemlər, çatışmayan məsələlər vardır. Biz bunu bilirik və jurnalistlər də bu problemlərin aşkarlanmasında hökumətə dəstək olurlar. Ancaq bununla bərabər, nailiyyətlər də kifayət qədər çoxdur.

Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan qısa müddət ərzində müstəqil dövlət kimi formalaşdı, gücləndi. Bu gün güclü potensiala malikdir, öz taleyini özü həll edir. Beynəlxalq aləmdə böyük nüfuza malikdir. Dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasının üzvüdür. İqtisadi və sosial məsələlərin həllində bir çox ölkələr üçün nümunə ola bilər. İnkişaf etmiş ölkələrin meyarlarının bir çoxu artıq Azərbaycanda tətbiq edilibdir, xüsusilə iqtisadi sahədə. Yəni deməyə sözümüz çoxdur. Sadəcə olaraq, biz bu işləri daha çox əlaqəli şəkildə aparmalıyıq. Yenə də qayıdıram əvvəlki mövzuya, vətənpərvərlik, dövlətçilik duyğuları bütün başqa məsələlərdən üstün olmalıdır.

Ölkə daxilində təbii ki, müxtəlif baxışlar, müxtəlif siyasi meyillər vardır. Burada müzakirələr təbiidir. Hər bir normal cəmiyyətdə bu olmalıdır. Ancaq biz dövlət maraqlarımızı şəxsi ambisiyalara qurban verməməliyik. Çünki müstəqillik ən böyük

sərvətdir, ən böyük dəyərdir. Biz bundan sonra da müstəqilliyi qorumalıyıq. Bundan sonra da çalışmalıyıq ki, müstəqillik, dövlətçilik, azadlıq prinsipləri Azərbaycanda tam şəkildə təmin edilsin. Çünki bəzi hallarda biz görürük ki, hələ də qul psixologiyası ilə yaşayanlar vardır. Hələ də əfsuslar olsun ki, xaricdə özünə dayaq axtaranlar vardır. Xaricdə deyəndə mənim üçün fərq etmir o xaric hansı qütbdə, hansı istiqamətdə yerləşir. Azərbaycanın problemləri Azərbaycan daxilində öz həllini tapmalıdır. Xaricdən dəstək almaq hesab etmirəm ki, müstəqilliyin əlaməti ola bilər. Xüsusilə indiki dünyada. Biz görürük ki, müxtəlif yerlərdə proseslər çox mənfi istiqamətdə gedir – qarşıdurmalar, böhran, kütləvi etirazlar.

Yəni bizim maraqlarımızı bizdən çox güdən ola bilərmi? Əlbəttə ki, yox. Ona görə hesab edirəm ki, biz gələcəkdə bu məsələlər ətrafında daha da ciddi fikirləşməliyik. Dövlət isə öz tərəfindən jurnalistlərin fəaliyyətinə dəstəyini əsirgəməyəcək, Azərbaycanda azad mətbuatın davam etməsinə öz səylərini göstərəcəkdir. Beləliklə, bu sahə Azərbaycanda ən yüksək zirvələrə çatacaqdır.

Əziz dostlar, mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Burada yaşayacaq jurnalistlərin sayı 150-dən çoxdur. Ancaq dövlət tərəfindən mükafata layiq olan jurnalistlər hələ də vardır. Bunu nəzərə alaraq, yenə jurnalist ictimaiyyətindən təşəbbüs, yəni təklif irəli sürüldü ki, bu layihə davam etdirilsin. Mən də buna müsbət baxıram. Bu evdə mənzil ala bilməyən, ancaq buna layiq olan jurnalistlərin mənzillərlə təmin edilməsi üçün əlavə tədbirlər görüləcək. İstisna etmirəm ki, gələcəkdə bu yerə «Jurnalistlər şəhərciyi» deyəcəklər. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev binanın istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi. Dövlətimizin başçısı binada ev verilmiş bir neçə jurnalistin mənzilində oldu. Bildirildi ki, mənzillərin hamısı müasir tələblər səviyyəsində təmir edilib. Binada*

84 ikiotaqlı, 68 üçotaqlı, 4 dördotaqlı mənzil vardır. Ən kiçik mənzilin sahəsi 65, ən böyüyünün isə 120 kvadratmetrdir.

Sonra prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək növbəti binanın təməlqoyma mərasimində iştirak etdi. Bu bina 17 mərtəbəli və 3 bloklu olacaqdır. Burada 1, 2, 3 və 4 otaqlı mənzillər istifadəyə veriləcəkdir. Bina bütün zəruri infrastrukturla təmin ediləcəkdir.

Qeyd edək ki, müstəqillik illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə milli mətbuatın, Azərbaycan jurnalistikasının beynəlxalq standartlara uyğun inkişafına başlanıldı. Jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanıldı. 2003-cü ildən bəri bu proses yeni inkişaf mərhələsinə qədəm qoydu.

Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası əsasında silsilə və kompleks tədbirlər həyata keçirildi. 2010-cu ildə ölkə jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində daha bir mühüm tədbir reallaşdırıldı. Mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna ilkin olaraq 5 milyon manat vəsait ayrıldı. Ötən müddətdə həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olundu və bütün mənzillər yüksək səviyyədə təmir edildi. Ümumilikdə isə binanın tikintisinə və ətraf ərazidə abadlıq işlərinin aparılmasına 22 milyon manatdan artıq vəsait sərf olunub.

## «ÇIRAQ» NEFT LAYİHƏSİNİN BİR HİSSƏSİ OLAN «QƏRBİ ÇIRAQ» PLATFORMASININ TAMAMLANMIŞ ÜST MODULLARINDA APARILAN İŞLƏRLƏ TANIŞLIQ

*Bibiheybət qəsəbəsi*

*23 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Bibiheybət qəsəbəsindəki tikinti-quraşdırma sahəsində «Çıraq» neft layihəsinin bir hissəsi kimi inşa edilmiş «Qərbi Çıraq» platformasının tamamlanmış üst modullarında aparılan işlərlə tanış olmuşdur.*

Dövlət başçısına məlumat verən Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və bp şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell bildirdilər ki, 2010-cu ilin martında «Çıraq» neft layihəsi üzrə 6 milyard dollar dəyərində işlənmə planına başlanılması ilə yeni, böyük investisiya layihəsinin ölkəmizin neft tarixinə daxil olmasına yol açıldı. «Qərbi Çıraq» adlanan bu layihə «Azəri–Çıraq–Günəşli» yataqlar blokunda neft hasilatını sabitləşdirməyə və layların neft verimini maksimuma çatdırmağa yardım edəcəkdir. Layihənin ümumi dəyərinin təxminən 4 milyard dolları qurğuların tikintisini və qabaqlayıcı qazma proqramını əhatə edir. Məbləğin qalan hissəsi isə hasilat müddəti ərzində platformadan hasilat quyularının qazılmasına sərf olunacaqdır. Azərbaycanın neft tarixində mühüm əhəmiyyətə malik olan bu qurğunun hazırlanması yerli mütəxəssislər tərəfindən həyata keçirilmiş və görülən işlər artıq ölkəmizdə neft sənayesinin inkişafının sürətlə davam etdiyini göstərir.

Qeyd edildi ki, «Qərbi Çıraq» bp şirkətinin «Azəri–Çıraq–Günəşli» operatoru qismində inşa və istismar etdiyi dünya səviyyəli 8-ci dəniz platformasıdır. Platformanın layihə gücü

*gündəlik 25 min ton neft və 6,5 milyon kubmetr qaz təşkil edir. Lakin platforma gündəlik 8 milyon kubmetr qaz ixrac edə bilər. Onun gün ərzində təqribən 2,3 milyon kubmetr qazlift təmin etmək gücü vardır.*

*Dövlətimizin başçısı «Qərbi Çıraq» platformasının tikintisi və onun dayaq modullarının dənizdə quraşdırılıb bəhs edən filmə baxdı.*

*Diqqətə çatdırıldı ki, «Qərbi Çıraq» platforması üçün dayaq bloku artıq bu ilin aprelində dənizdə quraşdırılıb. Xəzər regionunda indiyədək inşa edilmiş ən ağır «Qərbi Çıraq» dayaq blokunun ümumi çəkisi 18 min 200 ton, hündürlüyü 185 metrdir.*

*Sonra prezident İlham Əliyev «Qərbi Çıraq» platformasının alt və üst göyərtələrini gəzərək qazma modullarına, elektrik generatorlarına və digər bölmələrə baxdı.*

*Bildirildi ki, platformanın üst modullarının tikintisinə 2010-cu ilin iyulunda başlanılmışdır. Hazırda isə qurğu tam hazırdır və dənizə yola salınmazdan əvvəl son istismar sınaqları aparılır. Platforma 18 min 500 ton çəkiyə malik olmaqla, indiyədək Xəzər dənizinə buraxılmış ən ağır konstruksiya olacaqdır.*

*Dövlətimizin başçısı platformanın tikintisində çalışan mütəxəssislərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Ötən əsrin 90-cı illərinin ortalarından bu günə qədər Azərbaycan mütəxəssislərinin sayı getdikcə artır. Bu çox vacib məsələdir. Bizim istəyimiz də bundan ibarət idi ki, bu işlərdə maksimum Azərbaycan vətəndaşları iştirak etsinlər. Artıq belə nəhəng, dünya miqyaslı qurğuları biz 100 faiz Azərbaycanda tikirik. Bu, Azərbaycanın gücünü, mütəxəssislərin təcrübəsini göstərir. Gələcəkdə bu cür işlər hələ çox olacaq. Çünki Azərbaycanın neft-qaz sektoru inkişafdadır. Mühüm işlər görülür, amma gələcəkdə hələ çox iş görülməlidir, bir neçə platforma tikilməlidir. «Şahdəniz-2» layihəsi icra ediləcəkdir.

Çox şadam ki, artıq bütün işlər Azərbaycanda aparılır. Bu işlərin əsas hissəsini görən Azərbaycan vətəndaşlarıdır. Bu hadisə münasibətilə sizi təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

**M ü t ə x ə s s i s:** Çox sağ olun, cənab Prezident! Dəstəyinizə görə Sizə təşəkkür edirik. Azərbaycanın gələcəyi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

* * *

*Məlumat verildi ki, «Qərbi Çıraq» platforması «STB-1» daşıma barjından istifadə etməklə, sürüşdürmə metodu ilə vahid bir qurğu kimi quraşdırılacaq. Barjın özü modernləşdirilərək bu nəhəng yükü daşıya biləcək vəziyyətə gətirilib. Bu yük «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunda quraşdırma işləri çərçivəsində bundan əvvəl ən ağır göyərtəyə malik «Şərqi Azəri» üst modullarının çəkisindən təxminən 2 min 500 ton artıqdır. Üst modulların dənizə yola salınması əlverişli hava şəraitindən asılı olaraq 2013-cü ilin avqustunda planlaşdırılır. Platformada hasilat işlərinə bu ilin dekabrında başlanacağı gözlənilir. Bu platforma «Şərqi Azəri» platformasının layihəsi əsasında hazırlansa da, ona əlavə olaraq elektriklə işləyən qaz ixracı kompressoru, qaz turbini ilə çalışan əsas elektrik generatorları daxil edilib. Tikinti işləri texniki təhlükəsizlik üzrə ən yüksək standartlara tam uyğun şəkildə aparılmış və ötən müddətdə hər hansı qəza ucbatından itirilmiş iş günü qeydə alınmamışdır. Platformaya Xəzər dənizində ilk dəfə istifadə olunacaq müasir texnologiyalar və əlavə avadanlıq da daxil edilib. Atqı əleyhinə preventor, qumun xaric edilməsi və təmizlənməsi, səviyyəölçən cihaz və qoşa porşen effektli kürəli siyirtmələr kimi texnologiyalar qarşıya qoyulan hədəflərə daha səmərəli surətdə nail olmağa imkan yaradacaqdır.*

*Bildirildi ki, quraşdırma işlərinin aparıldığı 3 il ərzində yerli ehtiyatlardan istifadənin maksimuma çatdırılması başlıca prioritet olub. Subpodratçılar və ixtisaslaşmış təchizatçılar da daxil olmaqla tikinti-quraşdırma işlərinə təxminən 4 min nəfər cəlb olunmuşdur ki, bunun da 90 faizə qədərini yerli işçilər təşkil etmişdir.*

*Prezident İlham Əliyev platformada 175 nəfər üçün layihələndirilmiş yaşayış blokuna və mərkəzi nəzarət otağına baxdı.*

*Qeyd edildi ki, platformada iş prosesinə vahid nəzarətin həyata keçirildiyi bu blokda işçilərin və mütəxəssislərin yaşayıb işləməsi üçün hər cür şərait yaradılıb.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Kembric Hersoq və Hersoginyasının ailəsində nəticənizin dünyaya gəlişi münasibətilə Sizi səmimi–qəlbdən təbrik edirəm.

Bu xoş dəqiqələrdə sevincinizə qoşulur, Sizə, yeni doğulmuş Kembric Şahzadəsinə, ailənizin bütün üzvlərinə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2013-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Qansu vilayətində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların sağalmasını, dağıntıların nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2013-cü il*

# QEYDLƏR

**1. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 6–19, 86, 171.

**2. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını gös-

tərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 10, 11, 19, 34, 74, 78, 86, 87, 91, 98, 99, 106, 158, 171, 184, 133, 206, 201, 208, 209, 217, 218, 240, 241, 259, 260, 261, 267, 300, 302, 304, 307, 308, 310.

**3. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 10, 86, 243.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 14, 15, 17, 21–22, 34, 40, 93, 94, 123, 132, 134, 135, 142, 143, 165, 166, 168, 170, 176, 269, 270, 333, 344.

**5. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazar-

larına nəqlini nəzərdə tutur. – 18, 26, 67, 68, 136, 140, 144, 286, 298.

**6. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 20, 45, 66, 120, 275, 348.

**7. Süleyman Dəmirəl** (1924–2015) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. 7 dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının Prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

Süleyman Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 20.

**8. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin

irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 20, 71, 72, 73, 104, 106, 131, 151, 164, 307.

**9. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 21–30, 31–32, 34, 71, 75, 176, 204, 225.

**10. Səməd Seyidov,** S ə m ə d İ s m a y ı l o ğ l u (d.1964) – psixologiya elmləri doktoru, professor. 2000–2015-ci illərdə

Azərbaycan Dövlət Dillər Universitetinin rektoru olmuşdur. 2010-cu ildən Milli Məclisin deputatıdır.

Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri və Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir. – 21–22.

**11. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 25, 333, 344.

**12. Məhsəti Gəncəvi** (1089-1160) – XII əsr Azərbaycan şairəsi. Məhsəti Gəncəvi əsasən rübai janrında yazmışdır. Rübailəri dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilir. – 46.

**13. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 34,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 52, 268.

**14. Həmid Kərzai** (d.1957) – 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri, 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 52, 268.

**15. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 57, 60, 61, 71, 83, 163, 352.

**16. Portuqaliya,** P o r t u q a l i y a R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 58.

**17. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliyanın siyasi xadimi. 2006–2016-cı illərdə Portuqaliya Respublikasının Prezidenti, 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 58.

**18. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 59, 78, 104, 105, 107, 204,227, 273.

**19. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 60, 71.

**20. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 69, 322, 341.

**21. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından

ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 71, 75, 176.

**22. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 78.

**23. Lüksemburq,** Böyük Lüksemburq Hersoqluğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 576 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 81.

**24. Anri** (d.1955) **–** 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə Böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 81.

**25. Filippin,** Filippin Respublikası – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Manila şəhəridir. – 82.

**26. III Beniqno Akino** (d.1960) – siyasətçi. 2010–2016-cı illərdə Filippin Respublikasının Prezidenti olmuşdur. – 82.

**27. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 83, 352.

**28. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 84.

**29. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 85–101, 217–218, 252–253, 301–302, 325.

**30. Milli İncəsənət Muzeyi** – Bakıda fəaliyyət göstərən muzey. Muzeydə əsasən avanqard azərbaycanlı rəssam və heykəltəraşların, o cümlədən Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun əsərləri toplanmışdır. – 104–107.

**31. Fuad Əbdürrəhmanov,** Fuad Həsən oğlu (1915–1971) – Azərbaycan heykəltəraşı, Azərbaycan Respublikasının Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir

üzvü, 2 dəfə SSRİ Dövlət mükafatı laureatı. O, mahir portret ustası kimi tanınmışdır. Yaradıcılığında monumental heykəltəraşlıq mühüm yer tutmuşdur. Nizaminin Gəncədəki və Bakıdakı abidələri, Bakıda Səməd Vurğunun abidəsi və s. əsərləri Azərbaycan monumental heykəltəraşlığının ən yaxşı nümunələrindəndir. – 105.

**32. Tokay Məmmədov,** T o k a y H ə b i b o ğ l u (d.1927) – Azərbaycan heykəltəraşı. Azərbaycanın Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, professor. Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin sədri (1970–72) olmuşdur. Heykəltəraşlığın müxtəlif janrlarında – monumental abidə, portret, büst, qorelyef və s. əsərlər yaradır. Monumental heykəltəraşlıq Tokay Məmmədovun yaradıcılığında mühüm yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 105.

**33. Sobsay Pinxos Vladimiroviç** (1893–1980) – Azərbaycan heykəltəraşı. SSRİ Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı. 1926-cı ildən Bakıda yaşayıb yaratmışdır. M.F.Axundovun Bakıda qoyulmuş abidəsi Sabsayın ilk monumental abidəsidir. O, əsasən büst-portretlər («Neftçi Babayev», yazıçı Süleyman Rəhimov və A.S.Puşkinin portretləri) ustası kimi tanınmışdır. Onun əsərləri üçün obrazın psixoloji ifadəliliyi, plastik forma dəqiqliyi və aydınlığı səciyyəvidir. – 105.

**34. Mirələsgər Mirqasımov,** M i r ə l ə s g ə r M i r ə s ə d u l l a o ğ l u (1924-2003) – Azərbaycan heykəltəraşı. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. Bir çox monumental əsərlərin (M.Ə.Sabirin büstü, C.Cabbarlının, N.Nərimanovun abidələri) müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 105.

**35. Səttar Bəhlulzadə,** Səttar Bəhlul oğlu (1909–1974) – görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı. Bəhlulzadə yaradıcılığa «Kommunist» qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlamışdır. Onun əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı güşələri onun lirik mənzərələrində real əksini tapmışdır. Bəhlulzadənin mənzərələrində poetik əhvali-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 106.

**36. Toğrul Nərimanbəyov,** Toğrul Fərman oğlu (1930–2013) – Azərbaycan və SSRİ Xalq rəssamı. Məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahəsində fəaliyyət göstərir. Yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur. «Qobustan kölgələri» (F.Qarayev), «Yeddi gözəl» (Q.Qarayev), «Min bir gecə» (F.Əmirov) baletlərinə verdiyi bədii tərtibat Azərbaycan teatr rəssamlığının qiymətli nümunələrindəndir. Azərbaycan və SSRİ Dövlət mükafatı laureatıdır. – 106.

**37. Tahir Salahov,** Tahir Teymur oğlu (d.1928) – görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSRİ Xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur.

Tahir Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 106.

**38. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 120, 275.

**39. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 120, 122, 275.

**40. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 82 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 126.

**41. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 126.

**42. Herman Van Rompuy** (d.1947) – Belçika siyasətçisi. 2008–2009-cu illərdə Belçikanın Baş naziri, 2009–2014-cü illərdə Avropa Şurasının sədri olmuşdur. – 132, 133–137.

**43. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 138, 139–149.

**44. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 166.

**45. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan turklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdır. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14.354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal

ermənniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 166.

**46. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 166.

**47. Mübariz İbrahimov,** Mübariz Ağakərim oğlu (1988–2010) – Milli Qəhrəman. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin giziri Mübariz İbrahimov Tərtər bölgəsində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. – 172.

**48. Fərid Əhmədov,** Fərid Güloğlan oğlu (1986–2010) – baş leytenant. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanması uğrunda xidməti vəzifəsini yerinə yetirərək qəhrəmancasına həlak olmuşdur. Ölümündən sonra «İgidliyə görə» medalı ilə təltif edilmişdir. – 172.

**49. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 182, 330.

**50. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 182.

**51. Tamara Sinyavskaya** (d.1943) – məşhur rus müğənnisi. Moskva Böyük Teatrının solisti. Azərbaycan və SSRİ Xalq artisti. – 224.

**52. Səməd Vurğun,** S ə m ə d  Y u s i f  o ğ l u  V ə k i - l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, 2 dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 260.

**53. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 353.

**54. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin

Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXP Mərkəzi Hərbi Şurasının Sədridir. – 353.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 71, 348
**Abutalıbov Hacıbala** – 149
**III Akino Beniqno** – 82
**II Albert** – 274
**Aman Anifah** – 119
**Amr Mohamed** – 118
**Anri** *(Lüksemburq hersoqu)* – 81
**Babayev Nəriman** – 316–318
**Bağırov Ağaşirin** – 328–239
**Barrozu Joze** – 138, 139–149
**Bəhlulzadə Səttar** – 106
**Birrell Qordon** – 348
**Bokova İrina** – 42, 44–46, 50
**Brayndştayn Cim** – 21
**Camalov Mərdan** – 184
**Cəfərov Qalib** – 259–260
**Çambliss Saksbi** – 34
**Davudoğlu Əhməd** – 120, 275
**Daraxvekidze David** – 111–112
**De Moran Pedro** – 117
**Dəmirəl Süleyman** – 20
**Dəmirova Aybəniz** – 235–236
**Dini Lamberto** – 53
**Eldarov Ömər** – 105
**Elbeqdorj Saxiaqiyn** – 180

**II Elizabet** – 83, 352
**Əbdülrəhmanov Fuad** – 105
**Əbdülrəhmanov Nadir** – 106
**Əbiyev Səfər** – 157, 164
**Əhmədov Fərid** – 172
**Əhmədzadə Əhməd** – 300, 322
**Əl-Nasser Nassir** – 42–44, 49
**Əl-Tani Təmim** – 177
**Əl-Tüveycri Əbdüləziz** – 46–48, 50
**Əl-Zəyani Əbdül Lətif** – 116
**Əliyev Baba** – 106
**Əliyev Heydər** – 6, 10, 11, 19, 34, 74, 78, 86, 87, 91, 98, 99, 106, 158, 171, 184, 133, 206, 201, 208, 209, 217, 218, 240, 241, 259, 260, 261, 267, 300, 302, 304, 307, 308, 310
**Əliyeva Mehriban** – 20, 71, 72, 73, 104, 106, 131, 151, 164, 307
**Ərdoğan Rəcəb Tayyib** – 120, 122, 275
**Ərbil Həsən** – 122
**Əsgərov Ayaz** – 240
**Farkas Evelin** – 204
**Filipp** *(Belçika kralı)* – 338
**Frattini Franko** – 181
**Genşer Hans-Ditrix** – 84
**Gəncəvi Məhsəti** – 46
**Gül Abdullah** – 120, 275
**Hacıyev Rəhman** – 147
**Hadid Zaha** – 43
**Hendri Çarlz** – 60, 71
**Hoksteyn Amos** – 75
**Holgi Maria** – 270
**Həmid Abdul** – 110
**Hinoyosa Ruben** – 21

**Hüseynov Qorxmaz** – 195
**Hüseynov Tofiq** – 193–195
**Xanbabayev Şəmsəddin** – 310
**İbrahimov Mübariz** – 172
**İhsanoğlu Ekmələddin** – 121
**İvanişvili Bidzina** – 111, 112
**XVI Karl Qustav** – 33
**Kemeron Devid** – 60, 71
**Kərzai Həmid** – 52, 268
**Klyuyev Andrey** – 77
**Kojara Leonid** – 269
**Qarayev Əbülfəs** – 104
**Qaryağdı Cəlal** – 105
**Qasımov Arif** – 300
**Qrex Cozef** – 117
**Qrişəm Mişel** – 21
**Quliyev Məhərrəm** – 255
**Quluzadə Xaqani** – 248, 249
**Lans Leonard** – 21
**Laqumçiya Zlatko** – 108
**Lefort Filip** – 123
**Leko İosip** – 226
**Lombardi Filippo** – 205
**Luqar Riçard** – 21, 31, 32
**Lukaşenko Aleksandr** – 109, 178
**Mahmud Abbas** – 114, 115
**Makey Vladimir** – 109
**Malki Riad** – 114
**Mehdiyev Ramiz** – 149
**Mesiç Stepan** – 54
**VI Məhəmməd** – 113
**Məmmədov Tokay** – 105
**Minyon Jan-Klod** – 5
**Moni Dipu** – 110
**Morrison Endryu** – 163

**Morninqstar Riçard** – 21, 71, 75
**Mukherci Pranab** – 150
**Mursi Məhəmməd** – 118
**Mustafayev Şahin** – 72, 318
**Nərimanbəyov Toğrul** – 106
**Nəzmiyə xanım** – 20
**Novruzov Novruz** – 321
**Obama Barak** – 71, 75, 176
**Olland Fransua** – 182
**Pahor Borut** – 79
**Pan Gi Mun** – 42
**Patanq Qulam** – 268
**Pinçer Kristofer** – 57
**Pırvanov Georgi** – 55
**Po Ted** – 21
**Ponta Viktor** – 179
**Puşkov Aleksey** – 59
**Putin Vladimir** – 78, 227, 273
**Rasizadə Artur** – 149
**Rassul Zalmai** – 52
**Ruhani Həsən** – 126
**Sadıqzadə Oktay** – 106
**Salahov Tahir** – 106
**Seçin İqor** – 227
**Seyidov Səməd** – 21–22
**Seyidova Ramilə** – 307
**Səfərova Xalidə** – 106
**Səməd Vurğun** – 260
**Si Cinpin** – 353
**Silva Anibal** – 58
**Sinyavskaya Tamara** – 224
**Sobsay** – 105
**Stokmən Stiv** – 21
**Tadiç Boris** – 56
**Tağıyev Tağı** – 106

**Toufiq Əhməd** – 113
**Uiker Rocer** – 225
**Uolfovitz Pol** – 21
**Usubov Ramil** – 206
**Vahid Məhəmməd** – 337
**Van Rompuy Herman** – 132, 133–137
**Vazed Hasina** – 110
**Voronin Vladimir** – 76
**Vuyanoviç Filip** – 183
**Vud Endryu** – 62
**Yosipoviç İvo** – 80
**Yusifov Məmməd** – 249–250
**Yusifzadə Xoşbəxt** – 71
**Zeynalov Tofiq** – 228

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*yarımada)* – 196
**Ağstafa** – 238, 255–267
**Afina** – 199
**Almaniya** – 84
**Amerika Birləşmiş Ştatları** – 21–30, 31–32, 34, 71, 75, 176, 204, 225
**Araz çayı** – 256
**Aşağı Göyçəli** – 265
**Aşağı Kəsəmən** – 265
**Atlanta** – 199
**Avrasiya** – 204
**Avropa** – 26, 64, 140, 141, 144, 146, 147, 263, 264, 314
**Banqladeş** – 110
**Batabat** *(göl)* – 256
**Belarus** – 109, 178
**Belçika** – 131–149, 274, 338
**Bibiheybət** – 348
**Binəqədi** – 217–218, 219–220, 221–223
**Birləşmiş Ərəb Əmirlikləri** – 66
**Bolqarıstan** – 55
**Bosniya və Herseqovina** – 108
**Böyük Britaniya** – 57, 60, 61, 71, 83, 163, 352
**Brüssel** – 131–149
**Cənubi Qafqaz** – 72, 134
**Çin** – 353
**Dağlıq Qarabağ** – 14, 15, 17, 21–22, 34, 40, 93, 94, 123, 132, 134, 135, 142, 143, 165, 166, 168, 170, 176,

269, 270, 333, 344

**Əfqanıstan** – 52, 268
**Gədəbəy** – 238
**Gəncə** – 106, 192, 296
**Göygöl** – 256
**Gürcüstan** – 66, 111–112
**Fələstin** – 114
**Filippin** – 82
**Fransa** – 182, 330
**Hacıqabul** – 238
**Haiti** – 45
**Hindistan** – 45, 150
**Xankəndi** – 171
**Xaçmaz** – 310–320
**Xəzər dənizi** – 256, 350
**Xınıslı** – 105
**Xocalı** – 25, 333, 344
**Xorvatiya** – 54, 80, 226
**İran** – 126
**İsveç** – 33
**İsveçrə** – 66, 205
**İtaliya** – 53
**Kolumbiya** – 270
**Kür çayı** – 256
**Kürdəmir** – 238
**Qafqaz** – 282
**Qazax** – 238, 240–255
**Qərbi Avropa** – 104, 105, 106, 107
**Qətər** – 43, 177
**Qırğızıstan** – 45
**Qobustan** – 106
**Laçın** – 105
**London** – 199
**Lüksemburq** – 81

**Macarıstan** – 262
**Malayziya** – 119
**Maldiv** – 337
**Mərakeş** – 113
**Misir** – 118
**Mingəçevir** – 106, 192, 296
**Moldova** – 76
**Monqolustan** – 80
**Monteneqro** – 183
**Moskva** – 311
**Naxçıvan Muxtar Respublikası**– 10, 86, 243
**Orta Asiya** – 282
**Özbəkistan** – 45
**Pakistan** – 45
**Podolsk** – 273
**Polşa** – 200
**Portuqaliya** – 58
**Rumıniya** – 66, 179
**Rusiya** – 59, 78, 104, 105, 107, 204, 227, 273
**Saatlı** – 238
**Sabirabad** – 238
**Serbiya** – 56
**Sidney** – 199
**Siyəzən** – 300–309
**Sloveniya** – 79, 262
**Sumqayıt** – 192, 296
**Şabran** – 238, 321–331
**Şamaxı** – 106
**Şəki** – 106
**Şəmkir** – 238
**Şirvan** – 184– 203
**Şuşa** – 171
**Tiflis** – 6
**Tovuz** – 228–239

**Türkiyə** – 20, 45, 66, 120, 275, 348
**Ukrayna** – 77, 204
**Vatikan** – 334
**Yaxın Şərq** – 72

# MÜNDƏRİCAT

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ JAN-KLOD MİNYONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2013-cü il.......................................................................................5*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2013-cü il.......................................................................................6*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*27 may 2013-cü il .......................................................................................8*

TÜRKİYƏ RESPUBLİKASININ 9-cu PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

*28 may 2013-cü il.....................................................................................20*

AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN YARANMASININ 21-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR TƏŞKİL EDİLMİŞ «GƏLƏCƏYƏ BAXIŞ» AZƏRBAYCAN–ABŞ FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*29 may 2013-cü il.....................................................................................21*

BİR QRUP ABŞ KONQRESMENİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ İŞÇİ LANÇINDA İŞTİRAK

*29 may 2013-cü il.....................................................................................31*

ABŞ SENATORU RİÇARD LUQAR İLƏ GÖRÜŞ

*29 may 2013-cü il*..........................................................................................*32*
İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*30 may 2013-cü il*..........................................................................................*33*

ABŞ SENATININ KƏŞFİYYAT ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SƏDR MÜAVİNİ, SENATOR SAKSBİ ÇAMBLİSSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 may 2013-cü il*..........................................................................................*34*

II ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA İŞTİRAK

*30 may 2013-cü il*..........................................................................................*35*

BMT BAŞ KATİBİNİN ALİ NÜMAYƏNDƏSİ NASSİR ƏBDÜLƏZİZ ƏL-NASSER İLƏ GÖRÜŞ

*30 may 2013-cü il*..........................................................................................*49*

YUNESKO-nun BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*30 may 2013-cü il*..........................................................................................*50*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*30 may 2013-cü il*..........................................................................................*51*

ƏFQANISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ZALMAİ RASSULUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 may 2013-cü il*..........................................................................................*52*

İTALİYA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ VƏ SABİQ XARİCİ İŞLƏR NAZİRİ LAMBERTO DİNİ İLƏ GÖRÜŞ

*31 may 2013-cü il*..........................................................................................*53*

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*31 may 2013-cü il*..........................................................................................*54*

BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*31 may 2013-cü il*..........................................................................................*55*

SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*31 may 2013-cü il*..........................................................................................*56*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN İCMALAR PALATASININ ÜZVÜ, BRİTANİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI QRUPUNUN SƏDRİ KRİSTOFER PİNÇERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 may 2013-cü il*..........................................................................................*57*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*3 iyun 2013-cü il*..........................................................................................*58*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ, AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ ALEKSEY PUŞKOV İLƏ GÖRÜŞ

*3 iyun 2013-cü il*..........................................................................................*59*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ, BAŞ NAZİRİN AZƏRBAYCAN, QAZAXISTAN VƏ TÜRKMƏNİSTAN ÖLKƏLƏRİNDƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyun 2013-cü il*..........................................................................................*60*

XX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*4 iyun 2013-cü il*.......................................................................................*61*

ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ SİYASƏTİ ÜZRƏ MÜŞAVİRİ AMOS HOKSTEYN İLƏ GÖRÜŞ

*4 iyun 2013-cü il*.......................................................................................*75*

MOLDOVA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VLADİMİR VORONİN İLƏ GÖRÜŞ

*5 iyun 2013-cü il*.......................................................................................*76*

UKRAYNA RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ ŞURASININ KATİBİ ANDREY KLYUYEV İLƏ GÖRÜŞ

*5 iyun 2013-cü il*.......................................................................................*77*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*6 iyun 2013-cü il*.......................................................................................*78*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*6 iyun 2013-cü il*.......................................................................................*79*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ

*6 iyun 2013-cü il*.......................................................................................*80*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*6 iyun 2013-cü il*.......................................................................................*81*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA

*6 iyun 2013-cü il..........................................................................................82*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ KRALİÇASI
ÜLYAHƏZRƏT II ELİZABETƏ

*6 iyun 2013-cü il..........................................................................................83*

ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ HANS-
DİTRİX GENŞER İLƏ GÖRÜŞ

*6 iyun 2013-cü il..........................................................................................84*

YENİ AZƏRBAYCAN PARTİYASININ V QURULTAYI VƏ
2013-cü İLDƏ KEÇİRİLƏCƏK PREZİDENT SEÇKİLƏRİNƏ
PARTİYANIN NAMİZƏDİNİN İRƏLİ SÜRÜLMƏSİ
MƏRASİMİNDƏ İŞTİRAK

*7 iyun 2013-cü il..........................................................................................85*

IV RUSİYA–AZƏRBAYCAN REGİONLARARASI
FORUMUNUN İŞTİRAKÇILARINA

*7 iyun 2013-cü il........................................................................................102*

MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN YENİ KORPUSUNUN
AÇILIŞI MƏRASİMİ

*7 iyun 2013-cü il........................................................................................104*

BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ
ZLATKO LAQUMÇİYA İLƏ GÖRÜŞ

*10 iyun 2013-cü il......................................................................................108*

BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
VLADİMİR MAKEY İLƏ GÖRÜŞ

*10 iyun 2013-cü il*..........................................................................................*109*

BANQLADEŞ XALQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DİPU MONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyun 2013-cü il*..........................................................................................*110*

GÜRCÜSTAN RESPUBLİKASININ İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRDƏN DAXİLİ KÖÇKÜNLƏR VƏ QAÇQINLAR ÜZRƏ NAZİRİ DAVİD DARAXVEKİDZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyun 2013-cü il*..........................................................................................*111*

MƏRAKEŞ KRALLIĞININ İSLAM İŞLƏRİ VƏ VƏQFLƏR NAZİRİ ƏHMƏD TOUFİQ İLƏ GÖRÜŞ

*10 iyun 2013-cü il*..........................................................................................*113*

FƏLƏSTİN DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİAD MALKİ İLƏ GÖRÜŞ

*10 iyun 2013-cü il*..........................................................................................*114*

KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ ƏBDÜL LƏTİF BİN RƏŞİD ƏL-ZƏYANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyun 2013-cü il*..........................................................................................*116*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ PEDRO AQRAMUNT FONT DE MORAN VƏ COZEF DEBONO QREX İLƏ GÖRÜŞ

*11 iyun 2013-cü il*..........................................................................................*117*

MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD KAMAL AMRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyun 2013-cü il*..........................................................................................*118*

MALAYZİYA RESPUBLİKASININ XARİCİ
İŞLƏR NAZİRİ ANİFAH AMAN İLƏ GÖRÜŞ

*11 iyun 2013-cü il*...........................................................................*119*

TÜRKİYƏ  RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*11 iyun 2013-cü il* ..........................................................................*120*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ
EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*11 iyun 2013-cü il* ..........................................................................*121*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ PROKURORU HƏSƏN
ƏRBİL İLƏ GÖRÜŞ

*12 iyun 2013-cü il* ..........................................................................*122*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*12 iyun 2013-cü il*...........................................................................*123*

AZƏRBAYCAN QADINLARININ IV QURULTAYINA

*13 iyun 2013-cü il*...........................................................................*124*

İRAN İSLAM RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİ-
DENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*16 iyun 2013-cü il*...........................................................................*126*

AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏ-
GÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERA-
SİYASININ IV QURULTAYININ İŞTİRAKÇILARINA

*18 iyun 2013-cü il*...........................................................................*127*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASINA
ÜZV ÖLKƏLƏRİN DİASPOR TƏŞKİLATLARI
RƏHBƏRLƏRİNİN I FORUMUNA

*20 iyun 2013-cü il*...........................................................................*129*

BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*20 iyun 2013-cü il*.........................................................................*131*
AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN
VAN ROMPUY İLƏ GÖRÜŞ

*21 iyun 2013-cü il*.........................................................................*132*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN
VAN ROMPUY İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*21 iyun 2013-cü il*.........................................................................*133*

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL
BARROZU İLƏ GÖRÜŞ

*21 iyun 2013-cü il*.........................................................................*138*

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL
BARROZU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA
BƏYANATLARLA ÇIXIŞLAR

*21 iyun 2013-cü il*.........................................................................*139*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*24 iyun 2013-cü il*.........................................................................*150*

«ALOV QÜLLƏLƏRİ» KOMPLEKSİNDƏKİ «FAİRMONT
BAKU» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*24 iyun 2013-cü il*.........................................................................*151*

SİLAHLI QÜVVƏLƏRİN BAŞ KLİNİK HOSPİTALININ 2-ci
MÜALİCƏ KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*25 iyun 2013-cü il*.........................................................................*157*

BÖYÜK BRİTANİYANIN MÜDAFİƏ NAZİRİNİN
PARLAMENTAR BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK

STRATEGİYASI ÜZRƏ BİRİNCİ MÜAVİNİ ENDRYU MORRİSON İLƏ GÖRÜŞ

*25 iyun 2013-cü il ......................................................................................163*

SİLAHLI QÜVVƏLƏRİN 95 İLLİYİ MÜNASİBƏTİLƏ BAKIDA TƏNTƏNƏLİ HƏRBİ PARADDA İŞTİRAK

*26 iyun 2013-cü il......................................................................................164*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*27 iyun 2013-cü il......................................................................................176*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*27 iyun 2013-cü il......................................................................................177*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*27 iyun 2013-cü il......................................................................................178*

RUMINİYA RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR PONTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2013-cü il......................................................................................179*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*28 iyun 2013-cü il......................................................................................180*

AVROPA XALQ PARTİYASININ XARİCİ ƏLAQƏLƏR ÜZRƏ EKSPERT QRUPUNUN HƏMSƏDRİ, İTALİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ FRANKO FRATTİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 iyun 2013-cü il......................................................................................181*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*1 iyul 2013-cü il..........................................................................................182*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*1 iyul 2013-cü il..........................................................................................183*

ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏR

*1 iyul 2013-cü il..........................................................................................184*

ŞİRVAN ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*1 iyul 2013-cü il ..........................................................................................189*

ABŞ MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ
AVRASİYA ÜZRƏ MÜŞAVİRİ EVELİN FARKASIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyul 2013-cü il..........................................................................................204*

İSVEÇRƏ KONFEDERASİYASI FEDERAL
PARLAMENTİNİN KANTONLAR ŞURASININ SƏDRİ
FİLİPPO LOMBARDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyul 2013-cü il..........................................................................................205*

AZƏRBAYCAN POLİSİNİN YARANMASININ
95 İLLİYİ MÜNASİBƏTİLƏ POLİS AKADEMİYASININ
HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyul 2013-cü il..........................................................................................206*

YENİ AZƏRBAYCAN PARTİYASI BİNƏQƏDİ RAYON
TƏŞKİLATININ İNZİBATİ BİNASININ AÇILIŞI
MƏRASİMİ

*3 iyul 2013-cü il..........................................................................................217*

BİNƏQƏDİ RAYONUNDA HEYDƏR ƏLİYEV PARKINDA YENİDƏNQURMADAN SONRAKI ŞƏRAİTLƏ TANIŞLIQ

*3 iyul 2013-cü il*...........................................................................................*219*

BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN İNZİBATİ BİNASINDA YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*3 iyul 2013-cü il*...........................................................................................*221*

AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ TAMARA SİNYAVSKAYAYA

*4 iyul 2013-cü il*...........................................................................................*224*

ABŞ SENATORU, SİLAHLI QÜVVƏLƏR ÜZRƏ KOMİTƏNİN ÜZVÜ ROCER UİKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyul 2013-cü il*...........................................................................................*225*

XORVATİYA RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ İOSİP LEKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyul 2013-cü il*...........................................................................................*226*

RUSİYANIN «ROSNEFT» ŞİRKƏTİNİN PREZİDENTİ İQOR SEÇİN İLƏ GÖRÜŞ

*5 iyul 2013-cü il*...........................................................................................*227*

TOVUZ RAYONUNA SƏFƏR

*5 iyul 2013-cü il*...........................................................................................*228*

TOVUZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*5 iyul 2013-cü il* ..........................................................................................*232*

QAZAX RAYONUNA SƏFƏR

*5 iyul 2013-cü il*............................................................................*240*

QAZAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*5 iyul 2013-cü il* ............................................................................*243*

AĞSTAFA RAYONUNA SƏFƏR

*5 iyul 2013-cü il*............................................................................*255*

ƏFQANISTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ
QULAM MUSTAFA PATANQ İLƏ GÖRÜŞ

*7 iyul 2013-cü il*............................................................................*268*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, UKRAYNANIN
XARİCİ İŞLƏR NAZİRİ LEONİD KOJARA İLƏ GÖRÜŞ

*8 iyul 2013-cü il*............................................................................*269*

KOLUMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
MARİA ANGELA HOLGİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 iyul 2013-cü il*............................................................................*270*

AZƏRBAYCAN JURNALİSTLƏRİNİN VI QURULTAYININ
İŞTİRAKÇILARINA

*10 iyul 2013-cü il* ..........................................................................*271*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ

*17 iyul 2013-cü il*..........................................................................*273*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*17 iyul 2013-cü il*..........................................................................*274*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*17 iyul 2013-cü il*..........................................................................*275*

NAZİRLƏR KABİNETİNİN 2013-cü İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*18 iyul 2013-cü il..........................................................................276*

YEKUN NİTQİ

*18 iyul 2013-cü il..........................................................................289*

SİYƏZƏN RAYONUNA SƏFƏR

*18 iyul 2013-cü il..........................................................................300*

SİYƏZƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*18 iyul 2013-cü il .........................................................................304*

XAÇMAZ RAYONUNA SƏFƏR

*19 iyul 2013-cü il..........................................................................310*

XAÇMAZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 iyul 2013-cü il .........................................................................314*

ŞABRAN RAYONUNA SƏFƏR

*19 iyul 2013-cü il .........................................................................321*

ŞABRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 iyul 2013-cü il .........................................................................326*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*20 iyul 2013-cü il*......................................................................*332*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD VAHİDƏ

*22 iyul 2013-cü il*......................................................................*337*

BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

*22 iyul 2013-cü il*......................................................................*338*

MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ JURNALİSTLƏR ÜÇÜN TİKİLMİŞ BİNANIN MƏNZİLLƏRİNİN PAYLANMASI MƏRASİMİNDƏ İŞTİRAK

*22 iyul 2013-cü il*......................................................................*339*

ÇIRAQ» NEFT LAYİHƏSİNİN BİR HİSSƏSİ OLAN «QƏRBİ ÇIRAQ» PLATFORMASININ TAMAMLANMIŞ ÜST MODULLARINDA APARILAN İŞLƏRLƏ TANIŞLIQ

*23 iyul 2013-cü il*......................................................................*348*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*24 iyul 2013-cü il*......................................................................*352*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SI CİNPİNƏ

*24 iyul 2013-cü il*......................................................................*353*

QEYDLƏR......................................................................*354*

*Şəxsi adlar göstəricisi*......................................................................*370*

*Coğrafi adlar göstəricisi*......................................................................*375*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000.

Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.